# KÜRDƏXANI

Bakı - 2008

*Kitabı hazırlayanlar:*

**Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə**
**Hacı Casim Əlisöhbət oğlu Muxtarov**

*Elmi məsləhətçilər:*

**Şair-publisist Kərbəlayi Ənvər Nəzərli**
**Akademik Hacı Vasim Məmmədəliyev**
**Professor Nisəxanım Ağayeva,**
**Mayor Abbasqulu Abbasquluyev**
**Doktor Aydın Əlizadə**

*Redaktoru:* **Hacı Arif Buzovnalı**

*Toplayıcılar:*

**Məşhədi Qasim Əlisöhbət oğlu Muxtarov**
**Nazim Nəcəf oğlu Quliyev**

**«KÜRDƏXANI», Bakı, «Qarabağ», 2008, 432 səh.**

***Kürdəxanı kəndi haqqında bu ilk ensiklopedik kitab Hacı Casim Əlisöhbət oğlu Muxtarovun təşəbbüsü və sponsorluğu ilə nəşr olunub.***

$$K\ \frac{4702060205-3}{Q-104-08}-2008$$

***© C.Ə.Muxtarov –2008***

## Allahın adı ilə

# BƏSİRƏT ƏHLİ GÖRÜR



30 ilə yaxındır ki, Kürdəxanı kəndi ilə sıx əlaqələrim var. Mən bu kənddə ilk dəfə Əli məddahı, Səlman və Əbazər simalı Dərviş Əlisöhbət İmanverdi oğlu ilə tanış olub onun evində qonaq olmuşam. Bu tanışlıq sonralar möhkəm dostluğa çevrildi. Dərviş Əlisöhbət mənə "din qardaşım" deyə müraciət edərdi. Biz tez-tez Əlisöhbət əminin bağına gedər, onu Buzovnaya dini məclislərə dəvət edərdik. Bu böyük şəxsiyyətin imanı, təqvası bizi məftun etmişdi. Əli məddahı, Əli aşiqi olan Əlisöhbətin bərəkətindəndir ki, bu gün həmin dostluq və mehribanlıq əlaqələri davam etməkdədir. Bu dostluq tellərini möhkəmlədən Hacı Casim Əlisöhbətin böyük oğludur. Qardaşları Məşhədi Qasim, Sarənc, Məşhədi Yusif də atalarının yolunu davam etdirir, islami ayinləri yerinə yetirirlər.

İslam peyğəmbəri (s.) belə buyurur: "İnsanın ölümü ilə bütün həyatı bitir. Ancaq üç şeyin savabı davam edir və onu yaşadır:

1. Daimi sədəqələr: məscid, bulaq, məktəb, körpü və s. tikmək kimi insanların faydalana biləcəyi şeylər.

2. Özgələrini faydalandıran xeyirli və yararlı elm (kitab yazmaq, dərs vermək və s.).

3. Ana və atasına dua edən, əməlisaleh və xeyirli bir övlad qoyub gedən kimsə".

Bu gözəl nəsihətləri, mənalı kəlamları bir daha Həzrət Əli (ə.) təsdiqləyir və özünün "Nəhcül-bəlağə" əsəri vasitəsi ilə bizə belə çatdırır: "İnsanın dünyadan əldə etdiyi şey ölənə qədər qalır. Ancaq başqalarına, fəqir-füqəraya etdiyi yaxşılığın əcrinə nail olur. Könüllər alan, könüllərdə anılar, bir məscid, bir kitabxana, bir xəstəxana tikənin adı unudulmaz. Uzun sözün qısası, özü üçün yaşayanın adı qalmaz, malı-mülkü özünə fayda verməz. Xalq üçün yaşayansa, ölsə də anılar, adısanı əbədi qalar".

Hacı Casim Əlisöhbət oğlunun xeyriyyəçi kimi çoxşaxəli fəaliyyəti təqdirəlayiqdir. O, gördüyü xeyriyyə işlərinə görə heç zaman özünü reklam etdirməmişdi. Allah bilir kifayətdir, bəsirət əhli də görür, qiymətləndirir. Bu gün Kürdəxanı haqda tərtib olunan bu kitabın da təşəbbüskarı və hamisi Hacı Casimdir. O, mənə belə bir kitabın yazılmasının vacibliyini bildirib, mənim ona köməkliyimi xahiş edəndə çox sevindim. Elinə, obasına, tarixinə, dininə bağlı insan həqiqətən də böyük insandır. Bu kitabın tərtibində, əlbəttə, müəyyən qüsurlar, nöqsanlar olacaqdır. Çünki bu, Kürdəxanı haqqında tərtib olunan ilk toplu, atılan ilk ad-

dım və görülən ilk təşəbbüsdür. Ümidvaram ki, bu kitab Kürdəxanı haqda yazılan gələcək əsərlər üçün ilk qaynağa çevriləcək və bu mənbədən oxucular istifadə edib faydalanacaqlar. Gələcək nəslin ziyalıları daha da sanballı əsərlər ortaya çıxaracaqlar.

Bu kitabın araya, ərsəyə gəlməsində bizə kömək edən Kürdəxanı kəndinin ağsaqqallarına, ağbirçəklərinə, cavanlarına öz təşəkkürümüzü bildiririk. Allah köməkləri olsun. Allah gələcək günlərimizi xeyirli etsin. Vətənimizin başı üstündən qara buludlar çəkilsin. Qarabağ azad olsun. Əsgərlərimiz qələbə çalsın. Müsəlmanlar müzəffər olsun. İslamın bayrağı göylərə ucalsın. İnşaallah.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***Qafqaz Müsəlmanları İdarəsinin qazisi,***
***Buzovna Dini İcmasının başçısı***
***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə***

T.Q.SƏLİMOV-ŞAĞANİ

# KÜRDƏXANI HƏQİQƏTLƏRİ

*Bu dəhrdə hər müşkülü asan qələm eylər,*
*Hər dərdin ola, dərdinə dərman qələm eylər.*
*Dadaş Yusif (Kürdəxanılı)*

Kürdəxanı inzibati cəhətdən Sabunçu rayonuna daxildir. 2008-ci il yanvarın 1-nə olan məlumata görə, qəsəbədə 7000-ə yaxın əhali qeydə alınmışdır. Ərazisi 27,3 kv.km-dir. Qəsəbədə N.Ağaverdiyev adına 113 saylı orta məktəb, 336 saylı uşaq bağçası, 33 saylı poliklinika, mədəniyyət evi, kitabxana, qəsəbə nümayəndəliyi və qəsəbə bələdiyyəsi, rabitə şöbəsi, 600 abonentlik ATS fəaliyyət göstərir. Bir vaxtlar Meyvə tingliyi sovxozu adlanan kənd təsərrüfat istiqamətli qurum da qəsəbə idarəçiliyinə verilmişdir.

Hazırda ərazidə bir sıra sosial-iqtisadi yönümlü obyektlərin inşası aparılmaqdadır. Bunlardan olimpiya idman mərkəzini, süd emalı zavodunu və s. qeyd etmək olar. Ümumiyyətlə, son illər Kürdəxanıda infrastrukturun inkişaf etdirilməsi, o cümlədən yolların abadlaşdırılması, enerji xidmətinin yaxşılaşdırılması, habelə kommunal və məişət sahələrinin genişləndirilməsi, keyfiyyətin yüksəldilməsi istiqamətində nəzərə çarpacaq addımlar atılmaqdadır.

Qəsəbə əhalisi əsasən dövlət idarə və müəssisələrində, özəl qurumlarda, xidmət sahələrində, həmçinin fərdi təsərrüfatlarda çalışır.

Kürdəxanı Abşeronun ən qədim kəndlərindən biridir. Bu həqiqəti həm bütövlükdə yarımadanın insan yaşayışı üçün olduqca əlverişli təbii-coğrafi mühitə malik olması səbəbindən Neolit dövründən üzü bəri əhali tərəfindən məskunlaşdırılması və bölgədə istər təbii, istərsə də tarixi şəraitin hər hansı təbəddülatından asılı olmayaraq yaşayışın arasıkəsilmədən davamiyyətli olması, həm də yerli əhalinin təsərrüfat-məişət, mədəniyyət, mənəvi dünya özəlliklərinin elmi surətdə sərf-nəzər edilməsi nəticəsində ənənəçiliyin tarixi köklərinin minilliklərin dərinliklərinə gedib çıxması faktları təsdiq etməkdədir. Məsələyə bu aspektdən yanaşılarsa, Kürdəxanıda yaşayışın iki min ildən bəri mövcud olduğunu deməyə əsas var. Bunu yerüstü aşkarlanan məişət səciyyəli müxtəlif gil-saxsı qab nümunələri, mis, tunc, dəmir materiallarından istehsal olunan təsərrüfat alətləri, aşınmaya məruz qalmasına baxmayaraq bu və ya digər dərəcədə formasını qoruyub saxlayan soyuq silah nümunələri, habelə orta əsrlər dövrünü əhatə edən, konkret desək, köhnə qəbiristanlıqdan aşkar edilən və düzəldilmə tarixi 900 il əvvələ gedib çıxan qəbirüstü sinədaşı, inşaat dövrü XV əsrin 40-cı illərinə təsadüf olunan xanəgah//zaviyə, təqribən bu zamanda tikilən məscid binası, bəzi ehtimallara görə XVII əsrin yadigarı olan hamam və sair də təsdiq etməkdədir. Sadalananlar onu deməyə əsas verir ki, artıq eramızın VI-VII əsrlərində Kürdəxanı o dövrün yaşayış məskənləri üçün səciyyəvi olan atributlara (o cümlədən yaşayış məntəqəsinin mövcud sərhədlər daxilində tanınması, məhəllələr, nəsillər, yeni müəyyən etnosa mənsubluq, meydan yeri, əhalinin həyat tərzi, ağsaqqallıq və idarəçilik institutları) malik olmuşdur.

Azərbaycanın görkəmli tarixçilərinin tədqiqatlarından aydın olur ki, türksoylu əhalinin Abşeronda məskunlaşması və tədricən oturaq həyat tərzinə keçməsi prosesi eramızdan əvvəl IV–III əsrlərdən üzü bu yana baş vermişdir. Eramızın əvvəllərindən etibarən isə türksoyluların yarımadaya yeni axını daha da güclənir. Məsələn, Bakının orta əsrlər tarixi üzrə ən görkəmli mütəxəssisi, tarix elmləri doktoru, əməkdar elm xadimi Sara xanım Aşurbəyli “Bakının orta əsrlər tarixinin oçerkləri” adlı fundamental monoqrafiyasında yazır ki, “türk tayfaları Azərbaycana eramızdan əvvəl I minillikdə və erkən orta əsrlər dövründə daxil olmuşdur”. Elə türk soyların (o cümlədən hunlar, bolqarlar, xəzərlər, savirlər, avarlar və s.) zaman-zaman axının və Abşeronda da məskunlaşmasının nəticəsidir ki, artıq VII əsrin 20-30-cu illərində Albaniyanın Xəzər hakimiyyətinə düşməsilə “türk mənşəli ümumxalq Azərbaycan dili demək olar ki, formalaşma mərhələsinə qədəm qoyur”.

Artıq qeyd etdiyimiz həqiqətin üzərinə bir daha qayıtmaqla təkrar edirik ki, Bakıətrafı kəndlər, o cümlədən Kürdəxanı ən azından eramızın əvvəllərindən etibarən əhali tərəfindən intensiv surətdə məskunlaşaraq, artıq VI–VII əsrlərdə kənd yaşayış məntəqələrinə məxsus bütün vacib atributlara malik olmuşdur. Özü də burada türksoylular (azərbaycanlılar) həmişə tam əksəriyyət təşkil etmişdir.

Yeri gəlmişkən qeyd edək ki, camaat arasında Kürdəxanı sözünün bir neçə izah variantı da mövcuddur. Bir ehtimala görə coğrafi məfhum “kord//korda//kordə” sözündən və “xanı” topomorfantından yaranmışdır, yəni bıçaq düzəldilən yer. İkinci gümana görə, guya vaxtilə kəndin üç tərəfi

su olubmuş. Yaşayış məntəqəsi cəzirə, yarımada şəklində imiş. Məhz coğrafi məkana görə bu yer Kürdəxanı adlanmışdır.

İndi isə Kürdəxanıda olmuş bir sıra məhəllə, nəsillər və mikrotoponimlər haqqında qısa bir anlatma vermək istərdik. Yerli sakinlər ilə aparılan söhbətlərdən belə anlaşıldı ki, Kürdəxanıda indiyə qədər yaddaşlarda nəsil-soy adları yaşamaqdadır. Bunlardan Qaraqaşlı və Yuxarıbaşlı məhəllələri, habelə Əlibəyli, Hacıməmmədli, Hacıağalı, Hacıxanlı, Muradlı, Poladlı, Musalı, Zeynallı, Mollalılar, Kəlbixanlı, Binyətli, Koxalı nəsillərini qeyd etmək olar.

Lakin, gümanımızca istər məhəllə, istərsə də nəsil ad siyahısı tam, bitkin deyil. Bununla belə, təqdim olunan ünvan mənsubiyyətlərinin cüzi araşdırılması da müəyyən bilginin ortaya qoyulmasında, tarixi keçmişə işıq salınmasında yardımçı ola bilər.

Məsələn, tarixi tədqiqatlar göstərir ki, bir qisim orta əsr qaynaqlarında nəinki Azərbaycan (Muğan, Qarabağ, xüsusən Gəncə və digər qərb bölgələrində), həmçinin Türkiyə ərazilərində də türk kökənli (əsilli) qaraqaşlı tayfası yaşamış və mövcud olduqları ərazinin, mənsub olduqları dövlətlərin, sosial-siyasi qurumların ictimai-siyasi və mədəni-mənəvi həyatında özünəməxsus rol oynamışlar. Digər köçəri türk tayfaları kimi elat həyat tərzinə daha çox meyilli olan qaraqaşlılar tədricən oturaq həyat tərzinə alışsalar da, lakin heyvandarlıq təsərrüfatı həmişə onlar üçün önəmli mövqeyə malik olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, qaraqaşlı eli Azərbaycanın qərb bölgəsində "ayrım" adı ilə tanınan etnoqrafik qrup ilə etnik-mənşə bağlılığına malikdir. Ayrım-

lar isə səlcuq qəbilələrindəndir. Səlcuqların Azərbaycana ilk gəlişi, yuxarıda xatırlandığı kimi, IX əsrin 30-cu illərinə təsadüf edir.

Beləliklə, Kürdəxanıdakı Qaraqaşlı məhəlləsi türk-azərbaycanlı soylu tayfanın adını özündə yaşadan mikroetnotoponimdir.

"Yuxarıbaşlı" məhəlləsinin ad mənası tərəfimizdən coğrafi (topoqrafik, landşaft) məkan anlayışı (yuxarıbaş, yuxarı tərəf) ehtimalı əsasında izah edir. Yeni məhəllə müəyyən zaman kəsiyində yaşayış məntəqəsinin yuxarı başı (kəndin yerləşdiyi yerin hündür tərəfi) sayılmış və bu cəhətdən orada yaşayanlar lüğəvi ünvan olaraq "yuxarıbaşlılar" adlandırılmışlar.

Kəndin mərkəzində yerləşən və dəniz sahillərinə qədər uzanan bir yol camaat arasında hələ indiyədək bıçaqçı yolu adlanır. Deyilənə görə "gord"//"gorda"//"gordə" bıçaqdan böyük, xəncərdən kiçik kəsici alətlərdən sayılan beybutdur (finka). Vaxtilə Kürdəxanıda qədim dəmirçi emalatxanasında digər soyuq silah və əmək alətləri ilə yanaşı çox keyfiyyətli gordalar – beybutlar da hazırlanarmış. Belə ki, bu cür soyuq silahların sifarişi məqsədilə hətta Türkmənistandan belə gələrmişlər.

Müasir dövrdə ayrı-ayrı yaşayış məntəqələrində vaxtilə mövcud olmuş etnik-soy mənsublarının, nəsil və tirələrin müəyyənləşdirilməsi o qədər aktual görünməsə də, bəzən hətta məqsədəuyğun sayılmasa da, lakin tarixilik baxımından gərəklidir və lazımdır. Başqa sözlə, əsil tarixin göstərilən cəhd belə ən azı müasirlər üçün maraqlı, keçmişdən gələcək üçün bir salnamə rolunu oynaya bilər.

Bu cəhətdən Kürdəxanı nəsilləri ilə əlaqədar hələ də tam əldə edə bilmədiyimiz məlumatları tarixi faktlarla tutuşdurub sərf-nəzər etmək heç də bəd olmaz. Çünki ən zəif bilgi belə bilməməkdən daha yaxşıdır. Yaxud, tarixi boşluqları ağlabatan məntiqi düşüncə ilə doldurmaq da faydasız deyil.

Kənd sakinləri ilə aparılan sorğulardan belə qənaətə gəldik ki, hazırda burada yaşayan əhalinin əksər hissəsinin ulu babaları təqribən XV-XVIII əsrlərdə bu əraziyə köçüb gələnlərdir. Lakin başlanğıcda yazdığımıza baxmayaraq bir daha təkrar qeyd edirik ki, əhali tərəfindən kəndin məskunlaşdırılmasının tarixi çox qədimdir.

Yuxarıda adları çəkilən nəsillərin soyadı ən azı fonetik səslənmə cəhətindən məhz türk-azərbaycanlı kökənlidirlər.

XX əsrin 40-50-ci illərində Azərbaycan MEA Tarix İnstitutunun əməkdaşı, mərhum etnoqrafımız İzzət Məcidova Abşeron kəndlərini qarış-qarış gəzərək külli miqdarda çöl-etnoqrafik materialları toplamışdır. Həmin materiallar hal-hazırda Tarix İnstitutunun arxivində mühafizə olunur. Arxiv materialları içərisində Kürdəxanıda topladığı mikrotoponimlərin də siyahısı vardır. Mövzu ilə birbaşa əlaqəli olduğundan həmin mikrotoponimlərin siyahısını təqdim edirik:

1. Ağ nohur (nohur – sulu dərə, sulu yer deməkdir)
2. Ala yer (ala – əsasən boz mənasında başa düşülən rəng çalarıdır)
3. Batlaq (battaq) qırağı (batlaq – çökək mənasındadır)
4. Bərk dərə (Bəd dərə)
5. Qərəb (qoyun yatağı, qoyunların müvəqqəti saxlandığı, ətrafı təxminən 1 m. hündürlükdə olmaqla daşla – “qara

daşla" palçıqsız hörülən "tikili")

6. Durum kənd üstü (durum – gil, gillik deməkdir; yəni gillik yer)

7. Yelkən zəmi (külək çəkən torpaq)

8. Əli Baxış qayalığı (Kürdəxanı kəndinin qərbmndə qayalıq)

9. Zərdüm (zərd – sarı, sarı rəng mənasındadır)

10. Zəngəbar (Zavər Qəmbər)

11. Kürdəxanı şoru (şor – duzlaq yerə deyilir)

12. Hacı Cabbar bulağı (Abşeronda əl ilə qazılan quyuya bulaq deyilir)

13. Çöl bağları (Kürdəxanının cənubunda kəndin qədim yeri).

Şabran yolu. Meydana gəlmə tarixi miladdan əvvələ gedib çıxan Şabran yaşayış məntəqəsi artıq eramızın V-VI əsrlərində Azərbaycanın Şamaxı, Qəbələ, Şəki, Gəncə, Bərdə, Beyləqan, Təbriz və s. bu kimi inkişaf etmiş şəhərləri ilə bir sırada durmaqla mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmiş, burada hərbi qarnizon yerləşdirilmişdi (saxlanılırdı). IX-X əsrlərdə Şabran Azərbaycanın böyük şəhərlərindən sayılırdı. Sonrakı əsrlərdə Şabranın iqtisadi həyatı təbii imkanlar hesabına daha da inkişaf edir. Məsələn, 1475-ci ildə Şirvana gəlmiş avropalı səyyah Amroco Kontarini yazırdı ki, Şabran şəhərində "o qədər gözəl meyvə və xüsusilə alma yetişir ki, adam baxanda gözlərinə inanmır". Səyyahların məlumatına görə, XVII əsrdə "Şabran ətrafında ən yaxşı çəltik növü yetişdirilirdi".

XVIII əsrin 20-ci illərində Azərbaycanın bir sıra bölgələri kimi Şabran da rus-türk müharibələrinin, habelə yerli və qonşu feodal hərbi yürüşlərinin meydanına çevrilir; şəhər dağı-

dılaraq talan edilir. Əsrin 30-cu illərindən etibarən isə Şabran yenidən bərpa olunmağa başlayır, iqtisadiyyat dirçəlir. Beləliklə, Quba bölgəsində Samur çayının sağ sahilində yerləşən Şabran şəhəri əsrlər boyu şimal-şərqi Azərbaycan torpaqlarında öz mühüm iqtisadi-ticarət mövqeyini qoruyub saxlaya bilmişdir. Bu əlaqələrdə Bakı və ətraf yaşayış məntəqələri ilə olan iqtisadi münasibətlər həmişə qarşılıqlı faydalılığa əsaslanmaqla intensiv olmuşdur. Ara-sıra siyasi tənəzzüllərin burulğanına düşməsinə baxmayaraq şəhər qısa müddətə yenidən iqtisadi dirçəliş və inkişafını təmin edə bilmişdir. Ümumiyyətlə, şəhərin yerləşdiyi bölgə XVIII əsrdə Azərbaycanın istər siyasi və istərsə də iqtisadi inkişafında nəzərə çarpacaq irəliləyişə və fəallığa malik idi (Fətəli xanın Azərbaycanı birləşdirmək cəhdləri, Rusiya ilə olan əlaqələr və s.). Marşal fon Biberşteyn yazırdı ki, Quba xanlığı "şübhəsiz, ən yaxşı və daha çox əhalisi" olan bir xanlıq idi.

Azərbaycanın ayrı-ayrı vilayətləri arasında və başqa ölkələrlə ticarət əlaqələri əsas etibarilə quru yollarla saxlanılırdı; bu əlaqələrdən bəziləri dəniz və çay yolları ilə davam etdirilirdi. Məsələn, Şamaxıdan karvan yolu ya Bakı vasitəsilə, ya da Bakı yaxınlığından keçərək, Qobustan çölü ilə Şabrana, oradan isə Kaspi dənizi ilə Volqaya gedirdi. Şamaxıdan başlayan başqa bir yol Təngi dərəsi vasitəsilə Şabrana, sonra isə dəniz və ya quru yol ilə Həştərxana davam edirdi. Beləliklə, Azərbaycanın istər daxili, istərsə də xarici iqtisadi-ticari əlaqələrində Şabran tranzit məntəqə rolunu oynamışdır.

Kürdəxanı ilə əlaqədar araşdırmalarımız zamanı yerli yaşlı sakinlərdən bəzisi, xüsusilə də kəndin tarixi keçmi-

şinə çox bələd bir insan, əsil ziyalı və vətənpərvər, elsevər şəxsiyyət Abasqulu müəllim vurğulayırdı ki, vaxtilə Ləş bağlarının içindən keçməklə son dayanacağı Maştağa olan Şabran yolu haqqında da yazmaq lazımdır. Əlimiz çatan tarixi ədəbiyyata, xatirə səciyyəli yazılara, bədii əsərlərə müraciət etdik. Mövzu ilə əlaqədar heç nə ilə rastlaşmadıq. Tam təsadüf nəticəsində Əzizbəyov RİH-nin müavini, rayonun tanınmış iqtisadçılarından biri A.Ə.Tahirov ilə bu barədə söhbət zamanı o söylədi ki, 1974-1984-cü illər arasında Məhəmmədli südçülük-tərəvəzçilik sovxozunda baş iqtisadçı işləyirdim. Sovxoz rəhbərliyinin tapşırığı ilə idarəyə məxsus ərazinin şimal-qərb sahəsində traktor ilə yer şumlatdırırdım. Tez-tez şum alətinin dişlərinin sıradan çıxması haqqında traktorçu mənə məlumat verirdi. Səbəb isə kotanın dişlərinin torpağın təqribən 30-40 santimetrlik dərinliyində olan iri daşlara dəyməsi və onları çox çətinliklə çıxarması idi. Qurama daş təbəqə müəyyən xətt boyunca uzanıb gedirdi. Bu minvalla çox çətinliklə də olsa təqribən 350-400 metr uzunluğu əhatə edən sahənin şumunu başa çatdırdıq.

Maraqlı olduğu üçün daş döşənmiş sahəyə çox diqqətlə baxdım. Yolun enliliyi iki araba yan-yana keçə bilən qədərdi. Kəndin bəzi yaşlı sakinləri ilə aparılan söhbətlərdən bəlli oldu ki, yol həqiqətən də araba yolu imiş və vaxtilə Bakıya nisbətən yaxın olan bir rayondan çəkilibmiş.

Bu söhbətə istinadən yenidən Kürdəxanı və Maştağa yaşlıları ilə sorğular apardıq. Onlar həmin yolun "uzunluğunu" eşitdiklərinə əsasən Maştağadan Fatmayı kəndinə qədər "aparıb çıxara bildilər".

Beləliklə, bizdə belə qənaət yarandı ki, artıq xatirələrdə yaşayan Məhəmmədli-Fatmayı, Ləş bağlarından keçib son dayanacağı Maştağa olan bu iki arabalıq daş yol məhz məşhur Şabran yolu imiş.

Bundan sonra əvvəlcə imtina etməsinə baxmayaraq bizim israrlı təklif və xahişimizi nəzərə alan A.Tahirov Şabran yolunun təqribi xəritə variantını təqdim etdi. Buna görə biz A.Tahirova dərin minnətdarlığımızı bildiririk. Və bir daha qeyd edirik ki, xəritə yaddaş və söylənilənlərə əsasən işlənilərək oxucuların nəzər-diqqətinə təqdim olunur.

Şabrandan Bakıya və onun kəndlərinə başlıca olaraq taxıl (arpa, buğda), çəltik, meyvə, qurudulmuş meyvə, Şamaxı ipəyi və s. daşınırdı. O vaxtlar ticarət malları daşıyan karvanlara, arabalara rast gələnlər xeyirxahlıqla, özü də ucadan deyərdilər: Allah bazar versin! Allah bərəkət versin!

Yuxarıda qeyd olunduğu kimi, vaxtilə Kürdəxanının kəndətrafı yerlərinin genişliyi, əlverişli otlaq sahələrinin olması əhalinin ənənəvi olaraq maldarlıq, xüsusilə də qoyunçuluq təsərrüfatı ilə daha çox məşğul olmasına şərait yaratmışdı. Vaxtilə kənddə çoxları iri qoyunçuluq təsərrüfatlarına malik olmuşdur. Bunlardan Ataəmini, Heydəri, Kərbəlayi Balamirzəni, Kərbəlayi Əjdəri, Kərbəlayi Nüsrəti, Kərbəlayi Əmiraslanı və s. qeyd etmək olar. Qoyun sürülərinin otarılması üçün iri təsərrüfat sahibləri muzdla çoban tutardı. Beş-on qoyunu olanlar öz heyvanlarını camaat sürüsünə qoşardı. Bundan ötrü qoyuna gedən çobana hər heyvan üçün aylıq olmaqla məbləğ ödənilirdi. Baş çoban sərkar adlanırdı.

Qoyunçuluq məhsullarının istehsalı həm yerli istehlak, həm də əmtəə xarakteri daşımışdır. Qoyunçuluq məhsulu

olan yun kustar toxuculuq sahələrinin (o cümlədən xalçaçılıq, kürkçülük, həmçinin digər üst paltar növləri, corab, əlcək, kəndir, ciyə və s.) geniş surətdə inkişafına səbəb olmuşdu. Yun əmtəə bazarına xammal şəklində çıxarılırdı. Bu xammalın satışı həm kənddə, həm ətraf yaşayış məntəqələrində, həm də xüsusən Bakı şəhərində təşkil edilirdi. Məhsulun xammal şəklində bazara çıxarılmasının əsas səbəbi kənddə manufaktura və sex tipli istehsal sahələrinin olmaması ilə əlaqədar idi.

Qoyunçuluq təsərrüfatında quyruqlu yerli cinslərə daha çox üstünlük verilirdi. Maraqlıdır ki, sovetləşmə illərində də, yəni ta keçən əsrin 60-70-ci illərinədək bu təsərrüfat sahəsi kürdəxanılıların məşğulluğunda başlıca yer tutmuşdur.

Kürdəxanıda kənd təsərrüfatının digər sahələri də, o cümlədən əkinçilik, bostançılıq, zəfərançılıq, xüsusən də bağçılıq kifayət qədər inkişaf etmişdi. Belə ki, həmin sahələrin məhsulları yerli istehlakı demək olar ki, ödəyə bilirdi.

Yaşlı sakinlərin verdiyi məlumata görə, XX əsrin 30-40-cı illərinə qədər burada taxıl, həmçinin dənəvər bostan məhsulları becərilərmiş. Lakin qeyd etmək lazımdır ki, dəmyə əkinə əsaslanan taxıl məhsulları tələbatı qismən ödəmişdir. Taxılçılıqda yerli xırda, lakin şirin Bakı buğda növlərinə (Sarı buğda) üstünlük verilirdi. Taxıl kənddəki xərmən yerlərində at, ulaq qoşulmuş vəllər vasitəsilə təmizlənər (dən samandan ayrılar) və yel dəyirmanlarında, həmçinin də dəyirmanları olan kirkirələrdə üyüdülərdi. Bakı (Kürdəxanı) unundan bişirilən quymaq, xəşil kimi un bişmələrinin xüsusi ləzzəti olardı.

Ümumiyyətlə, yeri gəlmişkən, Bakı camaatının mətbə-

xində xəmir xörəklərinə, xəmir bişmələrinə həmişə xüsusi önəm verilmişdir. Soyuq, sərt, qarlı-şaxtalı qış günlərində səhərlər kərə yağında (qoyun quyruğundan hazırlanmış yağda) bişirilən, üstünə üzüm doşabı verilən xəşilin, umacın, quymağın, axşamlar sarımsaqlı-qatıqlı quru xingalın, düşbərənin, riza xingalının, lobyalı xəmiraşının, ot (göy), iç, ət, kudu-balqabaq qutablarının (xüsusilə təndirdə bişən qutabların) yerini başqa xörəklər vermirdi. Gündəlik ət xörəkləri içərisində birinci yeri, heç şübhəsiz ki, ancaq qoyun ətindən bişirilən bozbaş tuturdu.

Əkin-tökün işlərində səriştəli adamlar olan kürdəxanılılar xır və bostan məhsullarının becərilməsində də böyük təcrübəyə malik idilər. Xır və bostan sahələrində kök, soğan, sarımsaq, bibər IX əsrin ikinci yarısından etibarən pomidor, badımcan, xiyar, kələm, kartof, həmçinin qarpız, qovun, kudu, balqabaq, qarğıdalı, noxud, mərci və s. becərirdilər.

XX əsrin 40-60-cı illərində mərhum etnoqrafımız Rəxşəndə Babayeva Abşeron kəndlərindən çoxlu miqdarda çöl-etnoqrafik materialları toplamışdır. Həmin materiallar Azərbaycan MEA Tarix İnstitutunun Elmi Arxivində mühafizə edilir. Həmin arxiv materialları içərisində 65 ədəd bayatı da qorunur. Bayatılardan biri belədir:

***Qızıma qurban muğannı,***
***Sarmaşıqlı, soğannı,***
***Yol üstə kürdəxanlı,***
***Nöyütçü balaxannı.***

Bayatının məzmunundan həm də o bəlli olur ki, bir

vaxtlar soğan və sarımsaq kimi bostan məhsulları Kürdəxanıda da geniş sahələrdə əkilərmiş.

Zəfəran lap qədim zamanlardan başlayaraq Kiçik Asiya, İran, Kəşmir və Suriyada yetişdirilən mədəni bitkilərdən biridir. Zəfəranın vətəni Kiçik Asiya hesab olunur, Zaqafqaziyada əsas mərkəzi Abşeron sayılır.

XIX əsrdə zəfəran başlıca olaraq Abşeronun 13 kəndində – Maştağa, Nardaran, Bilgəh, Buzovna, Şağan, Mərdəkan, Türkan, Hövsan, Əhmədli, Biləcəri, Zabrat, Kürdəxanı və Goradildə becərilirdi. O zaman Abşeron zəfəranı əsasən Şirvan, Talış, Quba, Şəki bölgələrinə, həmçinin Gürcüstana, İrana və Rusiyaya ixrac olunurdu. 1896-cı ildə Bakıda zəfəranın qiyməti (bir girvənkəsi) 11 manata, başqa illərdə 7-20 manat arasında, Moskvada isə 15 manata satılırdı.

XX əsrin 30-40-cı illərinədək Kürdəxanıda bir çoxlarının zəfəran bağçaları qalmışdı. Hacı Cabbarın, Hacı Ağabalanın, Hacı Hənifənin, Əlmanın, Xələfin, Kərbəlayi Hüseynqulunun, Bəydəmirin zəfəran bağçaları adla idi. İstər ziyarət, istərsə də ticarət məqsədilə haçansa İrana, Ərəb ölkələrinə, hətta Hindistana belə gedib çıxan Kürdəxanı sakinləri ya pay olaraq, ya da mübadilə məqsədilə özlərilə mütləq vəzndə yüngül, qiymətdə ağır gələn zəfəran aparardılar. Tacirlərdən Hacı Ağabala, Hacı Hənifə, Əlimuxtar İmanverdi oğlu Hindistanın Bombey şəhərinə qədər ticarət məqsədilə zəfəran apararmışlar.

IX-XI əsrlərdə Azərbaycanda boyaq kökü bitkisinin yetişdirilməsi barəsində orta əsr ərəb müəllifləri xeyli məlumat vermişlər. XIX əsrdə boyaq bitkisinin əsas mərkəzi isə Quba və Dərbənd zonası hesab edilirdi. Məlumata görə

1861-ci ildə Rusiyaya Bakı limanı vasitəsilə 930 pud boyaq kökü ixrac olunmuşdu.

Tarixi ədəbiyyatda göstərilir ki, Abşeronun bəzi kəndlərində də boyaq kökü bitkisi becərilirmiş. Həmin bəzi kəndlər sırasına Kürdəxanı da aid idi. Deyilənlərə görə kənddə bir neçə adam boyaq kökü bitkisinin becərilməsi ilə məşğul olurmuş. İndikilərin yaddaşında isə təkcə Hacı Cabbar qalmışdır.

Azərbaycanda bağsalma və bağçılıq təsərrüfatının qədim kökləri vardır. Bağçılıq təsərrüfatı ən çox Bakı, Gəncə, Şamaxı, Göyçay, Qazax, Quba, Lənkəran, Nuxa Şəki, Ordubad, Cəbrayıl, Şuşa, Naxçıvan və Zaqatala bölgələrində inkişaf etmişdi.

Bölgələr üzrə üç cür bağa təsadüf olunurdu: üzüm bağları, meyvə bağları və qarışıq bağlar. Abşeronda əsasən üzüm bağları və qismən də qarışıq bağlar salınardı. Bağlar salındığı ərazilər yaşayış məntəqələrindən nisbətən aralı, başlıca olaraq qumsal və dənizsahili ərazilərdə yerləşirdi. Qarışıq bağlar istisna olmaqla (il ərzində ancaq meyvə ağacları bir-iki dəfə suvarılardı) üzüm bağları suvarılmazdı. Bağçılıq təcrübəsinə görə üzüm suvarıldıqda şirəsi azalır, dadı şitləşir.

Bağ yerlərində meynələr talvara çıxarılmazdı. Daimi yaşayış yerlərində (kəndlərdə) kölgəlik üçün bir neçə meynə talvara çəkilərdi. Meynələrin kəsilməsini (budanmasını) bu işdə təcrübəsi olan adamlar həyata keçirərdi. Bağ meyvələrindən ən müxtəlif çərəzlər hazırlanardı.

Bakı camaatının yay fəslində kəndətrafı köçmə ənənəsinin tarixi də qədim çağlara gəlib çıxır. Məsələn, XIV yüzilliyin ikinci yarısı, XV yüzilliyin əvvəllərində yaşamış əs-

lən bakılı Əbd ər-Rəşid əl-Bakuvi "Kitab təlxis əl-əsər və əcaib əl-Malik əl-Qəhhar" əsərində yazırdı: "Əncir, nar və üzüm burada (Bakı və ətrafında – S.T.) boldur. Bağlar şəhərdən uzaqdır. Buna görə şəhər əhalisinin çoxu yay vaxtı oraya köçür, bir müddət orada yaşayır, sonra isə geri qayıdırlar. Və onlar hər il belə edirlər".

Yeri gəlmişkən, ta qədim çağlardan keçən əsrin 70-80-ci illərinədək Abşeron kəndlərində "bəhər", "bəhər almaq" adı ilə məlum olan bağ ənənəçiliyi də mövcud olmuşdur. Bu ənənəyə görə məxsusi bağ sahəsi olmayan bir qisim şəhər sakinləri yay fəslində müəyyən haqq müqabilində bir-iki aylığa icarəyə bağ sahəsi götürərdi. İcarədar icarəyə götürülən bağın meyvəsindən, yəni bəhərindən tam istifadə etmək hüququna malik olurdu.

Abşeron kəndlərinin hər birinə məxsus bağ sahələri olmuşdur. Bunlardan, məsələn, Qalaya aid Şüvəlan bağlarını, Şağana aid dəniz sahili və çöl bağlarını, Binənin Təmənis bağlarını, Giləzi, Xızı, Altıağac, Şurabad bağlarını, Zirə, Türkan, Nardaran, Buzovna, Maştağa (Ləş bağları) və s. kəndlərə aid bağları qeyd etmək olar.

Abşeron yarımadasında ərazicə nisbətən böyük bəhərli bağ sahələrindən biri də Kürdəxanı ilə Maştağa arasında yerləşən Ləş adlı bağ əraziləridir. XIX əsrin 30-cu illərinə dair rus dilli bir ədəbiyyatda qeyd olunur ki, yarımadanın bütün şimal hissəsi, Coratdan Abşeron burnuna qədər olan ərazi üzüm və meyvə bağlarından ibarətdir. Bu sahənin böyük bir hissəsi camaat arasında Ləş bağları adlanır. Bəzi üzüm bağları 30-40 xalvar, yəni 750-1000 pud arası məhsul verir.

Həmin bağların salınma tarixi orta əsrlərə, yəni XIV-



*Kürdəxanı Ləş bağları 1932-ci ildə*

XV əsrlərə gedib çıxır.

Yuxarıda qeyd olunduğu kimi, Ləş bağları olduqca bəhərli, həm də keyfiyyətli meyvələrə malik bağlar olmuşdur. Bağlar qarışıq meyvəli (əncir, nar, heyva, tut, innab, püstə, badam və s.) olsa da, lakin üzümlüklər əksəriyyət təşkil edirdi. Bağlarda məşhur Abşeron ağ və qara şanıları ilə yanaşı sarıgilə, kəmərbari (gəlinbarmağı), kişmişi, dərbəndi və s. bu kimi onlarla növlər becərilirdi.

Bağ mövsümündə üzüm və digər bağ meyvələrindən qış azuqəsi olaraq sirkə, abqora, turşaşirin, doşab, əncir qurusu, püskəndə, şirbədüşəndə, zincilfərəc, lavaşana, tut sumağı, dolmalıq meynə yarpağı, riçal, müxtəlif mürəbbələr və s. hazırlanırdı.

Yay mövsümündə kənd əhalisi həm özləri bağlara köçər, həm də bəhərə bağ verərdilər. Bağ yerlərində qalmaqdan ötrü daş və taxtadan inşa olunan evlər çox sadə və yığcam (camaat arasında bəzən belə evlərə “koma” da deyilir) olardı.



*Kürdəxanı Ləş bağları 1932-ci ildə*

Bağ mövsümündə uşaqların özlərinə məxsus oyunları, böyüklərin isə özünə xas əyləncələri olmuşdur.

Toplanan məhsulların (xüsusən üzüm və əncir) bir hissəsi ailələrin istehlakına sərf olunsa da, böyük bir qismi əmtəə kimi arabalar ilə şəhərə aparılaraq satılırdı. Bu mənada ailələrin illik qazanc büdcəsində bağ gəlirləri mühüm yer tuturdu. Buradaca ünlü şairimiz Mikayıl Müşfiqin "Yenə o bağ olaydı" şeri necə də yerində səslənir.

***Yenə o bağ olaydı, yenə yığışaraq siz***
***o bağa köçəydiniz.***
***Biz də muradımızca, fələkdən kam alaydıq,***
***sizə qonşu olaydıq.***
***Yenə o bağ olaydı, səni tez-tez görəydim;***
***qələmə söz verəydim.***

*Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham...*
*yazaydım səhər-axşam.*
*Arzuya bax, sevgilim, tellərindən incəmi,*
*söylə, ürəyincəmi?*

*Yenə o bağ olaydı, yenə sizə gələydik,*
*danışaydıq, güləydik.*
*Ürkək baxışlarınla ruhumu dindirəydin,*
*məni sevindirəydin.*
*Gizli söhbət açaydıq ruhun ehtiyacından,*
*qardaşından, bacından*
*Çəkinərək çox zaman söhbəti dəyişəydin,*
*mənimlə əyişəydin.*
*Yenə də bir vuraydı qəlbimiz gizli-gizli,*
*sən ey əsmər bənizli!*

*Bu yaz bir başqa yazdır, bu yaz daha da xoşdur,*
*vay o qəlbə ki, boşdur!*
*Hər üfüqdə bir həvəs, hər bucaqda bir umud*
*insanlar daha məsud,*
*Duyğular daha incə, fikirlər daha dərin,*
*ürəklər daha sərin,*
*İnsanların vüqarı, tələbi daha yüksək,*
*yolumuzdan daş-kəsək*
*Təmizlənsin bir az da. Ellərin keyfi sazdır,*
*bu yaz bir başqa yazdır!*

*Yenə o bağ olaydı, yenə o qumlu sahil,*
*sular ötəydi dil-dil.*

*Saçın kimi qıvrılan dalğalara dalaydım,*
*dalıb ilham alaydım.*
*Əndamını həvəslə qucaqlarkən dalğalar,*
*qəlbimdə qasırğalar.*
*Fırtınalar coşaydı, qısqanclıqlar doğaydı,*
*məni hirsim boğaydı;*
*Cumub alaydım səni dalğaların əlindən,*
*yapışaydım belindən,*
*Xəyalımız üzəydi sevda dənizlərində,*
*ləpələr üzərində.*
*İlhamımın yelkəni zərrin saçın olaydı,*
*sular xırçın olaydı.*

*Bu nə gözəl şeirdir, bu nə gözəl mənzərə,*
*gəlin baxın Xəzərə.*
*Çıxalım Buzovnada kiçik qayalıqlara,*
*seyr edəlim bir ara...*
*Gecələr sayrışarkən ulduzlar lalə kimi,*
*işıqlar jalə kimi*
*Çilənib dağılarkən ətrafa damla-damla,*
*ən yaxın bir adamla*
*Nə gözəldir dinləmək suların nəğməsini,*
*təbiətin səsini!*
*Nə gözəldir dolaşmaq isti yay fəsilləri*
*bu sərin sahilləri!*

*Nə gözəldir səhərlər bizim böyük ruhumuz,*
*aşıb-daşan duyğumuz,*
*Şəklin təki sulardan baxaraq ləzzət almaq,*
*bu mavi şerə dalmaq,*

*Dalğalar kimi qalxmaq, dalğalar kimi enmək,*
*bəzən hürküb çəkinmək.*
*Hər dalğa bir kişnəyən bəyaz yallı at kimi,*
*bizim bu həyat kimi.*

*Yenə o bağ olaydı, sevdalar ölkəsində,*
*o söyüd kölgəsində,*
*İnci qumlar üstündə yenə verib baş-başa,*
*yayı vuraydıq başa.*
*Günlərimiz keçəydi qızğın fərəhlər kimi,*
*dolu qədəhlər kimi;*
*Yarpaqlar arasından uzadaraq əlini,*
*oxşayaraq telini,*
*Gecələr darayaydı saçlarını Ay, gözəl!*
*Sən gözəlsən, ay gözəl?*
*Əllərində əllərim, gözlərimdə gözlərin...*
*asılaydı sözlərim*
*Könlünün qulağından bir qızıl tana kimi,*
*günəş doğana kimi.*

*Bu yaz dostlarım bir az bəxtəvər olacaqlar,*
*can-ciyər olacaqlar.*
*Bir az da uzaqlara açacaqlar yelkəni,*
*ruh yeni, həyat yeni.*
*Çıxacaqlar – göyləri aşaraq dönə-dönə –*
*buludların fövqünə.*
*Uçacaqlar sabaha, uçacaqlar yarına,*
*göyün boşluqlarına.*
*Vaxtilə bir kölgə tək hür yaşamaq istəyən*
*bu insan oğlu bilsən*

*Azadlıq ölkəsində daha şad olacaqdır,*
*dünya dad alacaqdır.*

*Yenə o bağ olaydı, yenə yığışaraq siz*
*o bağa köçəydiniz.*
*Biz də muradımızca, fələkdən kam alaydıq,*
*sizə qonşu olaydıq.*
*Yenə o bağ olaydı, səni tez-tez görəydim;*
*qələmə söz verəydim.*
*Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham...*
*yazaydım səhər-axşam.*
*Arzuya bax, sevgilim, tellərindən incəmi,*
*söylə, ürəyincəmi?*

İndi isə əsrlər boyu Abşeronun bir sıra kəndlərində olduğu kimi, Kürdəxanıda da düz istehsalı ilə əlaqədar qısa bir məlumat vermək istərdik.

Bir sıra orta əsr müəllifləri (Məsudi, Əbd ər-Rəşid əl-Bakuvi və s.) Bakının xarici ölkələrlə olan ticarətində, neft, ipək, boyaq kökü otu ilə yanaşı, duz ixracatının da böyük rol oynadığını qeyd edirlər. Duz əsasən ölkə daxilində Talış, Şirvan, Quba və Dərbənd bölgələrinə, xarici ölkələrdən Gürcüstana, İrana, Orta Asiyaya, Astraxan vasitəsilə Rusiyaya və Avropaya göndərilirdi.

Yazılı ədəbiyyatda göstərilir ki, 1770-ci ildə duzun bir pudu 7,5 qəpiyə satılırdı. 1830-cu ildə ümumiyyətlə 6,560 manatlıq dəyərində Bakı duzu satılmışdı.

XIX əsrə dair rusdilli ədəbiyyatda göstərilir ki, Abşeron yarımadasında irili-xırdalı 27 duz gölü vardır. Bunlardan

Masazır və Zığ gölləri həm duzunun keyfiyyətinə, həm də bolluğuna görə sevilir. Sonrakı yerlərdə Kürdəxanı, Qala, Pirşağı, Məhəmmədli və Xocahəsən gölləri gəlir. Kürdəxanı gölündə duzun qalınlığı ½ düym təşkil edir.

Duz yığımına avqust ayında başlanılırdı. Yığım zamanı əsasən ağac bel-lapatkadan istifadə olunurdu. Göldən toplanan duz arabalara vurularaq sahildən bir qədər aralıda ya təpəcik şəklində, ya da müəyyən böyüklükdə kubvari yığılırdı ki, müəyyən müddətə günün altında qalıb suyu çəkilməklə qurusun. Yayda gün ərzində bir fəhlə bir kuba qədər, qışda isə nəm olduğundan ancaq yarım kub duz toplaya bilirdi. İşçilər hər xalvar üçün (bəzi ədəbiyyatlarda xalvar yox, pud qeyd olunur) 90 qəpik muzd alırdı.

Duz həm topdansatış qaydasında (yəni istehsal olunduğu yerdə), həm də Bakı şəhərində duz biznesilə məşğul olanlara təhvil verməklə satılırdı. Bəzən bu məqsədlə şəhərdə məxsusi yarmarkalar da düzəldilirdi. Şəhərə duz araba və dəvələrlə daşınardı.

Kəndlərdəki duz gölləri XVIII əsrədək Bakı xanının xəzinəsinə, XIX əsrdə rus istilasından sonra isə çar dövlət xəzinəsinə məxsus idi.

Abşeronun digər yaşayış məntəqələrində olduğu kimi, Kürdəxanıda da bir neçə dəyərli tarixi-memarlıq abidələri vardır. Sayca bu abidələr çox olmasa da, lakin öz səviyyəsinə, yəni sosial-funksional mahiyyətinə, həmçinin qismən də inşaat-memarlıq xüsusiyyətlərinə görə özünəməxsusdur. Lakin bütün hallarda Abşeron üçün xarakterik olan ənənəvi memarlıq üslubu ilə regional-məhəlli kiçik forma elementləri vəhdət təşkil edir, bir-birini tamamlayır. Bu cəhət bü-

tövlükdə Abşeron tikinti-memarlıq üslubunun təməlini təşkil edir. Həmin özünəməxsusluq istər müdafiə istehkamları olan qalalar, qüllələr, sədlər, istər dini cəhətdən ənənəvi Kürdəxanı tikililəri də istisna təşkil etmir.

Təqribən 40-45 il bundan qabaq kənd sakinləri qəbiristanlıqda məzar qazarkən torpağın nisbətən dərin qatından ağır bir sinədaşı tapırlar. Sinədaşının üzərində ərəb qrafikalı yazılar olmuş, ətrafı isə Şərq ornamentləri ilə bəzədilmişdi. Sinədaşının üzərindəki yazıları böyük şərqşünas alim, möhürlərin oxunuşu üzrə Azərbaycanda yeganə peşəkar mütəxəssis Fazil Ağa Seyidov oxuyur. Onun bildiyinə görə, həmin yazıların tarixi 850 ildən çox imiş. Bu faktın özü də kəndin tarixinin qədimliyinə dəlalət edir.

Deyilənlərə görə 1936-cı ildə Kərbəlayi Məlik Hacı Musa oğlu çöl bağları deyilən ərazidə (Kürdəxanı kəndinin cənubunda) quyu qazıtdırırmış, quyu qazılan zaman torpağın dərin qatından sinədaşına oxşar lay daş çıxır. Daşı çətinliklə qaldırdıqdan sonra məlum olur ki, burada insanlar dəfn edilibmiş. İnsan sümüklərilə birlikdə bəzək əşyaları ilə dolu iki küp aşkar edilmişdir. Bundan belə məlum olur ki, bu qəbir müsəlmançılıqdan çox əvvəl bir zamana aiddir.

Kürdəxanıda olan ən qədim dini memarlıq abidələrindən biri Cümə məscididir. Məscid binasının kitabəsində onun hicri 848-ci il, miladi tarixlə 1444-45-ci illərdə Hacı Rəşəng tərəfindən (yaxud onun şərəfinə) inşa olunduğu qeyd edilmişdir. Artıq həmin məscidlə vahid kompleks təşkil edən, günümüzdə olduqca abad və yaraşıqlı memarlıq tikilisi sayılan digər bir məscidin əsası isə XIX əsrin sonlarında qoyulmuşdur. Məscidin kitabəsində

onun Hacı Cəfərqulu bin əbd ər-Rəhim Kürdəxani tərəfindən hicri 1315-ci il, miladi 1897-1898-ci ildə tikildiyi göstərilmişdir. Məscidin memar-bənnası Bəyalı Nardarani, suvaqçısı isə Hacı Baba olmuşdur.

Yeri gəlmişkən, məkanca həmin məscidin yaxınlığında hicri 1323-cü il, miladi 1905-1906-cı ildə Hacı Cəfərqulu tərəfindən ikigünbəzli bir hamam binası da tikdirilmişdir. Hamamın bənnası Əmir Maştağayi (Maştağalı Əmir) olmuşdur.

Vaxtilə Kürdəxanıda əxilərə məxsus zaviyə//xanəgah da olmuşdur. Xanəgahın kitabəsində onun hicri 852-ci il, miladi 1448-1449-cu ildə inşa olunduğu yazılmışdır. Kitabədə həmçinin xanəgahın kimə aidiyyatı da qeyd olunmuşdur. Məlum olur ki, xanəgah əxi cəmiyyətinin sədri şir əmən-i vahidin küdvat əl-maşayih al-i zəm titullu əxi şeyxi Nurullah bin Əbayilə məxsusdur.

Kürdəxanının Ləş bağlarında daha iki kiçik məscid binası qalmaqdadır. Bunlardan biri camaat arasında "Bağ məscidi" adlanır və XVIII əsrdə tikilmişdir. Maştağa ilə sərhəddə,



*XVIII əsr Kürdəxanı bağ məscidi*

Ləş bağ sahələrində yerləşən ikinci məscid "Hacı Soltanəli məscidi" adlanır. Rəvayətə görə balaxanılı Soltanəli ziyarət zamanı xəstələnir. Niyyət edir ki, sağ-salamat evinə qayıtsa, Allah naminə məscid tikdirəcəkdir. Ziyarətdən evinə salamat qayıdan Hacı Soltanəli həmin məscidi tikdirir. Məscidin tarixi XIX əsrin ikinci yarısına təsadüf edir.

Qəsəbədə olan sanitar tipli memarlıq abidələrindən biri də üzərində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən vurulan lövhədə XVII əsr abidəsi kimi qeyd olunan el ha-



*XIX əsr Hacı Soltanəli məscidi*

mamıdır. Sakinlərlə aparılan söhbətlərdən, həmçinin tərəfimizdən tikinti materiallarına ilkin baxış zamanı yaranan təsəvvürə görə hamam binasının tarixi 100-120 ildən çox olmaz. Yerli sakinlər iddia edirlər ki, hamamı Hacı Zeynal adlı şəxs tikdirib. Onlar hətta vaxtilə hamamı işlədən bir neçə şəxsin adlarını da çəkirlər. Bunlar Kərəm, Əmrulla, Züleyxa, Əbdülalı kişi və onun həyat yoldaşı Zeynalova Peykər xanım idilər.

Hacı Zeynal hamamı bir gün kişilər, bir gün də qadınlar

üçün işləyirdi. Adları çəkilən Züleyxa və Peykər xanım hamamın qadınlar üçün olan günündə onu işlədərdi.

Orasını da qeyd edək ki, Hacı Zeynal hamamı dövrünün bütün memarlıq tələbləri əsasında tikilən dəyərli bir sanitar qovşağıdır. Hamamın daxili quruluşu belədir: soyunub-geyinmə yeri (6 yer), çimmə yeri (6 yer), bölmələrin hər biri təqribən 25 kv.m-dir. Mərkəzdə təqribən 2-2,5 kv.m-lik dairəvi hovuz, soyunub-geyinmə bölmədə ayaqqabı qoymaq üçün kvadratvari oyuqlar, hacətxana, ocaqxana, xəznə, çıraqxana, 2 ədəd ayaqyolu, döşəməyə daş düzülmüşdür. Hamamın yeri çökəkdir (külək vasitəsilə yığılan qumun səviyyəsinin qalxması nəticəsində). Tikinti materialı kimi daş və qırmızı kərpicdən istifadə olunmuşdur.

Deyilənə görə hamam 1966-cı ilədək fəaliyyət göstərmişdir.

Tərəfimizdən yazılanların, el dili ilə desək, "Hökm kimi" qəbul edilməsi düzgün olmazdı və heç biz özümüz də belə bir iddiada deyilik. Və orasını da səmimi olaraq qeyd edirik ki, müəyyən fikirlər, toponimik izahlar hissi, intuitiv düşüncəyə, bir qədər də məntiqə söykənmişdir. Bu nöqteyi-nəzərdən oxucu, xüsusən kürdəxanılı oxucu məni başa düşməli və səmimiyyətimə, xoş niyyətimə inanmalıdır. Məqsədimiz heç də kimlərinsə hansı soy kökünə mənsubluğunu qabartmaq (əstəğfürullah!), yaxud bu sahədə yazan görkəmli tarixçilərin zəhmətinə, biliyinə kölgə salmaq yox, sadəcə ötən yüzilliklərə yüngül bir tarixi ekskurs etmək olmuşdur. Bu gün Kürdəxanı sakinləri də monolit bir birliyə malik olaraq xalqımızın bir parçası kimi müstəqil Azərbaycan dövlətimizin günbəgün tərəqqisində, yeni-yeni zirvələr fəth etməsində ən yaxından və fəal surətdə iştirak edirlər.

Bir də o nəzərə alınmalıdır ki, hazırlanan yazı, müəyyən

materialların toplanması, sistemləşdirilməsi, qələmə alınması qısa bir zaman kəsiyində həyata keçirilmişdir.

Güman edirik ki, gələcəkdə bizmi, yaxud hər hansı bir yazarmı bu sahədəki boşluqları tam dolduracaqdır. Hər halda görüləcək bu işə indidən "inşallah" deyirik.

Nəhayət, yekun olaraq vətənpərvər şairimiz Abbas Səhhətin məşhur "Vətən" şerindən dörd misra ilə sözümüzü yekunlaşdırırıq.

***Vətən əcdadımızın mədfənidir,***
***Vətən övladımızın məskənidir,***
***Vətəni sevməyən insan olmaz,***
***Olsa, ol şəxsdə vicdan olmaz.***

## BIÇAQÇI YOLU

Kürdəxanı kəndinin şimal hissəsində olan, bıçaqçı adlanan yol haqqında, bəzi fikirlər və məlumatlar vardır. Kürdəxanıda yaşayan yaşlı nəslin nümayəndələrinin dediklərinə görə, burada əsasən sənətkarlar yaşamışlar (dəmirçilər). Bu sənətkarların düzəltdikləri dəmir əşyalardan: kortiklər, xəncərlər, bıçaqlar, qayçılar, qiyməkeşlər, baltalar, mişarlar, çapacaqlar, bellər, xışlar, yundaraqları, qırxılıqlar və sair olmuşdur.

Kürdəxanıda dəmirçilik sənətinin inkişafı çox yüksək dərəcədə olmuşdur. Bura hər yerdən, Azərbaycanın bir çox məntəqələrindən Dağıstandan, Həşdərxandan dəmirçilik sənəti alətlərinin sifarişi üçün gələrlərmiş.

Kürdəxanı kəndinin sənətkarları biri-birinə mane olmamaqdan ötrü, dəmirdən düzəldilən hər bir alətin, məxsusi ustası və öz emalatxanası olardı. Bu insanların o dövrdə yüksək

insani keyfiyyətə və mədəniyyətə malik olmalarını göstərir.

Kəndin şimal hissəsindən başlayaraq dənizə qədər uzanan bu yolun ətrafında kürə izləri (dəmirçi peçlərin izləri) kül yataqları aşkar edilib. Bu izlər, yanmış torpaq sahələri, küllüklər, Kürdəxanıda kürələrin çox olduğunu bildirir. Belə bir yaşayış məntəqəsinin Kürəxanə, Kordəxanə, nəhayət müasir tərzdə Kürdəxanı adlandırılması elmi cəhətdən məntiqidir.

Biz yuxarıda Kürdəxanı sözünün 1-ci variantını açıqladıq.

2-ci variantı bizim fikrimizcə, pak Kür sularının əhatəsində olan xanə. Kür sözü, axmayan, bir yerdə duran pak su deməkdi. Yəni necəki Kürdəxanı kəndini qərbdən ağ nohur, şərqdən və cənubdan Kürdəxanı şoru, şimaldan Xəzər dənizi əhatə etdiyinə görə Kürdəxanə adlana bilər.

Kürdəxanıda, «qadın əl işləri» sənətində qızılı rəngdə, güləbatın sapla, dəyərli parçalardan hazırlanmış Quran qablarının, möhür qablarının, saqqal darağı qablarının, canamazların və sairinin üzərində zövqlə çəkilər çəkilərdi. Bu sənət əsərindən aşağıdakı bir nümunə göstərə bilərik. Babamdan qalmış çəki üsulu ilə üstündə «Allah Məhəmməd ya Əli» kəlməsi həkk olunmuş, saqqal darağı qabı:



*Saqqal darağı qabı*

Eyni zamanda Kürdəxanılılar bağçılıqla, bostançılıqla, xırçılıqla, maldarlıqla da məşğul olublar. Kürdəxanı kəndi yaxınlığında olan Ləş bağlarının çox hissəsi Kürdəxanılılara məxsus olub.

***Professor Nisəxanım Ağayeva***

KƏRBƏLAYİ ƏNVƏR NƏZƏRLİ

# İGİDLƏR, QƏHRƏMANLAR MƏSKƏNİ



Mən əslən şamaxılıyam. Hələ məktəb yaşım çatmamış ailəmiz Bakıya köçmüşdür. Öz bağımız olmasa da, yaxın qohum-əqrəba hər yay məni uşaqlarıyla birlikdə bağlarına apardılar. Abşeronun səfalı bağları, kəndləri, Xəzərin mirvari qumlu çimərlikləri o vaxtdan məni heyran etmişdir. Ali məktəbi bitirdikdən sonra Azərbaycanın iki-üç rayonu istisna olmaqla hər tərəfini gəzmiş, yaylaqlarında, qışlaqlarında olmuş, nəcib insanlarla rastlaşmış, düz-çörək kəsmişəm. Doğma Vətənimizin hər guşəsi, hər obası, kəndi bir-birindən gözəldir, valehedicidir. Belə bir torpağın, Vətənin övladı olmağımla həmişə fəxr etmişəm, qürur duymuşam. Torpağı vətənləşdirən insandır, insanı da ana kimi öz qoynunda bəsləyib boya-başa çatdıran vətəndaş edən torpaqdır. İnsansız Vətən, Vətənsiz insan – vətəndaş olmaz. Vətən və vətəndaş məfhumlarını bir-birindən ayrı təsəvvür etmək mümkün deyil, onlar bütöv bir vəhdət təşkil edir.

Nəyə görəsə ata, ya ana övladlarından birini ürəkdə daha çox sevir, o birilərinə hiss etdirmədən daha əziz sanırlar. Övladlar da belədir, hər iki valideynini sevməklə yanaşı biri anasını, biri atasını daha çox istəyir. Mən də Vətənimizin hər guşəsini çox sevirəm. Lakin Abşeronu, xüsusən də tarixi, tariximizdən də o üzə gedib çıxan Kürdəxanı kəndini ayrı bir məhəbbətlə sevirəm, həm də "nəyə görəsə" yox, bir sıra səbəblərə görə.

Bu səbəbləri açıqlamazdan əvvəl qeyd edim ki, çox ölkələrdə olmuş, gözəl yerlər görmüş, hətta dünya şöhrətli ada və yarımadalara (Türkiyənin Adalar adlanan kurort zonası, Quş adası, İspaniyanın dünya şöhrətli Prins və Bolear adaları və s.) səyahət etmişəm. Lakin onların heç biri nə rəngarəng gözəllikdə, nə zəngin təbiətdə Abşerona tay ola bilməz. Onların hərəsi bir cəhətdən gözəldir, Abşeron isə hər cəhətdən. Çox yerlərdə müxtəlif meyvələr, o cümlədən əncir və üzüm yetişən, ancaq Abşeron şanısına və əncirinə çata biləninə rast gəlməmişəm. Allah Abşeronu, necə deyərlər, "könüllü" vaxtında yaratmışdır. Abşeronun Masazır kəndindən çıxmış Əliağa Vahid demişkən, "Bütün gözəlliyi Tanrım o sərvinaza verib".

Qayıdım Kürdəxanıya olan xüsusi məhəbbətimə. 1951-ci ilin iyununda ölkənin müxtəlif regionlarından olan yüz nəfərə qədər gənc zabitlərin Xəzərin qapalı hərbi adalarından birində keçirilən dörd aylıq təlim toplanışına mən də səfərbər edilmişdim. Noyabrın əvvəllərində hərbi təlim toplanışı qurtardı. Bundan əvvəl müəllim işlədiyim rayonda malyariya xəstəliyinə tutulduğum üçün həkimlərin rəyi ilə oradan azad olunmuş, ancaq yeni iş yerinə təyin edilməmişdim.

Bakı Xalq Maarif Şöbəsi məni Kürdəxanı 113 nömrəli orta məktəbə tədris hissəsi üzrə direktor müavini və ədəbiyyat müəllimi göndərdi. Məktəb kollektivi ilk gündən mənə hörmət və qayğıkeşliklə yanaşdı.

Müəllimlərin əksəriyyəti şəhərdə yaşayır, dərslərini deyib qurtaran kimi şəhərə qayıdırdılar. Mən dərs hissə müdiri işlədiyimdən bütün günü məktəbdə olmalı idim. Buna görə də işə başladığım ilk gündən təsərrüfat hissə müdiri İman dayının (kənddə böyüklü-kiçikli hamı onu belə çağırırdı) məsləhəti ilə riyaziyyat müəllimi Əbdül Hüseynov, onlarda qalmağımı təklif etdi. Mənə ayrıca otaq verdilər. Atası Həsənbala kişi də, anası Umu xala da mənə mehribanlıq göstərir, qayğıkeşliklə yanaşırdılar. Həsənbala əmi mömin, dindar idi, kənd içinə az-az çıxar, bütün günü Quran oxumaqla, ibadətlə məşğul olardı. Məndə uşaqlıqdan dinə məhəbbət olduğundan, bir sıra dini məsələləri ondan öyrənirdim.

İman dayının əsil adı İmanqulu idi. Klassik ədəbiyyatı – Nəsimini, Füzulini, Seyid Əzim Şirvanini çox sevirdi. Gözəl mərsiyə və növhə oxumağı vardı. Sərrafın, Racinin, Tutinin mərsiyələrinin çoxunu əzbər bilirdi. Klassik ədəbiyyata məhəbbətimiz tezliklə bizi dostlaşdırdı, aramızda məhəbbət yaratdı. Evləri məktəbə yaxın idi. Hərdən axşamlar məni evlərinə aparar, ərəb əlifbasında olan kitablarından şeirlər oxuyardıq. Qəribədir ki, adi vaxtlarda kəkələyə-kəkələyə danışan bu adam şeir oxuyanda, mərsiyə deyəndə qətiyyən kəkələməzdi.

Bir axşam işdən sonra mənə yaxın qonşu Hacıbalagilə getmək təklif etdi. Getmək istəmirdim. Dedi uşaqları, xü-

susən oğlu Əlihüseyn səni atalarına o qədər tərif ediblər ki, səninlə yaxından tanış olmaq istəyir. Hacıbala məni olduqca səmimi qarşıladı. O, sürücü idi. Sabunçu neft mədənlərində işləyən kəndlilərin o vaxtlar "alabaş" deyilən yük maşını ilə işə aparıb-gətirərdi. Deme, o da şeir vurğunu imiş, "Şeyda" təxəllüsü ilə qəzəllər yazan bu sürücü ilə ömürlük dost olduq. Yetmişinci illərdə mən Şəkidə şəhər Partiya Komitəsi katibi işləyəndə baş çəkmək üçün gəlib bir neçə gün bizdə qalmışdı.

İman dayının təşəbbüsü və vasitəsilə kənd ağsaqqalları ilə tanışlıq dairəm get-gedə genişlənirdi: bir müddət sonra yenə onunla getməyimi təklif etdi. Daha əvvəllərdə olduğu kimi hara gedəcəyimi soruşmadım. Dosta belə sual vermək caiz deyil. Dost dostunu layiqsiz yerə aparmaz. Bu dəfə getdiyimiz ev həyatımda böyük təbəddülat yaratdı. Bura nəcib, elm-bilik dəryası, irfan xəzinəsi olan Məşhədi Hüseynağa adlı bir neft fəhləsinin evi idi. Bir otaq və mətbəxdən ibarət olan evin dər-divarından kasıblıq yağsa da, hər yanda paklıq, səliqə-sahman gözə çarpırdı. Xoş-beşdən sonra çay içə-içə söhbət başlandı. Məşhədi kəndin beş-altı nəfərdən ibarət sayılıb-seçilən ağsaqqalının xahişi ilə Füzulidən danışmağa başladı. Məclis iştirakçılarının yalnız ikisini tanıyırdım. Hacıbala Şeyda və Kərbəlayi Qasıməli. Hüseynağa əmi (mən sonralar ona bu cür müraciət edirdim) böyük şairin "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır; Eşq afəti-can olduğu məşhuri-cahandır" mətləli qəzəlini oxuyur, təhlil edir, hər beyt ətrafında on-on beş dəqiqə izahat verirdi. Nəhayət, qəzəlin məqtəsinə çatdı:

***Gər dersə Füzuli ki, gözəllərdə vəfa var,***
***Aldanma ki şair sözü, əlbəttə, yalandır.***

Məclisdəkilərdən son misranı kimin necə başa düşdüyünü xəbər aldı. Kərbəlayi Məmmədqulu adlı ağsaqqal dilləndi:

– Qoy əvvəl uşaqlarımıza ədəbiyyat dərsi deyən bu cavan qonağımız danışsın.

Möhkəm tutulmuşdum. Utana-utana izah etdim:

– Füzuli bu misrada şairləri yalançı adlandırmır, onların sözünün yalan, mübaliğə olduğunu bildirir. Şairlərin sözü şeirdir. Şeir mübaliğəsiz, məcazsız olarsa, şeirlikdən çıxar, adi bir cümləyə çevrilər. Mübaliğəsiz lüğəvi mənası "şişirtmək", "böyütmək" deməkdir. Şişirtmək əslində yalandır. Məsələn, Füzuli "Fələklər yandı ahımdan" deyəndə oxucuya çəkdiyi ahın həddən artıq yanğılı olduğunu çatdırır. Bu "ülüvv mübaliğə" adlanır. Fələkləri heç ən güclü vulkanların alovu da yandıra bilməz, ancaq Füzulinin ahının alovu o qədər güclüdür ki, yandırır.


Məşhədi Hüseynağa

Mübaliğəyə aid digər bir neçə misal da çəkdim. Hamı təəccüblənmişdi. Hüseynağa əmi mənə tərəf gəlib dedi:

– Müəllim, icazə ver, hamının əvəzində sənin alnından öpüm.

Öpdü və gözləri yaşla doldu. Mən də qəhərlənmişdim. Ertəsi gün işə

getmək üçün, məktəbin qarşısında yığışan fəhlələrə o da, Hacıbala da bu əhvalatı danışmışdılar.

Kürdəxanıda işlədiyim, yaşadığım doqquz il ərzində Məşhədi Hüseynağadan çox şey öyrəndim. O mənim üçün ikinci universitet oldu. Başqa kəndlərdən də onun yanına gəlib əruz vəznini, şerin müxtəlif janrlarını, qəzəlin, qəsidənin düzgün oxunuşunu öyrənənlər vardı. Mən şeri onun kimi ürəkdən, aydın və gözəl oxuyan ikinci adama rast gəlməmişəm. Rəhmətlik çox təmiz və halal adam idi. Kim ona eşitmədiyi bir şeir oxusa və ya hikmətamiz bir söz desə, mütləq gündəliyinə yazar, kimdən və nə zaman eşitdiyini qeyd edərdi. Kiçik oğlu Arif təziyəsində mənə 19 ümumi dəftər göstərib atasından qaldığını söylədi və əlavə etdi ki, bu dəftərlərdə iyirmidən artıq yerdə sizdən eşitdiyi şeirlər vardır. O, yoxsul daxmasındakı zəngin xəzinəni özü ilə axirətə apardı. Allah ona rəhmət eləsin.

Kəndin hörmətli, sayılıb-seçilən ağsaqqallarından biri də Kərbəlayi Əmiraslan kişi idi. Azərbaycanın demək olar, bütün rayonlarında xeyli dostları vardı. Xatirimi çox istəyirdi. Oğlunu evləndirəndə yanıma gəldi:

– Ürəyin hansı xanəndəni istəyir, de, onu gətirim toya, – dedi.

Cavab verdim ki, kimi çağırsa mənə xoşdur. Dəfələrlə israrından sonra Aşıq Şakirin adını çəkdim. Bir qədər fikrə getdi. Aramızda belə bir dialoq oldu.

– Aşıq Şakirin yaxasını ələ keçirmək müşkül məsələdir.

– Niyə?

– Ona azı iki-üç ay qabaqcadan sifariş verirlər. Bizim

toya isə iki həftə qalıb.

– Narahat olmayın, Kürdəmirə gedin. Evdə tapmasanız, yerini sizə deyərlər. Gedib mənim adımdan danışarsınız. Mütləq gələr.

– Bu qədər dostsunuz?

– İnşallah, toyda özünüz görərsiniz.

Üç gündən sonra Kərbəlayi Kürdəmirdən qayıdıb əhvalatı danışdı... Şakirlə görüşmüş, mənim adımdan toya dəvət etmişdi. Şakir cib dəftərçəsini ona göstərib qarşıdakı iki ay ərzində bircə gün də boş olmadığını söyləyib, sonra da deyib ki, Ənvər müəllimin sözünü yerə salmağa haqqım yoxdur, mütləq gələr. Toy günü səhər tezdən özünü Kürdəxanıya yetirdi.

Mən Aşıq Şakirin apardığı neçə-neçə toylarda iştirak etmiş, hamısını da bir-birindən gözəl apardığının şahidi olmuşam. Kürdəxanıda apardığı toy başqa aləm idi: muğamlar, təsniflər, aşıq mahnıları, nitq mədəniyyəti hamını heyran qoymuşdu.

Hər yerdə olduğu kimi, Kürdəxanıda da toyarası xanəndəyə, aşığa bir qədər möhlət verir, hörmətli qonaqlardan xüsusi ayrılmış bir qrup qonağı çaya dəvət edirlər. On beş-iyirmi nəfər böyük bir otaqda çay içə-içə söhbət edirdik. Aşıq Şakirlə yanaşı oturmuşduq. Böyük şair Əliağa Vahid bizimlə üz-üzə tanımadığım iki cavan oğlanın arasında əyləşmişdi. Söz Vahiddən düşdü. Onu nə qədər tərifləsələr də, təvazökarlıqdan dinib-danışmırdı. Birdən yanındakı cavanlardan biri şairə üz tutub dedi:

– Vahid, sən Füzulidən də böyük şairsən. Füzuli sənin

yanında nədir ki...

Vahid oğlana tərs-tərs süzüb nəsə demək istəyirdi ki, mən özümü saxlaya bilməyib onu qabaqladım və şairə müraciətlə dedim:

– Vahid əmi, icazə verin mən də sizin haqqınızda fikrimi deyim, istəsəniz, sonra özünüz danışarsınız. -«Əziz şairimiz, əgər imkan və səlahiyyətim olsaydı, sizə şərəfli bir vəzifə verər, Füzuli məqbərəsinin xidmətçisi təyin edərdim».

Elə bunu demişdim ki, şairin yanındakı oğlanlardan biri əlini qoltuq cibinə salıb tapança çıxartdı. Vahid dərhal əlilə onun qoluna vurub acıqlandı:

– Quşatanını qoy cibinə. Mənə hələ bu qədər yüksək qiymət verən olmamışdır. Ömrünü İmam Hüseyn məqbərəsinə xidmətdə keçirmiş o böyük şairin, o böyük övliyanın məqbərəsinin xidmətçisi olmaq başa düşən üçün ən böyük şərəfdir. Onu da bil ki, bura Kürdəxanıdır, bu cavan müəllim də mənim qardaşoğlumdur.

Sonra oğlanlardan birinin qulağına nə pıçıldadısa, dərhal çıxıb getdilər.

Mən Vahidlə bir xudmani məclisdə tanış olmuşdum. Şirvanlı Məşhədi Əşrəf Nəzərlinin oğlu olduğumu bilib, atam barədə xoş sözlər söyləmiş, hətta atamın iyirminci illərin əvvəllərində ona dərs deməsindən də danışmışdı. Təəssüf ki, utandığımdan harada dərs deməsini soruşmamışdım. Yəqin ki, o vaxtlar hər yerdə açılan savad kurslarında dərs deyib. Həmin vaxtdan o gözəl şair mənə "qardaşoğlu" deyərdi. Allah onun qəbrini nurla doldursun.

Kürdəxanı kəndi həyatımda çox mühüm həlledici dəyi-

şikliklərə səbəb olmuşdur. Bunlardan ən başlıcası gələcək ömür yoldaşım, məktəbdə riyaziyyat müəllimi işləyən buzovnalı qızı Sura xanımla orada tanışmağımızdır.

Kürdəxanı və kürdəxanılılar haqqında nə qədər danışsam ürəyim boşalmaz, demək istədiklərimin çoxu ürəyimdə qalar. Kürdəxanı camaatı comərd, qonaqpərvər və qərib sevəndir, ahılları müdrik, cahılları mərd və böyük-kiçik yeri bilәndirlər, dinə ürəkdən bağlı insandırlar, şeir və musiqi xiridarıdırlar. Mərdlik və igidliklərinin sübutu üçün 1918-ci ildə Azərbaycana köməyə gəlmiş türk qoşunlarının komandanı Nuru paşanın general (paşa) rütbəsi verdiyi, unudulmaz xalq qəhrəmanı Məşhədi Adilin adını çəkmək kifayətdir.

Mən toponimika mütəxəssisi deyiləm. Fars dilində "qord" sözü var. Bu söz Firdovsi "Şahnamə"sində çox işlənmişdir. Bahadur, igid, qəhrəman mənasındadır. Qədim əlyazmalarında və kitablarda "d" və "k" hərfləri eyni cür yazılardı. Bəlkə də "Kürdəxanı" igidlər, bahadurlar, qəhrəmanlar məskəni (evi) mənasını verən "Qordexane" ilə bağlıdır. Bu mənim öz subyektiv qənaətimdir. Düzünü toponimika üzrə mütəxəssis alimlər bilər.

Kürdəxanıdan görkəmli din xadimləri, dərviş və rövzəxanlar yetişmişdir. Dərvişlərə qulaq asmağı sevdiyim üçün müharibə və ondan sonrakı illərdə tez-tez "kubinka" adlanan bazara gedər, saatlarla dərvişləri dinləyərdim. Onların arasında kürdəxanılılar da vardı.

Kürdəxanıda işlədiyim illərdə Əlisöhbət İmanverdi oğlu adlı bır gənclə tanış oldum. Üz-gözündən nur yağan bu cavan (o, məndən iki-üç yaş kiçik idi) təzə-təzə dərvişliyə başla-

mışdısa da, yüzlərlə mərsiyə, növhə, qəsidə və digər şeirlər bilirdi. Onun bu yaşda o qədər şeir, qəsidə, hədis və s. bilməsi, mərsiyə və qəsidənin deyimi qaydasına, musiqiyə bütün incəlikləri ilə bələd olması hamı kimi məni də heyrətləndirmişdi. Onları az zaman içərisində öyrənmək qeyri-mümkündür. Bu yalnız ilahi vergi ola bilərdi. Azərbaycan torpağı ona bənzər ikinci dərviş yetirməmişdir. M.Füzuli qəzəlin, Seyid Şuşinski muğamın, Aşıq Şakir aşıqlıq sənətinin əlçatmaz zirvəsi olduqları kimi, Əli (ə) məddahı Əlisöhbət İmanverdi oğlu da dərvişlik zirvəsi idi, möcüzə idi. Xudavəndi-aləm onun ruhunu rəhmət, qəbrini nura qərq eləsin.

Mən onun oğlu Hacı Casimə dərs deməmişəm. Bu gün Hacı Casim, atası ilə yaxın olduğumu bildiyi üçün mənə xüsusi ehtiramla yanaşır, qayğıkeşlik göstərir.

Yuxarıda qeyd etdiyim kimi, kürdəxanılılar qəribsevəndirlər. Elə bu səbəbdən də oraya işləməyə və ya müvəqqəti yaşamağa gələnlərin çoxu həyatını ömürlük ora ilə bağlayır. Buna çox misal göstərmək olar. Mən yalnız biri ilə kifayətlənirəm: doktor Məmmədəli Məmmədəliyev. Azərbaycanda onu tanımayan az adam tapılar. Ordubadın ən məşhur ailələrindən birinin nümayəndəsi olan Məmmədəli doktor – onu hamısı belə çağırardı – 1940-cı ildə Kürdəxanı ambulatoriyasına baş həkim təyin olunmuş, kənd əhlindən qayğıkeşlik, mehribanlıq görərək həmişəlik burada məskən salmış, ömrünün sonuna qədər Kürdəxanıda yaşamış, övladları da Kürdəxanını özlərinə Vətən etmişlər. Məmmədəli doktor ensiklopedik biliyə malik bir şəxs idi; bir neçə dil bilirdi. Hə-

kimliklə yanaşı, Kürdəxanı məktəbində fransız dilindən dərs demiş, tibb institutunun latın dili kafedrasının baş müəllimi olmuş, Bakının tibb texnikumlarında latın dilini tədris etmişdir. O eyni zamanda səhiyyə nazirliyinin həkimlərə kömək üçün nəşr etdirdiyi kitabçaların, demək olar ki, hamısının ya müəllifi, ya mütərcimi, ya da redaktoru olmuşdur. Evində nadir tapılan zəngin kitabxanası vardı. Ərəb, fars, türk, alman dillərini də mükəmməl bilən Məmmədəli doktor bu dillərdə yaranmış ədəbiyyatın da mahir bilicisi idi.

Onun Azərbaycan, fars, ərəb musiqisində dərindən bələdliyi hamını heyran edir, təəccübləndirirdi. Müxtəlif məclislərdə etdiyi söhbətlər əsil məktəb idi. Onun nəinki kürdəxanılılar, bütün ətraf kəndlərin əhalisi də çox sevirdi. Loğman xasiyyətli həkim idi. Ən uzaq kənddən gecəyarısı belə gəlib xəstələrinə kömək göstərməsini xahiş edənləri gülərüzlə qarşılar, çantasını götürüb piyada yola düşər (o vaxtlar xüsusi maşını olan adamlar yox idi), xəstəyə yardım göstərərdi. Onunla yaxın tanışlığım, illər ötdükcə dostluğa çevrildi. Şamaxılılar böyük qardaşa "dadaş" deyirlər. Mən ona Məmmədəli dadaş deyərdim. Onun həyat yoldaşı Səidə xanım (ona kənddə "Səbiyə bacı" deyərdilər) Şəkinin qədim mötəbər nəslindən idi, axund nəvəsi idi. Mən bu ailə ilə yaxın olmağımla fəxr edirəm.

Kənd ağsaqqallarından Məşhədi Cabiri ("Cabir səliqəsi" ifadəsini kürdəxanılılar indi də işlədir. Cabir kişi bir dələduzun aşını-suyunu vermək istəyir. Ağsaqqallar buna imkan vermir. Əsəbləşən Cabir kişi deyir - buraxın, onu bir səliqəli döyüm. O vaxtdan bu söz qalıb: -"Cabir səliqəsi".),

mahir bənna Əlistan kişi də xatirimdə nəcib insanlar kimi qalmışlar.

Kürdəxanıda dərs dediyim keçmiş şagirdlərim indi yaşlansalar da, gözəl ailə, oğul-uşaq, hətta nəvə sahibləri olsalar da, yenə mənə əvvəlki münasibətlərində qalmışlar. Bu mənim üçün ən yüksək mükafatdır. Onların arasından görkəmli alimlər, müəllimlər, həkimlər, mühəndislər, müxtəlif peşə sahibləri, mütəxəssislər yetişmişdir. Əlbəttə, bunlar məni sevindirməyə bilməz. Sevincimə ən çox səbəb olan isə dünənki uşaqların bu gün ağsaqqallıq səviyyəsinə yüksəlmələridir. Bir zaman əlindən tutub gizli şəraitdə ərəb əlifbası, fars dilini öyrətdiyim Vasim Məmmədəliyevin dünya şöhrətli şərqşünas alim olmasına, akademik səviyyəsinə yüksəlməsinə, elmimizin ən hörmətli ağsaqqallarından biri sayılmasına, respublikada tanınıb-sayılan, dini dairələrdə hörmət qazanan, kənd camaatı arasında sözü keçən, xeyirdə, şərdə köməyini əsirgəməyən Hacı Məmmədəlinin uğurlarına necə sevinməyəsən?

Keçmiş şagirdlərimlə bu gün də əlaqəni kəsməmişəm, daha doğrusu, onlar məni arayıb-axtarır, ehtiramımı saxlayır, xeyirdə-şərdə ardımca gəlib məni kəndə aparır, məclislərinin başında əyləşdirir, övlad qayğısı göstərirlər. Bütün bunlar təsadüfi deyil, ata-babalarından onlara qan yaddaşı ilə, irsən keçən nəcabətdir, millətimizin mənəvi-əxlaqi dəyərlərindəndir.

Bu gün dünyada qloballaşma siyasəti, Avropa standartlarına uyğunlaşma prosesi gedir. Mən elm, texnika, qabaqcıl texnologiyalar, demokratiya, insan hüquqları və s. kimi sa-

hələrdə Avropa standartlarına uyğunlaşmanın ikiəlli tərəfdarıyam. Ancaq mənəvi-əxlaqi dəyərlərimizin bu standartlara uyğunlaşması tələbi ilə heç vəchlə razılaşa bilmirəm.

Ümidvaram ki, xalqımız öz müsbət milli ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qoruyub saxlayacaq Kürdəxanı kəndinin gözəl insanları bu işdə öndə gedənlərdən olacaq.

***P.S.*** *Keçən bazar günü çox sevdiyim istedadlı gənc şair Arif Buzovnalı "Vahid şeir məclisi"nə gəlib xəbər verdi ki, Hacı Casim məni bağa dəvət edir. Onlar ötən yayda da birlikdə gəlib məni Kürdəxanıya qonaq aparmışdılar. Şeir məclisindən yarımçıq çıxıb Kürdəxanıya yollandıq. Hacı Casim üç nəfər qohumu və mənimlə yaxın dost olan Buzovna qəsəbəsinin axundu şair Hacı Soltanı da dəvət etmişdi. Söhbət əsnasında Axund Hacı Soltan mənə çatdırdı ki, Hacı Casim Kürdəxanı haqqında kitab hazırlayır, bu yaxın günlərdə nəşr olunmalıdır. Xahiş etdi, mümkünsə, mən də xatirələrimi yazım. Məmnuniyyətlə razılıq verib yazdım. Vaxtın azlığından yazı uzun alındı. Ümid edirəm ki, hörmətli oxucular məni bağışlayarlar, ümidindəyəm.*

*5 iyul 2008, cümə günü*

# O HAMIMIZIN DOSTU İDİ

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Həyatımın 71-ci ilini başa vurmaqda olduğum bir vaxtda doğulub boya-başa çatdığım kəndimiz, onun yaxın və nisbətən orta keçmişi barəsində elimizin xeyirxah oğlu Hacı Casim tərəfindən təşəbbüs göstərilərək kitab buraxılmasını eşitdikdə çox sevindim.

Kamil və Vərağa Hacının dilindən çatdırdılar ki, mən yeniyetmə və gənclik illərində xeyir-şərdə və gördüyüm-eşitdiyim ağsaqqallardan yadımda qalan epizodları bacardığım tərzdə qələmə alım.

Qələmə alacağım söhbət və hadisələrin riyakarlıqdan uzaq və səmimi olması üçün uca olan Allaha sığınıram.

Uşaqlıq illərim yaxın keçmişimizin tarixində Böyük Vətən müharibəsi və yaxud İkinci dünya müharibəsi kimi qeyd olunan dəhşətli, acınacaqlı illərə düşmüşdür.

Söz yox ki, həmin 1941-1945-ci illərdə bütün sovet məkanında olduğu kimi bizim kiçik kəndimizdə də çörək pulu qazanmaq çox müşkül iş idi. Uşaqdan böyüyə kimi əksəriyyət qadınlar, qızlar və ahıl-qocalar, eləcə də 8-10 yaşdan yuxarı olan uşaqlar acından ölməmək üçün kolxozda işləməli idilər.

Taxıl biçimi vaxtı işə çıxan hər kəsə təndirə yapılmış çörəyin böyüklərə dörddə bir, uşaqlara isə səkkizdə bir hissəsi, bilavasitə iş görülən, – biçin biçilən yerdə və bundan əlavə müvafiq olaraq bir və yarım abgərdən yarma böyük teştdən-(qazandan) növbə ilə verilərdi.

İnsanlar acından ölməmək üçün yayda Şordan duz yığıb

qurudar, qışda şəhərə aparıb sataraq çörək alardılar.

Bütün çətinliklərə baxmayaraq, kəndimizin sakinləri "Hər şey cəbhə üçün" şüarına qoşularaq yorğan və döşəklərindən yunları çıxararaq ya yun kimi, ya da yundan corab və əlcəklər toxuyaraq döyüşən əsgərlərimizə – cəbhəyə yola salırdılar.

Həmin illərdə insanların axırıncı tikələrini bir-birilə bölüşdürdüklərini görmüşəm. Ulu tanrının mərhəmətilə 1949-50-ci illərdən başlayaraq ölkədə ərzaq çatışmazlığının qarşısı alınmağa başlandı.

Kağızın, dəftərin, kitabın tapılmadığı bir vaxtda 113 saylı məktəbimizin müəllimlərindən Xurma müəllimənin, Rəfiqə müəllimənin, Suğra müəllimənin, Fəttah, Mirzağa, Əli, Tofiq, Məmmədtağı, Əlipaşa, İbrahim və başqalarının mənə və başqa şagirdlərə dəfələrlə kitab və dəftər aldıqlarını heç vaxt unutmaram. Hər dəfə öz valideynlərimi yad edib, onlar üçün Quran oxutduranda, eləcə də yeri düşdükcə məclislərdə onların qayğıkeşliyindən ürək dolusu söz açıb ruhlarına dualar deyirəm. Bu insanlar içərisində heç vaxt unutmadığım, mənə əziz olan, öz övladları qədər mənə nəvaziş göstərən Nargilə xalanın xüsusi yeri vardır. Anam Xanımnisə Ələkbər qızına mənə öz biliyinin mənəvi keyfiyyətlərinin aşılamasına görə borcluyamsa, təhsildə və elmdə gündəlik davranış tərbiyəmdə adlarını çəkdiyim və çəkmədiyim müəllimlərimə borcluyam.

Şəxsən mənim anlamımda bir neçə məktəb, o cümlədən ailə-valideyn məktəbi, orta təhsil məktəbi, ali təhsil məktəbi, həyat məktəbi mövcuddur. Adın çəkdiyim məktəblər içərisində həyat məktəbinin insanların formalaşmasında, kamilləşməsində, mətinləşməsində müsbət keyfiyyətlərə

yiyələnməsində böyük rolu vardır və olacaqdır.

Söz yox ki, həmin məktəblərin "məzunlarından" da çox şey asılıdır. Bu məzunlar nəinki sadəcə olaraq bir dinləyici kimi özlərini aparmışlar, yeri düşdükcə özləri də dəyərli təkliflər verməyi, yüksək səviyyədə məclis iştirakçılarına xidmət göstərməyi özlərinə borc bilmişlər.

Yuxarıda qeyd etdiyim kimi, şəxsən mənim boya-başa çatmağımda, tərbiyəmlə anam Xanımnisənin əvəzolunmaz rolu olduğu kimi, təhsilimdə adların çəkdiyim müəllimlərimizin zəhmətləri danılmazdır. Bununla yanaşı, özüm üçün həyat məktəbi saydığım, mənə qarşı səmimi, diqqətli, tələbkar olduqlarına görə dostum, qardaşım İslama, ağsaqqal Həsən Rəcəbova, İslamın qardaşları Qulam, Rüstəm və Əliyə, Bayramovlar ailəsinin yaxın dostları olduğundan mənə də çox böyük hörmət bəsləyən Əlibala Sultanov, Xəyyam Mirzəzadə, Hacı Seyfəl, Ağası Ağəmməd oğlu, Ağa Mikayıl Ağamməd oğlu, İbrahim Murtuz oğlu, Rasim Hacı oğlu, Sabir Hüseynov, Musa dayı Bayramov, işlədiyim rayonların katibləri Elxan Kərimov, Kamal Abdullayev, Elnur Şərifov, Əlsahib Babayev, Siyavuş Əliyev, Kazım Əfəndiyev, Azad Abdullayev, Mürvət Musayev, Kərim Məmmədov kimi insanlara borcluyam.

Kəndimizin ağsaqqalları: Mirəfsəl ağa, Kərbəlayi Dadaş (Vasif), Kərbəlayi Məlik, Kərbəlayi Əmiraslan, Kərbəlayi Qasım Əli, Kərbəlayi Şahvələd, Məşhədi Hüseynağa, Məşhədi Məzahir, Kəlb Hüseyn, Məmməd Əli (doktor), Molla Fətulla, Əli Söhbət (Dərviş), Bəgi (Dərviş), Səlim, Abdulla, Hacımurad, Yarəhməd, Bala əmi, Bala Sətyar oğlu, Nəzir, Səfdər, Sərhəng, Safail, Əmir dayı, Kərəm Əlibaba oğlu, Atababa Əlibaba oğlu, Nəriman (Dəyirman-

çı), Hüseynəli Məlik oğlu, Nəcəfalı, Atəmi, İsmayıl Dadaş oğlu, Nəcəf Əjdər oğlu, Məmmədhüseyn Hacımurad oğlu, İsmayıl Şıxəli oğlu, Bəli Baloğlanov, Eyvaz Bədəl oğlu, Baləli Vəliyev, Əmirah Əmirahov, Məzahir müəllim, Şahmurad Hacımurad oğlu.

Orta məktəb yoldaşlarım: Xankərəm, Ələkbər, Kiçikmirzə (Mirzə) Əlizadə, Valeh, Ağazaman, Xanımnisə, Zibeydə, Qəşəm, Sima, Səmayə.

İş yoldaşlarım: Sabir Bayramov, Əziz Fərəməzov, Şaxsuvar İbrahimov, Eynal Əliyev, Arif Hüseynov, Əlisahib Babayev.

Hazırda yaxından dostluq etdiyim Hacı dostlarım: Hacı Əminağa, Hacı Sabir, Hacı Allahşükür, Hacı Vasim, Hacı İsrafil, Hacı İlyas, Hacı Fərrux, Hacı Həsənağa (Şüvəlan), Hacı Ramiz, Hacı İsrail, Hacı Davud, Hacı Asim, Hacı Arif (Binəqədi), Hacı Məmmədhüseyn, Hacı Arif (Pirşağı), Hacı Tələt, Hacı Əzizbala, Hacı Həsənağa, Hacı Eldar, Hacı Ağarəhim, Hacı Əmirəhməd, Hacı Ağaxan, Hacı Zakir, Hacı Tahir.

Allah dərgahına qovuşmuşlar: Hacı Mail, Hacı Əli, Hacı Əlihüseyn, Hacı Seyfəl, Hacı Dəyanət, Hacı Xudu.

Ali Partiya Məktəbində, İqtisad Universietində, Xalq Təsərrüfatı İnstitutunda təhsil aldığım vaxtlar, Bakının müxtəlif rayonlarında idarə rəhbəri vəzifəsində işlədiyim vaxtlar yüzlərlə insanla ünsiyyətdə olmuş, onların hər birindən müəyyən bir iş – istərsə təcrübə, istərsə söz, istərsə xarakter öyrənməyə çalışmışam.

Onlarla insan adını onsuz da yazmaqla uzunçuluğa yol verdiyim üçün, adlarını çəkmədiyim məni tanıyanlar məni bağışlasınlar.

Yeri düşdükcə mən məclislərimizdə ibrət nümunəsi kimi, öz bacarıq və yaddaş səviyyəmə görə, həmişə əziz tutduğum, mənə öz oğlanları qədər hörmət edən mərhum alim həkimimiz Məmmədəli doktorun dilindən eşitdiyim kəlamlardan, şirin söhbətlərilə bizi valeh edən Məşhədi Məzahirdən eşitdiyim kəlamlardan, eləcə də bir çox dostlarımdan eşidib yaddaşımda saxladığım sözlərdən söhbət açaraq onların ruhlarına dualar deməyi özümə borc bilmişəm və bu əqidəmdə də qalacağam. Ümumiyyətlə, hər bir kəlam işlətdikdə onun ilk müəllifini, kimdən və nə vaxt eşitdiyimi deyib müəllifinin ruhuna salavat deməkdən həmişə zövq alıram.

Alim-həkim Məmmədəli Məmmədəliyev barəsində əziz dostumuz, qardaşımız, dünya şöhrətli alimimiz, respublika Milli Akademiyasının həqiqi üzvü, İslam Konfransı Təşkilatının keçmiş sovet məkanından yeganə üzvü, bir neçə islam ölkələrinin akademiyalarının həqiqi və fəxri üzvü Hacı Vasimin öhdəsinə buraxaraq bu sətirləri qələmə alarkən ölümündən 42 il keçmiş Məşhədi Məzahirdən yadımda qalan bəzi epizodları qeyd etmək istərdim.

Eldar uşaqları olan Hacıbaba, Məzahir, Xandadaş, Bilal, Xudayar (yadımda olanlar) qardaşları içərisində Məşhədi Məzahir mükəmməl təhsil almış, savadlı, hazırcavab, sakit təbiətli, təvazökar, şirin danışıqlı ("ş" səsini xüsusi vurğu ilə deyərdi), klassik şeir vurğunu, tərəf müqabilini özünə cəlb edən bir ağsaqqal idi. Məşhur bir kəlam var deyirlər – "Sən dostlarını mənə göstər, mən deyim ki, sən kimsən!"

Məşhədi Məzahirin dostları əsasən öz yaşına uyğun ağsaqqal dostları (həmyaşıdları), alimlər, yazıçı, şair, xanəndə, axund və müxtəlif peşə sahibləri idilər.

Məşhədi Məzahirin dostlarından mənim tanıdıqlarım

məşhur həkim, alim, pedaqoq, ərəb, fars dillərinin gözəl tədrisçisi Azərbaycan Dövlət Universitetinin baş müəllimi, əruz vəzninin incəliklərinə dərindən bələd olan klassik ədəbiyyatı, Şərq və Qərb ədəbiyyatını, dünya ədəbiyyatını gözəl tədris edən Əli Fəhmi, alim Mirzə Cavadı qeyd etməliyəm.

Axund Əbülqasım Çarxılı (Quba), İsmayıl Rəhimov, Sadıq Rəhimov (Balaxanı), Doktor Əbülfəz (Novxanı), Kəlb Hüseyn, Hacı Murad, Nəcəfalı, Məsumalı, doktor Əli Heydər...

Sənətkar xanəndələr: Seyid Şuşinski, Zülfi Adıgözəlov, Mütəllim Mütəllimov, Yaqub Məmmədov, İldırım, Əbülfət Əliyev, Əlibaba Məmmədov və demək olar ki, bütün o dövrün muğam ustadları.

Məşhədi Məzahirin Bakının və bir çox Azərbaycan kənd və şəhərlərində tanınmış dostları vardı.

50-60-cı illərdə müxtəlif səbəblərdən əsli Qubanın Çarxı kəndindən olan dərin savad və biliyə malik olan Nəcəfül Əşrəf və Qum şəhərlərində təhsil almış Axund Əbülqasım tez-tez dostu Kərbəlayi Şahvələdin qonağı olardı. Axundun gəlişi hamımızı sevindirərdi. Axund Əbülqasımın təkrar olunmayan söhbətlərindən doymazdıq, Axundun Kürdəxanı kəndində çoxlu dostları var idi: Kərbəlayi Məlik, Kərbəlayi Dadaş, Kərbəlayi Əmiraslan, Kərbəlayi Qasıməli, Molla Bəşir, qohumu Məşhədi Hüseynağa və başqaları. Ancaq buna baxmayaraq Kərbəlayi Şahvələd və Məşhədi Məzahirin xatirini daha çox istərdi. Kərbəlayi Şahvələdin evində qonaq olduğu günlər Məşhədi Məzahirin işdən qayıtmasını böyük səbirsizliklə gözlər, uzun payız gecələrində şirin, maraqlı söhbətlər olardı. Bu sətirləri qələmə alarkən Kərbəlayi Şahvələdi ikinci mərtəbə-

dəki otağına, ya da böyük qonaq otağına Axundun maraqlı söhbətlərinə yığışan hazırda Allah dərgahına qovuşmuş şəxslər Müzəffər ağa, Məşhədi Məzahir, Atababa, Kərəm, Salam, Hacı Əzizulla, Zeyqəm, Məşhədi Hüseynağa, Əlisöhbət, Məhəmməd, Fətulla və yuxarıda adlarını çəkdiyim bir çox kənd sakinləri istər-istəməz gözümün önündən keçir. Allah hamınıza rəhmət eləsin. Nə yaxşı ki, sizlər olmuşsunuz.



*Məşhədi Məzahir*

Məşhədi Məzahirin gəlişini səbirsizliklə gözləyən Axund üzünü Kərbəlayi Şahvələdə tutaraq:

– Ay Kərbəlayi, bizim məşhədi dostumuzun başının təkcə əmmaməsi çatmır. O, hazır Axunddur, zəmanənin üzü qara olsun, hər kəs bir parça çörək dalınca avaradır. Mən Məşhədinin gözəl hafizəsinə, nitq qabiliyyətinə, gözəl savadına və məntiqinə vurğunam.

Mən Məşhədi Məzahirin və Axund Əbülqasımın bir-birinə ərəb əlifbası ilə farsca şeirlə yazdıqları məktublarından bir neçəsini öz gözümlə görmüşəm. Məşhədi həmin məktubları nəinki bizim üçün sadəcə olaraq tərcümə edirdi, o, birbaşa şeirlə Azərbaycan dilinə çevirərdi. Yenə də fars dilindən İrandan xanəndənin dilindən eşitdiyi qəzəl və

şeirləri birbaşa Azərbaycan dilinə şeirlə tərcümə etdiyinin şahidi olmuşam.

Bir gün yenə də Kərbəlayi Şahvəlıdin böyük otağında xeyli adam yığışmışdı. Axund üzünü Məşhədi Məzahirə tutaraq mühüm bir dini məsələni aydınlaşdırdı. Axund Əbülqasım danışığına balaca ara verəndə məclisdə oturanlardan biri (qəribə orası idi ki, həmin şəxs ixtiyar çağında təxminən 65-66 yaşında olardı) üzünü Axunda tutaraq: "Ay Axund, sizin danışdığınız mənim başıma girmir". Axund Əbülqasım çox səmimi, həm də bir qədər astadan həmin adamdan soruşdu:

– Sənin adın nədir?

Həmin adam adını dedikdə Axund onun səsini guya eşitmədiyini bildirib, təkrarən onun adını bir də eşitdikdə:

– Hə, "filankəs" məsələ ondadır ki, belə məsələləri sənin başınla ölçmürlər, belə məsələlər sənin başın üçün deyildir.

Sual verən şəxs nəinki Axundun sözlərindən incimədi, əksinə, Axundun söhbətlərinə qulaq asmaq üçün məclisə gəlməyinə belə ara vermədi. Axund Əbülqasımın şirin, məntiqli, elmi-dini, həm də təkrarsız söhbətlərini dinləməkdən doymaq olmurdu. Söz yox ki, öz dostları arasında özündə yorğunluq bilmədən uzun payız-qış gecələrini, fiziki xəstəliyini unudaraq şirin söhbətlərinə ara verməzdi. Axundun istirahətinin vacibliyini nəzərə alan Məşhədi:

– Bu gün üçün bəsdir, Axundu çox yormayaq, sabaha kimi, – deyib xudahafizləşərdi.

1965-ci ilin avqustunda, həmişə olduğu kimi, yenə də günün isti olacağını bildirən sakit günəşli bir gün idi. Kərəm xalaoğlunun zvena başçısı olduğu kolxoz bostanları olan yerdə mən də bir koma quraraq bir qədər bostan-tərəvəz əkmişdim.

Həmin yer bağlarla birləşən sahədə olduğu üçün həm qumsal, həm bərəkətli, münbit, təmiz halal yer idi. Üzüm-əncirdən də xali deyildik. Səhər saat 10 radələri olanda komanın günbatan tərəfindəki kölgədə samovar qaynadıb nahar edirdik. Komamız və oturduğumuz yer elə idi ki, kənddən bağa tərəf uzanan iki torpaq yol gözümüz qarşısında idi. "Ağayar şoru" deyilən yolla bir nəfərin təmkinlə yeridiyi diqqətimi çəkdi. Yanılmamışdım, bu yeriş Məşhədi Məzahirə məxsus idi. Xırda daş-kəsəkdən qorunmaq üçün ayağına keçirdiyi böyükölçülü qaloşlarını sürüyə-sürüyə üzüaşağı gəlirdi. Tez qalxıb Məşhədinin qabağına çıxdım, komamızın kölgəsində bir stəkan çay içməyini, bir qədər dincəlməyini təklif etdim. Məşhədi böyük məmnuniyyətlə əyləşib çay içdi. Tranzistor qəbuledicisi "Spidola"da İrandan Mərziyə xanımın ifasında gözəl konsert gedirdi. Məşhur sənətkarın ifası Məşhədini valeh etmişdi. Muğamlarımızın, klassik ədəbiyyatımızın incəliklərinə dərindən bələd olan Məşhədi, Mərziyə xanımın fars dilində oxuduğu qəzəlləri birbaşa Azərbaycan dilinə tərcümə edir, muğamın guşələrini mənə başa salırdı. Oturduğumuz yerin ab-havası, Mərziyə xanımın ecazkar səsindən doymadan Məşhədi iki saata kimi oturub, qardaşı Bilalın qutaba qonaq çağırdığını bildirib xudahafizləşdi. "Əmir qumu" ilə onu yoluzaq edib qayıtdım. Yarım saatdan sonra şəhərə təzə bazara tərəvəz, pomidor, badımcan aparmışdım. Axşamçağı saat 6-7 radələrində Sabut QAZ-51 maşını ilə bazardan pomidor yeşiklərini yükləyəndə bildirdi ki, Məşhədi Məzahir rəhmətə getdi. Səhər mənimlə 2 saat çay içib söhbət etmiş çox gözəl insan Allah dərgahına qovuşmuşdu.

Səhər məndən ayrılandan sonra Məşhədi qardaşı Bilalgildə

qutab qonaqlığından sonra, saat 2–3 radələrində Mirzəməcidgildə hüzr məclisindən qalxıb evə getmək istədikdə ömrünü başa çatdırmışdı. Allah sənə qəni-qəni rəhmət eləsin, ay Məşhədi. İki gün sonra qardaşının evinin səkisi üstündə Məşhədinin ən yaxın dostları Əli Fəhmi, Doktor Məmmədəli Məmmədəliyev, Bakı Dövlət Universitetinin professoru Ağacavad, novxanılı doktor Əbülfəz, məşhur muğam ustalarımız Mütəllim Mütəllimov, Yaqub Məmmədov, Nəcəfəli, Eyvaz Şahbazov, bu sətirləri qələmə alan bəndeyi-həqir Məşhədinin ölümünün üçüncü günü münasibətilə oturmuşduq.

Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin baş müəllimi, klassik şerimizin, əruz vəzninin əvəzsiz bilicisi, dünya şöhrətli akademikimiz Hacı Vasim Məmmədəliyevlə birlikdə müqəddəs Qurani-Kərimin Azərbaycan dilinə tərcümə olunmasına başlamış (bu barədə Qurani-Kərim azərbaycanca tərcüməsinin ön sözündə Hacı Vasimin yazdığına nəzər sal) Əli Fəhmi üzünü məclisdə oturanlara tutub dedi:

– Ay kürdəxanılılar, siz elə bilməyin ki, sizin təkcə Məşhədi Məzahiriniz rəhmətə gedib. Sizin böyük bir aliminiz, başı əmmaməsiz bir Axundunuz, gözəl, səmimi bir insanınız rəhmətə getmişdir. O bizim hamımızın dostu idi. Klassik şerimizin incə düyünlərinin açılmasında birlikdə çox söhbətlərimiz olmuşdu. Çox işıqlı insan idi.

Allah ona qəni-qəni rəhmət eləsin.

***Hacı Məhəmmədəli***

## "ƏXİ ZAVİYƏSİ"NİN KİTABƏSİ

Kürdəxanı kəndinin qərb tərəfindəki qəbiristanlıqda vaxtilə bir əxi zaviyəsi olmuşdur. Abidə indi uçmuş, onun ancaq bünövrəsi qalmışdır. Lakin zaviyə uçduqdan sonra onun şərq fasadında yerləşdirilmiş kitabəsi Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyinə gətirilmişdir. Kitabə ərəbcə iki sətirdən ibarətdir. Həmin sətirlərin tərcüməsi: "Bu şərəfli zaviyəni Hacı Əbailə oğlu Nurullah şeyxlərin qabaqcılı, əzəmətli Şeyx Əli Şirəman... üçün səkkiz yüz əlli ikinci ildə tikdirmişdir [852-1448/49]".

Kürdəxanı abidələrini indiyə qədər nəşr edən olmamışdır. Uçulmuş zaviyənin fotosu Azərbaycan SSR Nazirlər Soveti yanında Memarlıq İşləri İdarəsində saxlanmaqdadır. Fotodan göründüyü kimi, abidənin şəkli çəkilən zaman üstü və bəzi tərəfləri artıq uçub dağılmaq ərəfəsində imiş. Zaviyənin hazırda qalmış bünövrəsindən aydın görmək olur ki, bina iki otaqdan ibarət olmuşdur.

Kitabə vaxtilə Ə.Ələsgərzadə tərəfindən oxunmuşdur. Lakin o, kitabənin ikinci sətrinin başlanğıcında bir neçə hərf ovulub töküldüyü üçün həmin hissəni oxumamışdır. Bu hissədə "Şirəman" və yaxud "Şiran" və "Xoda" sözlərini oxumaq olur.

Həmin abidədəki maraqlı cəhət, kitabədən XIV əsrin birinci yarısında Abşeronda Əxi zaviyəsi və Əxi təşkilatı olduğunun müəyyən edilməsidir.

1861-ci ildə Bakıda olmuş akad.B.Dorn, həmin ilin Qafqaz səyahəti haqqındakı hesabatında şəhərin qala qapılarının sağ tərəfində, hasar bünövrəsindən təqribən 1-1,2 arşın yuxarı, divarda hicri 786-cı il (miladi təqribən 1377) tarixli Əxi bin

Ramazan Əşşirvani adı ilə əlaqədar olan bir kitabənin olduğunu qeyd edir.

Həmin kitabənin oxunuşuna SSRİ Elmlər Akademiyasının Leninqraddakı arxivində saxlanmaqda olan B.Dornun fondunda rast gəlirik. İkisətirlik ərəbcə yazılmış kitabəni Dorn belə oxumuşdur. Həmin sətirlərin tərcüməsi: "Bu imarəti 786-cı ildə (miladi təqribən 1367) mübarək rəcəb ayında Əxi bin Ramazan Əşşınvani tikdirdi".

Beləliklə, buradan göründüyü kimi, Azərbaycanda nəinki XV əsrdə, hətta XIV əsrin ortalarında da Əxi zaviyəsi olmuşdur.

Şübhəsiz, həmin kitabə Bakıda olmuş Əxi zaviyəsinin kitabəsidir. Uçulmuş zaviyənin yerindən götürülmüş kitabənin həkk olunduğu daşdan sonralar qala hasarının təmirində bir inşaat materialı kimi istifadə edilmişdir. Əxi cəmiyyətinin nəinki XIV əsrdə, hətta ilk mənbələrin verdiyi bəzi məlumatlara əsasən XI əsrdən başlayaraq Azərbaycanda mövcud olduğunu demək olar. Caminin "Nəfəhatülüns" əsərində Əxi Fərrux Zəncanının (1064-1065) adı çəkilir. Dövlət şah Səmərqəndinin verdiyi məlumata görə, böyük şair Nizami Əxi Fərruxun müridi olmuşdur.



*Əxi zaviyəsinin yaxınlığında XV əsrdə əkilmiş qara tut ağacı*

"Səfətüs səfa" əsərindən göründüyü kimi, Sulta-

niyyəyə gəlmiş Əmin-Əddin adlı bir nəfər Əhməd Səqqanın (suçu) zaviyəsində qonaq edilərək, zaviyənin süfrəsində ona yemək verilmişdir.

Zaviyənin suçu Əhmədin adı ilə adlanması və əxilərin qonaqpərvərlik adətlərinə əsasən ehtimal etmək olar ki, Sultaniyyədəki həmin zaviyə xırda peşəkarların Əxi zaviyəsi olmuşdur.

XII əsrdə Baylakanda mustovfa vəzifəsində çalışmış Məsud Namdar oğlunun Baylakan zaviyələri haqqında verdiyi məlumata əsaslanan Y.A.Paxomov həmin dövrdə Baylakan şəhərində əxilərin xırda sənətkar təşkilatının olmasını ehtimal edir.

XIV əsrin ərəb səyyahı İbn Butətənin yazdığına görə, əxilər zülmkarlara qarşı mübarizə aparan, sənətkarların mənafeyini güdən bir cəmiyyət olmuşdur.

Ümumiyyətlə, onlar hər yerdə olursa olsunlar zülmkarlara qarşı mübarizə aparmağı özlərinə vəzifə bilmişlər.

Əxilər həm də xarici ölkədən gələn qərib adamları qonaq edərək, onların ehtiyaclarını ödəyərmişlər. Bu cəmiyyətin üzvləri sənət sahibi olan subay gənclərdən ibarət olmuşlar.

XII əsrdə Gəncə emalatxanalarında işləyən cavan sənətkarların və kiçik yaşlı oğlan uşaqlarının iş proseslərini tərənnüm edən Məhsətinin rübailərinə əsasən də deyə bilərik ki, sənətkarlar əsas etibarilə gənclərdən ibarət olmuşdur.

Prof.Bartoldun yazdığına görə, Nizaminin əsərlərində də Gəncə sənətkarlarına hüsn-rəğbət hiss olunur. Dövlətşah Səmərqəndinin verdiyi məlumata görə isə Nizami yuxarıda adı çəkilən Əxi Fərrux Zəncaninin müridi olmuşdur. Deməli, XII əsrdə Gəncədə də əxi təşkilatı olmuşdur.

Azərbaycanda yayılmış əxilər cəmiyyətinin nə kimi

bir təşkilat olduğu, onun ictimai-iqtisadi əhəmiyyəti hələlik müəyyən edilməmiş və bu məsələ Azərbaycan tarixi zəncirinin boş qalmış bir halqasını təşkil etməkdədir.

Ümumiyyətlə, əvvəllər Şərqdə yayılmış bu cərəyanın ilk dəfə harada təşkil edildiyi və bu cəmiyyətin qanun məcəlləsini yazan şəxsin kim olduğu və bu təşkilatın proqramının nədən ibarət olduğu hələlik dəqiq surətlə müəyyən edilməmişdir.

Karl Marks əmələ gəlmiş sənətkar sexlərini xarakterizə edərək demişdir: "Şəhərlərdə mülkiyyətin qruplaşması, sənətkarlığın feodalcasına təşkili torpaq mülkiyyətinin feodal quruluşuna uyğun gəlirdi. Burada mülkiyyət əsas etibarilə hər fərdin ayrıca əməyindən ibarət idi. Birləşmiş soyğunçu dvoryanlara qarşı birləşməyin zəruriliyi, sənaye sahibinin eyni zamanda tacir olduğu bir dövrdə ümumi bazarlara olan tələbat, çiçəklənməkdə olan şəhərlərə qarşı axıb gələn qaçqın təhkimçilərin rəqabətinin artması, bütün ölkənin feodal quruluşu, bunlar hamısı sexləri törətdi".

Marksın dediyini eynilə Azərbaycana tətbiq etmək olar.

Məlum olduğu kimi, Azərbaycanın zəngin sərvətə malik olması get-gedə məhsuldar qüvvələrin inkişafını, sənətkarlığın və ticarətin daha da canlanması, şəhərlərin getdikcə böyüməsi və bununla əlaqədar olaraq qüvvətlənməkdə olan feodallara qarşı mübarizə etmək məqsədi sənətkarları müəyyən təşkilatlarda birləşməyə məcbur etmişdir.

Həmin təşkilatların isə yuxarıda qeyd olunan, kəsik-kəsik də olsa, materiallarına əsasən əxi cəmiyyətləri olduğunu deyə bilərik.

Sənətkarların feodallara qarşı mübarizələrinə rəhbərlik etmiş əxilər haqqında 1406-cı ildə Əxi Qəssabın başçılığı

ilə teymurilərə qarşı baş vermiş Təbriz üsyanını qeyd etmək olar. Əxi Qəssabın başçılıq etdiyi Təbriz yoxsulları və sənətkarlarının həmin üsyanı qalib gəlmiş və Əxi Qəssab bir neçə ay Təbriz şəhərinin idarəsini öz əlinə almışdı.

Beləliklə demək olar ki, əxilər XIV əsrdə və XV əsrin əvvəllərində Azərbaycanda möhkəm bir siyasi qüvvəyə çevrilmişdilər. Onlar o qədər mütəşəkkil olmuşdular ki, hətta sənətkarlara aid müxtəlif məsələləri birlikdə müzakirə etmək üçün müəyyən zaviyələri də olmuşdur.

Biz, əlbəttə, bununla bəhs etdiyimiz məsələni bitmiş hesab etmirik. Şübhəsiz, sonrakı tədqiqatlar həqiqəti meydana çıxaracaqdır”[1].

## Ə.ƏLİ ƏSGƏRZADƏ – TARİXÇİ, ALİM ƏFŞƏRAN ABİDƏLƏRİ HAQQINDA MATERİALLAR

Kürdəxanı – kürdəxanı kəndində nəzəri diqqəti cəlb edən asar (abidə) binalardan ibarətdir:

Qəbristanlıqda olan zaviyyə, qəssabqülu piri, Hacı Cəfər məscidi və Dəmir qaya hamamı.

Zaviyyə kəndin qəbristanlığında vaqədir. Zaviyyə ağ daşdan tikilmiş olub hicri 852-ci ildə inşa edilmişdir. Zaviyyənin qərb divarında olan kitabəsindən anlaşdığına görə bu zaviyyə əxi Kurulla adlı bir şəxsə aiddir. Mənim bildiyimə görə Əfşəran yarım adasında əxilərə aid bundan başqa

[1]FP/1361 M.X.Nemətova. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında). Bakı,1959, səh.114-118.



*Əxi zaviyəsinin yaxınlığında XV əsrdə əkilmiş qara tut ağacı*

bir abidə yoxdur. Bu isə vaxtilə Anadoluda dərin bir kök salmış olan əxilərin Əfşəran yarım adasında belə saliklərə malik olduğunu açıq bir surətdə göstərməkdədir.

Əfşaran abidələri içərisində müstəsna bir mövqe tutan bir zaviyyə və yenə əski bir dövrə aid olan Dəmirqaya hamamı 1924-cü ilin axırı yaxudda 1925-ci ilin əvvəllərində təmamilə sökülərək, daşları Zabrat-Kürdəxanı-Pirşağı kəndləri arasında Azərneft tərəfindən çəkilən şosse yola işlənmişdir. Çox təəssüflü olan bu hala bir tərəfdən yerli hökumətin tarixi binalara qarşı olan baş soyuqluğu, digər tərəfdəndə AzÜUP-up (Центр управления по охране памятников) səhlənkarlığı səbəb olmuşdur. Qulağımızın dibində tarixi abidələrdə böylə rəftar edilirsə uzaq rayonlarda kim bilir nələr olacaqdır. Ona görə AzÜUP bir an itirmədən Tarixi abidələrin mühafizə edilməsi barəsində əməli hərəkətlərdə olması və tarixi qiyməti haiz olan binaların sökülüb

dağılmasında müqəssir olanları məsuliyyətə cəlb etməlidir. Məncə müqəssir olanlar məsuliyyətə çəkilər və mətbuat vasitəsilə əfkar ümumiyyətlə bildirilərsə bu artıq baş verməz.

Zaviyyənin kitabəsi iki sətrdən ibarət olub mətni böylədir:

Qəssabqulu – Ocaqdar, qadınlar buraya müxtəlif arxularla nəzir gətirər və halva çalarlarmış. Ümumi qəbristanlığın qərbində vaqe olan bu ocaq üstü açıq dörd divardan ibarətdir,divarların hündürlüyü bir arşin qədər olur. Ocaq son illərdə artıq əvvəlki nüfuzunu itirərək mətruk bir hala düşmüşdür.

Hacı Cəfərqulu məscidi – kəndin cənub tərəfində vaqedir. Bu məscid son zamanlarda tikilərək daha çox əski olan bir binaya əlavə edilmişdir. Əski binanın kitabəsi dəfələrlə əhənglə ağardılıb örtüldüyündə hələlik oxunması mümkün olmadı. Fəqət kitabəsinin birinin sətrindən anlaşıldığına görə bu əski bina «Məscidi came» olmuşdur. Xalqın rəvayətinə görə Kürdəxanı kəndinin əsli, kəndin yarım km-lik cənubunda olan Zənqədar adlı yerdə olmuşdur. Kəndlilər bu yerdə bağ bostan atarkən içində saxsı qablar, əslihə və muncuq olan qəbirlərə rast gəlmişdir. Bu sözlərin nə qədər doğru olub olmadığı isə şübhəsiz burada aparılacaq arxeoloji qazıntılardan asılıdır.

Kürdəxanıda olan tayfalar isə bunlardır:

1. Hacı Məmmədli
2. Hacı Ağali
3. Ağa Məmmədli (Seyid)
4. Koxalı
5. Muradlı
6. Musalı
7. Gəncəli
8. Hacı Xanlı
9. Bünyadlı
10. Əlibəyli
11. Poladlı
12. Zeynallı
13. Kəlbxanlı

## KÜRDƏXANI "CÜMƏ MƏSCİDİ"NİN KİTABƏLƏRİ

Cümə məscidi minarəsinin kitabəsi. Bu məscid Kürdəxanı qəbiristanlığından bir qədər şərqdə, kəndin qərb tərəfində tikilmişdi. Məscid təzə və köhnə olmaqla iki hissədən ibarətdir. Hər bir hissənin planı düzbucaqlı şəklindədir. Bu iki hissənin birləşməsinin ümumi planı "T" şəklini təşkil edir. Şimalda qalan hissə köhnə məsciddir. Cənub hissəsi isə köhnəyə sonradan əlavə olaraq tikilmişdir.

Şimal hissəsinin damı düz səthli, içəridən isə tavanı çatma tağlıdır. Cənub isə tən ortadan bir günbəzlə örtülmüş, içəridən isə şərq və qərb tərəfləri tağ tavanlıdır. Köhnə hissənin şərq divarında qapının sağ tərəfində çatma tağlı balaca bir pəncərə vardır. "A" hissənin qərb tərəfində üç, şərq divarında isə iki, bir-birindən müxtəlif məsafələrdə olan



*XV əsrdə tikilmiş Kürdəxanı məscid (1932-ci ilin rəsm əsəri)*

camaxodanlar vardır. "B" hissəsinin dörd pəncərəsi vardır ki, bu pəncərələrin ikisi şimala, ikisi isə cənuba baxır.

Memarlıq bəzəyi ilə bəzədilmiş mehrab cənub tərəfdədir. Məscidin döşəməsi şum torpaqdan ibarət olub, damı isə qır ilə suvanmışdır.

Abidənin "B" hissəsi karnizlə əhatə olunmuşdur. Köhnə hissəsi isə şimal və qərb tərəflərdən karnizlə əhatə olunduğu halda, şərq tərəfdən karnizsizdir. Şimal tərəfdə köhnə hissənin şərq fasadına yapışıqlı, dama çıxmaq üçün daş pillələnlər vardır.

Məscidin "A" hissəsindəki kitabə. XV əsrin birinci yarısından qalmış bu kitabə şərq fasada çatma tağlı qapının üzərində yerləşmişdir. Kitabənin eni 0,55 metr, uzunu isə 1,60 metrdir. Ərəb dilində bir sətirdə yazılmış həmin kitabə belə oxunur. Tərcüməsi: Bu Cümə məscidin tikilməsini Hacı Pəşəng hicri səkkiz yüz səkkizinci ildə əmr etdi. Allah ona daimi salavat və salam göndərsin (848-1444/45).

Həmin abidəni vaxtilə İ.P.Şeblıkin də tədqiq etmişdir. O, məscidi bir sıra detalları ilə Nardaran kəndindəki XIV əsrə aid olan bir məscidə oxşatdığı üçün onun da XIV əsrdə tikildiyini qeyd edir. Lakin məscidin üzərindəki kitabə abidənin XIV əsrdə deyil, 1444/45-ci ildə tikildiyini söyləyir.

Məscidin "V" hissəsi kitabə. Üçsətirlik bu kitabə fars və ərəb dillərində yazılmışdır. Oxunuşu belədir (tərcüməsi): Kürdəxanılı Əbdülrəhim oğlu hacıların yaxşısı Hacı Cəfərqulu hicri 1315-ci ildə bu məscidi tikdirib, rəhimlilərin rəhimlisi olan Allahın adına xalqa vəqf etmişdir (1315=1898/98). Nardaranlı usta Begəlinin işidir.

Bu kitabədən göründüyü kimi, məscidin cənub hissəsini hicri 1315 (1897/98)-ci ildə Kürdəxanılı Hacı Cəfərqulu tikdirmişdir. Həmin hissəni tikən usta isə nardaranlı usta Begəli olmuşdur.

Məscidin içərisi sonradan hicri 1316 (1898/99)-cı ildə malalanarkən, malanı çəkən usta mehrabın üstündə yuxarıda aydın xətt ilə, qabarıq şəkildə öz adını, malanın çəkildiyi ili və aşağıdakı sözləri yazmışdır:

"Hacıbala, 1316. Allah Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn"[1].

## KÜRDƏXANI KƏNDİNİN MƏSCİDİ

Kürdəxanı məscidinin görkəmi öz qeyri-adiliyilə Q-şəkilli olaraq təzə hissənin köhnə binanın yanında tikilməsi nəticəsində alınmışdır.

Bu o səbəbdən belə alınmışdır ki, köhnə binanın sahəsi çox dar idi. Binanın köhnə hissəsi plana görə 16x4 m ölçüdə dördbucaqlı kimi təsəvvür olunur.

Eninə tərəfdən divarların arxasına çıxış tağ vasitəsi ilə iki bərabər olmayan hissələri bölünür.

Beləliklə məscid binasının qalan ayrılmış kiçik tayın döşəməsi 50 sm hündürlüyünə qaldırılmışdır.

Bu hissə xüsusi olaraq qadınlar üçün ayrılmışdır.

Bu hissəyə şərq divarı tərəfindən ayrı qapı yeri tikil-

[1]M.X.Nemətova. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı,1959, səh.114-118.



*XV əsrdə tikilmiş məscidin müasir görünüşü. Məscidin təmiri 2007-ci ildə Hacı Hüseynağa Hüseynəli oğlunun təşəbbüsü ilə onun, Hacı Azərin, Hacı Şəmsinin, Hacı Valehin və başqalarının əməyi və vəsaiti hesabına başa çatdırılmışdır.*

mişdir. Binanın qalan böyük hissəsi kişilər üçün ayrılmışdır. Bura xüsusi qapı açılırdı, hansı ki, qərb qapının mərkəzində tikilmişdir.

Qapıların bu tərzdə yerləşdirilməsi qadınların kişilərlə görüşməməsi məqsədini daşıyırdı.

Binanın köhnə hissəsinin üstü şişbucaq şəkilli tağtavanla örtülmüşdür. Binanın hündürlüyü xarici ölçülərinə görə 4 m çatır.

Divarlar sadə şəkilli yastı daş görkəmində olan divarın üstündən 2 sm hündürlüyündə gedən karniz ilə tamamlanır.

Şərq divarına tikilmiş daş pilləkən binanın damına aparır. Şərq divarda qapının üstündə yazılar vardır.

Çox yeyilmə daşın üstündə olan mətnin məzmunun və binanın əsası qoyulduğu ilin təyin etməsinə mane olur. Divarlarda çoxlu dəyişirilmə, təməl qoyma, malalanma və ağartma izləri var.

Beləliklə, bizdə bu məscidin tarixini dəqiqliklə təyin etmək üçün məlumat yoxdur.

Bir sıra hissələrin, planın uzunluğu kimi, qadınlar hissəsinin şimal tərəfdə yerləşdirilməsi, döşəmənin bu hissədə həddən artıq qaldırılması dəqiqliklə köhnə Nardaran məscidini təkrarlayır. Orada olan yazılar dəqiqliklə göstərir ki, Nardaran məscidinin əsası XIV əsrdə qoyulmuşdur. Verilən göstəricilərə görə Kürdəxanıda olan məscidi də XIV əsrə aid etmək olar.

Qadın hissəsini binanın ümumi sahəyə daxil etmək istəyi binaya yeni, artıq dərəcədə uzun otaq görkəmi vermək (tərəflərin 1:4 nisbətində olması) qərarına gətirib çıxartdı.

O zaman XIV əsrin Əmircan məscidində bu məsələnin həlli fərqli idi. Orada qadın hissəsi ayrıca bir otaq kimi yanaşı yerləşirdi və kişi hissəsindən divarla ayrılırdı. Divarda çoxlu dəliklər var idi. Onlar qadınlara imkan verirdi ki, yanaşı olan hadisələri izləsinlər və kişilər tərəfindən görünməsinlər.

Məscidin yeni hissəsi köhnə məscidin cənub tərəfinə tikilmişdir. Bu səbəbdən cənub şalbanbaşı ilə tikilmiş olan mehrablı divarın sökülməsi məcburiyyətinə gətirib çıxartdı. Mehrab isə yeni divarın hissəsində tikilmişdir.

Təzə tikili düzdördbucaq şəkillidir (13,2x4,85 m). Köhnə binanın oranın uzununa olan məhvəri eninə olan məhvərə perpendikulyardır.

Tikililərin bu cür kompozisiyası Abşeronda məscdilərin yeni Q-şəkilli binaların yaranmasına gətirib çıxartdı.

Yeni binanın mərkəzi hissəsi gümbəzlə örtülmüşdür. Şərq və qərb hissələri xaç-şəkilli tağtavanla örtülmüşdür.

Yeni bina çox işıqlıdır. Lakin köhnə bina olduqca qaranlıqdır. Bu qədər orijinal planı olan Kürdaxanı məscidi Abşeronda tək deyil. Ona bənzər binalara Biləcərdə və Abşeronun başqa yerlərində rast gəlmək olar.

## ABŞERON DƏYİRMANLARI

Abşeronda olan qurğular suyun alınma üsulları olduqca orijinal və maraqlıdır. Nümunə üçün dəyirmanları göstərmək olar. Bir sıra kəndlərə gedərkən hamısında olmasa da, əksər kəndlərdə biz daş dəyirmanlarla rastlaşdıq. Onları gərəksiz vəziyyətdə müxtəlif yerlərdə görmək olurdu, bəzən onları qəbir üstündə görmək olurdu (Ramana, Qala və sair). Üst dəyirman daşları üzərində olan xüsusi emalla seçilirdi.

Binaların özlərinə isə çox tək-tək rast gəlmək olardı, onlarda ki qalıqlar vəziyyətindədirdilər. Elə dəyirmanlara da rast gəlmək olurdu ki, onlar yenidən qurulmuşdurlar və köhnə binanın görkəmindən onlarda əsər-əlamət qalmamışdır.

Belə dəyirmanlara biz Keşlədə rast gəldik. Onlar tamamilə qorunulmuş vəziyyətdə olan qurulmuş dəyirmanlardandırlar. Kürdəxanı kəndində biz köhnə dəyirmana təsadüf etdik, örtüylə birlikdə, tam qorunulmuş vəziyyətdə idi. (lakin dəyirman daşları yox idi). Bu göstərilən qurğuları müqaisə etdikdə demək olar ki, onların hamısı ümumi planlı həllini tapmışdır. Həm də, həcminə və örtük inşaatına görə ayrı-ayrı hissələrin ölçülərinə görə fərqlənirlər, pəncərə yerlərinin miqdarı və qapı yerlərinin yerləşməsinə görə fərqlənirlər.

Kürdəxanı dəyirmanını əsas götürərək biz deyə bilərik ki, dəyrman 2 hissədər ibarətdir: bir düzbucaqlı otaqdan (3x2,85 m hündürlüyü 2,85 m bir tərəfdən dairəvi şəkilli diametri 4 m bərabər) olan otaqdan ibarətdir. Amma bir yerdə çevrənin divarlar dairəsi ilə sadəcə olaraq divarların xəttləri binanın düzbucaq hissəsi ilə kəsişir. Bir ayrı yerdə



*Qədim Kürdəxanı dəyirmanı*

binanın bir hissəsinin düz xəttləri planlı əyrilər, ümumi binanın ikinci hissəsinin çevrəsinə mülayim əysilər vasitəsilə keçirlər.

Binanın dairəvi hissəsi gümbəzlə, düzbucaqlı hissəsi tağtavanla örtülmüşdür. Bütün bina zəif əhəng məhlulu əsasında daşdan tikilmişdir.

Divarlara düz qəlibli daşlarla üz çəkilmişdir. Binanın divarının dairəvi hissəsində yerdən 1 m hündürlüyüdə dəlikli pəncərələr tikilmişdir (eni 10 sm hündürlüyü 25–30 sm).

Pəncərə yeri divarın xarici hissəsi tərəfinə enlənərək 30–40 sm qədər çatır. Binanın düzbucaqlı hissəsində divarda daşdan adi görkəmli at bağlanan yer vardır.

Eynilə at bağlanan yer xarici tərəfdə vardır. Həmin yerdə dördbucaqlı binanın düzbucaqlı binanın düzbucaqlı girişində yem təknəsi qurulmuşdur.

Dəyirman daşlarının binanın mərkəzində qurulması üçün daşlardan dairə – şəkilli sahə tikilir. 3–4 cərgə qaydası ilə tikilən sahənin hündürlüyü təqribən 60 sm çatırdı. Sahə-

nin az hissəsi dairəyə görə eni 85 sm qədər dərinliyi isə 65 sm qədər çatır.

Sanki axıracan hörülməmişdir. Beləliklə, balaca dərinləşmə alınır ki, oraya da dəyirman daşından tökülən un xüsusi qablara yığılır.



Göstərilən sahənin üstünə alt dəyirman daşı qoyulur. «Alt-daşı» yuxarıda göstərilən boşluğu və bütün sahəni örtür. Alt dəyirman daşı 12 sm enliyində,diametri 10-12 sm olan üst dəyirman daşından böyükdür. «Üst – daşı» üzərində xüsusi işləmələr vardır. Onun eni 17 sm olaraq dairənin bir hissəsi







5 sm qədər dərinləşdirilir. Dərinləşmiş isə dairə şəkilli mərkəzdə olan sahə qalır (diametri 30-35 sm və üç millər mərkəzdən dairənin qırağına gedir).

Bu millər 5 sm enində olarkən xarici qırağa çatarkən 15 sm qədər artır. Bu işləmədə iki məqsəd güdülür: həddən artıq dərəcədə daşın çəkisi azalır, həm də daşın qalın qalmış hissələri müqavimət göstərir, daşı sınmadan qoyulur. Daş bütün səthilə nazik olarsa sınma baş verərdi. Hər iki dəyirman daşı bir-birilə mil vasitəsilə birləşir, hansı ki hər iki daşın mərkəzindən keçir. Alt daşı möhkəm, tərpənməz halda bərkidilmişdir. Üst daşın dəliyi milin enindən bir qədər enli olduğundan axırıncının ətrafında rahat hərlənir. Bu mərkəz dəliyə buğda tökülür, iki daşın arasında üyüdülür və un halında alt daşda olan xüsusi kanala, sahənin boşluğundakı yekə qaba tökülür. Daşın hərlənmə hərəkətindən un ətrafa dağılmasın deyə üst daşın dairəsinə ensiz 5 sm olan zolaq çəkilib, hansı ki sal daşlarla çəpərlənib. Onlar dik vəziyyətdə bütün sahə ətrafında qoyulmuşdur. Bəzən sal daşlar L-şəkilli fiqurlu daşlarla əvəz olunur. Bu daşlar sahənin qırağına bərkidilib. Üst Daş atın köməyi ilə hərəkətə gəlir. At xüsusi qoşqu ləvazimatı vasitəsilə daşa bağlanır. Sonra at sahənin ətrafı ilə gedərək daş hərləndirir.

Atın rahat hərlənməsi üçün binanın divarı və dəyirman daşı olan sahə arasında 1 m 20 sm olan dairəvi yol çəkilib.

Novxanı kəndində bir qoca ilə söhbətdən bir neçə maraqlı faktlar aşkarlandı. Qocanın dediyinə görə dəyirman daşlarını yerli daşlardan yerli ustalar düzəldirmiş. Dəyirmanın tikilməsi 50 rubla, 8 kq buğdanın üyüdülməsi isə 50 qəp. başa gəlirdi.

Təsvir edilmiş dəyirmanla yanaşı iri daşlarla tikilmiş sahə – tok vardır. Orada müxtəlif toxumlar istehsal edilirmiş.

Burada samanın saxlanması üçün olan qurğuların qalıqları vardır.

Bu cür qurğulara Buzovna və sair kəndlərdə çox rast gəlmək olur.

| | **1816 г.**<br>**16 № ДЕРЕВНИ КЮРДАХАНЫ**<br>**ВЛАДЕЛЬЦЫ СЕМЕЙ**<br>8-е поколение | ЧИСЛО ДОМОВ | МУЖЧИНА | ЖЕНЩИНА | ВЕРБЛЮДОВ | ЛОШАДЕЙ | КРУПНОГО . РОГ. | ОВЕЦ | ФРУКТ. САДОВ. | ШАФР. САДОВ. |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | АБДУЛЛА БЕК | 1 | 6 | 5 | -- | 3 | 2 | -- | 1 | -- |
| 2 | АХВЕРДИ | 1 | 8 | 3 | -- | 2 | 2 | 20 | 1 | 1 |
| 3 | МУСА | 1 | 4 | 4 | -- | 1 | -- | -- | -- | 1 |
| 4 | КАДЫМ АЛИ | 1 | 2 | 3 | -- | -- | 2 | 17 | 0,5 | 0,5 |
| 5 | ОРУДЖ АЛИ | 1 | 3 | 2 | 1 | -- | 3 | -- | -- | 1 |
| 6 | МУРАД АСИЛ | 1 | 2 | 2 | -- | -- | 5 | -- | 1 | 1 |
| 7 | ШАХВЕРДИ | 1 | 3 | 7 | -- | 2 | -- | -- | -- | 2 |
| 8 | БИНЯТ | 1 | 5 | 3 | -- | 2 | 2 | -- | 0,5 | 1 |
| 9 | ИСМАИЛ | 1 | 4 | 1 | -- | 1 | 2 | 60 | 2 | 3 |
| 10 | МАЛИК | 1 | 2 | 3 | -- | 1 | 2 | 6 | 1 | 2 |
| 11 | ИСФЕНДИЯР | 1 | 3 | 2 | -- | 1 | 3 | -- | 0,5 | 3 |
| 12 | БАШИР | 1 | 3 | 2 | -- | 1 | -- | 15 | 2 | 2 |
| 13 | АЛЕСКЕР | 1 | 3 | 4 | -- | 1 | 1 | -- | 0,5 | 2,5 |
| 14 | БАБАХАН | 1 | 3 | 3 | -- | -- | 4 | -- | 1 | 1 |
| 15 | ГУСЕЙН АЛИ | 1 | 2 | 1 | -- | 1 | -- | -- | -- | 2 |
| 16 | АЛЕСКЕР | 1 | 4 | 1 | -- | 2 | 4 | 8 | 1 | 2 |
| 17 | ХОДЖА БЕК | 1 | 2 | 5 | -- | 2 | 4 | -- | 1 | 1,5 |
| 18 | АБДУЛ АЗИМ | 1 | 2 | 2 | -- | -- | -- | -- | -- | -- |
| 19 | АННАГИ | 1 | 3 | 2 | -- | 1 | 1 | -- | 0,5 | -- |
| 20 | БАБАВЕРДИ | 1 | 2 | 3 | -- | 1 | 4 | 6 | 1 | 1,5 |
| 21 | АМИР АЛИ | 1 | 3 | 8 | -- | 7 | 3 | -- | 0,5 | 1,5 |
| 22 | МЕДЖИД | 1 | 2 | 3 | -- | -- | 1 | 2 | 1 | 1 |
| 23 | БАЛЫ | 1 | 2 | 2 | -- | 1 | 4 | 1 | 1 | 4 |
| 24 | АЛИ МАММЕД | 1 | 5 | 2 | -- | -- | 3 | 21 | -- | 1 |
| 25 | МИРЗА ДЖАН | 1 | 2 | 5 | -- | -- | 1 | 61 | 1 | 2 |
| 26 | КАСЫМ | 1 | 3 | 5 | -- | -- | 4 | -- | -- | 1 |
| 27 | КАЛБИХАН | 1 | 4 | 1 | -- | 1 | 2 | 1 | 1 | 0,5 |
| 28 | АХМЕТ | 1 | 4 | 3 | -- | -- | 1 | -- | -- | 2 |
| 29 | ТАР ВЕРДЫ | 1 | 3 | 3 | -- | 1 | 1 | -- | 0,5 | 1,5 |
| 30 | КУЛИ | 1 | 10 | 3 | -- | -- | 4 | -- | 0,5 | 1 |
| 31 | ЗЕЙНАЛ | 1 | 2 | 1 | -- | -- | 1 | 1 | 1 | 2 |
| 32 | АЛЛАХ КУЛИ | 1 | 2 | 2 | -- | 1 | 3 | -- | -- | 2 |
| 33 | КУРБАН АЛИ | 1 | 6 | 4 | -- | -- | 2 | 1 | -- | 2 |
| 34 | АШУР | 3 | 5 | 4 | -- | -- | 2 | 61 | 1 | 1,5 |
| 35 | БАБА | 1 | 4 | 5 | -- | 3 | 6 | 41 | 2 | 5 |
| 36 | НОВРУЗ АЛИ | 1 | 3 | 3 | -- | 1 | 4 | 5 | 1 | 2 |
| 37 | КАЛПАЛИ | 1 | 2 | 1 | -- | 3 | 12 | -- | 1,5 | 2 |
| 38 | АХВЕРДИ | 1 | 3 | 3 | -- | -- | 2 | 1 | 2 | 3 |
| 39 | ХАДЖ ХАН | 1 | 6 | 3 | -- | 1 | 2 | -- | 1 | 3 |
| 40 | АЛИ МАДАТ | 1 | 2 | 4 | -- | -- | 1 | -- | 1 | 1 |
| 41 | ИЛДАР | 1 | 2 | 2 | -- | 1 | 3 | -- | 0,5 | 2 |
| 42 | ИМАМ ВЕРДИ | 1 | 2 | 2 | -- | 7 | 5 | -- | 0,5 | 2 |
| 43 | КАФАР | 1 | 2 | 2 | -- | 1 | 5 | 15 | 1 | 2 |
| 44 | МАММЕД | 1 | 5 | 3 | -- | 1 | 3 | 10 | 0,5 | 2 |

| | 1816 г.<br>16 № ДЕРЕВНИ КЮРДАХАНЫ<br>ВЛАДЕЛЬЦЫ СЕМЕЙ<br>8-е поколение | ЧИСЛО ДОМОВ | МУЖЧИНА | ЖЕНШИНА | ВЕРБЛЮДОВ | ЛОШАДЕЙ | КРУПНОГО . РОГ. | ОВЕЦ | САДОВ | ШАФРАН. УЧАСТ. |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 45 | ИСАХАН | 1 | 2 | 2 | -- | -- | 1 | -- | -- | -- |
| 46 | СУПХАН | 1 | 3 | 2 | -- | -- | 3 | -- | -- | 1 |
| 47 | РУХУЛЛА | 1 | 3 | 1 | -- | -- | 1 | -- | 0,5 | 2 |
| 48 | КАСЫМ | 1 | 2 | 2 | -- | -- | -- | -- | -- | 1 |
| 49 | БАДАЛ | 1 | 2 | 2 | -- | 1 | 3 | -- | 1 | 1 |
| 50 | ИМАН КУЛУ | 1 | 2 | 3 | -- | 1 | 2 | 1 | 1 | -- |
| 51 | КАФАР | 1 | 2 | 4 | -- | -- | 2 | 1 | -- | 1 |
| 52 | АЛИЯР | 1 | 3 | 1 | -- | -- | 3 | 1 | -- | 4 |
| 53 | АЛМУРАД | 3 | 6 | 8 | -- | 2 | 5 | 21 | 1 | 5 |
| 54 | АБДУЛ КАРИМ | 1 | 3 | 1 | -- | 2 | 4 | -- | 1 | 3 |
| 55 | СУЛТАН | 1 | 1 | 1 | -- | 1 | -- | -- | 0,5 | 2 |
| 56 | АБДУЛ ГУСЕЙН | 1 | 2 | 2 | -- | 1 | 5 | -- | 1 | 1 |
| 57 | МУРСА КУЛУ | 1 | 2 | 1 | -- | 1 | -- | -- | -- | -- |
| 58 | ИЛДАР | 1 | 2 | 2 | -- | -- | -- | -- | -- | -- |
| 59 | КАЛБА АЛИ | 1 | 2 | 4 | -- | -- | -- | -- | -- | 1 |
| 60 | ШАНЫ | 1 | 4 | 1 | -- | -- | 1 | 30 | 0,5 | -- |
| 61 | ИМАМ НАЗАР | 1 | 1 | 5 | -- | -- | 1 | -- | 0,5 | 1 |
| 62 | АШИМ | 1 | 2 | 3 | -- | 1 | 3 | -- | 0,5 | 1 |
| 63 | МАММЕД АМИН | 1 | -- | 1 | -- | -- | -- | -- | -- | -- |
| 64 | АХМЕД | 1 | -- | 2 | -- | -- | -- | -- | -- | -- |
| 65 | МАММЕД ВЕРДИ | 1 | 2 | -- | -- | -- | -- | -- | -- | -- |
| 66 | ШЫХИ | 1 | 2 | 2 | -- | -- | -- | -- | -- | -- |
| 67 | МИРЗА | 1 | 1 | 1 | -- | -- | -- | -- | -- | -- |
| 68 | АЗИМ | 1 | -- | 1 | -- | -- | -- | -- | -- | -- |
| 69 | АХВЕРДИ | 1 | -- | 1 | -- | -- | -- | -- | -- | -- |
| 70 | МОЛЛА САДЫГ | 1 | 4 | 4 | -- | 1 | 3 | 1 | 1 | 1 |
| | ИТОГО | 74 | 203 | 199 | 1 | 62 | 154 | 408 | 42 | 99 |

*Kürdəxanı ilə bağlı bəzi sənəd və şəkilləri AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi əməkdaşı, tarix elmləri namizədi, Abşeron arxeoloji abidələrinin tədqiqatçısı Əliyev İdris Nurzəli oğlu təqdim etmişdir.*

# KÜRDƏXANILI MƏŞHƏDİ ADİL VƏ ONUN SİLAHDAŞLARI



## BAKIDA MİLLƏT MÜHARİBƏSİ

Azərbaycanın görkəmli ziyalılarından Əlabbas Müznibin (1882-1938) arxivində diyarşünaslığımız üçün maraqlı faktlar verən qeydlər çoxdur. Onun 1918-ci ildə cib dəftərində qara karandaşla yazdığı kiçik qeydləri təqdim edirik.

Müsəlman ilə erməni və rus davası. 18 cəmaliyil-axər 1336 və 18 mart 1918 – yekşənbə günü günortadan son-

ra saat beşdə Bakının yuxarı məhəlləsi ilə şimal cəhətində müsəlmanlarla zahirən bolşeviklər arasında müharibə başlamışdır. Fəqət, bu müharibədə yalnız ruslar iştirak etməyib, ermənilər dəxi şiddətli surətdə müsəlmanların əleyhinə fitva açmışlar. İlk atışmada əhəmiyyətli tələfat olmamışdır. O günün gecəsi müsəlmanlarımız hücum edərək böyük kazarmanı atəş açmaqda olan toplar ilə (birlikdə) zəbt etmişlər və düşmən əsgərlərini Bakının şimal-şərq cəhətinə sıxışdırmışlar.

(Düşmənlər) Kərpicbasana çəkilmişlər. Qayət qırğın bir hal kəsb edən bugünkü davada şəhər atıcılarından Teymur bəy, Nəcəfqulu Rzaqulu oğlu, novxanılı Məhəmmədhüseyn, Məhəmmədli Şuriyə öz dəstələrilə iştirak edirdi. Əsir türk zabitləri də onların yardımına bulunurdu. Axşamüstü müsəlmanlara maştağalılarla kürdəxanılılar köməyə gəlmişlər. Kürdəxanıların başında məşhur qaçaq Adil durıyordu. Müsəlmanlar rus və erməniləri sıxışdırdıqdan sonra Tağıyevin böyük məktəbini əllərinə keçirmiş və oraya səngər yapmışlardı. Müsəlmanlar dava görməmiş və nizamsız olduqları halda, düşmənlərin yaylım atəşlərinə, pulemyot güllələrinə və top atəşlərinə sinə gərmişlər.

Gecə yarısı rus və ermənilər məhəmmədlilərin sakin olduqları məhəllələrə şəbxun edib, yatmış ailələrə çox tələfat vermişlər. Bu məhəllələrdə böyük qəhrəmanlar düşmənlərə köks gərib. Onlara böyük zərbə yetirən Şuriyə olmuşdur. Şuriyə sübh günəş doğana qədər onlarla mübarizə bulmuşdur. Ayın 19-u Bakının şimal cəhəti tam bir müharibə şəklini almış bir hal kəsb edibdir. Bu müharibədə müsəlmanlar yalnız müxtəlif tüfəng və tapança ilə müsəlləh olduqları

halda, rus və ermənilərin nizami əsgərləri, top, güclü pulemyot, əl bombası və vintovka ilə silahlanmışlardı.

Bu gün şiddətli atışma olaraq, müsəlmanlar rus və erməniləri sıxışdırıb, onların bombalarına cəsuranə müqabildə bulunurlardı. Bu müharibə müsəlmanlar menşevik və bolşevik gözləməyib, başları şapkalı olanlara həmən hərb açmada davam edərdilər; deməli, xırda müsəlman dostları təcrübəli bolşevik, menşevik və erməni münəzzəm əsgərləri ilə boğuşmada idilər. Ayın 19-u o biri gün səhərə qədər dava davam etmişdir.

Martın 20-i sübh gün doğandan rusların top atəşi davam etmiş, yaylım pulemyot atəşi şəhəri hər tərəfdən çulğamışdı. Bugünkü dava qayət qırğın və dəhşətli idi. Düşmənlər irəli yürüş etmək istəmişlərsə də, müvəffəq olmamışlar. Bugünkü bombardman bəzi müsəlman evləri mütəzərrib olmuşdur. Bu günün gecəsi atışma savuqlaşmamışdır. Cəmiyyəti-xeyriyyə mülkü ilə erməni Mailovun evi odlanmışdır.

Martın 21-ci (çərşənbə) günü səhərdən şəhər içində şiddətli atışma başlamışdır. Atışma saat ona qədər davam etmişdir. Saat 11-də ermənilər təkrar elçi göndərib barışıq istəmişlər və üç şərt ilə barışmışlar:

1) Bütün Bakı əhalisi raboçi, soldat və matros deputatlarının təhti-təbətində olsunlar.

2) Gərək müsəlman və gərək erməni dikaya diviziyaları ya onların idarəsində olmalı, yaxud bütün-bütünə ortadan qaldırılmalıdır.

3) Müsəlmanların əlində olan Bakı-Tiflis və Bakı-Petrovsk yolları aprelin 1-nə qədər açılmalıdır. Əks surətdə ruslar müsəlmanlara hərb açacaqlarıdır.

Bu şərtləri hər iki tərəf qəbul edib, sülh bərpa edilmişdi.

Bu davada müsəlmanlara yalnız ermənilər deyil, rus, yəhudi, gürcülər münəzzəm və huşyar bir surətdə hücum etdiyindən fəqir və zavallılardan xeyli məhv olmuşdur. Bu cəmiyyəti-xeyriyyə, "Açıq söz" və "Kaspi" mətbəəsini, bazarın çox yarısını düşmənlər yandırmışdır.

1918-ci ilin martın 25-də yekşənbə gecəsi saat 12-də dağıstanlılar Bakı mahalına hücum edib bolşeviklərlə davaya başlamışlar. Fəqət, bu müharibə hökumət davası deyil, bir qaçaq dəstəsi tərəfindən açılmış atəş olduğundan müharibə o qədər davam etməyib, qaçaqlar dala çəkilmişlər.

***Qeydləri çapa Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı M.Adilov hazırladı.***

## İBRƏT MƏKTƏBİ

Bilmillahir-rəhmanir-rəhim!

Hər xalqın ibrət götürməli, təbliğ edilməli qəhrəmanları olmuşdur. Bu qəhrəmanlar insanları vətənpərvərliyə ruhlandırır, namus, qeyrət keşiyi çəkməyə sövq edir. Bu gün də düşmənçiliyini davam etdirən ermənilərin dəfələrlə qarşısını almış igidlər xalqa tanıdılmalıdır.

Ələlxüsus, 1918-ci il erməni-müsəlman savaşından Qafqaz İslam Ordusu ilə birgə Azərbaycanda düşmən qabağına çıxan, Vətənini, torpağını, xalqın namusunu qoruyanlar yad olunmalı, haqlarında xalqa, ən əvvəl gənc nəslə ətraflı geniş məlumatlar verilməlidir. Bakıətrafı kəndlərin

deməmək olar ki, əksəriyyətindən, kiçik silahlı dəstələr böyük rəşadət göstərmiş və bəzən türk nizami ordusunu belə heyran qoymuşlar. Abşeronu ələ keçirməyə, soyub-talamağa cəhd edən təcavüzkar erməni daşnakları həm Bakıda, həm də ətraf kəndlərdə güclü müqavimətə rast gəliblər. Kürdəxanılı Məşhədi Adil Əbdürrəhim oğlunun da qəhrəmanlıq dastanı buradan başlayır. Kürdəxanı kəndində böyük nüfuz sahibi olan Məşhədi Adil Maştağa, Buzovna, Binəqədi, Novxanı, Fatmayı, Suraxanı, Xırdalan kəndlərindən olan kiçik silahlı dəstələrlə birgə ermənilərin qabağına çıxır və Abşeronun işğal olunması üçün canından və malından keçməkdən çəkinmir. Xırdalandan Dadaş, Buzovnadan Hacı İskəndər Əbuzər oğlu, Fatmayıdan Rəşid bəy, Hökmalıdan Pircan və bir çox başqaları öz dəstələri ilə birləşərək Bakı ətrafına sədd çəkmişlər. Pərakəndə dəstələrin bu cür fədakarlığına heyrət edən türk ordusunun komandanı general Nuru Paşa



*Soldan: Ənvər Paşa, atası Hacı Əhməd və Nuru Paşa*

bu dəstə başçılarından bir neçəsi, o cümlədən Məşhədi Adili mükafatlandırmışdır. Ermənilər darmadağın ediləndən sonra Buzovnada Hacı İskəndər Əbuzər oğlunun evində üç gün qonaq qalan general Nuru Paşa Məşhədi Adilə paşa rütbəsi, kəhər at və türk papağı, Hacı İskəndərə isə "Türkün qəhrəmanı" medalını və öz kəmərini hədiyyə etmişdir.

Məşhədi Adilin dəstəsinin silah-sursatla təmin edilməsində İçərişəhərdə ermənilərlə vuruşan digər bir buzovnalının – Hacıbaba Cəbiyevin böyük rolu olmuşdur. Məşhədi Adil böyük ağıl və düşüncə sahibi olmağına baxmayaraq, hər ağsaqqalla məsləhətləşmiş, ruhanilərin məşvərəti ilə hərəkət etmişdir. Qeyd etmək lazımdır ki, Məşhədi Adil Azərbaycanda ustad Əli məddahı kimi tanınan dostum kürdəxanılı mərhum Dərviş Əlisöhbət İmanverdi oğlunun babası Əlimuxtar kişi ilə əmioğlu olmuşlar. Şəxsən mən Dərviş Əlisöhbətlə etdiyim söhbətlərdən bilirəm ki, Məşhədi Adil təkcə Kürdəxanı üçün deyil, bütün Abşeron camaatı üçün lazımlı bir şəxs idi. Belə ki, çətin və qanlı mübahisələrdə Məşhədi Adili çağırar və onun nüfuzu qanın qarşısını saxlayardı.

A.H.S.Əlizadə. "Məhəmməd Əmin Rəsulzadə və islam", B., 2003, səh.92-107

Hətta mərhum Dərviş Əlisöhbət kişidən belə bir hekayə eşitmişdim ki, o vaxtlar Kürdəxanı kəndinin axundu Axund Qasım ağa çox elmli, mömin, haqq tərəfdarı olan bir şəxs olmuşdur. Bir dəstə qoluzorlu adamlar nahaqdan Axundu incidirlər və söz qoyurlar ki, cümə günü heç kəs məscidə gəlməsin. Qoy Axund tək qalıb rüsvay olsun. Bu xəbər Məşhədi Adilə çatan kimi öz adamlarına tapşırır ki, camaata xəbər versin ki, Məşhədi Adil cümə günü məscidə gələcək və ağanın moizələrinə qulaq asacaq. O günü məscidə o qədər

adam axışır ki, saysız-hesabsız. Hətta heç məscidə gəlməyənlər də gəlib məsciddə iştirak edirlər. Axund Qasım ağa öz moizəsini bitirəndən sonra Məşhədi Adil ondan icazə alıb camaata deyir: "Mən sizdən xahiş edirəm ki, Allahın evini boş qoymayın. Dinimizin rəhbəri, ruhani böyüyümüzün haqq, ədalət tərəfdarı olan Axund Qasım ağanı qoruyun. Mən də həmişə haqqın tərəfdarını qoruyacağam".

Bax belə bir mərd, qeyrətli insan olub Məşhədi Adil. Ötkəmliyi, sərtliyi qədər də mülayim bir kişi olub Məşhədi Adil. Allah onu və erməni-müsəlman münaqişələrində şəhid olmuş bütün Vətən oğullarına rəhmət eləsin.

Bizi böyük Allah onlar kimi mərd, vətənpərvər, fədakar olmağa hidayət etsin. Qarabağımızı düşməndən azad etmək üçün bizim bu cür qəhrəmanların varlığına ehtiyacımız var. Tarixin səhifələrini vərəqləyib igidlərimizin qəhrəmanlığını oxuyaq, nümunə götirək və əməl edək.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə***
***14 iyul 2007-ci il.***

## QÜVVƏT ELMDƏDİR

1918-ci ilin mart ayında zahirdə bolşevik, batində daşnak olan Şaumyanın havadarlıq etdiyi erməni quldurları Azərbaycanı işğal etmək və onun torpaqlarını Ermənistana qatmaq xülyasına düşmüşdülər.

Təpədən dırnağa qədər silahlanmış erməni işğalçıları rus generalı Denikinin ordusu ilə məxfi saziş bağlayaraq, Bakı üzərinə hücuma keçməyə hazırlaşırdılar. Bakı və onun

kəndlərinin əli silah tuta bilən bütün əhalisi azğın düşmənə qarşı mübarizəyə qalxmışdı.

Lakin o zaman Bakıda və onun kəndlərində hökm sürən tayfa, qan düşmənçiliyi müdafiənin lazımi səviyyədə təşkil edilməsinə və düşmənə sarsıdıcı zərbə vurulmasına ciddi əngəllər törədirdi. Belə bir vəziyyətdə onların bir səngərdə vuruşması olduqca təhlükəli idi. Bunu hiss edən Axund Şeyx Əli qonşu Güzdək, Hökməli, Xocahəsən kəndlərinin din xadimləri, hörmətli adamları ilə birlikdə tayfa, qan düşmənlərinin başçıları ilə məşvərət apararaq onları barışığa və azğın düşmənə qarşı bir səngərdə vuruşmağa çağırır. Bunlardan Hökməlili Qubad bu işə razılıq verir, qalanları isə razılaşmırlar.

Haşiyə. Hökməlili Qubad kimdir? Bakılıların yaddaşında "Qoçu Qubad" və "Hökməlili Qubad" kimi qalmış Qubad Bakının Hökməli kəndində dünyaya gəlmiş, dövrünün igid, mərd, imkanlı, olduqca qeyrətli oğullarından biri olmuşdur. O, 1918-ci ilin mart davasında erməni quldurlarına qarşı qəhrəmanlıqla vuruşduğundan bakılıların xilaskarlarından biri hesab edilir. Yeri gəlmişkən, bir vacib məsələyə toxunmaq istərdik. Son zamanlar "qoçu" anlayışı istər mətbuatda və istərsə də şəxsi söhbətlərdə mənfi obraz kimi qələmə verilir. Əlbəttə, bu səhvdir.

"Qoçu" sözü "qoç", "qoçaq" sözündəndir. Bunlara xalq özü belə ad vermişdi. İndi iş o yerə çatmışdır ki, hətta bəzi adamların təsiri altında iqtidara böhtanlar yağdıran müxbirləri də, Milli Məclisdə müxalifətə ədəbsiz söyüş deyən deputatları da "mətbuat qoçusu" və ya sadəcə "qoçu" adlandırmağa başlamışlar. Bu qoçuların ruhunu təhqir etməkdən

başqa bir şey deyildir. Bəs tarixən qoçu kimə deyilib?

XX əsrin əvvəllərində çar Rusiyasının məmurları sərxoşluğa, əyyaşlığa qurşandığından xalqın asayişi başlı-başına buraxılmışdı. Ölkədə hərc-mərclik son həddə çatmışdı. Əhalinin ərizə və şikayətlərinə baxan yox idi. Güclü gücsüzə qənim kəsilmişdi.

Peyğəmbər Əleyhissəlam buyurmuşdur: "Quldur da istəməz ki, ölkədə hərc-mərclik olsun, çünki sadə bir işin üstündə onun da başını bədənindən ayıra bilərlər".

Bunu dərk edən əhali öz şikayətlərini hörmətdən düşmüş hökumət məmurlarına deyil, xalqın sədaqətli oğullarına bildirirdilər. Onlar da öz növbəsində bu şikayətlərə ədalətlə baxıb, qayda-qanun yaradırdılar. Bakı şəhəri və onun kəndləri ərazi etibarilə belə nüfuzlu şəxsiyyətlər arasında şərti olaraq bölünmüşdü.

Məsələn, Hökməli kəndi və onun yanından Nabrana gedən yol Qubada baxırdı. Bir dəfə Şamaxıdan Hökməliyə gilabı almağa gəlmiş Mərəzə əhlindən birinin pulunu və tapançasını əlindən alırlar. Həmin şəxs öyrənir ki, bu ərazinin qoçusu Qubaddır və onun yanına gəlib başına gələnləri ərz edir.

Qubad və onun dəstəsi tez həmin şəxsin kimliyini müəyyənləşdirirlər. Lakin o, kənddə olmadığından pulu və tapançanı qaytarmaq mümkün olmur. Qubad yanına gələn həmin şəxsə deyir:

– Tapşırmışam, bu gün kənddə qonaq qal. Sabah günortadan sonra gəlib pulunu və tapançanı apararsan.

Səhərisi gün deyilən vaxtda qonaq Qubadın yanına gəlir. Lakin axtarılan adam başqa yerə getdiyindən gəlib çıxmır. Qubad qonaqdan soruşur:

– Nə qədər pulunu alıblar?

Qonaq cavabında deyir:

– 100 manat.

– Tapançan hansındandı?

– Naqan.

Axtarırlar, naqan markalı tapança tapılmır. Qubad 100 manat pulunu və öz gümüşdəstəli naqan markalı tapançasını qonağa verəndə qonaq qəbul etmir və deyir:

– Mən bunu istəmirəm. Bu, mənimkindən çox bahalı tapançadır.

Qubad deyir:

– Mən demişəm, sən də həmin vaxtda gəlmisən, götür apar. Kişinin iki sözü ola bilməz. Sən mənim sözümü kişi sözü hesab etmirsən?

Qonaq tapançanı götürməyə məcbur olur.

Qoçulara başqa nəzərlə baxmaq olmaz. Qoçu Qubad vətənini, xalqını, dostunu sevən və lazım gəldikdə onların yolunda ölümə getməyə hazır olan şəxslərdən biri idi. Bir dəfə ona xəbər gətirirlər ki, Maştağa pristavını qətlə yetirmiş dostu Kürdəxanılı Qoçu Məşhədi Adilin evinə kazaklar hücum etmişlər. Məşhədi Adil evdə tək qalıb onlarla vuruşur.

Qubad dəstəsi ilə Məşhədi Adilin köməyinə gedir. Onlar gözlənilmədən Kürdəxanı ilə Digah kəndləri arasında yerləşən Ağnohur deyilən yerdə rastlaşırlar. Məlum olur ki, kazaklar Məşhədi Adilin təslim olması üçün onun evini yandırmağı qərara alıblar. Ona təklif edirlər ki, qadınlar, uşaqlar və heyvanlar evdən çıxarılsın.

Məşhədi Adil fənd işlədərək qoyun dərisinə bürünüb heyvanlarla birlikdə evdən çıxır. Kazaklar evi yandırırlar.

Məşhədi Adil dostu Qubadın dəstəsi ilə birlikdə kazaklara hücum edib onları kənddən çıxarır. Qeyd etmək yerinə düşər ki, Qubad vaxtilə Abşeron rayon İcra Hakimiyyəti başçısı vəzifəsində işləmiş Qubad Qubadovun babasıdır.

Şeyx qonşu kəndlərin hörmətli adamları ilə birlikdə uşaqları, qadınları və qocaları kəndlərdən çıxarıb Kürdəxanı-Ləş bağlarına köçürür. Əli silah tutan adamlar kənddə qalır və azğın düşmənə qarşı vuruşmaq üçün səngər qazırlar. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğundan onlar da bağlara çəkilir.

Şeyx tələbə yoldaşı kürdəxanılı Axund Qasımla birləşərək, müdafiəni Xırdalan, Qobu, Hökməli, Güzdək kənd sakinlərinin iştirakı ilə Zabrat kəndində təşkil etməyə məcbur olur. Axund Qasım və Şeyx həmin təkliflə Bakıda hamının "Məşhədi Adil" və "Qoçu Adil" kimi tanıdığı kürdəxanılı Adilə müraciət edirlər.

Məşhədi Adil heç bir tərəddüd etmədən və şərt qoymadan kəndin axundu Axund Qasımı və Şeyxi tayfa-qan düşməni Xocabəyin yanına vasitəçi göndərərək düşmənçiliyə son qoymağı təklik edir: "Bu dava əhli-əyalımızın namus davasıdır. Gəlin səngərdə qardaş olaq. Bəlanı başımızın üstündən rədd edək, qələbə çalaq, sonra düşmənçiliyimizi yenə də davam etdirərik". Razılaşırlar. Onlar əl-ələ verərək Kürdəxanı, Fatmayı, Goradil, Məhəmmədi, Zabrat, Pirşağı və Ləş bağlarında məskunlaşan Xırdalan, Qobu, Hökməli, Güzdək kəndlərinin bütün əhli əli silah tutan əhalisini səfərbər edir, səngər və istehkamlar tikir, ermənilərin hücumunun qarşısını Zabrat qəbiristanlığının ətrafında alırlar. At minib Bakıətrafı kəndlərin tayfa-qan düşmənçiliyi aparan qoçularını, igidlərini ümumi düşmənə qarşı mübarizədə birləşməyə

çağırırlar. Həmkəndlilərinin dediklərinə görə, onların hər biri cəbhədə təhlükəli yerə özü gedər, o birini buraxmazdı. Deyərdilər ki, mən gedərəm, sən camaata lazım adamsan.

Məşhədi Adilin, Xocabəyin, Qubadın, Axund Şeyx Əli və Axund Qasımın uzaqgörənliyi və igidliyi sayəsində Bakı kəndlərinin əhalisi bir amal uğrunda birləşməyə və azğın düşmənə sarsıdıcı zərbə vurmağa müvəffəq olur.

1918-ci ilin iyun ayında türk qoşunları azərbaycanlı qardaşlarına köməyə gəlir və dənizdən Xəzərin xalq tərəfindən möhkəm müdafiə olunan Pirşağı-Kürdəxanı-Nardaran kəndləri sahillərinə çıxır, yerli müdafiəçilərlə birləşərək erməni quldurlarını darmadağın edirlər.

Qafqaz İslam Ordusunun komandanlığı Məşhədi Adilə yüksək əməllərinə, ağıllı tədbirlərinə görə "Paşa" (indiki general) hərbi rütbəsi verir. Deyilənlərə görə, İstanbul şəhərində onların adına küçə də vardır.

Müharibə qurtardıqdan sonra Məşhədi Adil Axunda təklif edir ki, Xocabəyə düşmənçiliyin davam etdiyini çatdırsın. Axund onu, bu işdən çəkindirmək istədikdə, Adil Paşa deyib: "Mən qardaşım oğlunun, bacım oğlunun qanlarından necə keçə bilərəm?"

Görün, ata-babalarımız, xalqımızın ər oğulları, səngərlərdə, döyüş meydanlarında, azğın və hiyləgər düşmənin qarşısını almaq üçün birlikdə tədbirlər hazırlayan anlarda qan düşmənçiliyi hissini vətən və namus naminə necə də məharət və müdrikliklə dəf ediblər.

Allah onlara rəhmət eləsin!

Bakı və onun kəndlərinin sakinlərinin yaddaşında kişilik, mərdlik, qəhrəmanlıq, dəyanətli bir insan rəmzi kimi qalan "Məşhədi Adil", "Qoçu Adil" kimdir?

Bakı və ətraf kəndlərdə "Məşhədi Adil", "Adil paşa", "Qoçu Adil" ləqəbi ilə tanınan kürdəxanılı Adil imkanlı adamlardan biri olmuşdur. Onun dəvə karvanı, qoyun sürüsü, onlarla hektar torpaq sahəsi varmış. Olduqca mərhəmətli, qayğıkeş, haqq tərəfdarı, millətin və el-obanın namus və qeyrətini çəkən, çətin vəziyyətə düşənlərə, kasıblara əl tutan bir şəxs olmuşdur.

Məşhədi Adil yoxsulların, acizlərin, kimsəsizlərin havadarı, zalımların düşməni olmuşdur. Məşhədi Adil Vətənimizdən çox-çox uzaqlarda belə xalqımıza zülm edənlərə, millətimizi alçaldanlara qarşı mərdliklə mübarizə aparmışdır. Burada bir hadisəni yada salmaq yerinə düşərdi.

Xalqa zülm, milləti təhqir edən Maştağa dairə pristavını öldürdüyü üçün çar hökuməti Məşhədi Adili və qardaşı Kərbəlayi Əlihüseyni həbs edib Sibirə göndərmişdi. Azərbaycanlı dustaqlar həbs düşərgəsinə gələndə Məşhədi Adilə bildirirlər ki, düşərgədə sahibi-ixtiyar olan "qanuni oğru", "Qaban" ləqəbli bir erməni dığası dustaqlara zülm edir, onları döyür, otağını, ayaqyolunu təmizlətdirir, onların pulunu və qiymətli şeyləri əllərindən alır, lazım bilsə, öldürür. Düşərgənin müdiriyyəti ondan qorxur və bütün məsələləri o həll edir.

"Qaban" adamları ilə xəbər göndərir ki, "bakılılara deyin, gətirdikləri pulu və başqa qiymətli şeyləri versinlər". Məşhədi Adilin elçiləri deyir:

– Yaxşı, yığıb göndərərik.

Bir neçə gündən sonra gəzinti zamanı "Qaban"ın dəstəsi azərbaycanlılarla üz-üzə gəlir. "Qaban" elə bilir ki, bunların başçısı Kərbəlayi Əlihüseyndir. Deyilənə görə, o, çox hündürboylu, görkəmli şəxsiyyət olub. "Qaban" irəli keçərək haqq vermədikləri üçün Kərbəlayi Əlihüseynin

yaxasından yapışır və ana söyüşü söyür. Bu anda Məşhədi Adil poladdan yonub hazırladığı bıçağı "Qaban"ın ürəyinə yeridir. Həmin gündən həbs düşərgəsində mövcud olan zülm və ədalətsizliyin kökü kəsilir. Dustaqlar rahat nəfəs alır və öz mallarının sahibi olurlar.

Məşhədi Adil nəinki yaxınlarına, qohumlarına və xalqa sədaqətli olmuş, hətta qan düşmənləri ilə də mərdlik və namusla davranmışdır, onların ləyaqətinə hörmət bəsləmiş və əhli-əyallarının namus və qeyrətini çəkmişdir.

Bir dəfə Məşhədi Adilə sevinclə xəbər verirlər ki, onun düşmənlərindən biri Çənbərəkənd sakini (ədavətin yenidən qızışması xatirinə onun adını çəmirik) müflisləşib, bütün sərmayəsi əlindən çıxıb, öz əkin yerində cütçülük edir. Məşhədinin xəbər gətirənə bərk acığı tutur və deyir:

– Kişi düşməninin pis gününə sevinməz!

Məşhədi Adil bir neçə gündən sonra at minib, qan düşməninin cüt sürdüyü yerə gedir, qəflətən onun başının üstünü kəsdirir. O, silaha əl atmaq istədikdə, aynalını çəkib deyir:

– Silaha əl atma, səni öldürməyə gəlməmişəm. Get dükanını aç, alverini elə! – deyə ona 500 manat qızıl pul verir.

Məşhədi Adil xalqın qeyrət və namusu uğrunda ölümə belə getməyə hazır olan şəxslərdən biri olub. Vaxtilə şəhərin və Balaxanının neft sahibkarları və imkanlı adamları yaz-yay aylarında öz ailələrini Kürdəxanı bağlarına göndərər, özləri isə alış-verişlə məşğul olar, ailələrinin yanına cümə (istirahət) günləri gələrdilər. Arxayın idilər ki, Məşhədi Adilin qorxusundan onların ailələrinə toxunan olmaz.

Keçmiş vaxtlarda Bakı kəndlərində oğlan və qız toyları ayrı olardı (indi də belədir). Məşhədi Adilin məhəlləsində qız toyu olur. Onun qan düşməninin anası, bacısı və arvadı

bura toya gəlir. Toy vaxtından qabaq qurtardığından onların dalınca gələnlər gecikirlər. Məşhədi Adil təşviş keçirən qadınlara yaxınlaşır, düşməninin ailəli olduğunu bilir, onları qapılarına qədər ötürür. Düşməninin anası ondan soruşur:

– Ay oğul, kimsən? Mən heç səni tanımadım.

Məşhədi Adil cavab verir:

– Tanımasan yaxşıdır, ana!

– Ay oğul, bəs oğlum soruşsa ki, sizi kim ötürdü, nə deyim?!

– Deyərsən ki, Məşhədi Adil.

Qadın qorxusundan yerə oturur. Məşhədi Adil deyir:

– Ana, qorxma! Mən sənin oğlunla düşmənəm, sizinlə yox!

Məşhədi Adil 51 il mərdliklə ömür sürüb. 1919-cu ildə xəstəlikdən vəfat edib. Onun mənalı həyatından belə əhvalatlar çoxdur. Mən isə onlardan bəzilərini açıqladım.

İndi isə vətənimizin bir hissəsinin işğalına, qız-gəlinlərimizin azğın düşmən əsirliyində olmasına baxmayaraq, özlərini "millət qəhrəmanları" adlandıran düşüncəsizlər əmin-amanlığı pozmaq və bundan istifadə edərək vəzifə tutmaq üçün min cildə girənlər görəsən nə istəyirlər?

Doğru deyib müdriklər: "Qaçaq olub, qoçaq olub bizim dədələr, mərd olub. Bəs bu namərdlər haradan yaranıb, mənə dərd olub".

***Baləli Vəliyevin***
***"Dinimizin saflığı uğrunda çırpınan ürək" kitabından***

# QAÇAĞIN MİLYONÇU DOSTU

Kürdəxanılı Məşhədi Adillə suraxanılı Şıx Əlbəndə oğlunun dostluğu barəsində yazmağa başlayarkən mən təsəvvür edirdim ki, kitabda məqalə cəmi bir-iki vərəq yer tutacaq. Bir-iki vərəq... Halbuki bu adamların barəsində o qədər yazmaq olar ki, hələ iki kitab da bəs etməz.

Təsadüfi deyil ki, Azərbaycan ziyalılarından olan Əli-abbas Müznib (1882-1938) 1918-ci il hadisələrindən bəhs edərkən Adil və ona bənzər vətən qeyrəti çəkən oğullardan belə yazırdı: "Qayət qırğın bir hal hesab edən bugünkü dava-da şəhər atıcılarından olan Teymur bəy, Nəcəfqulu Rzaqulu oğlu, novxanılı Məhəmməd Hüseyn, məhəmmədli Şuriyə öz dəstələri ilə iştirak edirdi. Əsir türk zabitləri də onların yardımına bulunurdu. Axşamüstü müsəlmanlara maştağalı-larla kürdəxanılılar da köməyə gəlmişlər. Kürdəxanılıların başında məşhur qaçaq Adil durıyordu".

Hafiz Sadıqovun "Açıq söz" qəzetində (1 avqust 1991-ci il) "Kürdəxanılı Məşhədi Adil" adı altında çap etdirdiyi məqalədə Məşhədi Adilin həyatından və əməllərindən maraqlı məlumatlar verilir.

Kürdəxanılı Adil həyatda ən yüksək zirvəni 1918-ci ilin mart ayında ermənilərə qan uddurarkən fəth etmişdir. Çox unutqan xalqdır bizim xalqımız. Bu igid oğlunun gördüyü işlərin heç mində birini görməyənlərə Bakıda heykəl qoy-dular. Kürdəxanılı Məşhədi Adilin adına isə Bakıda hələ bir küçə də adlandırılmayıb.

...Kürdəxanılı Adil Bakı kəndlərində Qaçaq Adil kimi tanınırdı. Mərdliyi, igidliyi, dönməzliyi ilə hələ cavanlıq-

dan ad çıxarmışdı. Məşhədi Adili Bakı qoçuları da yaxşı tanıyır, yeri gələndə ondan çəkinirdilər də. Hələ gənclikdən həmişə haqsızlığa qarşı çıxmış Adilin başı çox məşəqqətlər çəkmiş, qisas aldığına görə hətta Sibirə də sürgün edilmişdi. 1918-ci ildə Bakıda mart qırğınları başlarkən o, hamıya sübut etdi ki, fərdi igid yox, hamının qeyrətini çəkən oğuldur və onun üçün vətən, xalq boş şey deyil. Bakının bolşevik-daşnaklardan müdafiə olunmasında ən fəal şəxslə bir oldu.

Şıx Əlbəndə oğlunun Adil ilə dostluq münasibətlərini əks etdirən məqalədəki məlumatlar Suraxanı yaşlılarının dediyi ilə təsdiq olunur. H.Sadıqovun məqaləsindəki bəzi məqamları sizin diqqətinizə çatdırırıq.

“Adil çar üsuli-idarəsi tərəfindən iki dəfə həbs olunub. Birinci dəfə o, 1910-cu ildə Öz kəndlisini kasıblara zülm etdiyinə görə öldürmüşdü və buna görə öz böyük qardaşı Kərbəlayi Əlihüseyn ilə birgə beş il iş almışdı.

Məhkəmənin hökmü ilə onu Ukraynanın Poltava şəhərinə sürgün etmişdilər və o burada üç il qalandan sonra yaxın dostu, Bakı milyonçusu Şıx Balayevin köməyi ilə Bakı şəhərinə köçürülür. Doqquz gün Qara şəhərdə həbsdə yatdıqdan sonra azad edilir.

1917-ci ildə Bakının tanınmış qoçularından olan Qubad Məşhədi Adilin qohumu İmanı öldürdüyü üçün onun tərəfindən qətlə yetirilir. Bunun üstündə onun Kürdəxanı kəndindəki evi yandırılır, özü isə həbs olunur. O, 1918-ci ilə kimi həbsdə olmuş, Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə azad edilmişdir.

1918-ci ilin mart qırğınları vaxtı Məşhədi Adil yaxın silahdaşları olan xırdalanlı Dadaş, hökməlili Qubad Şana

Pircan, binəqədili Azan, suraxanılı Əlbəndə oğlu Şıx və on nəfərə qədər qohum-qardaşı ilə Biləcəri, Xocahəsən tərəfdə səngərlər qazaraq özlərini bolşevik adlandıran Andronik-Amazaspın quldur-menşevik hərbi hissələrini Bakı şəhərinə girməyə qoymamışdılar".

Daha sonra iqtibas etdiyimiz H.Sadıqovun məqaləsində yazılır: "Məşhədi Adil Bakıda Soltanəli məscidində qızdırma xəstəliyindən yatırdı".

Şıx Balayev şəhərin məşhur həkimlərindən Almaniyada təhsil almış Əbdülxalıq Axundovu onun üstünə gətirir və göz yaşı tökərək deyir:

– Əbdülxalıq, mən xanəndə Seyid Mirbabayevə bir buruq bağışladım, milyonçu oldu, sənə iki buruq bağışlaram. Səndən xahiş edirəm, Adili ölməyə qoyma".

Milyonçu Şıxla Məşhədi Adilin arasında olan dostluq hələ çox əvvələ, Şıxın gənc yaşlarına təsadüf edir. Bu, təxminən o vaxtlar idi ki, Şıx Sabunçu-Balaxanı mədənlərinin mühafizəçi ilə məşğul idi və kapitalizm aləminə atılmağa hələ təzə hazırlaşırdı. Bir mühitdə yaşayıb böyümüş, bərkimiş bu şəxslərin dostluğu təbii haldır. Haqsızlığı eyni dərəcədə qəbul etməyən, ədalətli, comərd insanlar gec-tez bir-birinə yaxın olmalı və ən ağır günlərdə dostluq imtahanından çıxmalı idilər. Ayrılıq məqamında isə yavaş-yavaş sönən dostun üstündə göz yaşı tökmək igid adam üçün qəbahət deyildi.

***Əliyev İdrisin «Suraxanı» kitabından***

# KÜRDƏXANILI MƏŞHƏDİ ADİL
# (1868-1919)

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanın son dərəcə mürəkkəb və ziddiyyətli dövrü olmuşdur. Belə bir məşəqqətli dövrdə Bakıda neft istehsalının artması buraya ermənilərin və digər xalqların axınını xeyli gücləndirmişdi. 1905-ci ildə Rus imperiyası inqilabi ab-havanı yatırtmaq üçün Bakıda erməni-müsəlman qırğını törətdi (erməni rəhbərləri üçünsə azəri türklərinin sayca azalması çox sərfəli idi). 1918-ci ildə bolşevik şüarları ilə pərdələnən, Azərbaycan xalqının qəddar düşməni Stepan Şaumyan bu soyqırımı (genosidi) davam etdirdi. Bakı Sovetinin qoşunlarını daşnak hərbi hissələri ilə birləşdirən komissarlar mart ayında dinc əhalini biçməyə başladılar.

1918-ci ilin mart hadisələrində, öz dəstəsi ilə erməni daşnaklarının qarşısına çıxan belə mərd oğullardan biri Məşhədi Adil Əbdürrəhim oğlu olmuşdur. O, 1868-ci ildə Bakının Kürdəxanı kəndində rəncbər-maldar ailəsində dünyaya göz açmışdır. Yaşlı kürdəxanılıların söylədiklərinə görə Məşhədi Adilin atası vaxtilə Şabran şəhərindən gəlmiş Murad kişinin nəslindəndir.

Anası Zöhrə xanım Məhəmməd qızı Bakının Qobu kəndindən Şanalı tayfasından idi. Bu namuslu Azərbaycan qadınını həmişə at belində, əli tüfəngli görərmişlər. Yeddi qardaş və iki bacının altıncısı olan Adil, hələ uşaqlıqdan öz dərin ağlı, düşüncəsi, zəkası ilə qardaş və bacılarından fərqlənirdi. Atası Əbdülrəhim kişi dindar adam olduğundan, oğlu Adilə mədrəsə təhsili vermişdi.

Adilin ötkəmliyi, inadkarlığı, kasıb-kusubu müdafiə etməsi kənddə bir çoxlarının xoşuna gəlmirdi. Onunla düşmənçilik etməyə başlayırlar. Adilin düşmənlərindən biri kəndin adlı-sanlı bəyi Adillə üzbəüz çıxmağa ürək etmədiyindən Çaylı Nəzəri və Atakişini onu vurmaq üçün kəndə çağırtdırır. Onlar kəndin içində, dükanın qabağında oturub Adili gözləyirlər. Aradan bir az keçmiş Adil at belində gəlib, onların gözü qarşısından keçib gedir. Adil gedəndən sonra bəy Nəzərgildən soruşur: "Niyə vuruşmadınız?" Onlar cavab verirlər ki, "Ay bəy, Məşhədi Adilin zəhmi bizi elə basdı ki, əlimiz qalxmadı". Bəy səhvini başa düşüb deyir: "Adı Adil, özü Adil, ağlı Adil, işi Adil! Ad qoyana rəhmət! Biz onun haqqında haqsızlıq etmişik. Heyf!" Onların düşmənçiliyi bununla da bitir.

Məşhədi Adil həmkəndlisi Lalə xanım Şahbaz qızı ilə ailə həyatı qurmuş və Mənzər xanım adlı aman-zaman bir qızı olmuşdur.

Uzun müddət hökumət divanından yayındığı üçün ona "Qaçaq Adil" deyirdilər. Adil olduqca dindar adam idi və 1902-ci ildə Xorasan ziyarətinə getmiş və Məşhədi olmuşdur.

1918-ci ilin mart qırğını vaxtı Məşhədi Adil yaxın silahdaşları olan Xırdalanlı Dadaş, Hökməlili Qubad, Şana Pircan, Binəqədili Azan, Suraxanılı Əlbəndə oğlu Şıx və on nəfərə qədər qohum-qardaşı ilə Biləcəri-Xocahəsən tərəfdə səngərlər qazaraq özlərini bolşevik adlandıran Andranik və Amazaspın quldur-daşnak hərbi hissələrini şəhərə girməyə qoymamışdılar. Bu vuruşmada Məşhədi Adil böyük şücaət göstərmiş, çoxlu erməni quldurunu məhv etmişdi. Çox təəssüf ki, onun bu fədakarlığı indiyədək heç bir yerdə qeyd edil-

məmişdir. Məşhədi Adil 1918-ci ilin sentyabr ayının 15-nə qədər – türklər Bakıya girənə kimi azərbaycanlıları erməni quldurlarından qorumuşdur. Türklər Məşhədi Adilin zəhmətini lazımınca qiymətləndirmiş və ona Paşa titulu vermişdilər. Kürdəxanı kəndinin qocaman sakinləri söyləyirdilər ki, Məşhədi Adil hörmət əlaməti olaraq məşhur "Göy atını" baş komandan Nuru Paşaya bağışlamış, əvəzində isə paşa ona başqa bir at bağışlamışdır. Məşhədi Adilin böyük qardaşının oğlu, Şeyda təxəllüsü ilə şeirlər yazan 78 yaşlı Hacıbala Əlihüseyn oğlu belə bir əhvalat danışır:

Yaxın kəndlərin dövlətlilərindən olan balıqçı Mirzə Məsi Nağıyev türklərin Maştağa kəndindəki qərargahına gələrək qərargah rəisi Tofiq bəylə görüşməyi tələb edir. Tofiq bəy otaqdan dəhlizə çıxır və Mirzə Məsidən soruşur:

– Nə olmuş, yavrum?

Mirzə Məsi söyləyir:

– Paşa əfəndi, deyirlər ermənilər dənizdən bizim kəndi top atəşinə tutacaqlar, mənə əsgər ver, gedim kəndi və vətəgələrimi qoruyum.

Tofiq bəyin üzünün rəngi dəyişir, əsəbiləşir və deyir:

– Gavur oğlu, gavur, bu saat sənin kürəyinə 50 zopa vurduraram. Adil paşa təkbaşına Bakını ermənilərdən qorudu, əsgər istəmədi. Sən pəzəvəng ayı məndən əsgər istəyirsən vətəgələrini qorumağa?

# ABBASQULU MƏŞHƏDİ HÜSEYNAĞA OĞLUNUN DEDİKLƏRİ

Türk dünyasının qəhrəman və təəssübkeş oğlu Məşhədi Adil Əbdülrəhim oğlu 1868-ci ildə Bakı qəzasının Kürdəxanı kəndində rəncbər-maldar ailəsində doğulmuşdur. Adı özünə tam uyğun olmuşdur. Həmişə ədalət tərəfdarı olmuşdur. Heç vaxt haqsızlıqla barışmamış, mübarizə aparmışdır. Elə buna görə də dəfələrlə çar üsuli-idarəsi tərəfindən təqib olunmuş və həbs olunmuşdur. Həbsdən qaçmış və öz işini davam etdirmişdir. O, ədalətsizliyə, haqsızlığa qarşı həmişə barışmaz olmuşdur. İmkansızlara, məzlumlara daima kömək etmiş, əl tutmuşdur. Məsələn:

1912-ci ildə özünün siğə bacısı Həlimə xatunun 30 ədəd qoyununu oğurlayırlar. Məşhədi Adil eşidən kimi işə başlayır. O vaxtlar Abşeronda məşhur ləpirçi sayılan Məşhədi Hümmətlə axtarış aparır. Ləpirlə gedib Hövsan kəndində qoyunları tapır və gətirib yiyəsinə verir.

Belə nəql edirlər ki, Məşhədi Adil eşidəndə ki, bir nəfər kasıb şəxs rəhmətə gedib, onun evinə qoyun və azuqə göndərərdi ki, ehsan etsinlər və ya bir kasıb adam oğlunu evləndirmək istəyir, amma imkanı yoxdur, ona da kömək edərmiş, həmişə əyləşib nahar edəndə soruşarmış görəsən qonşusu filankəs necə dolanır, evində çörəyi var?

Kərbəlayi Sədiyar oğlu Bala nəql edirdi ki, kənddə o vaxt bir kasıb şəxs rəhmətə getmişdi, yetim uşaqları qalmışdı. Bir kisə un qardaşı oğlu Əbdülrəhimə, bir sərnic yağ mənə və bir sərnic doşab qardaşıma verdi və dedi aparın verin onlara. Məşhədi Adil qeyrət, namus sahibi olub. Nəql

edirlər ki, İçərişəhərdə bir nəfər şəxs oğluna toy etmək istəyir. Bir nəfər qoçu bunu eşidib toy yiyəsinə deyir ki, gəlini əvvəl mənim evimə gətir, sonra apar öz evinə. Bu sözdən kişi çox pərişan olur və gəlir Məşhədi Adilə dərdini söyləyir. Məşhədi Adil deyir:

– Qorxma, sən toyunu elə, mən özüm gələcəyəm toya.

Məşhədi Adil gəlir toya və həmin qoçunu çağırıb deyir:

– Get özün gəlini gətir, burada mənə təhvil ver.

Həmin binamus qoçu qorxusundan gedib gəlini təmtəraqla gətirib toyda Məşhədi Adilə təhvil verir.

Misir Əcəm oğlunun dilindən eşitmişəm ki, 1910-12-ci illər olardı. Kürdəxanının kəndxudası Hacı Zeynal kəndin kovxası Misir kişiyə deyir: "Get gör, Hacı Hənifə (Kərbəlayi Əmiraslanın atası-red.) samanlığının yanındakı atlılar kimdir?" Misir kişi deyilən yerə gedir. Orada dayanan adamlardan ikisini tanıya bilir. Kürdəxanılı bir bəyi və novxanılı Əlihüseyni. Bəy Misir kişiyə deyir - get Məşhədi Adilə de ki, bir bura zəhmət çəksin, qonaqlar onu görmək istəyirlər. Misir kişi vəziyyətin qəlizliyini başa düşüb bir söz demədən Məşhədi Adilgilə gəlir və bəyin dəvətini Məşhədi Adilə çatdırır. Məşhədi Adil dəvəti qəbul edib evdən çıxanda, Misir kişi ona deyir - bəlkə tək getməyəsən?! İcazə ver qardaşın oğlanlarına xəbər verim. Məşhədi Adil ehtiyac olmadığını bildirir və qonaqlar olan tərəfə yollanır. Misir kişi qorxa-qorxa, gizlicə Məşhədi Adili izləməyə başlayır. Məşhədi Adil qonaqlar olan yerə on-on beş metr qalmış Hacı Zeynalla qarşılaşır və ayaq saxlayıb hal-əhval tuturlar. Bu məqamda Məşhədi Adil yavaşca səmtini dəyişərək

elə dayanır ki, arxası atlılar tərəfə düşür. Bir azdan sonra Hacı Zeynal xudahafizləşərək gedir. Məşhədi Adil atlılara tərəf dönəndə, orada heç kimi görmür. Kənarda dayanan Misir kişini görüb soruşur ki, bunlar necə oldular. Misir kişi cavabında – novxanılı Əlihüseyn atına minib dedi – Sizin nə düşmənçiliyiniz varsa özünüz bilərsiniz, Məşhədi Adil kimi kişiyə əlim gəlmir güllə atam. Xudahafiz!

Məşhədi Adil Misir kişiyə: "Allahdan qırılmayıbsa, İnşaallah heç nə olmaz." – deyir.

Məşhədi Adilin mart davasındakı, yəni 1918-ci ildə erməni-müsəlman davasındakı fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Türk ordusunun komandanı Nuru paşa öz atını Məşhədi Adilə bağışlamış və ona paşa rütbəsini vermişdir. Məşhədi Adilin erməni-müsəlman davasında müstəsna xidmətləri var. Xalq onu heç vaxt unutmayacaq.

Məşhədi Adilə xəbər verirlər ki, vəhşi Amazasp Şamaxını, Qubanı tar-mar edib Bakıya gəlir.

Məşhədi Adil öz dostları: Suraxanılı Şıx, Qalalı Hacıbala, Novxanılı Əlihüseyn, Binəqədili Azan, Xırdalanlı Həbib və Dadaş, Hökməlili Qubad, Qobulu Şaka Pircan, Kürdəxanılı Məşhədi Qurbanqulu və Teyyubla birlikdə Xocasən-Xırdalan yolu üstündə Amazaspın quldur dəstəsini tar-mar etmişdir. Bu hadisədən sonra Məşhədi Adilin adı xalq içində fəxarətlə çəkilirdi. Mart davası günlərində Məşhədi Adil kəndin seçmə adamlarından Məşhədi Xocabəylə əl-ələ vermiş və erməniləri Kürdəxanı kəndinə girməyə qoymamışdır. Ermənilərlə bu mübarizədə qonşu Maştağa kəndinə kömək göstərmişdir. Bu haqda "Maştağa" adlı kitabda ətraflı məlumat var. Abdulla Kərbəlayi Orucəli oğlu nəql edirdi ki, biz kəndin cənubunda növbədə idik. Məşhədi Adil gəlib bizə dedi:

– Möhkəm durun, bu gün, ya sabah türk qardaşlarımız Bakıda olacaqlar.

Elə də oldu. Səhərisi günü Məşhədi Adil Allah, Mühəmməd, ya Əli deyib, Məhəmmədi kəndiylə Balaxanı kəndi arasında "Hacıbulaq" deyilən ərazidə ermənilərə divan tutdu. Bu mübarizədə kənd sakinləriylə birlikdə türk qardaşlarımız çox fəal idilər. Bu hadisədən sonra Ənvər paşa başındakı fəsti Məşhədi Adilin başına qoyub ona Adil paşa adını verdi.

1919-cu ilin yazında Məşhədi Adil dostu Şıxla Hacı Soltanəli məscidində namaz qılarkən əhvalı dəyişir (məscid "Nizami" metrosunun dalındadır).

Şıx onu götürüb o vaxt tanınmış həkim Əbdülxalıqın evinə aparır və deyir:

– Əbdülxalıq, xanəndə Seyid Mirbabayevə bir buruq bağışladım, o da milyoner oldu, sənə 2 buruq verərəm, Məşhədi Adili xilas et.

Onu Mixaylovski xəstəxanasına yerləşdirirlər. Lakin onu xilas etmək mümkün olmadı. 1919-cu ilin yazında qızdırma xəstəliyindən vəfat etdi. Mixaylovski xəstəxanası indiki Əzizbəyov doğum xəstəxanasıdır.

Bala Kərbəlayi Sədiyar oğlu nəql edir ki, cənazəni xəstəxanadan götürəndə demək olar ki, bütün Bakı camaatı orada idi. Cənazəni əl üstə indiki Şmidt zavodunun yanına kimi gətirdilər, izdihamın qabağında Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Möhsün Səlimov, Şəmsi Əsədullayev, Bakının qazisi Mirzə Məhəmməd Kərim Axund, Mollağa Axund, Molla Möcüz Axund, Molla Əbülqasım Axund, Molla Əzim Axund və başqaları gedirdi. Məşhədi Adili öz doğma kəndində – Kürdəxanı kəndində torpağa əmanət qoydular. 1926-cı ildə qəbri qardaşı Kərbəlayi Əli-

hüseyn tərəfindən müqəddəs Kərbəlaya köçürülmüş, orada İmam Hüseyn əleyhissəlamın torpağına tapşırılmışdır.

Bu yazını mən aşağıda adları çəkilən şəxslərin dedikləri əsasında qələmə aldım. Allah onlara rəhmət eləsin.

1. Atam Məşhədi Hüseynağa
2. Əmirəhməd
3. Vəfadar Hacı Bağır oğlu
4. Məşhədi Cəlil Hacı İbad oğlu
5. Ağamməd Hacı Allahverdi oğlu
6. Abdulla Kərbəlayi Orucəli oğlu,
7.Əliqulu Məmmədqulu oğlu
8. Kərbəlayi Əmiraslan
9. Nəcəfəli Kərbəlayi Muxtar oğlu
10. Məşhədi Məzahir Kərbəlayi Eldar oğlu
11. Bala Kərbəlayi Sədiyar oğlu

Novxanılı "Sarı" Seyfəlin dedikləri:

Mən o qanlı-qadalı günlərin birində şəhərdən çölləmə Novxanıya gəlirdim. Binəqədi kəndiylə Xırdalan kəndi arasındakı yanan dağın yanında ermənilərin olduğunu hiss etdim. Gizlənməyə yer axtardım bir tülkü yuvasına girdim. Bu vaxt səs eşitdim və 20-25 atlının gəlməsini gördüm. Və qabaqda Məşhədi Adili gördüm. Məşhədi Adili mən öz evimdə çox görmüşdüm. Bizim qonşumuz qoyunçu "Məməsaid"la dost idi, şərik qoyun saxlayırdılar. Mən tez qabağa çıxdım və dedim ki, qabaqda ermənilər var. Onlar atlardan endilər. Və Xırdalan-Xocasən yolu üstündə pusquda durdular. Ermənilərin hamısını məhv etdilər. Maştağa kənd sakini Məhəmməd Kərbəlayi Vahab oğlu deyirdi: "1918-ci ilin mart davasında yaz vaxtı idi, şəhərdə indiki beşmərtəbə ətrafında ermənilərlə bərk vuruşma oldu. Mən də orada idim. Bir-

dən Məşhədi Adilin səsini eşitdim: “Allah, Məhəmməd, ya Əli”. O öz 27 nəfərlik dəstəsiylə bizə köməyə gəldi və dedi: “Kərbəlayi Vahab gəlirəm, qorxma”. Bu vuruşmadan sonra ermənilər gəmilərə doluşub İrana qaçdılar.

“Xırdalan-Xocasən” əməliyyatından sonra Məşhədi Adil kəndə qayıdır və Kürdəxanı kəndinin müdafiəsini təşkil edir ki, bu haqda qabaqda yazılıb.

Həmin günlərdə o öz qan düşməni Xocabəyi dəvət edib deyir: düşmənçiliyin vaxtı deyil. Gəl əl-ələ verib çıxaq ermənilərin qabağına”.

Bu sözdən sonra onlar qabaqda Axund Əbülqasım əlində silah cihad deyib çıxırlar ermənilərə qarşı və ermənilər böyük tələfat verirlər.

1918-ci ildə mart davasında Məşhədi Adilin rəhbərliyi ilə Kürdəxanı kəndinin Əlibaxış qayası deyilən yerdən Fatmayı kəndi altına qədər məsafədə səngər və istehkamlar yaradılmışdır. Aşağıda adları çəkilən şəxslər bu səngərlərdə növbə çəkirdilər:

1. Vəfadar Hacı Bağır oğlu
2. Məşhədi Cəlil Hacı İbad oğlu
3. Ağaməmməd Hacı Allahverdi oğlu
4. Canəli İslaməli oğlu
5. Ağaməmməd Aydəmir oğlu
6. Abdulla Kərbəlayi Orucəli oğlu və başqaları

Məşhədi Adil öz igidliyi və bacarığı sayəsində Türk hərbi hissələri Bakıya gələnə kimi ermənilərin Bakının kəndlərinə girməsinin qarşısını almışdır. Nəhayət, Türk hərbi hissələrinin Bakıya daxil olmasından sonra erməni-daşnak işğalçıları məhv edilmişdir.

***Abbasquliyev Abbasqulu***

## MÜDAFİƏ

Maştağa kənd sakini Məşhədi Əhməd atası Bəyəhmədin danışdıqlarını belə xatırlayır: “Qonşu Bilgəh kəndindən də Maştağaya kömək gəlmişdi. Xeyli cavan döyüşçü, bir neçə araba silah-sursat göndərən Bilgəh camaatı bununla öz qonşuluq-qardaşlıq sədaqətini bildirmişdi. O vaxtlar torpaqlarında pambıq əkən bilgəhlilər, Maştağaya bu məhsuldan gətirər, dərzilər isə həmin pambıqdan döyüşçülərimiz üçün pal-paltar tikərmişlər.

Bilgəhdən daha sonra zəfəran gələrdi. Ağsaqqallar onu satdırıb, əvəzinə tüfəng, patron aldırardılar. Əlbəttə, bütün bunlar düşmən qabağını uzun müddət saxlamış qəhrəman Maştağa döyüşçüləri üçün mənəvi kömək idi. Dost dar gündə bilinər”.

Ermənilər Kürdəxanı tərəfdən Maştağaya basqın edə bilərdilər. Bu basqının qarşısını almaq məqsədilə Seyid Aslan Mir Məhəmməd oğlu, Mir Məhəmməd ağa Kürdəxanı kəndinin sözü keçən şəxsləri ilə əlaqə saxlamışdı. Onlar da ermənilərə qarşı silaha sarılmışdılar. Əgər bu addım atılmasaydı, dığalar buradan yerli müdafiəçilərin arxasına keçə bilərdilər.

Yaşlı nəsil nümayəndələri bildirirlər ki, həmin dövrdə kürdəxanılılarla maştağalılar arasında ədavət hökm sürürdü. · Belə ağır bir vaxtda düşmənçiliyi aradan qaldırmaq, ümumi düşmənə qarşı birgə vuruşmaq üçün Maştağa kənd sakini, böyük nüfuz sahibi Mir Bağır ağa Kürdəxanıda tanınıb-seçilən, nüfuz sahibi olan Məşhədi Adil kişinin yanına gəlir. Ona

Kürdəxanı tərəfdən ermənilərin qabağını kəsməyi təklif edir.

Məşhədi bu təkliflə razılaşır. Sonra kəndin bir sıra cavanlarını yanına çağırır. Onların arasında Qurbanqulu, Teyyub adlı şəxslər də olur. Deyilənə görə, maştağalılara ədavət bəsləyənlər də əsas onlar imiş. Xalq arasında bu iki nəfər Qoçu Qurbanqulu, Qoçu Teyyub adı ilə tanınırmış.

Məşhədi Adil kənd əhalisinin, arvad-uşağın, namusun təhlükə altında olduğunu söyləyir və bildirir ki, əgər biz maştağalılarla ümumi düşmənə qarşı birgə mübarizə aparmasaq, azğın ermənilər kəndləri bir-bir ələ keçirəcək xalqa divan tutacaqlar. Məşhədi Adilin fikrini hamı bəyənir. Amma Qurbanqulu düşmənin qabağını kəsən silahlı dəstənin başçısının kim olacağını soruşanda, Məşhədi Adil özünü sındırmadan başçı olmağı ona təklif edir. Lakin Teyyub razılaşmır. Deyir ki, o hələ cavandır, səndən əvvəl bizi ətrafına yığar, ağıllı bir məsləhət verərdi. Elə başçı Məşhədi Adil olmalıdır.

Bununla da ermənilərin Kürdəxanı tərəfdən Maştağaya girməsinin qarşısı alınır.

1918-ci il erməni-müsəlman davasında, xüsusilə Maştağa yaxınlığında ermənilərə qarşı döyüşlərdə böyük rol oynamış Məşhədi Adil Əbdülrəhim oğlu 1868-ci ildə Kürdəxanı kəndində anadan olmuşdur.

Məşhədi Adil xalq arasında haqq-ədalət tərəfdarı olmaqla tanınmış, dəfələrlə çar üsuli-idarəsi tərəfindən təqib olunmuş, bir neçə dəfə həbs edilmiş, çar jandarmlarının əlindən dəfələrlə qaçıb xilas olmuşdur. Buna görə də xalq arasında onu "Qaçaq Adil" deyə çağırardılar.

Bu kitab Maştağa haqqında yazılsa da, Məşhədi Adil haqqında ətraflı məlumat verməyi lazım bilirik.

Məşhədi Adilin rəhbərliyi altında kürdəxanılılar ermənilərə qarşı təkcə Maştağa yaxınlığında vuruşmayıblar. Bu kəndin əhalisi, o cümlədən Məşhədi Adilin silahdaşları Biləcəri-Xocahəsən istiqamətində də türkün qanına susamış ermənilərə qarşı qəhrəmanlıqla vuruşmuşlar. Bu döyüşlərdə Məşhədi Adilin yaxın dostları – Xırdalandan Dadaş və Həbib, Hökməlidən Qubad və Pircan, Binəqədidən Azan, Suraxanıdan Şıx Əlbəndə oğlu, Novxanıdan Əli Hüseyn, Fatmayıdan Rəşid və bir çox başqaları qəhrəmanlıqla iştirak edərək ermənilərə qan uddurmuşlar, onların irəliləməsinin qarşısını almışlar.

Türk qoşunları Bakıya daxil olana kimi bu cəsur insanlar quldur-daşnak Amazaspın qoşununa qarşı qəhrəmanlıqla sinə gərmişlər.



Mürsəl Paşa

Yaşlı nəslin nümayəndələri xatırlayırlar ki, Maştağada olduğu kimi, Kürdəxanıda da Məşhədi Adil düşməni Məşhədi Hacıbəyi Axund Molla Əbdülqasım vasitəsilə yanına çağırtdırıb təklif edir ki, gəl düşmənçiliyi qoyaq bir tərəfə, əl-ələ verib er-

məniyə qarşı birgə vuruşaq. Yoxsa, namusumuz əldən gedər, kafirlərin ayağı altına düşər.

Məşhədi Xoca bəy bu təklifi böyük məmnunluqla qəbul edir. Onlar kənd camaatını silahlandırıb ermənilərə qarşı daha mütəşəkkilliklə vuruşurlar. Deyilənə görə, onlar Kürdəxanı kəndi ilə Məhəmmədi kəndi arasında istehkam qurub ermənilərə "toy" tuturlar.

Məşhədi Adil bütün bu vuruşmalara başçılıq edib. Kürdəxanı kəndinin cənubunda Əli Baxış qayası deyilən yerdə onun müşahidə məntəqəsi olub.

Kürdəxanı kənd camaatı bu mübarizəni Məşhədi Adilin rəhbərliyi altında türklər Bakıya gələnə kimi davam etdiriblər.

Türk ordusunun komandanı Nuru paşa Məşhədi Adilin bu qəhrəmanlığını yüksək qiymətləndirib ona Adil Paşa deyə müraciət edib. Eyni zamanda hörmət əlaməti olaraq öz atını və papağını Məşhədi Adilə bağışlayıb.

Türklər Bakıdan gedərkən Məşhədi Adili özləriylə İstanbula aparıblar. O, dörd gün orada qonaq qaldıqdan sonra Bakıya qayıdıb.

Xalq qəhrəmanı Məşhədi Adil 1919-cu ildə qızdırma xəstəliyindən vəfat edib. Deyilənə görə, dostu Suraxanılı Şıx, dövrün tanınmış həkimlərindən olan Əbdülxalıqı onun üstünə gətirir, ona deyir:

– Əbdülxalıq, mən xanəndə Seyid Mirbabayevə bir buruq bağışladım, sənə iki buruq bağışlayıram, qoyma Adilə bir şey olsun.

Lakin, çox təəssüf ki, Əbdülxalıq bu xəstəliyin qarşısında aciz qalır. Xalqın namusunu, təəssübünü çəkən bu qey-

rətli, igid həmvətənimiz 1919-cu ilin payızında vəfat edir.

Məşhədi Adilin cənazəsini Mixaylovski xəstəxanasından (indiki Əzizbəyov adına doğum xəstəxanası) Səttarxan adına zavodun qabağına qədər əl üstündə aparıblar. Hacı Zeynalabdin Tağıyev, Bakı qazisi Axund Mirzə Məmmədkərim və başqa görkəmli şəxslər camaatın qabağında gediblər.

Məşhədi Adil Kürdəxanı kəndində dəfn olunur. 1926-cı ildə cənazəsi Kərbəlaya aparılır və müqəddəs İmam Hüseynin yatdığı torpağa tapşırılır.

***Vəli Həbiboğlunun "Maştağa" kitabından***

## KÜRDƏXANILI QAÇAQ ADİL

## (HACI HAFİZ SADIQOVUN SÖHBƏTLƏRİNDƏN)

Bakının ən qədim və ərazicə böyük kəndlərindən biri olan Balaxanı da həm milyonçuların, həm elm adamları, həm də qoçuları ilə məşhurdur. Bu kəndin neftlə zəngin olması da, onun inkişafında, sözsüz ki, rol oynayırdı.

"Avtoritet"in səhifələrində xeyli əvvəl bu kəndin adamlarından ümumi söhbət açılmışdı. Çox möhtərəm şəxsiyyətlərin vətəni olan bu kəndin adamları, necə deyərlər, bir növ həmişə qabağından yeməyən, sözünü yeridən olublar. Budəfəki söhbətimizdə Qoçu Qubadla Qaçaq Adilin barəsində danışacağıq.

Qoçu Qubadın boylu-buxunlu, vidli bir adam olduğunu söyləyirlər. Deyilənə görə, o, tapançasını başqa qoçular kimi yanında yox, kürəyində gəzdirərmiş. İndi bəzi polislərdə olduğu kimi. Ancaq o qədər cəld hərəkət edirmiş ki, bircə an içində tapançanı necə çıxardığını, hazır saxladığını görmək mümkün olmazdı.

Günlərin birində Qoçu Qubad Kürdəxanı kəndinə gəlir. Kənddəki dükana girib nəsə alver etmək istəyir. Onu da deyim ki, Qoçu Qubad bir az kefkom adam olub. Belə ki, içkiyə meyilli idi. Yenə də kefi kök imiş. Nəsə, içəri keçib dükançıya yaxınlaşır. Onun hərəkəti qoçuya xoş gəlmir. Qəzəblənib dükançını söyməyə başlayır:

– Ayə, köpəkoğlu, de görüm, bu Kürdəxanıda mənim qabağıma çıxa biləcək bir cayıl var?

Dükançı Qoçu Qubadın qarşısında nə deyə bilərdi ki? Ancaq bu vaxt necə oldusa, Qaçaq Adil də dükana girir. Dükançı onun qohumlarından olub. Qohumunu söyməsi, üstəlik də, bütün kəndin haqqında belə bir söhbət ona xoş gəlmir. Qaçaq bu sözdən qəzəblənərək ucadan:

– Qubad, geri dön görüm! – deyərək arxadan səslənir.

Qoçunun geri dönməsi ilə Qaçaq Adilin gülləsinin açılması bir oldu. Atəş çox sərrast olur. Qoçu Qubadın başından dəyir. O, müvazinətini itirib yıxılır. Qaçaq Adil:

– Bax, cayıl belə olar, – deyərək ona yaxınlaşır.

Ancaq iş işdən keçmişdi. Artıq qoçu canını tapşırmışdı.

Məşhədi Adilin qaçaq olmasının da maraqlı tarixçəsi var. O, Nikolay hökumətindən qaçmışdı. Hadisə belə olmuşdu.

Günlərin birində Kürdəxanı kəndində bir kasıb ödəyəcəyi vergiləri heç cürə verə bilmir. Çox get-gəldən sonra məsələ böyüyür. Axırda iş o yerə çatır ki, pristava şikayətə gedirlər.

Milliyyətcə rus olan pristav həmin kəndlinin işiylə məşğul olur. Yanına çağırtdırıb pulları ödəməsini tələb edir. Lakin bununla da bir nəticə hasil olmur. Axır durub gəlir onun qapısına. Sözsüz ki, yanında əlaltıları da vardı. Kəndli özünü yeyib-tökərək pulunun olmadığını söyləyir. İşi belə görən pristav əlaltılarına onu döymək göstərişi verir. Başlayırlar bu yazığı öz evindəcə şillə-təpiyin altına salmağa. Onun hay-harayı qonşulara da çatır. Səsə gələnlər arasında Adil də olur. Birbaşa içəri girib pristavın yanına gəlir. Ondan bir az aralıda kəndlini necə gəldi vururdular. Adil onlara çatıb əl saxlamağını tələb edir. Döyənlər dayanırlar. Adil yazığı niyə bu günə qoyduqlarını soruşur. Onlar da məsələni olduğu kimi danışırlar. İşdən hali olan Adil:

– A kişi, yazığı niyə bu günə salırsınız? Yoxudur də, olsa verərdi. Əl çəkin ondan. Olanda verər də... – deyə dillənir.

Pristav onun işinə qarışmaq istəyən adamın kimliyi ilə maraqlanmadan:

– Sən kimsən? Rədd eləyin bunu burdan! – deyə əlaltılarına göstəriş verir.

Bu sözü eşidən Adil çatıb pristavın qulağının dibindən bir qapaz ilişdirir. Qəfil zərbədən pristav yıxılır. Nikolayın dövründə belə hərəkətə görə adamın başına müsibətlər açardılar. Odur ki, pristav da, adamları da mat qalırlar. Silaha əl atmaq istəyəndə Adil tapançanı çəkib:

– Cəhənnəm olun buradan, bir də ayağınız bu kəndə dəyməsin, – deyir.

Pristav əlaltılarını da götürüb kənddən çıxır. Ancaq aradan az keçmiş xeyli silahlı ilə qayıdır. Və həmin gündən Adil qaçaq düşür.

Kürdəxanı camaatı o dövrlər, əsasən, heyvandarlıqla

məşğul olardılar. Kəndin böyük qoyun sürüləri vardı. Lakin Abşeron torpağı bu sahə üçün çox da əlverişli deyildi. Qumsal, ot bitməyən ərazidə qoyunları saxlamaq mümkün olmurdu. Elə buna görə də kənd camaatı qoyun sürülərini sürərdilər Qobustan istiqamətinə. Bu yerlərin yaşıllığına görə Bakının bütün ərazilərindən qoyunları bura gətirərdilər, yataqlar düşərdi.

Günlərin birində kürdəxanılı Adilə xəbər gətirirlər ki, kənd camaatının bütün qoyunlarını əlindən alıb, müsadirə eləyiblər. Bu söhbəti eşidən kimi ata minib birbaşa o tərəfə yollanmaq istəyir. Ətrafdakılar onu saxlamağa çalışıb, tək getməməyini təklif edirlər. Lakin, Adil onları eşitmir, atını tərpədib yola düşür. Qovhaqov gəlib yataqlara yetişir. Ha axtarsa da, Kürdəxanı camaatının qoyunlarını tapa bilmir. Sözsüz ki, Qala cinsindən olan heyvanları elə kənardan baxan kimi müəyyən etmək çətin deyildi. Xeyli soraqlaşandan sonra məlum olur ki, çobanları döyüb qovduqdan sonra, heyvanları da bu ərazilərə nəzarət edən bir nəfər, hərəyə bir neçəsini verməklə bölüşdürüb. Qaçaq Adil hər kimə yaxınlaşıb qan-qadasız heyvanların geri qaytarılmasını tələb etsə də, heç kəs bunu edə bilməyəcəyini deyir. Hamı bu yerlərin bircə ağası olduğunu söyləyir. Deməli, həmin adamı tapıb, haqq-hesab çürütmək lazım gəlirdi. Qaçaq Adil öyrənir ki, Nəvaidən olan həmin adam burada yoxdur, öz evində oturub, sadəcə olaraq işlərə rəhbərlik edir. Qaçaq onun yaşadığı yerin ünvanını öyrənib, birbaşa atını qapısına sürür. Gəlib evə çatanda görür ki, bu adam hər kimsə çox imkanlılardan biridir. Belə ki, ikimərtəbəli zəngin evin sahibinin elə ilk baxışdan vəziyyətini müəyyən etmək çətin

deyildi. Atın başını yığıb qapını döyməyə başlayır. Lakin hay verən olmur. Ev yiyəsini haraylayır, yenə səs-soraq çıxmır. Evdə adamlar olduğu halda cavab vermədiklərini görən Qaçaq Adil ev sahibinin onun kimliyindən xəbərdar olmasını anlayır. Görünür, o da arif adamdı, işini bilirdi. Axırda öz xoşuna, qapı açacaqlarının xülya olduğunu başa düşərək atın üstünə qalxıb hündür hasarın üzərinə atlanır. Ordan da cəld hərəkətsiz aşağı tullanıb evə yaxınlaşır. “Ay ev yiyəsi, bir qapıya çıx, səninlə söhbətim var” – deyə səslənir. Lakin bütün cəhdlər əbəs idi. Qaçaq Adil evdə əhli-əyal olacağından ehtiyat edərək içəri keçmək istəmirdi. İşi belə görəndə qapıya yaxınlaşmaqdan başqa yolu qalmırdı. Qapını itələdisə də, açılmadı. Bu yerdə lap təbdən çıxan Adil evin ikinci mərtəbəsinə dırmaşıb, pəncərədən içəri keçir. Qarşısına çıxan qulluqçudan ev yiyəsinin yerini soruşur. Çağırılmamış qonağın qəflətən qarşısında peyda olmasından özünü itirən qulluqçu əlinin işarəsi ilə soruşulan yeri göstərir. Qaçaq Adil qapını açıb içəri keçir. Kişi oturduğu yerdəcə qalmışdı. Görünür, o bu vəziyyətin yaranacağını əvvəlcədən gözləyirmiş. Özünü ələ almağa çalışaraq:

– Vallah, onların sənin kəndçilərin olduğunu bilməmişəm. Elə özüm istəyirdim indi gedib işləri yoluna qoyam. Qaytarıb heyvanlarını özlərinə verəcəkdim, – deyir.

Üz-gözündən saxtalıq, harınlıq yağan bu adamın sözlərinin boğazdan yuxarı olduğunu həmin an duymuşdu Qaçaq Adil. Əgər onun həqiqətən belə bir fikri olsaydı, daha niyə qaçıb evində gizlənirdi ki... Kişi kimi çıxıb onu qarşılayardı, bununla da işi sahmana salardılar. Sadəcə olaraq o, indi artıq bıçağın sümüyə dirəndiyini görüb vəziyyətdən çıxmaq üçün

özünü tülkülüyə qoyurdu. Odur ki, Qaçaq Adil qəzəblə:

– Qalx ayağa, indi bir yerdə gedəcəyik yataqlara. Orada hər şeyi aydınlaşdırarıq, – deyə onun üstünə qışqırdı.

Kişi ayağa qalxıb qorxa-qorxa ona tərəf irəlilədi. Bu vaxt ikiqat əyilmiş bu adamın, bayaq əlaltılarının az qala şişirdib göyə qaldırmaq istədiklərini xatırlayıb:

– Yox, bu sənin üçün böyük şərəf olar. Soyun paltarını, – göstərişi verdi.

Onun narazı qaldığını hiss edən Qaçaq Adil tapançanı çıxarıb:

– Soyun, soyun. Ağlını başına cəm elə. Əgər yaşamaq istəyirsənsə, nə deyirəmsə, onu da et, – dedi.

Ev sahibini alt tuman-köynəkdə qabağına qatıb həyətə çıxardı. Sonra qapıdan çıxıb atlara suvar oldular. Günün günorta çağı Qaçaq Adil bu tərəflərdə sözünün qabağında söz olmayan, hamının tük saldığı bir adamı bu vəziyyətdə ta yataqlara qədər gətirdi. Birbaşa atlarını camaatın lap gur yerinə sürdülər. Çobanlar gələnlərdən birinin xozeyinləri olduğunu, özü də alt tuman-köynəkdə görəndə gözləri kəllələrinə çıxdı. Onu bu günə salan adamın kimliyindən isə hələ xəbərsiz idilər. Qaçaq Adil onların mat-mat baxdığını görüb:

– Hə, nədi? Dediyiniz adam nə idi? Baxın, onu da gətirmişəm. Köpək uşağı, sizə bircə gün vaxt verirəm. Sabah bu vaxtacan camaatın bütün heyvanlarını necə paylaşdırmısınız, eləcə də yığarsınız bir yerə. Bircə heyvan əskik gəlsə, əlimdən qurtara bilməyəcəksiniz, – deyə qəzəblə dilləndi.

Biabır olmuş üzdəniraq "qoçu" başını aşağı salıb qıpqırmızı olmuşdu. Camaatın içində bu vəziyyətdə dayanması

onunçün ölümdən betər idi. Qaçaq Adil sözünü bitirərək: Mən gedirəm, ancaq sözlərimi yaddan çıxarmayın. Sabah mənim camaatım gələcək. Elə olmasın ki, bir də buralara ayağım düşsün. Bu gündən sonra kürdəxanılılara burda bir kəlmə də deyən olmayacaq. Sən də unutma ki, kürdəxanılı Məşhədi Adil sözünü bircə dəfə deyir. İkinci dəfə artıq sözümü başqa cür söyləyəcəyəm, – deyərək atının başını çevirib dördnala yataqlardan uzaqlaşır.

Kəndə çatıb camaata xəbər verir ki, sabah gedib heyvanlarını götürə bilərlər.

Həqiqətən də səhərisi gün camaat gedib Qobustandakı qoyunlarının bir yerə yığılıb onları gözlədiklərini gördülər. Öz qoyunlarından hər sürüyə iki-üç qoyun əlavə edilmişdi. O gündən sonra nə qədər Kürdəxanılı Qaçaq Adil sağ idi, camaata gözün üstə qaşın var deyən olmadı...

Bu hadisədən, bəlkə də, söhbət açmamaq da olardı. Lakin bir halda ki, bu hadisə baş verib, heç nəyi artırıb-əskiltmədən, hər şeyi olduğu kimi danışmaq, məncə, vacibdir. Bu qarşıdurma Kürdəxanılı Məşhədi Adilin kimliyini, öz dövründə bütün Bakı mühitində onun yerini bir daha açıq-aşkar göstərir. Odur ki, bu hadisəni də nəql etməyə qərar verdik.

Bakı şəhərinin tanınmış ziyalılarından biri oğlu üçün toy etmək fikrinə düşür. Artıq bütün işlər yoluna qoyulur, ağsaqqallar elçi gedir, nişan qoyulur, toyun vaxtı təyin edilir. Cəmi dörd gündən sonra vurhavurla gəlin gətirməlidir, qonaqlar da yığışmalıdır. Camaatın xeyir-duası ilə iki gəncin ailə həyatının təməli qoyulmalıdır. Hər bir valideyn üçün bundan gözəl, sevindirici nə ola bilər ki... Lakin şəhərin adlı-sanlı qoçularından biri ilə təkbətək söhbətlərindən sonra bəy atasının halı

yaman dəyişir. Evdə arvad-uşaq nə qədər səbəbini soruşsa da, kişi bir kəsə dərdini söyləmir. Lakin işi belə qoymaq olmazdı. Odur ki, özünə ən yaxşı dost saydığı bir tacirə başına gələnləri danışır. Sən demə, qoçunun onun qarşısında qoyduğu tələb son dərəcə şərəfsiz bir məsələ imiş. Oğluna nişanladığı qızdan xoşu gələn qoçu həyasızcasına gəlinin əvvəlcə onun əlindən keçib, sonra kişinin evinə gedəcəyi şərtini qoymuşdu. Adını çəkməyi lazım bilmədiyimiz bir qoçuyla hesablaşmaq hər kəsin karı deyildi. Onun sözünün qarşısında başqa söhbət ola bilərdimi? Odur ki, toy sahibi iki daşın arasında qalmışdı. Bu elə bir məsələ idi ki, onu hər yetənə açmaq olmazdı. İkinci tərəfdən vaxta az qalırdı, hansı yolla olursa olsun, onunla kimsə görüşüb bu harın adamı fikrindən döndərməli idi. Amma bu işin öhdəsindən kim gələ bilərdi?

Tacir də çox dünyagörmüş adamdı. Dostundan axşamacan fikirləşmək üçün möhlət istədi. Bu vaxtadək o, bu qoçunun yanında sözü keçəcək bir adamı axtarıb tapmalı idi. Nəsə, beləcə söhbətlərini yekunlaşdırıb, axşam yenidən görüşmək şərtilə ayrıldılar. Deyilən vaxt tacir yenidən dostunun qapısını döydü. Əhli-əyalı evin kişisinin tutqunluğundan və tacirin gün ərzində ikinci dəfə onlara təşrif buyurmasından ortada nəsə bir əmma olduğunu anlayırdı. Ancaq kimin ağlına gələrdi ki, bu nə məsələdir. Yenə də evin ağsaqqalı ilə tacir təklikdə qaldılar. Toy ərəfəsində belə bir çıxılmaz vəziyyətə düşdüyündən lap özünü itirmiş ziyalı ümid dolu baxışlarını dostunun ağzına dikmişdi. Sanki indicə onun söyləyəcəyi sözlər bütün dərdinin dərmanı olacaqdı. Tacir bunu hiss edib onu çox intizarda saxlamadı:

– Mən çox götür-qoy etmişəm. Bu məsələdə sənə kömək edə biləcək bircə nəfərə gümanım gəlir...

– O kimdi elə? – kişi axıracan dözə bilmədi.

– Onun qarşısında dursa-dursa, kürdəxanılı Məşhədi Adil dayana bilər. Sən günü sabah onun yanına yollan. Hər şeyi olduğu kimi danış. Allahın köməyi ilə səni bu dardan qurtarar o kişi, – dedi.

Dostunun adını çəkdiyi adam barədə ilk dəfədir ki, eşidirdi. Ancaq onu da bilirdi ki, tacir boş yerə söz deməz. Bir halda ki, o məsləhət görürdü, lap dünyanın o başında olsa da, gedib həmin Məşhədi Adili tapmalı, dərdini ona danışmalı idi. Odur ki, tacirə məsləhətinə görə "çox sağ ol" deyərək, ürəyində sabah lap tezdən qalxıb Kürdəxanıya yola düşmək barədə qərar verdi. Yaşının bu ahıl dövründə yaman kələyə düşmüşdü kişi. Özünə yer tapa bilmirdi. Bir yandan toya tədarük görməli idi, bütün ağırlıq ağsaqqal kimi öz çiynində idi, digər tərəfdən də o qədər yolu gedib-gəlmək üçün elə bir gün sərf etmək lazım gələcəkdi.

Nəsə, səhər o başdan faytona əyləşib Kürdəxanı deyib yol tutdu. Dayanmadan, dincəlmədən günorta günün lap qızmarında gəlib mənzil başına yetişdi. Soraqlaşa-soraqlaşa Məşhədi Adilin evini tapdı. Ev yiyəsini haraylamağa başladı. İndi hər şey bu görüşdən asılı idi. Kişi bütün ümidini bu adama bağlamışdı. Odur ki, möhkəm həyəcan keçirirdi. Handan-hana qapıya bir yaşlı zənən xeylağı çıxdı. Təhər-tövründən çox zabitəli bir qadın olduğunu anlamaq çətin deyildi. Qadın üz-gözündən yazıqlıq yağan yaşlı bir kişinin büzüşüb dayandığını görərək:

– Kimi istəyirsən, a kişi? – deyə dilləndi.

Elə səsi də yaşı yetmişi haqlamış bu qadının quş kimi cəldliyinə, zirəkliyinə dəlalət edirdi. Kişi susuzluqdan, həm də həyəcandan qurumuş boğazını arıtlayaraq:

– Mənə Məşhədi Adil lazımdır, – deyə bildi.

Qadın qəddini düzəldərək:

– Adil evdə yoxdur, – deyə cavab verdi.

Kişinin sanki bu an dizlərindən vurdular.

Müvazinətini zorla saxlayıb:

– Gec gələr? – soruşdu.

Qadın kişini yuxarıdan aşağı süzərək:

– Nə bilim, bəlkə heç gəlmədi, – dedi.

Uzun yol gəlib təntimiş, bütün ümidlərini bu görüşə bağlamış kişinin bu sözlərdən sonra dizi üstə çökməyiylə, göz yaşlarını leysan kimi tökməyi bir oldu. Qadın onun bu halını görüb dərdli adam olduğunu başa düşdü. Bir az da yaxına gəlib:

– A kişi, mən Məşhədi Adilin anasıyam. Bilmirəm sən onun dostusan, düşmənisən. Qalx ayağa. O filan evdədir. Dur get ora. Deyərsən ki, məni anan göndərib. Nə dərdin var söylərsən, kömək edər sənə, – deyir.

Kişi qalxıb deyilən ünvana yollanır. Həyətdə Məşhədi Adilin adamları yad adamın yaxınlaşdığını görüb saxlayırlar.

– A kişi, kimsən? – deyə soruşurlar.

– Mənə Məşhədi Adil lazımdı. Evlərinə getmişdim, anası bura göndərdi, – deyir.

Bu sözlərdən sonra onu içəri keçirirlər. Qapıdan içəri keçib bir az irəlilədikdən sonra ağacın kölgəsində xeyli adamın əyləşib söhbətləşdiyini görür. Kişini həmin adamların yanına gətirirlər. Lap başda oturmuş, əyin-başıyla başqala-

rından heç nə ilə fərqlənməyən bir nəfər.

– Buyur, ağsaqqal, eşidirəm səni, – deyə dillənir.

Kişi həmin adama baxıb:

– Mənə Məşhədi Adil lazımdı, – deyir.

– Məşhədi Adil mənəm, buyur, eşidirəm səni.

Kişi pərt halda:

– Ay oğul, mən yaşlı adamam. Dərdim var, niyə ələ salırsınız məni. Hanı bəs Məşhədi Adil? – deyə yazıq-yazıq dillənir.

Məşhədi Adil çətinliklə də olsa, kişini ələ salmadığına inandıra bilir. Yalnız bundan sonra, ikilikdə kişi dərdini açıb ona söyləyir.

Məşhədi Adil məsələdən hali olandan sonra bərk qəzəblənir.

– Kişi, bu saat səninlə bir yerdə gedirik onun yanına. De görüm, nəylə gəlmisən? – deyə dillənir.

Kişinin şəhərdən faytonla gəldiyini bildikdən sonra Qaçaq Adil onu süfrəyə dəvət etdi. Xeyli yol gəlib yorulmuş bu adamın ac-susuz olduğuna şübhəsi yox idi. Ona görə də bir tikə çörək yeyib, sonra geri dönmələrini təklif etdi. Lakin kişinin boğazından tikə keçərdimi?! Odur ki, minnətdarlıq edərək, vaxt itirmədən geriyə dönmək fikrində olduğunu söylədi. Qaçaq Adil artıq onun dərdindən hali idi və odur ki, hər şeyi yaxşı anlayırdı. Elə bu fikirlə də onun nigarançılığına son qoymaq üçün ayağa qalxıb:

– Yaxşı, iş ki belədir, onda elə bu saat da yola düşürük, – deyərək qapıya işarə etdi.

Qalxıb həyətdən çıxdılar. Faytonu həyətin qapısında dayanmışdı. Kişi tələsik irəliləyib, faytona yaxınlaşaraq:

– Buyurun, – deyə Məşhədi Adilə yer göstərdi.

Məclis əhli arasından bir neçə nəfər də onunla getmək istədiyini bildirəndə, doğrusu, kişinin rəngi-ruhu bir qədər açıldı. Doğrudan da o boyda əjdahanın qarşısında ortaboylu, adicə kəndçidən heç nəylə fərqlənməyən bu adam nə yolla dayanacaqdı. Ancaq başının adamları ilə getsəydi, bu başqa məsələ olardı. Di gəl ki, Adil onlara heç bir ehtiyacı olmadığını söyləyərək tək gedəcəyini bildirdi. Çox maraqlıdır ki, onun bircə sözündən sonra daha heç kəs israr eləmədi. Onlarla sağollaşıb ayrılarkən Adil:

– Di sür şəhərə! – deyə kişiyə göstəriş verəndə, yazığın lap matı-qutu qurudu.

Qaçaq Adilin üstündə silah-sursatı yox idi. Kişi güman edirdi ki, buradan evlərinə yollanır, orada ehtiyatdan yaraq-yasaq götürür, sonra Bakıya qayıdarlar. Ancaq indi elə beləcə yüngül yay paltarında getmək fikrini söyləyəndə kişi heç nə anlamadı. Ürəyində bunun heç yaxşı iş olmayacağına, nəsə bir oyuna düşəcəyinə daha şübhəsi qalmamışdı. Oradan burayacan qovhaqov bu yayın istisində fayton sürmüşdü, gəlib axtardığı adamı tapmışdı. Bu adamın haqqında tacir dediklərinə əsasən ona ümid yeri kimi baxmışdı. İndi isə bu adam əliyalın, özü də təkbaşına faytona əyləşib, yazıq kişini rüsvay etmək istəyən, şəhərdə sözünün qarşısında söz olmayan bir adamın üstünə getmək istəyirdi. Odur ki, ağlı heç nə kəsmirdi bu haqq-hesabdan, öz aləminə qapılıb laldinməz uzandıqca uzanan yollara baxırdı. Faytonda ölü bir sükut hakim idi. Deyəsən heç Qaçaq Adil də danışmağı sevmirdi. Ancaq arabir faytonu bir az da sürətlə sürməyi və şəhərə axşamçağı yetişməyi təklif edirdi Qaçaq Adil. Kişinin

özü də ürəyini gəmirən şübhələrə son qoymaq, işin axırına çıxmaq üçün bərk darıxırdı. Bir tərəfdən də bu görüşdən hər şey asılı idi axı. Əgər bu adam da qoçuya dil tapa bilməsəydi, onda başqa kimin üstünə getmək olardı? Ağlına heç nə gəlmirdi yazıq kişinin. Axır ki, nə olursa olsun bu görüş məhz bu gün baş tutmalı idi və o öz işini bilməliydi. Artıq şəhərə yaxınlaşırdılar. Qaçaq Adil həmin qoçunun çox vaxt Sabunçu vağzalındakı qumarxanada olduğunu yaxşı bilirdi. Odur ki, həmin yerə çatanda faytonu oraya sürməyi təklif etdi. Binanın qarşısında dayanan kimi Adil cəld hərəkətlə faytondan düşüb qapıya yaxınlaşdı. Orada elə həyətdəcə xeyli adam toplaşmışdı. Onun gəldiyini görənlərin hamısı böyük hörmətlə salam verdilər. Qaçaq Adil ucadan:

– Filankəs burdadırmı? – deyə səsləndi.

Adamlardan biri içəri gəlib, bir qədər ləngidikdən sonra geri qayıtdı və axtarılan adamın burada olmadığını bildirdi. Qaçaq Adil oradakı adamlarla sağollaşıb faytona qayıtdı. Yerində rahatlanıb, kişiyə Şamaxı yolundakı qumarxanaya sürmək göstərişini verdi. Beşmərtəbənin lap yaxınlığında birmərtəbəli bir bina vardı. Orada həm kazino, qumarxana, həm də çayçı yerləşirdi. Dövrün tanınmış adamlarının çoxu nərd atmağa, qumar oynamağa buraya yığışardılar. Bu yerdə onu da xatırlatmağı lazım bilirəm ki, "O olmasın, bu olsun" filmində göstərilən qumarxana məhz həmin yerdi.

Nəsə, gəlib həmin yerə çatırlar. Yenə faytonu binanın qarşısında saxlayırlar. Məşhədi Adil kişiyə də onunla getməyi təklif edir. İkisi də düşüb qumarxanaya girirlər. Burada da içəri keçən kimi demək olar ki, oradakıların hamısı Adili tanıyaraq ayağa qalxır, onunla görüşürlər. Axtardıqları

qoçu da lap yuxarı başda kiminləsə nərd atırdı. Qulbeçələri tələsik ona Məşhədi Adilin gəlişini çatdırırlar. Xəbəri eşidən kimi o zərləri yerə qoyub ayağa qalxır.

Ümumiyyətlə, Kürdəxanılı Adilin belə yerdə görünməsi səbəbsiz ola bilməzdi. Çünki onu qumarxanalarda hələ görən olmamışdı. Odur ki, həmin adamın da ürəyinə nəsə dammışdı. Çevrilib Adilin yanındakı adamın kim olduğunu görəndə isə məsələni anladı. Lakin yenə də özünü itirmədən irəli yeriyib:

– Məşhədi Adil, salaməleyküm. Xoş gördük. Sən hara, bura hara? – deyərək onu salamlamaq istədi.

Məşhədi Adil onun salamını almadan, bütün içəridəkilərin qulağı eşidə-eşidə:

– Alə, sən nə namərd adamsan, nə biqeyrət adamsan. Mən sənə nə qədər tapşırmışam ki, camaatın əhli-əyalına sataşmayasan. Heç utanmırsan? – deyərək ucadan səsləndi.

Məşhədi Adili tanıyanlar gözləri önündə baş verən bu hadisəni çox adi qarşıladılar. Çünki onlar bu adamın xarakterinə, cəsarətinə bələd idilər. Ancaq tanımayanlar dəhşətə gəlmişdi. Bu boyda qoçunu tanımadıqları nimdaş kəndli forması geymiş birisi təhqir edirdi. O isə başını aşağı salıb lal-dinməz dayanmışdı. Üstəlik, bozbaş yeyənlər də bu mənzərəni çox sakit seyr edirdilər.

Bu sözlərdən sonra divardan səs çıxdı ki, qoçudan səs çıxmadı. Kişi isə gördüklərini hələ tamamilə qəbul etmək iqtidarında deyildi. Gözlərinə inana bilmirdi. Nəhayət ki, Məşhədi Adil ona tərəf çevrilərək:

– Kişi get toyunu başla. Həmin məclisdə mən özüm də iştirak edəcəyəm. Kimin nə həddi var orada artıq-əskik bir

hərəkətə yol versin, – dedi.

Bu sözlərdən həmin qoçu, sözsüz ki, öz payını götürmüşdü. Sonra isə geri dönüb sakitcə qumarxananı tərk edirlər. Məşhədi Adil geriyə – Kürdəxanıya yola düşür, kişi isə sevincək evinə qayıdıb toy tədarükünə başlayır.

Üç gündən sonra məclis qurulmalı idi...

Beşmərtəbənin yaxınlığında yerləşən qumarxanadakı görüş çoxları üçün gözlənilməz oldu. Bütün Bakıda hamının qorxusundan tük saldığı bir adamın Qaçaq Adilin qarşısında bu cür təhqirlərdən sonra başını aşağı salıb susması təəccüblü idi. Bu mənzərəni görən qoçunun bozbaşyeyənləri də özlərini itirib qalmışdılar. Başqası olsa, yəqin ki, heç başçılarının yerindən tərpənməsinə imkan verməzdilər, onu qanına qəltan edərdilər. Qaçaq Adil isə bütün bunları heç vecinə almadan sözünü deyib geri çevrilərək oranı tərk etdi.

Kişini tam arxayın edərək, gedib toy tədarükünə başlamasını məsləhət bildi və özünün də mütləq bu məclisdə iştirak edəcəyinə söz verdi.

Bu görüşdən sonra kişi şad-xürrəm evinə qayıdıb toy tədarükünə başladı. Toyun vaxtı üç gündən sonraya təyin edilmişdi.

Beləcə, toy günü gəlib yetişdi. Qohum-əqrəba yığışaraq iki gəncin ailə həyatı qurmasını təmtəraqla, el adətincə qeyd edirdi. Bütün danışıqlara, hətta Qaçaq Adilin özünün də söz verməsinə baxmayaraq, kişi hələ də nigarançılıqdan can qurtara bilməmişdi. Gözü yolda, qulağı səsdə qalmışdı. Hələ ki, Qaçaq Adil gəlib çıxmamışdı. Vəziyyəti gərginləşdirən də məhz bu səbəb idi. Onun məclisdə görünməsi hər şeyi korlaya bilərdi.

Nəhayət ki, Kürdəxanılı Qaçaq Adil yenə də təkcə toy evinə təşrif buyurdu. Kişi qarşısına yeriyərək onu çox hörmətlə qəbul etdi. Məclisin lap başında yer göstərdi. Lakin Adil oturmaq istəmədiyini bildirdi. Ev yiyəsi kimi qapıda dayanaraq gəlib-gedənləri qarşılamağa, məclisdə ağsaqqallıq etməyə başladı. Sözsüz ki, bu məclisdə onun belə yaxından iştirak etməsi xəbəri yaxına-uzağa, hamıya çatmışdı. Qaçaq Adilin qol çırmayıb ağsaqqallıq etdiyi bir məclisdə kimin nə ixtiyarı vardı ki, artıq-əskik hərəkətlərə yol versin. Bir sözlə, məclis tam sakitçiliklə, səssiz-küysüz başa çatır. Hər şeyin qurtardığını hiss edən Qaçaq Adil xeyli oturub, toy sahibinin nə vaxt onu yola salacağını gözləyirdi. Lakin nə qədər gözləsə də, ev yiyəsinin başı bərk qarışdığından onu tamam yaddan çıxarmışdı. Qaçaq Adilə əslində elə bir şey lazım deyildi. O, sadəcə olaraq kəndə gedib çıxmaq üçün bir fayton tapmaq istəyirdi. Gecə mütləq geri qayıtmaq fikrində idi. Nəsə, axırı səbri tükənən Adil adamlardan birini çağırıb toy sahibi ilə görüşmək istədiyini bildirdi. Kişiyə xəbər çatan kimi özünü tələsik Adilin yanına çatdırdı. Üzrxahlıq edərək gedən qonaqları yola salmağa başı qarışdığını söylədi.

Məşhədi Adil:

– A kişi, hər şeyi başa düşürəm. Şükür Allaha, hər şey sakitçiliklə başa çatdı. Səndən bircə tələbim var. Bir fayton tap, məni yola sal gedim. Mütləq bu gecə kəndə qayıtmalıyam.

Kişi əl-ayağa düşərək onu qonaq saxlamaq istəsə də, qəti etiraz edərək gedəcəyini söylədi.

Ey yiyəsi işi belə görüb Məşhədi Adil üçün bütün naz-nemətlərdən yaxşı bir pay düzəldərək onu çox hörmətlə yola salır.

Beləcə, Kürdəxanılı Qaçaq Adil böyük bir biabırçılığın qarşını aldı. Ümumiyyətlə, adi kəndlilərdən var-dövlət baxımından heç nə ilə fərqlənməyən bu insan həyatı boyu təmiz adla, heç nədən çəkinmədən təlatümlü bir ömür yaşadı. İndi də Məşhədi Adilin adı onu tanıyanlar arasında kasıbların pasibanı, kimsəsizlərin ümid yeri kimi xatırlanır.

Hələ söhbətimizin əvvəlində Kürdəxanılı Qaçaq Adilin ermənilərə qarşı da çox amansız mübarizəsindən söhbət açmışdıq. O, şəxsən xeyli daşnakı o dünyaya göndəribmiş. İndi onu da xatırlatmaq yerinə düşərdi ki, bu mərd insan da məhz bilavasitə ermənilərin əli ilə dünyasını dəyişib. Hardasa, 1918-ci ilin sonlarında o, qəflətən bərk xəstələnir. Bəzi mülahizələrə görə Məşhədi Adil tif xəstəliyinə yoluxubmuş. Vəziyyətinin ağırlaşdığını görən yaxınları onu "Dvorest"in yaxınlığında, Basin küçəsindəki xəstəxanaya gətirirlər. Burada o bir neçə gün saxlandığı müddət ərzində Bakının bütün adlı-sanlı adamları onu yoluxmağa gəlirlər. Bir şeyi də deyim ki, həmin xəstəxananın həkimlərinin böyük əksəriyyəti milliyyətcə erməni imiş. Şübhəsiz ki, onlar xəstənin Məşhədi Adil olduğunu bildikdən sonra soydaşlarına qənim kəsilmiş bir adamı sağ-salamat buraxmayacaqdılar. Maraqlıdır ki, məsələnin bu tərəfi heç kəsin ağlına gəlmir. Axı kim hardan biləydi ki, həkimlər belə bir alçaqlığa yol verə bilər. Lakin ermənilər öz xasiyyətlərinə rəğmən bu dəfə də imkanı fövtə verməyərək Məşhədi Adilin müalicəsini əksinə aparırlar. Cəmi iki gündən sonra Məşhədi Adilin halı pisləşir. Başda məşhur Bakı qoçularından biri Malbaş Yusif olmaqla tanınmış adamlardan bir neçəsi növbəti dəfə onu yoluxmağa gələrkən artıq işin işdən

keçdiyini anlayırlar. Məhz bu vaxt cəmi bir günün içində kişinin belə əldən düşməsinin səbəbini erməni həkimlərin alçaqlığında axtarmağa başlayırlar. Bu söhbət böyük qalmaqala səbəb olsa da, artıq şərəfsiz düşmənlərimiz öz işlərini görmüşdülər. Məşhədi Adili buradan çıxarıb başqa həkimə göstərmək istəsələr də, bu heç nəyi dəyişmir. Onu müayinədən keçirən həkimlər artıq sağalacağının mümkünsüz olduğunu söyləyirlər.

Aradan iki gün keçir və Məşhədi Adil dünyasını dəyişir.

Bu dəfə də ermənilər öz mənfur niyyətlərini beləcə şərəfsizcəsinə, heç bir insanlıq normasına sığışmayacaq bir formada həyata keçirmişdilər.

***Hazırladı: Müşfiq Zeynalov***

***Rakurs. "Qoçular", 22 dekabr 2001,***
***№ 99 (218), səh.11.***

## MƏŞHƏDİ ADİLƏ İTHAFLAR

*Yazdı hünər dastanı, ba hünər Adil Paşa,*
*Düşmənə verməz canı, ba hünər Adil Paşa.*

*Rəhm eylədi hər zaman məzluma, həm yazığa,*
*Qorxmaz idi gəlsə də erməni, zalım dığa,*
*Çəksə imiş barmağın xəncərə bənzər bığa,*
*Sel eyləyərdi qanı, ba hünər Adil Paşa.*

*Görmüş idi çox döyüş, mərəkə, meydanları,*
*Gördü qırır xalqını erməni şeytanları,*
*Cəm eylədi bir yerə qəhrəman oğlanları,*
*Məhv eylədi düşmanı, ba hünər Adil Paşa.*

*Durdu o gün pusquda, aldı tüfəngin ələ,*
*Qoymadı bir erməni səngərə doğru gələ.*
*Söylədi ki, qurmuşam onlara burda tələ,*
*Gəlsə vurar şeytanı ba hünər Adil Paşa.*

*– Torpağımızdır, – dedi, – bizlərə vermiş çörək,*
*Biz də onu hifz edək öz gücümüzlə gərək,*
*Türkə ağız açmadı, bilsə də gəlmiş kömək,*
*Qoymadı boş meydanı, ba hünər Adil Paşa.*

*Xalqımızın var yenə çox belə Adilləri,*
*Adil adı daima tərpədəcək dilləri.*
*Oldu kömək məzluma, vurdu əzazilləri,*
*Sevdi əsil insanı, ba hünər Adil Paşa.*

*ÇİRAĞƏLİ*

## MƏŞHƏDİ ADİL

*Xalqa arxa duran xeyirdə, şərdə,*
*Var belə insanlar aslan hünərdə.*
*Düşmənə baş əyməz, düşsə də dərdə,*
*Onlardan biriydi mərdanə Adil,*
*Belə xəlq olmuşdu dövranə Adil.*

*Ruhuna güc verib ədalət və din,*
*Doğma yurd sevgisi qəlbində dərin,*
*Kasıbla kasıbdır, zənginlə zəngin,*
*Amalı dillərdə əfsanə Adil,*
*Həqiqət vurğunu divanə Adil.*

*Ellərə səs salmış şanı, şöhrəti,*
*Namusu, qeyrəti, saf ləyaqəti.*
*Dillərdə bu gün də gəzir söhbəti,*
*Sərvətə, dövlətə biganə Adil,*
*Sarsılmaz, yenilməz, fərzanə Adil.*

*Nə adı, nə sözü, nə izi itdi,*
*Çünki öz xalqına o xidmət etdi,*
*Nə olsun cənnəti görmədi getdi,*
*Yenidən çatdı ol ünvanə Adil,*
*Bağlıydı İslama, imana Adil.*

*Özünü dərk edib doldunsa yaşa,*
*İnsan tək ömrünü vurarsan başa,*
*Min rəhmət ruhuna, ey Adil Paşa,*
*Çarə yox haqq verən fərmanə, Adil,*
*Tənha son qoydu bu dastana, Adil.*

*Alqulu Tənha*

## MƏŞHƏDİ XOCABƏY KÜRDƏXANILI

Həmin bu şəxs 1918-ci ildə ermənilərə qarşı igidcəsinə vuruşub. Məşhədi Xocabəy öz doğma bacısı oğlanları Məşhədi Qədim, Teyyub, İsabala, Qurbanqulu, Ağamalı və başqalarını başına toplayaraq Məşhədi Adilin dəstəsi ilə birləşib öz kəndlərinin namus və qeyrətini qoruyublar. Məşhədi Adilə türklər hətta "Paşa" rütbəsi də veriblər. Belə qeyrətli igidlərə kəndimizin hər vaxt ehtiyacı vardır.

# MƏŞHƏDİ QURBANQULU MUXTAR OĞLU

Məşhədi Qurbanqulu Muxtar oğlu 1884-cü ildə Kürdəxanı kəndində rəncbər-kəndli ailəsində dünyaya göz açmışdır. Muxtar kişinin altı övladı olub. Üç oğlan, üç qız. Qardaşların kiçiyi Məşhədi Qurbanqulu olmuşdur. Gənc yaşlarından o da kənd camaatının əksəriyyəti kimi çovdarlıqla məşğul olmuşdur.

Məşhədi Qurbanqulu hələ cavankən öz qoçaqlığı ilə ad qazanmış, öz yaşıdlarını – əli silah tutan, at minən cavanları başına toplamışdır. Bunlardan Ağamalı, İsabala, Teyyub ona ən yaxını olmuşlar.



1918-ci ildə Azərbaycana erməni qəsbkarları basqın edəndə onların qarşısının qəhrəmanlıqla alınmasında Kürdəxanı kəndinin də mərd, igid oğullarının misilsiz xidmətləri olmuşdur.

Məşhədi Qurbanqulu gənc yaşlarında Xorasana gedib, İmam Rzanı ziyarət etmişdir.

Məşhədi Qurbanqulu çox ayıq adam olmuşdur. Təhlükəni əvvəlcədən hiss etmiş və sayıqlıqla ondan sovuşmuşdur. Belə bir təhlükəli vəziyyətlərdən biri Xorasana ziyarəti zamanı olmuşdur. Ziyarətə gedəndə anası Nəzirbanu ana ona deyir ki, ay oğul, ziyarə-

tə gedirik, əlisilahlı olma. Məşhədi Qurbanqulu anasına söz verir, ancaq hiss edir ki, yolda ona pusqu quracaqlar. Silahını elə anasının əyləşdiyi arabada örtüyün altında gizlədir. O dövr onların getdiyi karvan poçt karvanı olur. Həqiqətən də yarı yolda onun arxasınca göndərilən muzdur qatillər onun silahlı olduğunu bilib qaçırlar. Erməni-müsəlman müharibəsi vaxtı kəndin axundu Axund Qasım əli silah tutan kəndin cavanlarını bir yerə toplamış, arada olan umu-küsünü götürmüş və bir yerdə ermənilərə qarşı vuruşub qalib gəlmişlər. O vaxt ermənilər Məhəmmədi kəndi ilə Kürdəxanı kəndi arasında "Əlibaxış qayalığı" deyilən yerə qədər gəlmiş, cəsur türk qardaşlarımızın və Bakı kəndlərinin igid oğlanlarının mərdliyi və dönməzliyi sayəsində döyülüb qovulmuşlar.

Bu döyüşdə məxsusən Məşhədi Adilin, Məşhədi Xocabəyin və Məşhədi Qurbanqulunun xidmətləri çoxdur.

Sovetlər gələndən sonra yüksək vəzifələr alan mənfur erməni cəlladları Məşhədi Qurbanqulunu da qara siyahıya saldılar. Məşhədi Qurbanqulu ömrünün axırına kimi mərd yaşadı. O gizlindən kiminsə gülləsinə tuş gəlməkdənsə, öz-özünü hökumətə təslim etdi.

O, 1922-ci ildə, 38 yaşında bolşeviklər tərəfindən güllələndi.

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİNİN İŞTİRAKÇILARI

## YUSİFZADƏ ŞƏRAFƏT SƏTTARBƏY QIZI



1924–cü il mayın 2-də Bakının Kürdəxanı kəndində ziyalı ailəsində anadan olmuşdur.

Atası Yusifzadə Səttar Əbdüləzim oğlu Bakının Kürdəxanı kəndində 1890-cı ildə bəy ailəsində doğulmuşdur. O, Kürdəxanıda ilk dəfə məktəb tikdirmişdir və bu məktəbin direktoru olmuşdur.

Anası Yusifzadə Səkinə Musarza qızı 1896-cı ildə İçərişəhərdə dənizçi ailəsində doğulmuşdur.

1940-cı ildə orta məktəbi bitirən Şərafət xanım hüquqşünas olmağı arzulamış, lakin anasının arzusu ilə pedaqoji məktəbə daxil olmuşdur. 1942-ci ildə pedaqoji məktəbi bitirərək təyinatla Masallıda orta məktəbdə fizika-riyaziyyat fənnini tədris etmişdir. 6 ay müəllimlik etdikdən sonra İkinci dünya müharibəsinin ən ağır vaxtında hərbiyə çağırılmışdır.

1942-1944-cü illərdə Qafqazda 4-cü diviziyada topçu olmuşdur (hərbi biletin seriyası QD № 461260). 1944-cü ilin dekabr ayında müharibədə onu don vurmuşdu, hətta ayaqlarının kəsilməsi təhlükəsi qarşısında qalmışdı. Qospitaldakı həkimlərin səyi nəticəsində ayaqları qorumaq mümkün olmuşdur.

1945-ci il mayın 9-u almanlar üzərində qələbədən sonra Şərafət xanım hüquqşünas olmaq arzusu ilə sənədlərini BDU-nun hüquq fakültəsinə vermişdir. Ədəbiyyat imtahanını ondan S.Vurğun qəbul edərək, onun biliyini "əla" qiymətləndirmişdi. 1945-1950-ci illərdə təhsil almışdır, 1950-ci ildə BDU-ya Kommunist Partiyasının birinci katibi Mircəfər Bağırov gənc tələbələrin məruzələrini dinləmək üçün gəlmişdi və o, son kurs tələbəsi olan Şərafət xanımın çıxışını bəyənərək onu Moskvaya birillik Moskva Dövlət İqtisadiyyat İnstitutunun dövlət idarəetmə kursuna keçirmişdir (vəsiqə №099).

1951-1952-ci illərdə Moskvada oxumuş və ona aspiranturada qalmaq təklif olunmuş, lakin ailəsində müharibə illərindən sonrakı ağır vəziyyət onun yenidən Bakıya qayıtmasına səbəb olmuşdur.

1952-1955-ci illərdə Dövlət Nəzarət Komitəsində işləmişdir.

1960-cı ildə Azərbaycan Ali Məhkəməsində təcrübə keçmiş və 1963-cü ildə Oktyabr (indiki Yasamal) rayonunda hakim vəzifəsində çalışmışdır (vəsiqə №178). Daha sonra 1970-1976-cı illərdə Şəmkir məhkəməsinin hakimi olmuşdu (vəsiqə №205).

1985-ci ildə Dövlət Şərafət xanımı Böyük Vətən müha-

ribəsinin qələbəsi münasibətilə "40 illik qələbə" medalı ilə təltif etmişdir.

1993-cü il noyabrın 17-də Bakı şəhərində vəfat etmişdir.

## ƏNBİYA XANBABA OĞLU ZÜLFÜQAROV



Ənbiya Xanbaba oğlu Zülfüqarov 1912-ci il yanvar ayının 20-də Bakının Kürdəxanı kəndində anadan olub. 1921-1922-ci illərdə boş evlərdə açılmış beşillik məktəbi bitirib.

90 illik ömründə bir çox tarixi hadisələrin şahidi olub. 1918-ci il mart qırğınları zamanı uşaq olsa da, yadında çox hadisələr qalıb. Onun söylədikləri bu gün də bizim yadımızdadır. Ermənilər hər tərəfdən gəlib Bakını almışdılar. Növbə Bakı kəndlərinə çatmışdı. Qəddar düşmən Sabunçu, Zabrat, Digah kəndlərini tutdu. İndiki Rəsulzadə qəsəbəsinin adı əvvəllər Əjdəriyyə idi. Bu qəsəbəni və Məhəmmədi kəndini də erməni daşnakları tutdular. Adil adlı bir Kürdəxanı sakini camaatı ətrafına toplayıb

kəndimizi müdafiə edirdi. Buna görə də düşmən bizim kəndimizə girə bilmədi. O, erməniləri qova-qova kəndlərdən uzaqlaşdırdı. Həmin dövrdə türklər və ingilislər Bakıya gəldilər. Türklər bir ilə kimi Bakıda qaldılar. Onlar Adilə cəsurluğuna görə "Adil Paşa" adını verdilər və Türkiyədə onun heykəlini ucaltdılar.

Babam həm də rus-alman müharibəsinin iştirakçısı olmuşdur. Müharibə başlanan zaman babamın 28 yaşı var idi.

Burada mən bir balaca mətləbdən kənara çıxmaq istərdim. Dəlləklik sənəti babamın dədə-baba sənəti olub. Babam Ənbiyanın atası və babası elin sənətkarı olub. Həmin sənəti nəsildə davam etdirən isə mənim babam olub. İkinci Cahan müharibəsindən əvvəl babam Ənbiya el içində Usta Xanbaba adı ilə hörmət qazanan atasının əl işlərinə baxaraq öyrəndiyi dəlləklik sənəti ilə məşğul olurdu.

1941-ci ildə müharibəyə gedən babam Ənbiyanın ilk döyüşü Kerçdə olub. 1943-cü ilin yanvar ayında Dnepr çayını keçdikdən sonra ağzından və boğazından yaralanır. Çox ağır vəziyyətdə, uzun yollardan sonra o, indiki Bakıxanov qəsəbəsindəki qospitala köçürülür. Burada o, uzun müddət müalicə olunandan sonra onu müharibəyə yararsız olduğundan evə buraxılır. Yaralarının sağalmasına baxmayaraq o, yaralı qolunu sərbəst surətdə hərəkət etdirə bilmirdi. Müharibədən sonra o, yenə dədə-baba sənətini davam etdirir. 1945-ci ildən öz sənətində müstəqil çalışmağa başlayır. "El sənətkarı" kimi tanınan babam Ənbiya ömrünün axır gününə kimi bu sənətdə çalışmışdır. Onun əli çox "yüngül" olub. Son zamanlara kimi yaşının çox olmasına baxmayaraq öz sənətini, özü demişkən, gözüyumulu işləyərmiş. Babam

tanınmış adamların övladlarının və nəvələrinin həkimi olub. Murtuz Ələsgərovun, Əbülfət Əliyevin, Arif Babayevin, Arif Quliyevin, İsmayıl Şıxlının, şair Qabilin və digərlərinin uşaqları, nəvələrini sünnət edib. Adını çəkdiyim bu insanlar dəfələrlə evimizdə babam Ənbiya kişinin qonağı olublar. Varlı-kasıb hamı onu sənətinə görə tanıyıb qiymət verirdi. Babam təkcə sənəti ilə deyil, həm də öz mənəviyyatı, insanpərvərliyi ilə də çoxlarının hörmətini qazanmışdır. O, təqaüdçü idi. İkinci qrup müharibə əlili idi. Lakin aldığı pul çox az idi. O həmişə deyərdi: "Xanlıq sağ olsun. Onlar məni dolandırır. Mən də yeri gələndə onları". İmkanı olmayan ailələrə minnətsiz hörmət edirdi, Allah da babama onun ürəyinə görə verirdi. 90 yaşına – ömrünün axırına qədər əlinin zəhməti ilə məğrur bir ömür yaşamışdır. Çox təəssüf ki, babamın sənətini ailədə davam etdirən olmadı. Altı övladı olub – dörd qızı, iki oğlu. Oğlanları rəhmətə gedib, nəvələri isə başqa sənət seçiblər.

Babamın şagirdləri də çox olub. Onlardan biri məhz bizim kəndin sakini Məşhədi Seyfəddindir. Hal-hazırda o bu sahədə tanınır. Babam Ənbiyanın şagirdlərindən biri də Novxanı kəndindən olan Hacıbabadır. O da ustadının ona öyrətdiyi bu sənəti indiyə kimi yaşadır.

Babam Ənbiya 2002-ci il sentyabr ayının 29-da vəfat edib.

Mən isə babamın adını daşıyıram. Artıq 21 yaşım var. Harada oluramsa, adımı eşidənlər dərhal soruşurlar:

– Sən rəhmətlik Ənbiya kişinin nəvəsisən?

– Bəli! – deyə fəxrlə cavab verirəm. Bu mənim üçün böyük şərəfdir.

# ALLAHYAROV AZAN İBAD OĞLU



Allahyarov Azan İbad oğlu 1915-ci ildə Bakının Kürdəxanı kəndində anadan olmuşdur. O, 1939-cu ildə hərbi xidmətə çağırılmışdır. İlk döyüş yolu sovet-Finlandiya münaqişəsində olub. O, Fin meşələrində bir neçə müddət partizanlıq edib. Azan İbad oğlu xatirələrində deyirdi ki, biz Fin meşəsində mühasirədə idik. Mühasirədən çıxmaq üçün ancaq axşamlar hərəkət edirdik. Finlər gecələr güllə atmır və ancaq bıçaqdan istifadə edirdilər və nəhayət, bir çox itkidən sonra o Kronştata gəlib çatıb. Bir neçə vaxtdan sonra isə ikinci dünya müharibəsi başlayıb. Onu dərhal cəbhəyə Ukrayna frontuna göndəriblər. O, Somolensk, Vitebsk vilayətlərində döyüşüb. Azan İbad oğlu topçu olub. O deyirdi ki, bir dəfə faşistlər geriləyən zaman Belorusiya meşələrində bizim polk gecəməli oldu. Orada almanların qoyub geri çəkildikləri balaca qərargah var idi. Mən komandirə dedim ki, orada qalmaq çox təhlükəlidir. O isə mənə məhəl qoymadı. Nə isə, axşamüstü bizim şöbənin şam yeməyi hazır-

lamaq üçün mən meşədən odun yığarkən birdən sifətimə isti dəydi, dərhal komandirə xəbər verdim. Sən demə, yerin altında zirzəmi var imiş. Komandirin əmri ilə zirzəmini və orada olan 6 nəfər alman dustaq edib götürdük. Səhərisi gün komandir bizi sıraya düzdü və söylədi ki, əgər biz onları tapmasaydıq, onlar bizi partladıb məhv edəcəkdilər. Mən komandirə dedim: "Nə oldu, yoldaş komandir, mən sizə demədim bura təhlükəlidir". O isə mənə bir kəlmə rus dilində "Nu ladno Allaxyarov" dedi. Buna görə mənə ancaq adi medal verdilər. O, məşhur Leninqrad mühasirəsində 900 gün olub, 2 dəfə ağır yaralanıb. Leninqrad hərbi qospitalında yatıb. Mühasirədən sonra Pribaltikadan tutmuş Ukrayna, Belorusiya cəbhələrində vuruşub. Müharibə bitdikdən sonra, o, Çin-Yapon müharibəsinə göndərilib. O, Çin şəhərlərinin bir çoxunda vuruşub və nəhayət, müharibə bitdikdən sonra 1946-cı ilin payızında bədənində 3 düşmən mərmisinin qəlpəsi ilə 6 gün Sakit okean və 24 gün quru yolla vətənə qayıdıb. O, 5 oğul, 2 qız atası olub. 1993-cü il yanvar ayında vəfat edib.

# MURADOV MƏMMƏDHÜSEYN HACIMURAD OĞLU



Muradov Məmməd-hüseyn Hacımurad oğlu 1921-ci il mayın 9-da Bakının Kürdəxanı kəndində anadan olmuşdur. Orta təhsilini həmin kənddə almağa başlamışdır. 30-cu illərin əvvəllərində ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. Orta təhsilini məhz burada, Oktyabr rayonunun 38 saylı orta məktəbində davam etdirmişdir. 1938-ci ildə 10-cu sinfi bitirmişdir. M.F.Axundov adına ikiillik Müəllimlər İnstitutuna daxil olmuşdur. İnstitutda oxuduğu müddətdə "Azərbaycan müəllimi", "Azərbaycan pioneri, "Yeni yol" və s. qəzetlərdə məqalələrlə çıxış etmişdir. Sonralar "Azərbaycan qadını" jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdır.

M.Muradov 1939-cu ildə Sovet Ordusu sıralarına çağırılmışdır. Ordu sıralarında xidmət müddəti bitməmiş, 1941-ci ildən 1944-cü ilə qədər Böyük Vətən müharibəsi cəbhələrində Leninqrad şəhəri uğrunda mərdliklə vuruşmuş və 3

ildən çox mühasirədə olmuşdur. Dörd dəfə yaralanmışdır.

Birinci dəfə 1942-ci il avqustun 31-də ağır döyüşlərdə yaralanmış və xəstəxanaya çatdırılmışdır. Noyabr ayında yenidən cəbhəyə göndərilmişdir.

1942-ci ildə ikinci dəfə ayağından yaralanmışdır. Üçüncü dəfə 1943-cü ilin noyabr ayında ağır döyüşlər zamanı başından yaralanmışdır.

1944-cü ilin mart ayında Leninqrad şəhərinin blokadadan azad etmək üçün sovet qoşunları hücuma keçmişdir. Hücumların birində M.Muradov ağır yaralanaraq xəstəxanaya çatdırılır. 2-3 gündən sonra özünə gəlir və aprel ayında xəstəxanadan buraxılıb döyüşən ordu üçün kiçik komandirlər hazırlayan polka göndərilir. Sonrakı döyüşlərdə iştirak etməsə də, 150-dən çox kiçik komandir hazırlayır. Bir müddət müxtəlif əsgəri hissələrdə, o cümlədən Tiflis şəhərində zabitlərdən ibarət 31-ci ehtiyat polkunda xidmət edir.

M.Muradov Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şücaətə görə 23 orden və medallarla, "Qırmızı Ulduz", birinci dərəcəli Vətən Müharibəsi ordenləri, "Döyüş xidmətlərinə görə", "İgidliyə görə" və s. təltif olunmuşdur.

O, sıravi əsgərlikdən polkovnik rütbəsinə qədər bir döyüş yolu keçmişdir.

Müharibədən sonra iş fəaliyyətini və məhz hərbçilik sahəsində davam etdirməyi özünə borc bilir və Azərbaycan Respublikası Hərbi Komissarlığında fəaliyyətini davam etdirir.

1945-52-ci illərdə Qusar rayonunun hərbi komissarlığında birinci şöbəsinin rəisi vəzifəsində işləmişdir.

1952-1956-cı illərdə Yevlax şəhərinin hərbi komissarı vəzifəsində çalışır.

1956-cı ildən 1963-cü ilə qədər Azərbaycan Respublikası Hərbi Komissarlığın ikinci şöbə rəisi olur.

1963-1969-cu illərdə Bakı şəhəri Kirov (Binəqədi) hərbi komissarı olur.

1969-1974-cü illərdə Bakı şəhərinin Nəsimi rayonunun hərbi komissarı vəzifəsində çalışır.

M.Muradov 1958-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş və 1964-cü ildə orada Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə tam kursu bitirmişdir.

35 il SSRİ Jurnalistlər İttifaqının üzvü olmuşdur. Bu illər ərzində çıxan qəzet və jurnallarda daima məqalələrlə çıxış edir.

1989-cu ildə onun “Neva sahillərində” adlı kitabı işıq üzü görmüşdür. “Neva sahillərində” adlı döyüş xatirələrində o, Leninqrad uğrunda alman faşistlərinə qarşı gedən ölüm-dirim müharibəsindən şəhər əhalisinin mərdliyinə sovet əsgərlərinin misilsiz şücaətindən bəhs edir.

İstefaya çıxandan sonra uzun müddət Azərbaycan Respublikasının Mətbuat və Poliqrafiya Nazirliyinin təchizat idarəsinin rəisi vəzifəsində çalışmışdır.

1994-cü ildə M.Muradov vəfat etmişdir.

## MUSAYEV HACIBABA MƏLİK OĞLU



Musayev Hacıbaba Məlik oğlu 1917-ci il aprelin 6-da Bakı şəhərində Maştağa rayonunun (indiki Sabunçu rayonu) Kürdəxanı kəndində anadan olub.

1944-cü ildə Ukraynada almanlara əsir düşüb. 1944-cü ilədək fəhlə batalyonunda Ruminiya, Fransa, İtaliyada əsir düşərgələrində olub. 1945-ci ildə ABŞ ordusu tərəfindən azad olub və Qırmızı orduya təhvil verilib. 1946-cı ildə Vətənə dönüb. Əmək fəaliyyətini neft mədənlərində davam etdirib. Kənddə bir çox su quyularının qazılması və texniki avadanlıqlarla təhciz edilməsi onun adı ilə bağlıdır.

# MİRZƏYEV ƏLİƏSGƏR ƏLİMİRZƏ OĞLU



Mirzəyev Əliəsgər Əlimirzə oğlu 1915-ci ildə Bakının Kürdəxanı kəndində anadan olub.

Körpə ikən atasını itirib.

1939-cu ildə sovet ordusu sıralarına əsgər gedib. Əsgərliyini bitirməmiş müharibə başlayıb. Oradan müharibəyə aparılıb. Müharibə ərzində bir çox medal, ordenlərlə təltif olunub. 1946-cı ildə müharibədən qayıdıb.

Müharibədən qayıdandan sonra kolxozda işləyib. Ondan sonra milis orqanlarına qəbul olunub. Milis orqanlarında da bir çox medallarla təltif olunub.

1965-ci ildə təqaüdə çıxıb.

1978-ci ildə rəhmətə gedib.

# ƏLİYEV QURBANHÜSEYN MÖVSÜMƏLİ OĞLU



Əliyev Qurbanhüseyn Mövsüməli oğlu 1913-cü il martın 19-da Bakı şəhərində anadan olub. Uşaqlıq illəri Bakının Kürdəxanı kəndində keçib. O, 1922-ci ildə məktəbə gedib, sonralar texniki məktəbdə oxuyub, 1935-ci ildə instituta qəbul olunub, həkim-terapevt ixtisası üzrə bitirib. Keçmiş SSRİ məkanının çoxsaylı şəhərlərində stajirovka keçib. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinin iştirakçısı olub. 1944-cü ildə yaralanıb və sonra əlillik alıb. 1943-cü ildən həkim kimi fəaliyyət göstərib. 9 medal və ordenlə təltif olunub (Lenin ordeni, “Za otvaqu”, “Za pobedu Stalinqradom” və s.), əmək və müharibə veteranıdır. Müharibə qurtarandan sonra həkimlik fəaliyyətini davam etdirib. 40 ildən çox iş stajı olub. Müxtəlif illərdə (1946-1984-cü illərdə) 3 nömrəli klinik xəstəxanada (keçmiş Caparidze adına), respublika xəstəxanasında, ən çox Lenin komsomolu adına stadion idman bazasında, 11 nömrəli poliklinikada (Sabunçu rayonu) işləyib.

Üç övladı var: bir oğlan, iki qız. İş fəaliyyəti ilə əlaqədar çox sayda diplom və mükafatlar qazanmışdır. 1985-ci ildə təqaüdə çıxmışdır (xəstəliklə əlaqədar 4 dəfə infarkt keçirib, ürək damar çatışmazlığı). 1987-ci il iyulun 19-da vəfat etmişdir.

## HEYDƏRƏLİ SƏRHƏNG OĞLU ƏLİYEV



Heydərəli Sərhəng oğlu Əliyev 1921-ci il fevralın 22-də Bakının Kürdəxanı kəndində kəndli ailəsində anadan olmuşdur. İlk təhsilini də həmin kənddəki orta məktəbdə almışdır.

Əmək fəaliyyətinə 1941-ci il iyulun 4-də Kirovneft NQÇİ-nin 1 saylı neft-qazçıxarma sexində çilingər kimi başlamışdır.

İşə başladığı gündən 6 ay sonra, 1942-ci il yanvar ayının 17-də vətənin müdafiəsi uğrunda səfərbərlik çağırışına qoşularaq döyüş bölgəsinə yollanmışdır.

H.Əliyev 5 il cəbhədə mərdliklə döyüşmüş, 476-cı

Qvardiya atıcı polkunun tərkibində Stalinqradın müdafiəsi, Praqanın azad olunmasında iştirak etmiş, döyüşlərdə bir neçə dəfə yaralanmış, Berlin üzərində qələbəyədək şərəfli yol keçmişdir. Qvardiya baş serjantı rütbəsində müharibəni başa vurmuşdur.

Bu igidliyinə və qəhrəmanlığına görə o, müxtəlif orden və medallarla təltif olunmuşdur.

"Qırmızı Ulduz" ordeni (1942), "İkinci dərəcəli Vətən müharibəsi" ordeni (1945), "Stalinqrad müdafiəsinə görə" (1942), "İgidliyə görə" (1943), "Praqanın azad olunmasına görə" (1945), "Almaniya üzərində qələbəyə görə" (1945), sonrakı illərdə dəfələrlə Böyük Vətən müharibəsində qələbənin və silahlı qüvvələrin yubiley medalları ilə də təltif edilmişdir.

Müharibə qurtarandan sonra, 1947-ci ilin mart ayında H.Əliyev yenidən öz doğma iş yerinə, Kirovneft NQÇİ-yə neft və qazçıxarma operatoru vəzifəsinə qayıtmışdır. 1955-1959-cu illərdə o, istehsalatdan ayrılmadan Bakı Neft Texnikumunda oxumuş və oranı müvəffəqiyyətlə bitirmişdir.

Heydərəli Sərhəng oğlu Əliyev neft və qazçıxarma ustası, mühəndis, böyük mühəndis, sex rəisi vəzifəsinədək yüksəlməklə şərəfli bir əmək yolu keçmişdir. O, hansı vəzifədə çalışmasından asılı olmayaraq işinə məsuliyyətlə yanaşaraq, tələbkarlığı, öz iş bacarığı və qabiliyyəti ilə həmişə gənclərə örnək olan bir işçi olmuşdur.

O, 52 illik əmək fəaliyyəti dövründə müxtəlif fəxri adlara layiq görülmüş, bir çox orden və medallarla, o cümlədən Lenin ordeni (1966), "Əməkdə fərqlənməyə görə", "Əmək veteranı", "Neft Sənayesi Nazirliyinin sosializm yarışının

əlaçısı", "1973-cü ilin sosializm yarışının qalibi", "XI beşilliyin zərbəçisi" və s. medal və nişanlara layiq görülmüşdür. H.Əliyev neft sahəsindəki səmərələşdirici təkliflərinə və ixtiralarına görə SSRİ Xalq Nailiyyətləri Sərgisinin iştirakçısı olmuşdur.

Xalq təsərrüfatındakı nailiyyətlərinə görə bürünc medalla təltif edilmişdir. Dəfələrlə xalq tərəfindən müxtəlif dövlət orqanlarına – Azərbaycan Respublikasının Ali Sovetinə (1963), Bakı Sovetinə (1971), Kirov rayon Sovetinə (1973-1979) deputat seçilmişdir. Azərbaycan Respublikasının təftiş komissiyasının üzvü olub.

Heydərəli Səhəng oğlu Əliyevə Azərbaycan Respublikasının 1964-cü il iyunun 29-da Azərbaycanın neft ustası fəxri adı verilmişdir.

Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə onun adı respublikanın ümumxalq "Şərəf kitabı"na yazılmışdır. Vətən və xalq qarşısında göstərilən xidmətlərini nəzərə alaraq o, respublika əhəmiyyətli fərdi təqaüdçü adına layiq görülmüşdür.

1999-cu il dekabrın 2-də dünyasını dəyişmişdir.

# QULİYEV ƏLİQULU MƏMMƏDQULU OĞLU
## (1908-1994)



Quliyev Əliqulu Məmmədqulu oğlu 1908-ci ildə Kürdəxanı kəndində zəhmətkeş bir kəndli ailəsində dünyaya göz açıb. 10-12 yaşlarında Axund Qasımın dini biliklər verdiyi mədrəsəsində təhsil almışdır. 18 yaşında ikən atasını itirib. Bu hadisə onun həyatında çətinliklər yaratsa da, lakin mənəvi dəyərlərə yüksək dərəcədə ehtiram saxlanılan bir ailədə böyüdüyü üçün bütün bu çətinliklər onun xarakterində heç bir dəyişiklik etməmişdi. Ta kiçik yaşlarından Yaradana bağlılığı onun imanının kamilləşməsinə və Əhli-Beyt sevgisini və bu yolun gözəlliyini dərk etməsinə rəvac verirdi. Gənc yaşlarından dini mərasimlərdə, Əhli-beyt və imamların şəninə keçirilən məclislərdə iştirak edirdi. Bir çoxlarının həyatında silinməz izlər buraxan ağrı-acıyla dolu ikinci cahan savaşı onun həyatından da yan keçmədi. 1941-ci ildən 1946-cı ilə kimi müharibənin qaynar nöqtələrində iştirak etdi. Müharibənin dəhşətli keçdiyi Krım cəbhəsində, bundan əla-

və Kerç, Mazdok və s. döyüş bölgələrində ön cəbhələrdə döyüşdü. Bu döyüşlər zamanı bir neçə dəfə yaralanıb, hərbi qospitallarda müalicə almışdır. Qeyd etmək yerinə düşərdi ki, 410-cı Taqanroq diviziyasının tərkibində vuruşmuşdur. Bu müharibənin nişanəsi olaraq ömrünün son günlərinədək mərmi qəlpələri bədəninin müxtəlif yerlərində qalmışdı. Müharibədən qayıdarkən 38 yaşı vardı. Lakin bu dəhşətlərlə dolu müharibə onun mənəviyyatına heç bir təsir göstərməmiş, əksinə, çəkdiyi bu əziyyətlər onu daha da Allaha yaxınlaşdırmışdı. Müharibədən qayıdandan sonra yenə öz xeyirxah işlərini davam etdirməyə başlayır. O, bir çox məclislərdə, demək olar ki, bütün kəndin məclislərində və yaxın kəndlərin də bir çox məclislərində xəlifə kimi iştirak edirdi, yəni məclisi idarə edirdi. Gəlib-gedənlərə yer göstərmək, süfrənin salınıb-yığılması və s. bu kimi işlər xəlifənin icazəsi olmadan edilməzdi. Və bu işdə bütün insanların etibarını qazandığı üçün hamı öz məclisini ona həvalə etmək istəyirdi. Bundan əlavə, daim Əhli-beyt adına qurulan məclislərdə və ya məscidlərdə mərsiyə söylər, təziyə saxlayardı. Onun dini baxımdan daha önəmli işlərindən biri də bu idi ki, dünyasını dəyişmiş insanlara meyit qüslü verərdi, ən əsası da bu idi ki, bu işi təmənnasız həyata keçirərdi. Kəndin və qonşu kəndlərin sakinləri onu bu işdən ötrü daim aparmışlar, o isə "bunu özüm üçün ehsanat etmişəm", deyə heç nə götürmədən yerinə yetirərdi. Onu tanıyan cavanlı-qocalı hər kəs ehtiramını saxlayar, xatirini əziz tutardılar.

Kəndin tarixilə maraqlanan gənclər ona müraciət edərdilər. Ömrünün sonunadək onun bu ehtiramı saxlanıldı.

1993-cü il dekabrın 31-də dünyasını dəyişmişdir. Allah rəhmət eləsin!

## AĞƏLİ MƏMMƏDKAZIM OĞLU



Ağəli Məmmədkazım oğlu 1911-ci ildə Bakının Kürdəxanı kəndində zəhmətkeş bir ailədə anadan olub. 30 yaşının tamamında başlayan ikinci cahan savaşına keçmiş sovet ölkəsində ümumi səfərbərlik elan edilir. 1941-ci ildə döyüşən ordu sıralarına çağırılan Ağəli Məmmədkazım oğlu 1943-cü ildə döyüşlərin ən şiddətli çağında yaralanıb hospitala köçürülür. Sol qolunu itirən Ağəli Məmmədkazım oğlu elə həmin il ordudan tərxis olunur. Amma arxa cəbhədə fəaliyyətini davam etdirən gənc Ağəli uzun müddət kənd sovetinin başçısı və daha sonralar kolxoz sədri dövrün ən məsuliyyət tələb edən vəzifələrində çalışır. O çətin zamanlarda Stalin siyasi maşınının tüğyan etdiyi bir dövrdə ləyaqətlə öz kəndinə xidmət etmiş, xalqının rəğbətini qazanmış, etimadını doğrultmuşdur. Ağəli Məmmədkazım oğlu 1978-ci ildə vəfat etsə də kənd ağsaqqallarının xatirələrində dönə-dönə yad olunur və onun ruhuna dualar oxunur.

# ƏLİKÖVSƏR ƏLİFƏTTAR OĞLU İMANVERDİYEV



Əlikövsər Əlifəttar oğlu İmanverdiyev 1912-ci ildə Kürdəxanı kəndində dünyaya gəlib.

Əlikövsər uşaq ikən ata-anasının itirib, ona əmisi Əlimuxtar İmanverdi oğlu himayədarlıq etmişdir.

Böyük Vətən müharibəsi başlayarkən, müharibəyə yollanmış və «Kerç» döyüşlərinin iştirakçısı olmuşdur. Qara dənizin sularında hərbi gəmi batarkən əsgərlər suya tökülür. Əlikövsər 12 km sahilə qədər üzə-üzə çıxır, hətta özündən başqa bir nəfəri də xilas edir.

Müharibənin sonuna qədər döyüşlərdə iştirak edir.

Əlikövsər çox mahir üzgücü olmuşdur. Xəzər dənizində saatlarda üzərmiş.

Bir olmuş əhvalatı onun öz dilindən eşitmişəm:

Qış vaxtı bağa meynə kəsməyə gedir. Bağları dəniz sahilinə yaxın olduğundan, əvvəlcə dənizin sahilini gəzmək üçün sahilə yaxınlaşır. Hava bərk küləkli olduğundan dəniz ləpəli olur. Əlikövsər kişi sahili seyr edərkən, sahildə bir

balığın diri halda çabalamasının şahidi olur. O, balığı qaldırıb yenidən suya atır. Onun balığa rəhmi gəlməsi və yenidən balığı suya atması, onda qeyri adi bir təəssürat yaradır. Bağda iş görmək həvəsindən düşür və işi yarımçıq qoyub kəndə gəlir. O, evə daxil olanda, ailəsinin onu qarşılamasında, qeyri adilik hiss edir. Xəbər aldıqda məlum olur ki, o, səhər bağa yollanandan sonra evdə içməli su ehtiyatı qurtardığından, qonşunun quyusundan su gətirməyə gediblər. Əlikövsər kişinin 3 yaşlı oğlu Əlövsətdə böyüklərin yanınca düşüb onlarla su gətirməyə gedib. Anası quyudan vedrə ilə su çəkən zaman 3 yaşlı Əlövsət quyuya yıxılır. Ananın qışqırığına qonşular yığışır, ancaq cürət edib quyuya düşən olmur. 100 metrlik məsafədə yaşayan Sabir adında, üzməyi bacaran bir oğlanı gedib çağırana qədər 10-15 dəqiqə vaxt itir. Sabir gəlib quyuya düşür 7 metrdən artıq suyu olan quyuya bir neçə dəfə baş vurandan sonra nəhayət ki, uşağı quyunun dibindən çıxarır. Əlikövsər kişinin 2-ci oğlu Əlövsət yenidən dünyaya gəlir.

Bu hadisə Əlikövsər kişinin halalzadə və imanlı bir şəxs olmaısnı təsdiq edir.

Əlikövsər Əlifəttar oğlu 1975-ci ildə vəfat etmişdir.

Allah ona rəhmət eləsin.

# ƏLİYEV ƏBDÜL NƏCƏF OĞLU



1922-ci ildə Balaxanı kəndində neftçi ailəsində anadan olub. Ata-babası əslən Kürdəxanı kəndindəndir. Atası Nəcəf kişi Balaxanı neft mədənlərində neftçi olmuşdur. Əbdül Əliyev 18 yaşında -1940-cı ildə hərbi xidmətə yollanmış, müharibə qurtarana qədər cəbhədə olmuşdur. Müharibədən sonra Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyatçı kimi sıravi əməkdaşdan polkovnik rütbəsinədək yüksəlmişdir. 1979-cu ildən Bakı şəhər məhkəməsində uzun illər sədr vəzifəsində çalışmışdır. Əbdül Əliyev 2004-cü ildə vəfat etmiş, Kürdəxanı kəndində dəfn olunmuşdur.

# 1988-1994-cü İLLƏRDƏ QARABAĞ UĞRUNDA DÖYÜŞLƏRDƏ ŞƏHİD OLMUŞ KÜRDƏXANI KƏNDİNİN SAKİNLƏRİ

## KÜRDƏXANI ŞƏHİDLƏRİ

Allahın adı ilə.

Xalqımızın vətənsevər övladlarının qəlbində ülvi və müqəddəs bir ad vardır: Şəhid adı. Bu adda öz gənc həyatını Vətən yolunda qurban verən minlərlə yurddaşlarımızın ömrü yaşayır. O, nəsillərin vəhdət körpüsünə çevrilərək zaman-zaman ölməzlik donuna bürünür. Ulu peyğəmbərimizin mübarək kəlamlarının birində deyilir: "Behiştə ilkin olaraq şəhidlər daxil olurlar". "Şəhidlər şam kimi özü yanıb aradan gedər və ətrafa işıq saçarlar". "Hər yaxşının ən yaxşısı, hər əlanın ən əlası var. Şəhidlikdən isə əla mərtəbə yoxdur".

***Daim Vətənə, millətə xidmətdi şəhidlik,***
***Ən ali olan zatə itaətdi şəhidlik!***

***Din ilə Vətən qeyrətini çəkdi oğullar,***
***Dərk eylədilər çün əbədiyyətdi şəhidlik.***

***Dünyada şəhadət tapana öldü deməzlər,***
***Çünki ölümü öldürən alətdi şəhidlik.***

Bəli, bu şəhadət yolu mayası Allah eşqi, ana və vətən məhəbbətindən yoğurulan, vətən üçün ölən, onun uğrunda şəhid olmağı bacaran insanların yoludur. Doğulduğu kən-

din, şəhərin, rayonun, bütün Azərbaycanın təəssübünü çəkən, Qarabağ uğrunda gedən döyüşlərdə öz qəhrəmanlığı ilə nəinki valideynlərinin, bütün millətin başını göylərə ucaldan Kürdəxanı igidləri də öz şəhidlikləri ilə əbədi səadətə nail olublar. Allah rəhmət etsin. Ruhları şad olsun. Bütün müsəlman əsgərləri qələbə çalsın! İşğal olmuş Vətən torpaqları tezliklə azadlığa çıxsın. Qarabağ, Qüds, İraq əsarətdən qurtarsın. Amin ya rəbbəl aləmin.

## BAŞ LEYTENANT İLQAR ƏBDÜLHƏMİD OĞLU QULİYEV (1960-1994)



İlqar Əbdülhəmid oğlu 1960-cı il dekabrın 28-də Kürdəxanı qəsəbəsində anadan olmuşdur. Qəsəbədəki 113 saylı orta məktəbi bitirmişdir.

İlqar 777 saylı “N” hərbi hissəsində təcrübəli mütəxəssis kimi xidmət edərək and içmişdi ki, doğma vətəni göz bəbəyi kimi qoruyacaq, yağı düşmənin torpaqlarımızdan qovulmasında fəal iştirak edəcək.

Amma tale onu ömrünün

34-cü baharında boya-başa çatdığı doğma torpağa şəhid kimi əbədi qonaq gətirdi.

Quliyev İlqar 1978-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun axşam şöbəsinə daxil olmuşdur. 1985-ci ildə ali təhsilini başa vurandan sonra, Bakı elektrik ştampları sınaq təcrübə zavodunda işləməyə başlamışdır. 1992-ci ildə Müdafiə Nazirliyi tərəfindən Bakı hərbi məktəbinə çağırılmışdır. Yüksək hərbi biliyə malik olduğuna görə Müdafiə Nazirliyi tərəfindən Füzuli bölgəsindəki "N" hərbi hissəsinin rəisi təyin olunmuşdur.

Füzuli rayonunun Alxanlı, Kürdmahmudlu, Qaraxanlıya qədər bütün ərazisini minadan təmizləmişdir. Son günlər İlqar öz həyatını təhlükə qarşısında olmasına baxmayaraq, gündə 100-120 mina zərərsizləşdirməklə yüzlərlə insan həyatını ölümdən xilas etdi, özü isə 1994-cü il yanvarın 25-də qəhrəmancasına həlak oldu. Ondan yadigar gözüyaşlı həyat yoldaşı, körpə oğlu və bir də hələ həyata gəlməmiş, ata nəvazişindən məhrum olan körpəsi qaldı. O, Kürdəxanı qəsəbəsindəki qəbiristanlıqda dəfn edilmişdir.

1994-cü il avqustun 1-də Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə, İlqar Quliyev ölümündən sonra, Azərbaycan Bayrağı ordeni ilə təltif olunmuşdur.

Allah rəhmət eləsin!

# PAŞA DƏRDAYIL OĞLU NƏZƏROV
## (1952-1993)



Paşa Dərdayıl oğlu Nəzərov 1952-ci ildə Kürdəxanı qəsəbəsində dünyaya gəlmişdir. Paşa hərbçi idi. Bütün varlığı ilə bu işə bağlı idi. Sambo məktəbini bitirdikdən sonra üç aylıq tankçı kursunu müvəffəqiyyətlə başa vurub. 1971-ci ildə hərbi xidmətə çağırılmışdır. Əla xidmətinə görə ona fəxri fərman və gizir rütbəsi verilib. Hərbi xidməti başa vurduqdan sonra bir müddət respublika daxili işlər orqanlarında xidmət etmişdir. Yaxşı işinə görə dəfələrlə komandanlığın fəxri fərmanına layiq görülmüşdür.

1991-ci ilin noyabrında könüllü olaraq cəbhəyə getdi. Ağdərə, Laçın və Kəlbəcərdə gedən döyüşlərdə fəal iştirak etmişdir.

Cəbhədə ağır yaralanan Paşa qospitala düşdü, cəbhə xəttindən aldığı məlumatlar onu rahat buraxmırdı. Qisasçılıq hissi onu tezliklə cəbhəyə qayıtmağa tələsdirirdi. Ona görə də yaraları sağalmamış döyüş xəttinə yollandı. 1993-cü ilin aprelində Murovdağda gedən döyüşlərdə qəhrəmancasına həlak oldu. 15 gündən sonra Şəhidlər xiyabanında əbədiyyətə, ölməzliyə qovuşdu.

Allah rəhmət eləsin!

# FAİZ ƏLİHEYDƏR OĞLU HEYDƏROV
## (1973-1993)



Faiz Əliheydər oğlu Heydərov 1973-cü ildə Kürdəxanı qəsəbəsində anadan olmuşdur.

Bütün yaşıdları kimi 1980-ci ildə qəsəbədəki 113 saylı orta məktəbə qəbul olmuş, 1990-cı ildə bitirmişdir.

1992-ci il oktyabr ayının 12-də həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi fəaliyyətə Ağdam rayon cəbhə bölgələrində başlamışdır.

1993-cü il dekabrın 31-də Ağdam cəbhə bölgələrində gedən qanlı döyüşlərdə şəhid olmuşdur.

***Əzizim, sökülmüşəm,***
***Xəzəl tək tökülmüşəm.***
***Toy paltarı istədim,***
***Kəfənə bükülmüşəm.***

Allah rəhmət eləsin!

# NATİQ RAYƏT OĞLU BABAYEV
## (1972-1994)



Natiq Rayət oğlu Babayev 1972-ci ildə Kürdəxanı qəsəbəsində anadan olmuşdur.

Natiq orta məktəbi bitirdikdən sonra 1992-ci ildə hərbi xidmətə çağırılıb.

"N" hərbi hissədə bir neçə ay müddətində xüsusi təyinatlı rabitəçi sənətinə yiyələnib. İki ildən artıq müddət ərzində Ağdam, Füzuli, Qazax, Beyləqan, Ağcabədi kimi qaynar cəbhə bölgələrində xidmət edib. Amansız ölüm qəhrəman əsgərin ömrünü yarımçıq qoydu. 1994-cü il aprelin 11-də Ağdamın Zəngişalı kəndində gedən döyüşdə Natiq Babayev həlak oldu.

Allah rəhmət eləsin!

# FİKRƏT BƏHLUL OĞLU BABAYEV
## (1964-1994)



Fikrət Bəhlul oğlu Babayev 1964-cü ildə Kürdəxanı qəsəbəsində dünyaya göz açmışdır.

Fikrət 1971-1979-cu illərdə 113 saylı orta məktəbdə oxumuş, 1979-cu ildə səkkizinci sinfi bitirdikdən sonra 6 saylı TPM-ə daxil olmuşdur. 1981-ci ildə peşə məktəbini bitirərək qaz və elektrik qaynaqçısı peşəsinə yiyələnmişdir.

1982-84-cü illərdə keçmiş sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra T.İsmayılov adına maşınqayırma zavodunda işləyirdi. 1993-cü il noyabrın 16-da könüllü olaraq Vətənin müdafiəsinə getdi. 30 yaşı tamam olmamışdı.

Füzuli rayonunun bir neçə kəndini ermənilərdən təmizləyən Milli Ordunun əsgərləri Yuxarı Seyidəhmədli kəndi yaxınlığında qanlı döyüşə girişmişdilər. Elə həmin döyüşdə düşmən snayperindən açılan atəşlə Fikrət başından gülləyə tuş gəldi və 1994-cü ilin yanvarın 15-də gözlərini əbədi yumdu. Qısa ömrü şəhidlik zirvəsində sona çatdı. Bir cüt balası yadigar qaldı.

*Eləmi binə qaldı,*
*El köçdü, binə qaldı,*
*Mən öldüm, heç bilmədim,*
*Yetimim kimə qaldı.*

Allah rəhmət eləsin!

## İLQAR AĞA OĞLU ZÜLFÜQAROV
## (1969-1994)



İlqar Ağa oğlu Zülfüqarov 1969-cu ildə Kürdəxanı qəsəbəsində anadan olmuşdur.

İlqar orta məktəbi bitirdikdən sonra Ç.İldırım adına Politexnik İnstitutuna daxil olmuş, 1992-ci ilin martın 17-də təhsilini yarımçıq qoyaraq könüllü olaraq milli orduya yazılır. 1992-ci il mayın 25-də Kəlbəcər rayonunun qızıl yataqlarının, Narıştar, Gərəktar, İmarət-Qərvənd, Kapar, Ketəyah, Ağdaban, Aterk, Bakklu yaşayış məntəqələrinin düşmənlərdən azad edilməsində göstərdiyi şücaətə görə

ona gizir rütbəsi verilmiş və 772 saylı hərbi hissənin RAX-ın rəisi təyin olunmuşdur. İlqarın əla təşkilatçılığı sayəsində Ağdərə, Madagiz, Papravənd, Akkonari, Tanaşl, Dostagir, Maqaviz və sair yaşayış məntəqələri uğrunda gedən döyüşlər müvəffəqiyyətlə nəticələnmişdir.

1994-cü il yanvarın 27-də Ağdərədə Akop-Komari uğrunda döyüşlərdə qəhrəmancasına həlak olur.

İlqar özünün ölümü ilə şəhidlik zirvəsinə ucalaraq Şəhidlər xiyabanında əbədiyyətə qovuşdu.

Allah rəhmət eləsin!

## MÜBARİZ MÖHÜB OĞLU MƏMMƏDOV (1969-1994)



Mübariz Möhüb oğlu Məmmədov 1969-cu ildə Kürdəxanı qəsəbəsində anadan olmuşdur.

Mübariz 1984-cü ildə qəsəbədəki 113 saylı orta məktəbin səkkizinci sinfini bitirmişdir. 1987-ci ildən 1990-cı ilədək sovet ordusu sıralarında xidmət etmişdir. Erməni faşistlərinin törətdiyi vəhşiliklərə dözməyən Mübariz, 1992-ci ildə hərbi komissarlığa müraciət edərək könüllü olaraq cəbhəyə yola düşür. 706 saylı hərbi hissə-

nin taborunda qulluq etməyə başlayır. O, Qubadlı, Fərəcan, Laçın, Zəngilan, Cəbrayıl və Ağdam bölgələrində şücaətlə vuruşub 1994-cü ilin yanvarında Ağdamın Ağdərə istiqamətində gedən qanlı döyüşlərdə Mübariz canından artıq sevdiyi Vətən torpağı uğrunda şəhid oldu.

## ŞƏHİD

***Ey edən qurban özün Azərbaycanə, şəhid,***
***Vətən uğrunda gedən şövq ilə meydanə, şəhid.***

***Qanıvı torpağa qatdın bu Vətəndir sənə ad,***
***Qoymadın ki Vətənin torpağına qəsd edə yad.***
***Bu fəna mülkidə tək bir şüarın oldu: Cihad,***
***Qüvvəni sərf elədin düşmənə mərdanə, şəhid.***

***Ana yurda qıcıyıb dişlərini ac canavar,***
***Sən və sən tək kim olarsa tuta bilməzdi qərar,***
***Sənin ardınca su atdı gözü yaşlı analar,***
***Get qisas al yağıdan, çək dağı düşmanə, şəhid.***

***Baş bədənsiz nəyə lazım, Qarabağsızdı Vətən,***
***Yağının tapdağı altındadı hər bağü çəmən,***
***Çatmısan ən uca bir zirvəyə sən, ölməmisən,***
***Açılıb tay qapılar rövzeyi-rizvanə, şəhid.***

***Bu şəhadət qalan insanlar üçün ibrətdir,***
***Qəhrəmanlıq sözünü anlamağa fürsətdir,***
***Qarabağ yoxsa Vətən hamımıza qürbətdir,***
***Bu həmi ruhə zərərdir, həmi imanə, şəhid.***

*Pak əqidəndi səni ərseyi-cəngə gətirən,*
*Olmayıbdır hələ bu yolda vəfasın itirən,*
*Həqq əməldir səni izzilə Xudayə yetirən,*
*Necə gör çatdı əlin Şahi-Şəhidanə, şəhid.*

*Şah Xətayi gücü var qollarıvın qurbanı,*
*Adı əsgər olanın qeyrət olur qalxanı,*
*Mehdi tək cəngə giriş, heyrətə sal dünyanı,*
*Sonra ağ üz ilə get məzhəri-Sübhanə, şəhid.*

*Alarıq torpağı, başlar o zaman növrağımız,*
*Bir daha töhfə edilməz yağıya torpağımız,*
*Şuşa, Xankəndi, Laçında asılar bayrağımız,*
*Vətənə həsrət olanlar yetər ünvanə, şəhid.*

*Dardadır Azərbaycan, sabaha yoxdu güman,*
*Dayanıb gözləmək üçün də dəxi yoxdu zaman,*
*Hazıram qurban olum yurda bu başdı, bu da can,*
*Fəxrilə sonra desinlər Hacı Soltanə şəhid.*

*Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə*
*20 yanvar 2005-ci il.*

# SEYİDLƏR, RUHANİLƏR, DƏRVİŞLƏR, RÖVZƏXANLAR

## MƏŞHƏDİ MİR SADIQ AĞA



Məşhədi Mir Hüseyn Seyid Nağı oğlu 1826-cı ildə Dərbənddə, hörmətli seyidlər ailəsində dünyaya göz açmışdır. Bu ailə İslam təbliğatı ilə məşğul olan nüfuzlu bir ailə idi. Mir Hüseynin oğlu Mir Sadıq bu ailədə çox seçilən bir şəxs idi. Gənc yaşından Şərqi səyahətə çıxan Mir Sadıq Məşhəddə İmam Rza (ə.)-ı ziyarət edir. Müxtəlif yerlərdə İslam təbliğatı ilə məşğul olan Mir Sadıq Bakının Kürdəxanı kəndində məskən salır, həyatını bu kəndlə bağlayır. Kəndin xeyir-şərində öndə olur, evi islami söhbətlərin mərkəzinə çevrilir. Dini savad verməklə yanaşı, insanlara kömək edir, onların dərdlərinə şərik olurdu. Gözəl natiqlik bacarığı ilə Məhərrəm ayında Kərbəla hadisələrini

nəql edər, insanları əxlaqa, ədalətə dəvət edərdi.

Mir Sadıq ağa Kürdəxanı Bağ məscidində camaat namazı qılar və xütbələr oxuyarmış. Çox təmiz insan və nəcib seyyid olduğundan duaları müstəcəb olarmış. İl quraqlıq keçəndə müsəllayə çıxıb dua edərmişlər. Mir Sadıq ağanın duasından sonra günlərlə yağış yağarmış.



Seyyidqızı Matəb xanım

Oğlu Mir Əfsəl ağanın da Kürdəxanı kəndi ilə sıx əlaqəsi olub. Mir Əfsəl ağa Kürdəxanıya bacısı Seyyidqızı Matəb xanıma baş çəkməyə tez-tez gələrdi. Kürdəxanı camaatı onun hörmətini uca tutardı. Mir Əfsəl ağa Kürdəxanlıların xeyir-şərində yaxından iştirak edərdi.

Bir dəfə məclisdə ona deyirlər: -Ağa, il yaman quraqlıq keçir, bəlkə sən də Mir Sadıq ağa kimi dua edəsən yağış yağsın?

O cavabında deyir: - Atamın amin deyənləri dirilsəydi mən dua edərdim.

Kürdəxanılılar bu nəcib seyyidlərin həmişə hörmətini saxlayıblar.

Məşhədi Mir Sadıq Kürdəxanı qəsəbəsində dəfn olunmuşdur.

***Səftər Sultanovun***
***“Dərbənd və görkəmli***
***adamları” kitabından***



*Mir Əfsəl ağa*

# MİR FAZİL AĞA



Mir Fazil 1891-ci ilin dekabrında Dərbənddə, şəhər əhalisi arasında yüksək nüfuzu olan ruhani və şair Məşhədi Sadığın ailəsində anadan olmuşdur. Rus-Azərbaycan məktəbində oxumaqla yanaşı, mədrəsə təhsili də almış, təfsir, təsəvvüf, epiqrafikanı öyrənmişdir. Müəllim, jurnalist kimi Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərmiş, Azərnəşrdə çalışa-çalışa, savadını təkmilləşdirərək Azərbaycan Universitetinin tarix, Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültələrini bitirmişdir.

Əlyazmalar üzərində çalışaraq bir çox klassik şairlərin bədii irsini oxuculara çatdırmış, tədqiqatlar aparmış və eyni zamanda öz şeirləri ilə də Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir. Bu hərtərəfli insan ömrünün son illərini Bakının Kürdəxanı kəndində keçirmiş və ruhaniyyətlə məşğul olmuşdur. Kənd əhalisi arasında böyük nüfuz, həmçinin məsləhət sahibi olmuşdur.

Kürdəxanı kəndində atasının yanında dəfn olunmuşdur.

***Səftər Sultanovun***
***"Dərbənd və görkəmli adamları" kitabından.***

## AXUND ŞEYX ƏBDÜLHÜSEYN MƏHƏMMƏDRZA OĞLU

Kürdəxanı kəndində olan axund və dini alimlərdən biri də Axund Şeyx Əbdülhüseyn Hacı Məhəmmədrza oğludur. Şeyx Əbdülhüseyn 1875-ci ildə Bakının Qobu kəndində anadan olub. Atası Hacı Məhəmmədrza dindar bir şəxs olduğu üçün oğlu Əbdülhüseyn ailədə islam əxlaqı və tərbiyəsi görmüşdür. İbtidai təhsilini kənd mədrəsəsində alan Əbdülhüseyn, sonralar İranın Qum, Tehran şəhərlərinə, İraqın Nəcəfül-Əşrəf şəhərlərinə gedir və ali dini təhsilini davam etdirir.

Kürdəxanılı Axund Qasımla birlikdə Nəcəfül-Əşrəfdə eyni alimlərdən dərs alır, ikisi də bir evdə kirayənişin qalırlar. İş elə gətirir ki, onlar həmin evin sahibi Zərgər Şeyx Mühəmmədtəqinin iki qızı ilə evlənirlər.

Ümumilikdə 25 ilə qədər dini təhsil aldıqdan sonra 1914-cü ildə vətənə qayıdırlar. Şeyx Əbdülhüseyn öz doğma kəndi Qobuda axundluq fəaliyyətinə başlayır. Ancaq bu fəaliyyət o qədər də uzun sürmür. Belə ki, 1920-ci ildə Kürdəxanıda Axund Qasım vəfat edir və onun vəsiyyətinə əsasən Şeyx Əbdülhüseyn kəndə dəvət olunaraq bu kəndə axund təyin edilir. Bu illər 1920-ci il inqilabından sonrakı sıxıntılı illər olduğuna görə Şeyx böyük təqib və təhqirlərə məruz qalır. Nəhayət, 14 il belə ağır şəraitdə axundluq edən Şeyx Əbdülhüseyn 1934-cü ildə Kürdəxanıda vəfat edir. Amma xalq bütün bu təzyiqlərə baxmayaraq, onu böyük

ehtiramla dəfn edirlər.

Axund Şeyx Əbdülhüseynin ailəsindən savadlı şəxslər çıxıb. Böyük oğlu Ağa Saleh hərbi dənizçi və ikinci dərəcəli kapitandır. Kiçik oğlu Ağa Lətif isə Neft Akademiyasını bitirib, mütəxəssisdir.



## KƏRBƏLAYİ MOLLA BƏŞİR ƏBUSALAM OĞLU



Kərbəlayi Bəşir 1878-ci ildə Bakı şəhəri Kürdəxanı qəsəbəsində anadan olmuşdur. Kərbəlayi Molla Bəşir halal zəhmətlə, əsasən əkinçilik və maldarlıqla məşğul olub, öz ailəsini dolandırarmış. Ərəb və fars dillərini mükəmməl bilən bu mömin insan 1927-ci ildə müqəddəs Kərbəlanı ziyarət etmişdir. Övladlarından Süniyyə, Səkinə, Mariyə, Mədinə adlı 4 qızı, Absalam, Mürşid, Əli adlı 3 oğlu vardır.

# MƏŞHƏDİ HÜSEYNAĞA ABBASQULU OĞLU

Bismillahir-rəhmanir-rəhim.

Bakının Kürdəxanı kəndinin tanınmış adamlarından biri olan Məşhədi Hüseynağa Abbasqulu oğlu 1902-ci ildə anadan olmuşdur. İlk təhsilini mollaxanada - kənd mədrəsəsində almışdır. Uşaq ikən atasını itirmiş və neft mədənlərinin birində əmək fəaliyyətinə başlamışdır. 1930-32-ci illərdə Sabunçu qəsəbəsindəki fəhlə-gənclər məktəbinə daxil olmuşdur. Özünün dediyinə görə bu təhsil ocağı həyatında çox müsbət rol oynamış, müəllimlərindən, xüsusən, Xalid Səidi, İsaq Cəfərzadəni və Böyükağa Abidinovu həmişə böyük ehtiramla yad edərdi. Uşaqlıqdan elmə, xüsusən ədəbiyyata



*Sağdan: Məşədi Hüseynağa, Mirzağa, Məmmədhəsən, Zamanqulu, Bala Sətyar oğlu, Fətulla, Dadaşbala, Səlim, Əsədulla, Əlisöhbət, Kərəm*
Gəncədə İmamzadə ziyarətində

böyük həvəs göstərən Məşhədi Hüseynağa sonralar Abşeronda böyük nüfuz sahibinə malik olmuş kəskin hafizəsi ilə Şərq ədəbiyyatının ən gözəl bilicilərindən biri kimi tanınmışdır. Fitri-istedadı, gözəl əxlaqı, gərgin səyi nəticəsində Şərqin klassikləri - Əbülqasim Firdovsi, Nizami Gəncəvi, Hafiz Şirazi, Sədi Şirazi, Ənvəri, Məhəmməd Füzuli, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Seyyid Əzim Şirvani və başqalarının əsərləri Məşhədi Hüseynağanın sinəsində idi. Dahi Füzulinin əsərləri onun üçün müstəsnalıq təşkil edirdi. Füzuli qəzəllərindəki məntiqlik fəlsəfəsi və dini görüşləri ona çox yaxın idi. Məhz buna görədir ki, o qəzəlin şərhini olduqca gözəl və dürüst izah edərdi. Məşhədi Hüseynağa pak, dindar bir adam idi. Onun ərəb və fars dillərini yaxşı bilməsi nəinki Şərqin dahi şair və ədiblərinin əsərlərini öyrənməkdə ona kömək etmiş, həm də dini fəlsəfəni ümumiyyətlə İslam dininin incəliklərinə bələd olmaqda ona geniş yol açmışdır. Ədalət naminə demək lazımdır ki, o muğam musiqisinə də yaxından bələd idi. Məşhədi Hüseynağanın qiraəti, sözlərin tələfüzü də dinləyiciləri heyran edirdi. Tanınmış alim Əli Fəhmi Kürdəxanı kəndində hüzür məclislərində Quranı məhz Məşhədi Hüseynağaya oxudaraq deyərdi: "Məşhədi, Siz Quran oxuyanda mən həzz alıram." Bütün bu dediklərimiz Məşhədi Hüseynağada məhz Allah vergisi idi. O 1906-cı ildə - 4 yaşında ikən valideynləri ilə Məşhəd şəhərində olmuş və İmam Rza əleyhissəlamın müqəddəs məzari-şərifini ziyarət etmişdir. Çoxlu əlyazması yadigar qalıb.

Məşhədi Hüseynağa 1982-ci ilin yanvarın 27-də doğulduğu kəndində vəfat etmişdir. Allah ona rəhmət eləsin!

***Məşhədi Qulumməmməd***
***"İslamın səsi", 28 ramazan 1414***

## MƏŞHƏDİ ƏLİAĞA FƏRƏCULLA OĞLU
## (1890-1962)

*Tanrının Aslanı Əli*
*Sağında Mühəmmədin.*
*Həsən ilə Hüseyni*
*Solunda Məhəmmədin.*
*Yunis İmrə*



Bismillahir-rəhmanir-rəhim.

Dərviş Məşhədi Əliağa Fərəculla oğlu 1890-cı ildə Bakının Kürdəxanı kəndində kəndli ailəsində anadan olmuşdur. İlk təhsilini kənd mədrəsəsində almış, sonralar müstəqil olaraq təhsilini davam etdirmişdir.

Məşhədi Əliağa "Qurani-Kərim"i düzgün və avazla oxumağı ilə fərqlənmişdir. O, dərvişliyə də meyil edərək dini kitablardan çoxlu qəsidə və hədis oxuyub əzbərləmişdi.

Məşhədi Əliağa əvvəlcə Sabunçu neft mədənlərində, sonralar Zabrat qəsəbəsindəki Kirov adına zavodda (indiki neft-maşınqayırma zavodu) işləmişdir.

Zavodda işləməklə bərabər Məşhədi Əliağa dərviş toylarında bəzən tək, bəzən də başqa dərvişlərlə birgə iştirak etmişdir. O, həm Bakı və onun ətraf kəndlərində, həm də

Astara, Masallı, Sabirabad, Quba və digər bölgələrdə dini məclislər, xüsusilə yas məclisləri aparmağa dəvət olunardı.

Dərvişlik etdiyi məclislərdə onun klassik şairlərimizin yaradıcılığından oxuduğu qəsidə, mərsiyə, növhə və bədii nümunələr dinləyicilərə dərin təsir bağışlar və onların xatirəsində silinməz izlər buraxardı.

Zamanın ağır vaxtlarında – qadağalar və repressiya illərində Məşhədi Əliağa ailəsini dolandırmaq üçün öz at arabası ilə Qubaya və Dəvəçiyə xırdavat, doşab və əncir qurusu aparar, əvəzində arpa, buğda və saman alıb gətirərdi.

Dərviş Məşhədi Əliağanın üç qız, bir oğlan övladı olmuşdur. Ortancıl qızı atasından "Qurani-Kərim"i oxumağı öyrənmişdir. Hazırda iki qız nəvəsi sərbəst Quran oxumağı bacarır.

Dərviş Məşhədi Əliağanın adı məşhur Kürdəxanılı dərvişlərdən Məşhədi Çırağəli, Bəgi Dadaşbala oğlu, dərviş Əlisöhbətlə yanaşı çəkilir.

***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin***
***"Azərbaycan dərvişləri və rövzəxanları" kitabından***

# MƏŞHƏDİ ÇIRAQƏLİ BALAĞA OĞLU
# (1894-1972)

*"Sad" – səbri şahi-heydərə,*
*"Zad" – zərbin vurdu Əntərə,*
*"Ta" – tərif çıxdı göylərə,*
*Ağam kani-şücaətdi.*
*Aşıq Ələsgər*



Bismillahir-rəhmanir-rəhim.

El arasında dərvişlərlə əlaqədar çoxlu rəvayətlər var. Bunlardan birində deyilir ki, bir dərviş varmış. Həmişə səyahət edərmiş. Çox gözəl, saf, pak insan olduğundan hər yerdə məhəbbətlə qarşılanar, məhəbbətlə də yola salınarmış.

Bir gün tanımadığı bir adam dərvişə qoşulur. Yoldaş olub söhbət edə-edə yollarına davam edirlər. Çox söhbətdən sonra dərviş soruşur:

– Ey şəxs, bayaqdan söhbət edirik, amma heç özünü nişan vermirsən? Mən çox vilayətlər gəzmişəm. Haradan olduğunu desən, inşallah ki, tanıyaram.

Həmin şəxs şeytan olur. Hamını olduğu kimi dərvişi də aldatmaq, tələyə salmaq istəyir. Amma dərvişdə olan saflığa, təmizliyə gücü çatmır. Onu aldatmaq qüdrətində ol-

mayıb “Mən şeytanam!” – deyir.

Dərviş susub cavab vermir. Beləcə yol ayrıcına qədər gəlib çıxırlar. Dərviş üzünü şeytana tutub deyir:

– Şeytan, gəlsənə hərəmiz bir yolla gedək!

– Olar! – deyə şeytan cavab verir. Ayrılarkən dərvişin sözlü olduğunu görən şeytan soruşur:

– Baba dərviş, sözlü adama oxşayırsan?

– Sənə sualım var, amma bilmirəm düzünü deyərsən, ya yox?

– Səndəki saflıq məni yalan danışmağa qoymur, dərviş, sualını ver.

– Ən böyük günahın nə olduğunu mənə anlat.

– “Mən-mən” demə, mənim günümə düşərsən, – deyərək şeytan yoxa çıxır.

Həqiqətən saflığın, yüksək məhəbbətin qabağında duruş gətirə biləcək bir qüvvə yoxdur. Məşhur sufi şairi Yunis İmrə belə deyir:

***İsmailəm, haqq yolunda,***
***Canımı qurban eylərəm.***
***Çünki bu can qurban sənə,***
***Mən qoç qurbanı deyirəm.***

Ancaq bu cür məhəbbətin gücünə ulularımız, keçmişlərimiz islamı qoruyub bu günümüzə çatdırmışlar.

Məşhədi Çırağəli də bu cür saf, gözəl əxlaqlı, böyük məhəbbətli bir şəxs olub.

Məşhədi Çırağəli Məşhədi Balağa oğlu 1894-cü ildə Bakının Kürdəxanı kəndində anadan olub. O, Kürdəxanı kəndinin tanınmış ziyalısı, Şərq ədəbiyyatının gözəl bilicisi Məşhədi Hüseynağanın əmisi oğludur.

Məşhədi Çırağəli təhsilini kənd mədrəsəsində alıb. Sonra isə şəxsi mütaliə ilə biliyini zənginləşdirib.

Hər bir sənətkarın sənətkar kimi yetişməsində ustadın böyük rolu var. Məşhədi Çırağəlinin də dərviş kimi püxtələşməsində, o vaxt bir çox dərvişlərə ustadlıq etmiş Məşhədi Hüseynağa və Mirzə Əliqulunun böyük xidməti olmuşdur. Xüsusilə Məşhədi Çırağəlinin inkişafında Məşhədi Hüseynağanın zəhməti daha çoxdur. Çünki Məşhədi Hüseynağa əzbər bildiyi Şərq ədəbiyyatı nümunələrini və dərvişlik sənətinin sirlərini Məşhədi Çırağəliyə səylə öyrədərdi.

Məşhədi Çırağəlinin gözəl səsi olub. Gur və yanıqlı səslə oxuyarkən dinləyicilərini sanki səsinin cazibəsinə salar, sehrlərmiş. Qəsidəni qurtardıqdan sonra məclisdə bir müddət sükut hökm sürərmiş. Onun söz, kəlam seçməkdə böyük məharəti varmış. Azərbaycan klassiklərinin qəsidə, qəzəl və mərsiyələrini daha çox oxuyarmış. Əsasən Şüai, A.Bakıxanov və M.Ə.Sabirin şeirlərindən istifadə edərmiş. Muğamı dərindən bilirmiş. Gözəl məclis aparmaq qabiliyyəti olub. İştirak etdiyi məclislər həmişə dolğun, mənalı keçirmiş. Bu xüsusiyyətləri onu dövrünün dərvişlərindən fərqləndirərmiş. Bütün məclislərə, dərviş toylarına dəvət olunarmış. Camaat onun oxuduğu qəsidələri həmişə sevə-sevə dinlərmiş.

Məşhədi Çırağəlinin xalq arasında böyük hörməti olub. Kəndin bütün xeyir və şər işlərində yaxından iştirak edib, kəndin ağsaqqalı olub.

Məşhədi Çırağəli təxminən 1950-ci illərdə Bakı şəhərində Hacı Əjdər məscidinə (Göy məscidə) rəis təyin edilir. O, bu məsciddə azan çəkəndə bütün şəhər əhli tamaşaya çıxar-

dı. Çünki o dövrdə azan çəkmək "qəribə iş" hesab olunardı.

Məşhədi Çırağəli 1972-ci ildə vəfat edib. Qəbri Kürdəxanı kəndindədir.

Yuxarıda deyildiyi kimi, Məşhədi Çırağəlinin ən çox oxuduğu klassik şairlərdən biri də Şüai idi. Deyilənlərə görə, o, Şüainin Məhəmməd peyğəmbərin mədhinə həsr olunmuş aşağıdakı qəsidəni coşqun bir ilhamla oxuyarmış. Məclis əhli onun avazına, qəsidəyə verdiyi şərhə və dərvişlik məharətinə heyran qalarmış:

***Sənəma, sənin cəmalun kəşəfət düca deyilmi?***
***Həbiba, sənin kəmalun bələğəl-üla deyilmi?***
***İki bər güzidə adın sənün, ey Həbibi-rəhman,***
***Biri Əhmədi Mühəmməd, biri Müstəfa deyilmi?***
***O əhəddi, sən də Əhməd, götürülsə mim adından,***
***Aradan hicab açılsa, bir adın Xuda deyilmi?***
***Sifəti-kəmali-Məhmud, yığışıb Mühəmməd üzrə,***
***Nə əcəb Həbib, məhbub iki aşina deyilmi?***
***Nə diliylə bu cəmalı, bu kəmalı vəsf edim mən***
***Ki, sifati-həqq səndə məgər intiha deyilmi?***
***Ucalıb kəşiydə qəddün fələkə çü nəxli-tuba,***
***Belə sərvi-qəddi-rəna sən üçün səza deyilmi?***
***İki gözlərin qərası fələki-nücumə dair,***
***Səqəleyni inci-cinnə ələməl-hüda deyilmi?***
***Üfüqi-cəbiyni-alun iki nuri-həqqə mətlə,***
***Birisi ziyayi-vəşşəms, biri vəzzüha deyilmi?***
***İki qaşlarun arası şəbi-qədri-qabi-qövseyn,***
***Biri qafi-qul Hüvəllah, biri qul kəfa deyilmi?***
***İki ləblərün dəmindən axar abi-hövzi-kövsər,***
***Biri nəbati-şəkkər, birisi səfa deyilmi?***

***İki şüddə dürri-dəndan sədəfi-dəhəndə qəltan,***
***Düzülüb çü dürri-rəxşan, dürri-pürbəha deyilmi?***
***O gül üzdə xali-əsvəd, həcəri-səvadi-Kəbə,***
***Bu qara üzümü sürtüm, gözümə ziya deyilmi?***
***Dolanıb təvah qılsam başuva, dəxi nə lazım,***
***Mənə Kəbənin təvafı məgər iktifa deyilmi?***
***Başımı qoyum ayağun tozuna, gəlim fədaya,***
***Kəsiləm yolunda qurban, sənə can fəda deyilmi?***
***Məhi-tələti-cəmalun, üfüqi-ziyayi-həqdən,***
***Verir aləmə Şüai, əcəb incila deyilmi?***

Məşhədi Çırağəli haqqında bizdə olan məlumat bu qədərdir. Belə gözəl insanlar barəsində məlumatın az olması bizi də təəssüfləndirir. Bu kitabın yazılmasına səbəb də xalqımızın belə övladlarının yaddaşlardan tamam silinməməsi üçün göstərilən bir cəhddir. Tarixi insanlar yaradır. Həmişə bütün dövrlərdə öz-özlüyündə kiçik, ya böyük əhəmiyyətli, tarix qoyub gedən şəxsiyyətlər olub. Onlar öz zəmanəsində seçilib. başqaları kimi yaşamayıb, məşəl kimi yanıb və öz qəlbinin işığı ilə hamıya nur verib, tarix yaradıb. Belə şəxsiyyətlərin unudulmasına, xalqın, millətin ümumi yaddaşından silinməsinə yol verməyə bizim mənəvi haqqımız yoxdur.

***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin***
***“Azərbaycan dərvişləri və rövzəxanları” kitabından.***

# DƏRVİŞ MƏŞHƏDİ ÇIRAĞƏLİ

Məşhədi Çırağəli Məşhədi Balağa oğlu 1894-cü ildə Bakının Kürdəxanı kəndində anadan olmuşdur. İbtidai təhsilini kənd mədrəsəsində alıb. Müəllimi ərdəbilli Şeyx Həsən olub. Mollaxananı bitirdikdən sonra biliyini daha da artırmaq üçün özü təklikdə çoxlu mütaliə etmişdir. Bununla belə o, 13-14 yaşlarından Binəqədi neft mədənlərində çalışıb, fəhlə işləyib. Fərdi əməklə yanaşı, savad və biliyini artıran gənc, ədəbiyyata olan həvəsini gizlətmir, Füzuli, Nəsimi, Seyid Əzim kimi dahi klassiklərin şeirlərini əzbər öyrənirdi. Gözəl, gur və yanıqlı səsə malik olan bu gənci tez-tez toylara aparar, onun səsinin məlahətinin cazibəsinə düşər, qəsidələrinin düzgün və ahənglə səslənməsinə heyran qalardılar. Belə məclislərin birində iştirak edən məşhur şamaxılı Dərviş Mirzə Əliqulu bu gənci dinləyir və o qədər valeh olur ki, kəndə növbəti gəlişində onunla birlikdə oxumasını təklif edir. Sonralar bir çox dərviş toylarında onlar birlikdə çıxış edirlər. Məşhədi Çırağəlinin həyatında yeni dövr – dərvişlik fəaliyyəti başlayır. Müəllimi Əliqulunu dərvişlərin şahı sayılırmış. Bu şəxsin güclü dərvişlik istedadı və muğamı gözəl bilməsi Azərbaycanda bir çox dərvişlərin yetişməsində öz bəhrəsini verib. Azərbaycan musiqi sənətinə Töhfə Əliyeva, Məmmədəli Əliyev kimi sənətkarlar bəxş edən bu şəxs öz dərvişlik istedadını Məşhədi Çırağəlidən əsirgəməmiş, ona bu sənətin sirlərini öyrətmişdir. Müharibə illərində hər istirahət günü Məmmədəli həkimin qonağı olar, musiqi gecələri təşkil edərdilər. Bu musiqi gecələrinə tanınmış xanəndələr, muğam biliciləri toplanar, gözəl səslər dinlənərdi.

Bu gecələrdə Çirağəli də iştirak edərdi və muğamı daha dərindən mənimsəyərdi. Müharibə bitdikdən sonra 1945-ci ildə Məşhədi Çırağəlinin ailəsi şəhərə köçür. Elə həmin ildə də ruhani idarəsinin göstərişi ilə “Hacı Əjdər” məscidinə (Göy məscid) ruhani molla təyin edilir. 1950-1951-ci illərdə məscidin rəisi olur. Həmin məsciddə gözəl gur səsiylə azan çəkib öz borcunu layiqincə yerinə yetirmişdir.

Dərviş sufi və tərkidünya deyil. Onun həyatı xalqın içərisində keçməlidir: xalqa nəsihət verməli, onları qəflət yuxusundan oyatmalı, dünyanın malına, eyş-işrətinə uymamağa çalışmalıdır. Məşhədi Çirağəli də belə dərvişlərdən idi. Bir çox dərvişləri başına toplayıb çox vaxt “Hacı Aslan” hamamı qarşısında məclis qurar, zabratlı Salam, kürdəxanılı Bəgi Bəyi, içərişəhərli Alqulu kimi dərvişlərlə birlikdə ibrətnamələr oxuyar, xalqı haqqa və ədalətə səsləyərdilər.

Onu da qeyd etməliyəm ki, Dərviş Məşhədi Çırağəli haqda ilk dəfə Buzovna qəsəbəsinin axundu Hacı Soltan Hüseynqulu oğlu Əlizadə “Azərbaycan dərvişləri və rövzəxanları” əsərində ətraflı məlumat vermişdir.

Məşhədi Çırağəli 1972-ci ildə dünyasını dəyişdi. O, Allah yolunun yolçusu, peyğəmbər və Əli məddahı, İmam Hüseyn aşiqi olaraq onu tanıyanların qəlbində və yaddaşında yaşayacaq.

***Çırağəli Balağa oğlu***
***(nəvəsi)***

## BƏGİ DADAŞBALA OĞLU
## (1898-1965)

*Yazıq Ələsgərəm, bir kəminə qul,*
*Əysik sözü hərgiz etmərəm qəbul.*
*Bəndeyi-xudayam, ümməti-Rəsul,*
*Dost tutmuşam Şahi-Mərdan Əlini.*
*Aşıq Ələsgər*



Bismillahir-rəhmanir-rəhim.

Sovet dövrünə qədər Azərbaycanın hər yerində olduğu kimi, Bakı və onun ətrafındakı kəndlərdə də məscidlər qızğın fəaliyyət göstərirdi. Hər məscidin yanında da mollaxana və mədrəsə təşkil edilmişdi. Bu təhsil ocaqlarında şagirdlərə "Qurani-kərim", şəriət qaydaları və klassik şairlərdən Füzuli, Sədi, Qumri, Raci və sair bu kimi sənətkarların əsərləri öyrədilirdi. Həmin mollaxana və mədrəsələrdə oxumuş şəxslər xalq arasında öz bilik və bacarıqları ilə fərqlənir, onlara bir ziyalı kimi böyük hörmət edilirdi. Belə dərin bilikli ziyalılardan biri də kürdəxanılı Bəgi Dadaşbala oğlu idi. O, 1898-ci ildə Kürdəxanı kəndində anadan olmuş və ilk təhsilini mollaxanada almışdır. Bəgi sonralar şəxsi mütaliə yolu ilə öz bilik dairəsini daha da genişləndirmişdir. Onun dini elmlərə

dərindən yiyələnməsində dostluq etdiyi din xadimlərinin böyük rolu olmuşdur. Belə şəxslərə dərviş Mirzə Əliqulunu, maştağalı axund Hacı Mirzə Əbdülkərimi misal göstərmək olar. Bəgi dərvişlik peşəsini Mirzə Əliquludan, dini elmləri isə daha çox Hacı Mirzə Əbdülkərimdən öyrənirdi. Beləliklə, qısa müddətdə Bəgi nəinki Azərbaycanda, hətta ondan kənar yerlərdə də tanınmağa başlayır. Xüsusilə o, bir dərviş kimi daha çox məşhur idi. Çünki onun məlahətli səsi və dərin biliyi vardı. Buna görə də məclis əhli onu rəğbətlə qarşılayırdı.

Bəgi Dadaşbala oğlu bir dərviş kimi tez-tez Quba, Xaçmaz, Lənkəran, Sabirabad, Masallı, Cəlilabad, Naxçıvan və sair bölgələrdə keçirilən dini məclislərə dəvət olunardı. Çox keçmir, Bəgini Səmərqənd, Nalçik, Şimali Osetiyada təşkil olunan yas məclislərinə də çağırırdılar. O bu məclislərdə Zikri, Qumri, Raci, Zövqi, Dəxil və s. bu kimi klassik şairlərin dini mövzuda yazılmış mərsiyə, qəsidə və qəzəllərini oxuyur və məclis iştirakçılarına dərin təsir bağışlardı.

Bəginin apardığı məclislər daha çox Qurani-Kərimlə əlaqədar biliklərin, şəriət qaydalarının, hədislərin şərhinə həsr edilərdi. Belə məclislər haqqında xalq arasında müxtəlif rəvayətlər meydana çıxmışdır. Bu rəvayətlərdən biri də Bəginin Səmərqənd səfəri ilə əlaqədardır. Həmin rəvayətdə deyilir ki, bir dəfə Bəgi Səmərqənddə məclisdə olarkən şair Zikrinin:

***İnkar edən vilayəti övladi-Heydərə,***
***Billah, gəlir cəzada üzü qarə məhşərə***

– beytilə başlayan qəsidəsini oxuyur. Qəsidənin məzmunu belədir:

"Həzrət Əli ana bətnində olanda Məhəmməd peyğəmbər (ə.s.) Əbu Talibin evinə gələrmiş. Əbu Talibin əyalı Əlinin anası Fatimə Əsəd qızı ayağa durub peyğəmbərə ehtiram göstərərmiş. Bunu görən Əbu Talib Fatimənin Məhəmməd peyğəmbərdən (ə.s.) böyük olduğunu nəzərə alaraq ona ayağa durmamağı tapşırır. Fatimə Əbu Talibə bildirir ki, məni ayağa durmağa bətnimdəki uşaq məcbur edir. Məhəmməd peyğəmbər (ə.s.) gələndə uşaq təkan verib, məni ayağa qaldırır.

Əbu Talib bunu yoxlamaqdan ötrü qardaşı Həmzəni yanına çağırıb, ona tapşırır ki, Məhəmməd peyğəmbər (ə.s.) gələndə hərəmiz Fatimənin bir çiynindən tutub, onu ayağa durmağa qoymayaq. Lakin Məhəmməd peyğəmbər (ə.s.) içəri girən kimi uşaq Fatiməyə elə bir təkan vurur ki, Əbu Talib və Həmzə davam gətirməyib Fatimədən uzaqlaşırlar. Fatimə isə ayağa durub Məhəmməd peyğəmbərə (ə.s.) təzim edir".

Bu zaman məclisdə iştirak edən bir alim bu qəsidəni məclislərdə oxumağı Bəgiyə məsləhət bilmir. Alim fikrini əsaslandırıb söyləyir ki, Əbu Talibin qardaşı Həmzə naməhrəmdir, Fatimənin çiynindən tuta bilməz.

Bəgi səfərdən qayıdandan sonra bu əhvalatı maştağalı Hacı Mirzə Əbdülkərim axunda danışır. Axund deyir ki, Həzrət Əli ana bətnində olanda Məhəmmədə (ə.s.) peyğəmbərlik verilməmişdi. Həzrəti Əli on yaşında ikən ona peyğəmbərlik verilib.

Həzrəti Əli ana bətnində olarkən "Qurani-kərim" nazil olmadığı üçün Hicab ayəsi də bizə məlum deyildi. Beləlik-

lə, o zaman naməhrəmlikdən danışmaq olmazdı.

Hacı Mirzə Əbdülkərim Axund Bəgiyə söyləyir ki, əgər həmin alimə rast gəlsən, mənim dediklərimi ona xəbər verərsən. Qəsidəni də istədiyin məclisdə oxuyarsan.

Bəginin dərvişlik fəaliyyəti ilə əlaqədar belə əhvalatlar çoxdur. Bu da onun dərvişlik peşəsinin bütün sirlərinə yaxşı bələd olmasından, məclisi ələ almaq məharətindən irəli gəlirdi. Hər yerdə məclis iştirakçıları Bəginin söhbətlərindən çox razı qalırdılar.

Bəgi Dadaşbala oğlu 1965-ci ildə vəfat etmişdir. Onun xatirəsi məclislərində iştirak edənlərin qəlbində həmişə yaşayacaqdır.

***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin***
***"Azərbaycan dərvişləri və rövzəxanları" kitabından***

# ƏLİSÖHBƏT İMANVERDİ OĞLU
## (1927-1989)

*Vacib olmuş cümlə məxluqatə sevgin, ya Əli,*
*Səndən özgə dostluğa layiq görülməz bir nəfər.*
*M.Füzuli*



Bismillahir-rəhmanir-rəhim.

Dərvişlik və rövzəxanlıq sənəti haqda müəllifi olduğum "Azərbaycan dərvişləri və rövzəxanları" kitabımda qədərincə məlumat vermişəm. Məlumdur ki, qədimdən Azərbaycanda ustad dərviş kimi tanınan bir neçə dərviş şöhrət tapmışdır. Bunlardan iranlı Dərviş Mirzə İbrahim xan Muğanlı, Mirzə Əliqulu Məmmədəli oğlu Əliyevi misal göstərmək olar. Əslən şamaxılı olan ustad Dərviş Mirzə Əliqulu şair-xanəndə Məmmədəli Sailin və müğənni Töhfə xanım Əliyevanın atasıdır.

Bu yaxınlarda Əliağa Vahidin külliyyatını vərəqləyirdim. Nəzərim onun dərvişlər haqda yazdığı bir şerə düşdü.

Çox maraqlıdır ki, Ə.Vahid keçmişdə fəaliyyət göstərən yuxarıda adlarını qeyd etdiyim həmin iki ustad dərvişi öz şerində mədh etmiş və onların adlarını xüsusi hörmətlə vurğulamışdır:

***Dərvişlərimiz keçmişə nisbət azalıbdır,***
***Tən yarı gedib rəhmətə, yerdə nə qalıbdır?***
***Dərvişsiz olan məmləkətin şöhrəti olmaz,***
***Dünyası cəhənnəmlik olar, cənnəti olmaz.***
***Kövsər suyu üqbadə onun qisməti olmaz.***
***Dərvişlər ilə qiyməti Şərqin ucalıbdır,***
***Tən yarı gedib rəhmətə, yerdə nə qalıbdır.***
***Keçmişdə Muğanlı var idi, Əliqulu vardı,***
***Çiynində əba, əldə qızıl "Kəşkül"ü vardı,***
***Qarnın otaran molla deyildi, pulu vardı,***
***Dünyanın elə ləzzəti onlarla qurtardı...***

***Ə.Vahid***

Onu da qeyd etməliyəm ki, şair Əliağa Vahid əslən Bakının Fatmayı kəndindən olan Dərviş Məşhədi Ağadadaş Sami oğlu ilə dostluq edərmiş.

Adlarını sadaladığımız ustad dərvişlərin siyahısına zəmanəmizin ən müdrik şəxslərindən birini – görkəmli Əli məddahı olan ustad Dərviş Əlisöhbət Kürdəxanılını əlavə etmək hər bir mömininin ürəyincə olardı.

Böyük bəlağət və fəsahət sahibi olan, islam dininin əvəzsiz təbliğatçılarından biri kimi şöhrət tapan Əlisöhbət İmanverdi oğlu 1927-ci ildə Bakı şəhərinin Kürdəxanı kəndində fəhlə ailəsində anadan olmuşdur. Hələ gənc yaşlarından dinə böyük həvəsi olan Əlisöhbət kolxozda işləmiş,

bağda-bostanda əkinçiliklə məşğul olmuşdur. Bu şəxsin istər zahiri görünüşündə, istər danışığında, eləcə də hərəkət və rəftarında onu başqalarından fərqləndirən xüsusi mənalar diqqəti cəlb edirdi. Bakıda və onun ətraf kənd və rayonlarında böyük hörməti var idi.

Hüzn məclislərində, dərviş toylarında tez-tez iştirak edərdi. İslam dininin təbliğini, o cümlədən Həzrət Əli (ə) mədhini özü üçün həyat məqsədi olaraq qəti müəyyən etmişdi. Bu işdə Allah tərəfindən Əlisöhbətə bəxş olunmuş gur, gözəl, məlahətli səs ona qeyri-adi şöhrət qazandırmışdı. Bu barədə Buzovna kəndinin sakini Məşhədi İlham Kərim oğlu belə deyir:

– Buzovna kəndində kaman ifaçısı Kərbəlayi Mir Nazimin atası Mir Müctəbanın il məclisində Əlisöhbət Füzulinin "İsmin ilə başladım, ey arizular məzhəri" qəzəlini elə məharətlə oxudu ki, Azərbaycan Respublikasının xalq artisti, mərhum xanəndə Hacıbaba Hüseynov camaatın içərisindən durub ağlaya-ağlaya Əlisöhbətə tərəf gəldi və onu qucaqlayıb öpərək dedi: "Sağ ol! Bu ali dərəcədə oxumağın məni heyran etdi!"

Əlisöhbət əsasən "Şur", "Humayun", "Segah" üstə dini qəzəl, qəsidə, mərsiyə və mənzumələr oxuyardı. Klassik ədəbiyyata bələdliyi aşkar hiss olunardı. Füzuli, Nəsimi, Xətayi, Qumri, Qüdsi, Raci kimi şairlərin əsərlərini oxuması buna ən gözəl sübut idi. Xüsusi təhsil görməsə də, ərəb və fars dillərinə qismən bələd idi. Oxuduğu qəzəl və qəsidələri beyt-beyt şərh edərdi. Yeganə dərviş idi ki, oxuyanda göz yaşlarını saxlaya bilməzdi. Gözəl zövqlə "Quran" oxuyar, Maştağa və Buzovna məclislərinə tez-tez gələrdi. Maştağa

qəsəbəsinin axundu Mir Əbdül Xalıq ağa ilə bərk dost idi. Ağa xəstə yatanda Əlisöhbəti çağırtdırıb, başı üstündə dini qəsidələr oxutdurardı. Mir Əbdül Xalıq ağa vəsiyyət etmişdi ki, məni yerdən götürəndə "Ərrəhman" surəsini Əlisöhbət oxusun. Hörmət sahibi olmasına baxmayaraq, ağanın evinə tez-tez gedib ona şəxsən qulluq etməyi özünə borc bilərdi. Axund Mir Əbdül Xalıq ağa İranda təhsil almış, ərəb, fars dillərini mükəmməl bilən və dövrünün nüfuz sahibi olan şəxslərindən idi. Həqiqi möminliyi ilə bərabər, ədəbiyyatı və tarixi mükəmməl bilərmiş.

Bakının bütün kəndlərində Əlisöhbəti sevir, onu tez-tez məclislərə dəvət edərdilər. İndinin özündə Maştağa, Buzovna, Nardaran, Bilgəh, Bülbülə, Hövsan, Binə, Zirə, Türkan və başqa kəndlərdə onun şagird və pərəstişkarları çoxdur. Bir dərviş kimi qeyri-adi cəlbetmə qabiliyyətinə malik idi. Özü şəxsən bunu belə izah edirdi: "Bu qədər ki, mənə ehtiram olunur, özümü Əli (ə.) nökəri saydığım səbəbindəndir". Buzovna məclislərində axund Məşhədi Məzahir ağa onu görəndə ehtiram əlaməti olaraq həmişə ayağa qalxardı. Dövrünün Axund Hacı Mirzə Əbdülkərim, Mir Əbdül Xalıq ağa, Hacı Əzim, Məşhədi Məzahir, Məşhədi Əlibəndə, Axund Cəbrayıl, Hacı Həbib, Şeyx Məhəmməd ağa kimi din xadimləri ilə yaxından dost idi. Onun bacarıqlı şagirdlərinə misal olaraq dərviş Məşhədi Rzali, Axund Məşhədi Məhəmməd, Axund Hacı Soltan, Məşhədi İlham, Məşhədi Gülməmməd və başqalarını göstərmək olar.

Əlisöhbət çox mömin, dindar və pəhrizkar bir şəxs idi. Şəriətə əks işlər müşahidə edəndə qəzəblənər, etirazını bildirməkdən çəkinməzdi. İl ərzində üç ay oruc tutardı. Hər

ayın əvvəli, ortası və axırı oruc olardı. Əzbərdən ərəbcə çoxlu dua bilərdi, gecələr namaz qılar, "Quran" ayələrinin tərcümələrini əzbərdən söylərdi. Məclislərdə tez-tez Mir Əbdül Xalıq ağanın və ustadı nardaranlı Kərbəlayi Məhəm-mədvəli dayını yad edib, onlar üçün salavat zikr elətdirərdi. Hər il öz evində xanım Fatimeyi-Zəhranın (s.ə.) vəfatının 3-cü gününü və Əli (ə.) şəhadət gününü ehsan verməklə yad edərdi. Həmin günlərdə bir qayda olaraq xəstə olardı. Özünü təqdim edəndə deyərdi: "Əli (ə.) məddahı Əlisöh-bət". Bir adamı dua etsə idi, duası müstəcab olardı. Həmişə dodaqları tərpənər, soruşanda deyərdi ki, hər günün öz du-ası var və edilən dua bəlaların qabağını alır. İnsanlar dua və Allahın adını zikr etməklə, təmiz əməl və xeyirxah işlərlə yüksək dərəcələrə ucalırlar.

Şərq ölkələrində (İran, İraq, Azərbaycan, Tacikistan və s.) "İsna əşəri" (12 imam), "Cəfəri" məzhəblərində də belə dua oxumaq və Allah adını zikr etməklə müqəddəslik qaza-nan həqiqi dərvişlərə rast gəlmək olar.

Bu mömin şəxslə bağlı bir xatirəni qeyd etməyi lazım bildim.

Əlisöhbət kişi öz bağında qamışdan kiçik bir koma qur-muşdu. O burada saatlarla ibadət edərdi.

Bir gün ona qonaq oldum. Birlikdə günorta namazını qıl-dıq. Zöhr namazından sonra onun dua oxuduğunu gördüm. Əlisöhbət kişi Əli (ə.s.) adını dəfələrlə, bir-birinin ardınca təkrar edirdi: "Ya Əli, ya Əli…"

Ondan xəbər aldım ki, nə səbəbə Əli (ə.s.)-ın adını belə çox zikr edirsən? O cavab verdi ki, hər şeydən əvvəl, "Mif-tahul-cinan" kitabının 51-57-ci səhifələrinin haşiyələrini

oxu. O kitabda yazılıb: "Zöhr namazından sonra 110 dəfə Həzrəti-Əli (ə.)-ın adını çağırmaq lazımdır" (yəni zikr etmək, demək lazımdır).

Sonra dərviş Əlisöhbət sözünə davam etdi:

– İndi sən mənim qonağımsan, mən sənə qulluq etməliyəm, amma mən tək olanda Həzrət Əli (ə.s.)-ın adını dönə-dönə, saysız-hesabsız çağırıram. Bəzən elə olur ki, gecəni sübhə qədər çağırıram. Vaxt olur ki, Həzrət Əli (ə.s.)-ın adını o qədər zikr edirəm ki, qəşş edib özümdən gedirəm. Həzrət Əli (ə.s.) gözümə görünür…"

Mən xəbər aldım:

– Bəs belə çağırıb zikr etməkdən məqsəd nədir?

Əlisöhbət kişi cavab verdi:

– Bil və agah ol ki, hər hansı bir məqsədə çatmaqdan ötrü bir vasitə lazımdır. Allaha qovuşmaq üçün, Allaha yetişmək üçün vasitə Həzrət Əli (ə.s.)-dır, yəni 14 məsumdur (Məhəmməd peyğəmbər (ə.s.), xanım Fatimə (ə.s.) və 12 imamdır). Hər kəs imamını sidq ilə çağırsa, onun harayına gələr. Ola bilməz ki, 110 dəfə Həzrət Əlini (ə.s.) zikr edim, ondan cavab almayım.

O, bu sözləri ağlaya-ağlaya deyirdi.

Sonra dərviş Əlisöhbət Nəbatidən farsca bir parça şeir oxudu, şerin tərcüməsi belədir (şeirlər ixtisarla verilmişdir):

***Ey şah, ey şəhriyar, mən binəvanı,***
***Nurlu günəş kimi lütfünlə bəzə.***
***Ey Cəm saqisi, şad və sevincək olasan,***
***Sənə fəda olum, gəl, şərab gətir.***
***Gül kimi şərab ver, bülbül kimi oxu –***
***Ki, kamın hasil oldu, arzuna çatdın.***

***"Əli" çağır, "Əli" çağır, "Əli" axtar, "Əli" axtar.***
***"Hu-hu"ya çatanda bu addan keç,***
***Nəbati, "Əli" çağır ki, nicat tapasan,***
***Nə qədər ki, həyatdasan onun adını əzbər oxu.***

Qeyd. Burada şərab dedikdə, müqəddəs abi-həyat suyu nəzərdə tutulur. Professor F.Qasımzadə özünün "Qəm karvanı", yaxud "Zülmətdə nur" adlı əsərində Mollayi Rumi haqqında danışarkən yazır: "Ruminin hər bir varlıqda Allahın təzahürünü görmək, ilahi meyi, daha doğrusu, ilahi məstliyi qəbul etməsi heç bir şübhə doğurmur, onun fikrincə, Allahdan başqa nə varsa, başağrısından, sərsəmlikdən başqa bir şey deyildir. Ruha, qəlbə təmizlik verən o şərab hara? Üzüm şərabı hara? Təmizlik verən şərab abi-həyatdır, o birisi pis. O. səni donuz kimi yapar, bəzən meymuna çevirər. Qırmızı su ilə axırda üzüqara olursan. Allah şərabının küpü könüldür, küpün ağzını aç" (səh.84).

Daha sonra dərviş Əlisöhbət bu şeri oxudu:

***Degilən ya Əli, bəsövti-cəli,***
***Eyləmə heç kimsədən pərva.***
***Himmət al pirdən, mədəd haqdan,***
***Dəmbədəm hu çəkib yolu başqa,***
***Qoy qədəm rahi-eşqə mərdanə,***
***Gir xərabətə məst-məstanə.***

Dərviş Əlisöhbət əsil Həzrət Əli (ə.s.) aşiqi idi. Amma dönə-dönə tövsiyə edirdi ki, Həzrət Əlini (ə.s.) Allah səviyyəsinə qaldırmaq böyük və bağışlanmaz günahdır. Bu-

nunla insan kafir olar. Belə şeylərdən uzaq olun.

Allah Əlisöhbət kişinin ruhunu şad eləsin, qəbri nurla dolsun.

Hələ sağlığında dərviş Əlisöhbət vəsiyyətnamə yazıb qoymuşdu ki, övladları Allahın buyurduğu yolda olsunlar, imkan düşdükcə müqəddəs yerlərin ziyarətinə getsinlər. Hazırda onun oğlanları Hacı Casim, Məşhədi Qasim, Məşhədi Yusif və Sarənc atalarının vəsiyyətinə əməl edirlər.

Əlisöhbət dünya malına həris olmayan tamahsız bir insan idi. Kasıblara öz bağından üzüm, qarpız, nar paylar və bu işi görəndə özünü xoşbəxt sanardı. Harada Əli (ə.) və imamların adı çəkilsəydi, göz yaşları üzünə sel kimi tökülərdi.

Həzrət Əli (ə.s.) və Həzrət Abbasın şücaətindən qəsidə və mərsiyələr oxuyanda həyəcanlanar, rəngi qızarıb-ağarar, üzünün, alnının damarları şişərdi. Belə hallarda bütün bədəni əsər, gözləri hədəqəsindən çıxmaq dərəcəsinə gələrdi. Özü xəstələndikdə və bir bəlaya düçar olduqda sevinər, "Allah məni imtahan edir, mənsə səbir edərək ibadət edirəm" deyirdi. Bu barədə Məşhədi Elşad adında bir dindarın "İslam dünyası" qəzetindən 1993-cü il martın 4-də 5 (8)-ci sayında Əlisöhbət haqqında verilmiş yazısında oxuyuruq: "Mən Əlisöhbət haqqında son xatirəmi sizə danışmaq istərdim. Vəfatından 20 gün əvvəl bir məsələdən ötrü yanına getmişdik. Səkkiz nəfər idik. Söhbətimizin sonunda onu qarşıdan gələn Məhərrəm mərasimi ilə əlaqədar Buzovnaya dəvət etdik. Gülümsədi. Bir qədər fikrə getdikdən sonra: "İstərdim ki, İmam Hüseyn (ə.) matəmində sizinlə birgə olum, amma sizlərə cəmi 20 gün qonağam" dedi. Əlisöhbət dediyi gün – 63 yaşında vəfat etdi (Allah ona rəhmət

eləsin). O, həmişə bizim qəlbimizdə möminlik timsalı olaraq qalacaq".

Maştağa məscidində Əlisöhbəti həmişə axırda oxudardılar, çünki ən yaxşı dərviş kimi məclisi o, xətm etməli idi. "Çəkildi Şamə qətari Zeynəb" mərsiyəsini elə oxuyardı ki, özü və qulaq asanlar qəşş edərdilər.

Hazırda lent yazıları, videolentləri qorunub saxlanır. Əzbər oxuduğu hekayət-qəsidələrdən "Vəlid məclisi", "Həzrət Abbasın Əli Əkbərə məşq təlimi", "Fatimeyi-Zəhranın (ə.s.) toya getməsi", "Əbəlfəzlin anadan olması", "İmam Hüseynin (ə.) 7 yaşında oruc tutması", "Həzrət Əlinin (ə.) anadan olması", "Peyğəmbərin Xədicə ilə evlənməsi", "Əshabi kəhfin qəsidəsi", "Həbib ibn Məzahirin yuxusu", "Cənabi Zeynəb", "Xəndək davası", "Pənctəni ali əba" və s. göstərmək olar. Onun haqqında böyük bir kitab yazmaq olar.

Kürdəxanı dindarları XX əsrin 60-cı illərində bir qayda olaraq hər il Gəncədəki İmamzadəyə ziyarətə gedərdilər.

Ürəklərdə onların xatirəsi həmişə yaşayır və yaşayacaqdır.

Qeyd etməliyəm ki, mərhum Dərviş Əlisöhbət haqda müəllifi olduğum "Azərbaycan dərvişləri və rövzəxanları", "Yaşamaq, yaşatmaq, yaratmaq", "Məsumnamə", "Hidayət yolu", "Həzrət Əli (ə.) və dünya ədəbiyyatı", "Gizli xəzinələrdən incilər" kitablarımda məlumatlar vermişəm. Bu yazının sonunda Dərviş Əlisöhbət əmiyə həsr etdiyim bir şeri oxuculara təqdim edirəm.

## DƏRVİŞ ƏLİSÖHBƏTƏ İTHAF

*Eşqinlə vurur qəlbimiz hər an, Əlisöhbət,*
*Eşqin sayılır dərdlərə dərman, Əlisöhbət.*
*Yetmir əlimiz Şiri-Xudayə, sənə yetdik,*
*Hər kim sənə yetdi, tapar iman, Əlisöhbət.*
*Mal-dövlətə qurban demədi canını heyhat,*
*Canın elədi dininə qurban Əlisöhbət.*
*Şirin sözü, xoş söhbəti, hikmətli səsilə,*
*Kafərləri də etdi müsəlman Əlisöhbət.*
*Dərvişlik ilə alicənablıq yolu dutdu,*
*Anlatdı necə olmalı insan Əlisöhbət.*
*İnkar elədi cümlə təriqətləri çünki,*
*Səfdər qapısın eylədi ünvan Əlisöhbət.*
*Nur içrə yanardı üzü Heydər adı gəlcək,*
*Həqq nuri ilə oldu nümayan Əlisöhbət.*
*Ustadların yad eliyib göz yaşı tökdü,*
*Onlarla tapıb çün rəhi-ürfan Əlisöhbət.*
*Mömin gərəkir mədh edə möminlər Əmirin,*
*Vird eylər idi nitqidə Quran Əlisöhbət.*
*Bir kimsəni vəsf etməz idi xələt ucundan,*
*Həqdən diləyərdi sərü səhman Əlisöhbət.*
*Hər ləhni ürəkdən süzülən nisgilə bənzər,*
*Eşq ilə açardı sözə meydan Əlisöhbət.*
*Çün durmuş idi ol Şəhi-Mərdan keşiyində.*
*Mərdanələrə oldu nigəhban Əlisöhbət.*
*Müşküldü ki, dünyayə gələ bir belə dərviş,*
*Çünki bu yolu bilmədi asan Əlisöhbət.*
*Məclis ola ya ki, ola bir müslimə həmdəm,*

*Eylərdi Əli söhbəti əlan Əlisöhbət.*
*Din həbs olunan vəqtdə bəyan eylədi həqqi,*
*Münkirə dutub həqq ilə divan Əlisöhbət.*
*Pərva eləməzdi o nə sürgün, nə həbsdən,*
*Eylərdi Hüseyn eşqini elan Əlisöhbət.*
*Hər kim namaz üstə görə heyranı olardı,*
*Olmuşdu özü Xaliqə heyran Əlisöhbət.*
*Üstün idi hər şeydən ona əmri-ilahi,*
*San etmiş idi həqq ilə peyman Əlisöhbət.*
*Möcüz əməlindəydi sözə yox idi hacət,*
*Bir varlıq idi məsumi-dövran Əlisöhbət.*
*Yox kimsə ayırsın bizi ruh aləmimizdən,*
*Bir yerdə deyilsin, Hacı Soltan – Əlisöhbət!1*

*Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin*
*"Azərbaycan dərvişləri və rövzəxanları" kitabından*



## AXUND HACI SOLTAN HÜSEYNQULU OĞLU ƏLİZADƏ

### DƏRVİŞ ƏLİSÖHBƏTİN VƏFATINA

*Fələk, zülmətdi aləm tərk edib dünyanı bir mömin,*
*Dəyişmiş cənnətə zillət dolu zindani bir mömin.*

*Əli ismin edib nitqi tələffüz min nəvazişlə,*
*Pənahiyçün hədəf seçmiş bu son ünvani bir mömin.*

*Ləyaqət dəftəriyçün sərxət oldu ismi dünyadə,*
*Kəmal sərhəddinə çatdırdı çün imani bir mömin.*

*Əgərçi müşkülə düşdü və ya dərdə düçar oldu,*
*Çağırdı dadə daim həzrəti mövlani bir mömin.*

*Əmanətdir deyib heç insana can etmədi təslim,*
*Hədiyyə saxladı axirzamançün cani bir mömin.*

*Sədaqətdən əgər bir yerdə söz düşsə gələr adi,*
*Təmam eylər həqiqət adlanan mənani bir mömin.*

*Əliyçün gəldi dünyayə, Əliyçün getdi dünyadən,*
*Fəqirkən şah olub tac eylədi Qurani bir mömin.*

*Əlisöhbət kimi mömin daha gəlməz bu ifnayə,*
*Hüseynçün ağlasa xatırladır ümmani bir mömin.*

*O yetdi vəsli-mövlayə mən isə həsrətin çəkdim,*
*Edib tərk öz ürək dostu Hacı Soltani bir mömin.*

# HACI ARİF BUZOVNALI

## ƏLİ (ə.) MƏDDAHI
## DƏRVİŞ ƏLİSÖHBƏTƏ İTHAF

*Məşuq bir aşiqə Əlisöhbət adın verib,*
*Bəxş etdi xeyli fəzlü kəramət bu aşiqə.*
*Mədh eylədi Əlini, onun əhli-beytini,*
*Oldu nəsib ən ali səadət bu aşiqə.*

*Hakim səsilə şərh elədi xalqa hikməti,*
*Öz nəfsini ayaqlamağa çatdı qüdrəti,*
*Yükdür, deyib kənar elədi nazü neməti,*
*Çünki Əli edirdi kifayət bu aşiqə.*

*Namərd sözilə enmədi, həm də ucalmadı,*
*Xaliqdən istədiklərin insandan almadı,*
*Bir dəm xəyanətin nəfəsindən qaralmadı,*
*Can ki verilmiş idi əmanət bu aşiqə.*

*Bir yerdə zülm görsə idi eyləməzdi tab,*
*Huşdan gedərdi, nitqə həyadan çəkib hicab,*
*Hərgah qazanmaq istəyəsən qətldən savab,*
*Al canın, amma göstər ədalət bu aşiqə.*

*Namusdu dəhrdə kişinin əsl zinəti,*
*Digər nə varsa cismi cilalar müvəqqəti,*
*Nahaq başa vurardı qılınc tək həqiqəti,*
*Haqdən hədiyyə idi cəsarət bu aşiqə.*

*Nə var dalınca düşdü, nə şöhrət havasına,*
*Heç vaxt qapılmadı bu cahan ehtirasına,*
*Hifz etdi ruhunu bürünüb qəm libasına,*
*Bir gün zəmanə olmadı rahət bu aşiqə.*

*Arif, həmişə olmuş Əli nitqim əzbəri,*
*Xeyli günahla gözləyirəm ruzi-məhşəri,*
*Versin nişan Əliyə bizi, abi-Kövsəri,*
*İkram edəndə Şahi-Vilayət bu aşiqə.*

## DƏRVİŞ ƏLİSÖHBƏTİN XATİRƏ MƏCLİSİ (1927-1989)

Bu yaxınlarda, avqustun 29-da Kürdəxanı kəndində görkəmli alim, Əli (ə.) məddahı ustad dərviş Əlisöhbət İmanverdi oğlunun 80 illiyinə həsr olunmuş xatirə məclisi keçirildi.

Məclisdə İran İslam Respublikasının Azərbaycandakı mədəniyyət mərkəzinin rəhbəri Seyyid Əli Əkbər Ocaq Nəjad, akademik Vasim Məmmədəliyev, Axund Hacı Soltan, Axund Hacı Məhəmməd Dərviş Əlisöhbətin həyatından xatirələr danışdılar, onun tarixin ən çətin dövrlərində İslamı necə təbliğ etməsindən, böyük əqidə və iman sahibi olmasından söz açdılar. Şairlərdən Kərbəlayi Ənvər Nəzərli və Hacı Arif Buzovnalı ömrünü İslama həsr edən Dərviş Əlisöhbəti şeirlərində yad etdilər. Dərviş Hacı Nasir qəsidələrlə məclisə bəzək verdi. Dərviş Əlisöhbətin ailəsi adından oğlu Hacı Casim qonaqlara öz təşəkkürünü bildir-

di və hər il peyğəmbər və imamlarçün məclislər təşkil etmiş Dərviş Əlisöhbətin yolunu davam etdirəcəyini söylədi. Axund Hacı Soltanın aparıcılığı ilə başlanan məclis ehsan süfrəsi ilə davam etdi, dualar oxundu. İmam Mehdinin (ə.s.) mövludu günü keçirilən bu məclisin gözəlliyi İmam haqqında söylənilən hədis və şeirlərlə daha da kamilləşdi. Allah din və əqidə yolunda müsəlmanlara örnək olmuş Əli (ə.) məddahı Dərviş Əlisöhbətə rəhmət etsin.

***"İslam həqiqətləri", 14-20 avqust, 2007,***
***№ 35 (110), səh.3.***

## İMAN NURU

*Ölməz cahanda kim ki vurar qəlbi eşq ilə,*
*Eşqin kitabı zamin olubdur davamına.*
*Hafiz Şirazi*

Müqəddəs İslam dinimiz – iman üstə bərqərar olmuş iman üstə köklənmiş, imanlı şəxslər tərəfindən göz bəbəyi kimi qoruna-qoruna bu günümüzə gəlib çatmışdır. Allaha inamın, Yaradana məhəbbətin yüksək olması ilə müsəlman kamilləşir, ucalır. İmanın yüksək dərəcəsinə çatmış insan, müqəddəslik pilləsinə qədəm qoyur. Mənim fikrim iman haqqında danışmaq deyil və elə zənn edirəm ki, İslam elminin bu zəngin bölməsi barədə respublikamızın din alimləri çıxış etməlidirlər. Məqsədim imanın yüksək dərəcəsinə qalxmış bir şəxs haqqında danışmaqdır.

74 il kommunist imperiyası İslama qarşı mübarizə aparmış, İslamı qəlblərdən silməyə çalışmış, buna nail olmadıq-

da isə İslamı mövhumatçılıq kimi xalqa çatdırmaq istəmişdir. Lakin İslam incələr, üzülməz. Ata-babalarımız Allah məhəbbətini, iman atəşini ürəklərdə saxlamış, bizlərə çatdırmışlar. "Bir şəm ki, haqdan yana, heç bad ilə sönməz" demişlər. Ən qatı repressiya dövrlərində belə möminlərdən biri – Dərviş Əlisöhbət Kürdəxanılı haqqında danışmaq istərdim.

İbadətə başladığım gündən bəri Əlisöhbətə bir möminlik timsalı kimi baxmışam. Onda olan iman həqiqətən də onu müqəddəslik dərəcəsinə gətirib çıxarmışdır. Qəlbində yalnız Allah məhəbbəti vardı. Bu məhəbbət onun qəlbindən insanı azacıq da olsa, alçalda bilən bütün hissləri çıxarmışdı. İslama qarşı güclü mübarizə gedən illərdə o, iştirak etdiyi bütün məclislərdə Allah buyuranı danışır, xalqı İslama dəvət edirdi. Klassik şeri gözəl bilirdi. Adətən dərvişlər qəsidəni oxuyar, onun şərhinə fikir verməzdilər. Əlisöhbət oxuduğu şeri və qəsidələri beyt-beyt izah edər, xalqa İslamı klassik şeir ustadlarımızın dili ilə başa salardı. DTK-nın, partiya orqanlarının dəfələrlə etdikləri xəbərdarlıq və hədələrə baxmayaraq, o, Allah buyuranı dövlət buyuranla əvəz etməzdi. Allahı dərk etdiyi gündən Əlisöhbət Allahın dostu ilə dost, düşməni ilə düşmən oldu. Həmişə kommunist rejiminə qarşı çıxar, "rəhbər"lərin iç üzünü açıb tökərdi. Mən repressiya haqqında, repressiyanın qurbanları olmuş din xadimləri haqqında söhbətləri ilk dəfə ondan eşitmişəm. Məni Əlisöhbətlə onun şagirdi, indi Buzovna kəndinin axundu Hacı Soltan tanış etmişdi. Biz tez-tez onun yanına gedər, söhbətlərinə qulaq asardıq. Hər dəfə onun yanından qayıdanda özümdə ruh yüksəkliyi hiss edər, imanım bir qədər də artardı. Yük-

sək iman sahibi olan bu şəxs Peyğəmbəri-Əkrəm (s.)-in, Həzrət Əli (ə.)-in, xanım Fatimeyi-Zəhra (ə.)-in vəfatlarında, aşura günündə xəstə olar, yatağından qalxa bilməzdi. Biz ondan qeyri-adi kəramətləri çox müşahidə etmişdik. Onun etdiyi dualar həmişə müstəcab olardı. Xəstələndikdə, bir bəlaya düçar olduqda sevinərdi. "Allah məni imtahan edir, mənsə səbir edərək, ibadət edirəm" – deyərdi.

Məni Əlisöhbət barəsində son xatirəmi sizə danışmaq istərdim. Vəfatından 20 gün əvvəl bir məsələdən ötrü yanına getmişdik. Səkkiz nəfər idik. Söhbətimizin sonunda onu qarşıdan gələn Məhərrəm mərasimi ilə əlaqədar Buzovnaya dəvət etdik. Gülümsədi. Bir qədər fikrə getdikdən sonra: "İstərdim ki, İmam Hüseyn matəmində sizinlə birgə olum. Amma sizlərə cəmi 20 gün qonağam" – dedi.

Əlisöhbət dediyi gün 63 yaşında vəfat etdi (Allah ona rəhmət eləsin). Əlisöhbəti Abşeronun bir çox dindarları indi də yaxşı xatırlayırlar. O həmişə bizim qəlbimizdə möminlik timsalı olaraq qalacaq. Bu şəxs haqqında danışmaqda məqsədim xalqımıza kimlərin övladları olmağımızı bir daha xatırlatmaqdır. Bu cür din xadimlərini bu gün aşkarlamaq, üzə çıxarmaq bizim əqidə və məslək borcumuzdur. Uzun illər İslamdan uzaq olmağımızın acı nəticələri göz qabağındadır. Xalqı yalnız əxlaqını, mənəviyyatını, inamını əlindən almaqla məhv etmək olar. Ümid edirəm ki, yüzilliklər boyu dünyada möminlik timsalı kimi tanınmış Azərbaycan xalqı tezliklə nicatımızın yalnız İslamda olduğunu başa düşəcək və bununla da səadətə yetişəcəkdir.

***Məşhədi Elşad Nəriman***

# DƏRVİŞ ƏLİSÖHBƏT KÜRDƏXANILI

*Öz qədrini bilən adama, ölüm qorxulu deyil.*
*Həzrət Əli (ə)*



Həqiqətən, bu şəxs öz zamanında böyük nüfuz sahibi, kəramətli bir övliya idi. Onu yaxından tanıyanlar yaxşı xatırlayırlar ki, Mir Əbdülxalıq ağanın təsdiq etdiyi həqiqi Əli aşiqi, haqq yolunun davamçısı, mübariz din mücahidi Əlisöhbətdən qeyri-adi kəramətlər müşahidə olunurdu. O tez-tez müqəddəs insanlarla görüşür, hətta on ikinci İmam Sahib əz-Zamanla da. Məhz bu hikmətlərinə görə Mir Əbdülxalıq ağa onu zəmanəsinin "Səlmani", "Əbazəri" adlandırmışdı. Əlisöhbətin bir dəfə ürəyi keçinib, nəfəsi kəsilib. Vəsiyyətinə görə onu bu halda Nardaran pirində iki saat saxlamışlar. Və ayılandan sonra zəvvar-

lar təbərrük məqsədilə əynindəki köynəyi didim-didim etmişlər. İki saatın ərzində gördüyü yuxuları az-az adama danışardı. Sağlığında belə söhbətləri etməyi bizə qadağan etmişdi. İndi onun qəbrinə şəfa üçün gələnlər də çoxdur.

## ALLAHDAN İSTƏSƏM VERƏR

*Ölmək qorxulu deyil, sağ olub yaşamamaq qorxuludur.*
*Anri Barbus*

Hövsan kəndində böyük "Eyvani-Kərbəla" Əli süfrəsi məclisində müxalif adamlardan biri Əlisöhbətdən tələb edir ki:

– Axı Mir Əbdülxalıq ağa səni zamanın "Səlmani" adlandırardı. İndi görürsən ki, hava quraqlıqdı, bərk istidir. Dua et, yağış gəlsin.

Məclis yelkənlə qurulan böyük xeymə şəklində idi. Əlisöhbət həmin adama deyir:

– Get, əstəğfürullah et. Məndən "Səlman" olmaz. Ağanın ürəyi məni istəyib deyibdir.

Həmin adam bir neçə dəfə israr edəndən sonra Əlisöhbət ayağa durdu. "Mərdi-biyabani" qəsidəsini şövqü zövqlə oxuyur. Qəsidənin axırı cənab Əli Əsğərin müsibəti ilə qurtarır. Dua edəndə Allahı Əli Əsğərə and verir ki, yağış göndərsin. Dərhal göydən ildırım şaqqıldayır. Elə bir sel ilə yağış gətirir ki, həmin yelkənli xeymənin yelkənini yatırır məclisdə olan camaatın başına. Əlisöhbət isə həmin müxalifə deyir:

– Mən hələ imanlı bir sürücü axtarıram ki, əyləşim maşınına, deyim ki, sür dənizə.

Əlisöhbət haqqında yüzlərcə belə maraqlı xatirələr xalq arasında indi də gəzir. Onu dəfn edəndə bir neçə nəfərin gözlərinə "qeyb adamları" görünübdür.

## SÜFRƏNİN XÜMSÜ VERİLİB?

***"Nəsihətnamə" yazdım dərvişanə,***
***Cahanda olmaq üçün bir nişanə.***
***Xətayi***

Əlisöhbət Buzovnaya Əli süfrəsinə gəlir. Məclis sahibindən iki dəfə soruşur ki, məclisin xümsü verilib? Lakin ona cavab vermirlər. Məclisdən sonra Əlisöhbəti Kürdəxanıya aparan maşın qəzaya düşür və maşın da, sürücü də əzilir. Bu zaman Əlisöhbət maşından düşüb sürücüyə deyir:

– Mən iki dəfə soruşdum ki, məclisin xümsü verilib, ya yox? Mənə cavab verən olmadı. İndi mənə məlum oldu ki, məclisin xümsü verilməyibdir.

***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin "Yaşamaq, yaşatmaq, yaratmaq" kitabından.***

## Allahın adı ilə
## ƏLİ (ə.) AŞİQİ, HÜSEYN (ə.) ƏZADARI
## (Mömin dostlar)

***Xəlq edib hər kəsdən əvvəl ilahi,***
***Beş nəfər müqəddəs, beş nəfər dahi,***
***Mühəmməd, Fatimə, Mürtəza, Həsən,***
***Bir də İmam Hüseyn Kərbəla şahi.***

Məndən soruşsaydılar ki, bir müdrik alimin nümunə üçün adını bizə nişan ver, o zaman da Əbu Əli Sinanın, Şeyx Bəhayəddin Amulinin adlarını bildirərdim.

Məndən soruşsaydılar ki, bir mütəfəkkir dahi şair adı nişan ver, o zaman Nizami Gəncəvinin, Məhəmməd Füzulinin adlarını bildirərdim.

Məndən soruşsaydılar ki, bir vaizin, hikmət sahibinin adını nişan ver, o zaman Əbazər Qəffarinin, Bəhlul Danəndənin adlarını bildirərdim.

Məndən soruşsaydılar ki, bir mömindən bizə soraq ver, o zaman öz zəmanəmizin nurani şəxslərindən olan Dərviş Əlisöhbət Kürdəxanılını və Hacı Həbib Əbdüləhəd oğlunu nişan verərdim.

***Hər təbabət bilən deyildir təbib,***
***Olmaz hər kəsənə bu arzu nəsib.***
***Sidqilə möminlər qapısına get,***
***Canu dildən çağır: ya Hacı Həbib!***

Bir gün ustadımız, pirimiz, mürşüdümüz Əli məddahı Əlisöhbət İmanverdi oğlundan xəbər aldıq ki, “ustad bizə bir

mömin şəxsi nümunə üçün nişan ver". Ustadımız Əlisöhbət başını asimana tərəf qaldırıb dedi: "Əgər mömin görmək istəyirsiz gedin Baskala, Hacı Həbib ağanı ziyarət edin".

Biz bu ünvanla Hacı Həbib ağanın məhzərinə yetişdik. Qonağı olduq. Böyük hörmət gördük. Əli aşiqi olan mömini ziyarət etdik. Bu görüş dostluğa çevrildi. Hər il məhərrəm ayında onun yanına gedərdik. O da Buzovnaya "Əli ayağı qədəmgahına" ziyarətə gələndə bizi başa çıxardı.

Hacı Həbib ağa nurani qiyafədə, sadə ağ libasda Allah ilə razü-niyazda sabitqədəm olan əhli-bəsirətlərdən idi.

Hacı Həbib ağa peyğəmbər vurğunu, Əli aşiqi, Hüseyn əzadarı idi.

Hacı Həbib ağa İmam Əlinin adını eşidəndə sevinib fərəhlənir, "can Əli", "can Əli" deyə onu zikr edərdi.

Hacı Həbib ağa Əli adı ilə nəfəs alıb güc tapar, buna görə də Tanrıya çox şükürlər edib sənalar oxuyardı.

Hacı Həbib ağa İmam Zamana çox bağlı bir mömin, zühur intizarında olan ariflərdən idi.

Hacı Həbib ağa bütün insanlara mehriban, dərd bilən, əl tutan, vəhdət yaradan, əmr be məruf və nəhy əzmünkər, təvəlla və təbərra edən Allah dostlarından idi.

Hacı Həbib ağa ağır xəstə olarkən yataqda Allahdan özünə belə dua edərdi: "İlahi, nə qədər yer üzündə Əli aşiqi var, onların hamısının dərdini, ağrısını, qada-balasını mənə ver".

***Dövlətim Əlidir, varım Əlidir,***
***Hər iki cahanda yarım Əlidir.***
***Mən onun aşiqi, o mənə məşuq,***
***Başqa bir peşəm yox, karım Əlidir.***

Qoy Tanrı Hacı Həbib ağa və Dərviş Əlisöhbətin simasında bütün möminlərin ruhunu daim şad etsin və onların ruhu həmişə bizə duaçı olsun ki, islam zəfər çalsın. Vətənimizin başı üstündən qara buludlar çəkilsin. İraq, Qüds, Qarabağ azad olsun. Dünyanın hər yerində olan müsəlman əsgərlər qalib gəlsinlər. Amin ya rəbbəl aləmin. Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.

*Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə*
*Hicri: 25 rəbiüssani 1429*
*Miladi: 2 may 2008*

## ALLAH YOLUNDA SABİTQƏDƏM OLMAQ

Dərviş Əlisöhbət, təxminən 1987-88-ci illərdə yolüstü Bakı şəhər məscidlərindən birində günorta namazını qılmalı olur. Məscidə daxil olub, çox irəli keçmədən, girəcəkdə namazını qılır. Namazını bitirdikdən sonra oranı tərk etmək istərkən məscidin minbər tərəfində xeyli adamın toplandığını görür. Bu adamlardan biri uca səslə Əlisöhbətə müraciət edib deyir – Əlisöhbət, bir buraya zəhmət çəksənə. Qonaqlarımız gəlib, televiziya çəkilişi gedir. Sən də bir-iki kəlmə qəsidə oxuyub çəkilişdə iştirak etsəydin yaxşı olardı. Əlisöhbət cavabında – məni ilahi asimandan çəkir, Sizin çəkilişinizə ehtiyacım yoxdur – deyib məscidi tərk edir.

Onun Allaha ibadətdən başqa heç nəyə ehtiyacı və həvəsi olmayıb. Əlisöhbət 1989-cu ildə vəfat etdi. Dəfn günü onun yazıb qoyduğu vəsiyyətnamə aşkar edildi. Vəsiyyət-

namədə övladlarına üsuliddinə etiqad, firuiddinə əməl, peyğəmbər və onun pak əhli-beytinə məhəbbət və ehtiram etməyin vacibliyindən bəhs etmiş və sonra belə yazmışdı: «Mən özümə görə kifayət qədər ehsanlar etmişəm, mənə görə ehsan verməyin, üç gündən artıq yas saxlamayın. Mən İmamlardan üstün deyiləm, onlara şəriətlə 3 gün yas saxlanılıb (İmam Hüseyn (ə) istisna olmaqla).

Qəbrimin üstünü bir qarışdan artıq qaldırmayın. Sinə daşında Pənci-təni ali əba və Əbəlfəzl Abbasın adını yazdırın.

Mənim vəsiyyətimə əməl etməyən yaxınlarım məndən müşğüzümbədirlər (günahkardırlar).»

Bu vəsiyyətnamə dəfn mərasimində iştirak edən axundlardan Şeyx Hacı Əhmədə, Axund Hacı Soltana, Axund Hacı Məhəmmədə, Axund Hacı Şünasiyə göstərilir. Onlar vəsiyyətin yerinə yetirilməsini qəti olaraq bildirirlər. Bu qərara gəlirlər ki, mərhum çox haqlı və dinimizə uyğun vəsiyyət etmişdir.

Övladları imkan daxilində atalarının vəsiyyətinə əməl etdilər. Allah ona rəhmət eləsin.

# KƏRBƏLAYİ MƏHƏMMƏDVƏLİ HACI MAŞAN OĞLU



Kərbəlayi Məhəmmədvəli 1883-cü ildə Nardaran kəndində dindar ailədə dünyaya göz açıb. Onun bu kitaba salınmasının əsas səbəbi isə 6 il (1947-1953) Kürdəxanı kəndində yaşaması və məşhur Dərviş Əlisöhbətin ustadı olmasıdır. O, həmçinin qəlbi saf, təmiz, mömin bir şəxs olub. İmam Hüseyn aşiqi idi. Altı dəfə Kərbəla ziyarətinə gedib. Klassik şairlərin, xüsusilə Qumrunun qəsidə və mərsiyələrini əzbərdən oxuyardı. Məsciddə gur səsiylə azan çəkərdi. Aşura matəmində o vaxtlar adət halını almış "Şəbih" (Kərbəla hadisələrinin səhnəcik şəklində nümayişi) göstərilərkən o da iştirak edər, çox vaxt Həzrəti-Zeynəbin laylasını oxuyarmış.

Muğamı yaxşı bilirdi. Qəsidələri "Sarənc" muğamı üzərində çox gözəl oxuyardı. Kənddə "Kərbəlayi Məhəmmədvəlinin sarənci" ifadəsi məşhurdur. Hətta kənddə bir toy məclisində (1959) Aşıq Şakirə sifariş verir ki, "Sarənc" üstündə Əli (ə.) tərifin oxusun, o da məmnuniyyətlə qəbul

edib o vaxtlar çox da icazə verilməyən bəy tərifi oxuyur. Oxuyanlardan Yaqub Məmmədovun və Zülfi Adıgözəlovun oxumasını çox sevərdi. 1943-cü ildə Binə kolxozunda işləyərkən Mircəfər Bağırov ora gəlib işçilərin vəziyyətiylə maraqlanır. Kimin nəyə ehtiyacı olduğunu soruşur. Müharibə və aclıq dövrü olduğu üçün hər kəs bir şey istəyir. Axırda Kərbəlayi Məhəmmədvəlinin qarşısında dayanıb soruşur:

– Kişi, sənə bir şey lazımdırmı?

Cavabında deyir:

– Mən Zülfünün Zabul segahını istəyirəm.

Bu qəribə istəyi eşidən Bağırov kişini bir diqqətli baxışlarla süzür və heç bir söz demədən bütün ehtiyacları ödəyib gedir. İki gündən sonra radioda Zülfünün Zabul segahı səslənir...

Görəsən Kərbəlayinın Zülfü ilə eyni ildə (1963) vəfat etmələri bir təsadüfdürmü?

Hacı Əlibabanın Məhəmmədvəli haqqında danışdığı əhvalatlardan biri də budur: 1945-ci ildə aclığın və çətinliyin ən ağır illəri idi. Əkin sahələrində işləyən qadınlar bir ovuc buğda və ya tərəvəzi gizlincə evlərinə aparmaq məcburiyyətində idilər. Kərbəlayi Məhəmmədvəli sahə başçısı olmasına baxmayaraq onların halını başa düşür və bu işlərinə göz yumurdu. Bir gün axşam xüsusi yoxlama olur. İki kişi qadınların üst-başını yoxlamağa başlayır. Kim nə götürübsə, ondan alırlar. Bir qadın görür ki, onun da üstünü axtaracaqlar, həyasını qorumaq üçün yanındakı uşağının başını daşla vurub yaralayır. Hamı yığılır uşağın başını sarımağa. Qadının üstünü axtarmırlar. Bu hadisənin şahidi olan Kərbəlayi elə həmin gün heç kəsə demədən işdən çıxır və bir

daha ora qayıtmır. Kərbəlayi Məhəmmədvəli arif adam idi, dünyapərəst deyildi. Yaşlı vaxtlarında da vaxtının çoxunu gənclərə sərf edər, onlara ibrətamiz, nəsihətamiz söhbətlər danışardı.

***Hikməti dünyavü ma fiha bilən arif deyil,***
***Arif oldur bilməyə dünyavü ma fiha nədir.***

Onun özünün yazıb və oxuduğu beytlərdən bir neçəsi bunlardır:

***Bir qulamam ki, sənin ismüvə qurban, ya Əli,***
***Növhəxanundur sənün ismi Məhəmməddür Vəli.***

Əli qardaş səni mən azimi meydan görürəm,
Qətlüvə hazır olub ləşkəri üdvan görürəm.

***Zeynəbəm, gülüm soldu,***
***Qönçəli gülüm soldu.***
***Əli Əkbərim getdi,***
***Gülşəndə gülüm soldu.***

Kərbəlayi Məhəmmədvəli 1963-cü ildə Aşura günündə Allah rəhmətinə qovuşdu.

***Hacı Ağayar, Hacı Əlibaba***

# HACI ƏZİZULLA HACIBALA OĞLU



Hacı Əzizulla dövrümüzün ən məşhur dərvişlərindəndir, mənim bu sənətdə ustadım olub – deyə kürdəxanılı dərviş hacı Əzizağa Əlişan oğlu bizə bildirir. Hacı Əzizulla kişinin çoxlu şagirdləri olubdur.

Dərviş Hacı Əzizulla 1918-ci ildə Bakının Kürdəxanı kəndində anadan olub. O kəndlərindəki mollaxanada təhsil alıb, sonra biliyini şəxsi mütaliə yolu ilə təkmilləşdirib. Hacı Əzizulla 19 yaşından başlayaraq dərvişlərdən Mirzə Əliquludan, Kor Əsəddən, Məşhədi Səlmandan, Bəgi Dadaşbala oğlundan və başqalarından dərs alıb, kamilləşib.

Dərviş Hacı Əzizulla klassik Azərbaycan ədəbiyyatı ilə dərindən bağlı olan dərvişlərdəndir. Pürqəm, Dilsuz, Qumri, Seyyid, Dəxi, Raci, Lütfi və digər növhənəvis şairlərin əsərlərinə, Muğam və musiqimizin sirlərinə yaxından bələd idi. Onun Kərbəla müsibəti ilə əlaqədar keçirilmiş bir məclisdə Azərbaycan şairi Lütvəli Lütfinin "Gündür bu gün" rədifli mərsiyəsini həzin bir Muğam üstündə oxuması bu gün də hamının xatirindədir.

Kürdəxanılı dərviş Hacı Əzizağa Əlişan oğlu və bütün möminlər  Hacı Əzizullanın xatirəsini məclislərdə yad edir, ruhuna dualar oxuyurlar.

***Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin***
***"Azərbaycan dərvişləri və" kitabından***

# HÜCCƏTİL İSLAM SEYMUR ƏLİKƏRİM OĞLU



Seymur Əlikərim oğlu 1975-ci il noyabrın 21-də Kürdəxanı kəndində anadan olmuşdur. İbtidai təhsilə qəsəbədəki 113 saylı orta məktəbdə yiyələnmişdir. Dini təhsilini Maştağa qəsəbəsindəki mədrəsədə almışdır. 3 il burada təhsil alandan sonra təhsilini davam etdirməkdən ötrü İrana – Qum şəhərinə ezam olunur. Altı il Qum şəhərində əla qiymətlərlə tələbəlik edir. Kərbəla ziyarətinə göndərilir. "Hüccətil İslam" tituluna layiq görülür. İslam ölkələrində keçirilən beynəlxalq konfransların iştirakçısı olur. "Qurani-Kərimin təfsiri" mövzusunda elmi işi hissə-hissə jurnallarda çap olunur.

2004-cü il fevralın 18-də qəflətən dünyasını dəyişir.

Allah rəhmət eləsin! Ruhu şad olsun.

Onu öz doğma kəndi Kürdəxanıda torpağa tapşırırlar.

# MOLLA FƏTULLAH MƏHƏMMƏD HƏSƏN OĞLU



Fətullah Məhəmməd Həsən oğlu 1903-cü ildə Kürdəxanı kəndində anadan olmuşdur. Hələ uşaq ikən təxminən 10 yaşlarında Quran təhsili almışdır. Bu dərsi də ona dayısı Axund İbrahim Xəlil vermişdir. Hansı ki, 1928-ci ildə sərhədlər bağlanandan sonra İranda təhsil alarkən xəstəliyin ucbatından orada vəfat etmişdir. Sonrakı müharibə illərində, hakimiyyətin dinə və dindarlara qoyduğu qadağalar nəticəsində Fətullah öyrəndiyi dərsləri qəlbində saxlamaq məcburiyyətində qalır. Müharibədən sonrakı illərdə o cür Sovet hakimiyyətinin sərt qadağalarına baxmayaraq məscidlərin bağlı olduğu halda o, evində İmam Hüseyn (ə.)-a əza məclisləri təşkil edərdi. Həmin məclislər o dövrün dərvişlərindən Əlisöhbət əmi, Ərzulla, Bəgi, Çirağəli əmi idarə edərdilər. Mərsiyə deyənlərdən İsmayıl əmi, Bayraməli, Məşhədi Məmmədqulu, Kərbəlayi İbrahim və s. iştirak edərdilər. Belə məclislər təxminən 1960-cı illərdən 1985-86-cı illərə qədər davam etdirildi. 1987-ci ilə Fətullah kişi ağır xəstəlikdən iki il əziyyət çəkdi.

O, 1989-cu ildə vəfat etmişdir.



*Soldan: Mirzağa, Əsədulla, Fətullah, Dadaşbala, Kərəm, Əlisöhbət, Səlim, Məmmədhəsən, Zamanqulu, Məşədi Hüseynağa, Bala Sətyar oğlu*
Gəncədə İmamzadə ziyarətgahında

# CƏLİLOV CƏLİL HACI İBAD OĞLU



Cəlilov Cəlil Hacı İbad oğlu 1902-ci ildə Kürdəxanı kəndində dünyaya göz açmışdır. 10-12 yaşında olanda atası rəhmətə getmişdir. Mollaxanada Şeyx Həsən müəllimdən dərs almışdır. Ərəb əlifbasını mükəmməl bildiyinə görə hətta mollaxanada əlaçı olmuşdur. 1970-ci illərdə məscidlərin bağlı olduğu vaxtlarda Maştağa kəndində məscidə müqaviləyə yığışırdılar. Məscidin axundu Mirəbdülxalıq ağa hamısına Quran oxudurmuş, növbə Molla Cəlilə çatdıqda Quranı oxumağa başlayır. Ağanın çox xoşuna gəlmiş və demişdir: bu vaxta qədər sən harda olmusan. Ay Quran oxuyanlar, Quran oxumağı Molla Cəlildən öyrənin. Kiçik yaşlarından ömrünün son gününə qədər oruc tutub, namaz qılmışdır. Məhərrəm, səfər aylarında İmam Hüseyn aşiqi olduğuna görə təziyələr saxlayırdı. Hətta iki ay televizora baxmağa heç kəsi qoymurdu. Günlərin bir günü, Sovet hakimiyyəti vaxtı evə teleqram gəldi ki, Cəlilov Cəlili enkevedeyə çağırırlar. Orada ona demişdilər ki, mollalıq edib təxribat aparırsız. Molla Cəlil onlara belə demişdi: "Biz rəhmətə gedəni dəfn edib, Allahın yanında savab qazanırıq". Belə hadisələr çox baş vermişdir.

Molla Cəlil 82 yaşında 1984-cü il martın 10-da rəhmətə getmişdir.

# İSMAİL KƏRBƏLAYİ XANKİŞİ OĞLU



İsmail Kərbəlayi Xankişi oğlu 1905-ci ildə Bakının Kürdəxanı kəndində dünyaya gəlmişdir.

Gənc yaşlarında dini mədrəsədə təhsil almışdır. Məlahətli səsə malik olub, gözəl mərsiyə deməyi varmış.

Kürdəxanılı Hacı Əlikərimin dediklərinə görə, gənc yaşlarında Əlisöhbət İsmanverdi oğlu ilə birlikdə İsmail Kərbəlayi Xankişi oğlunun yanına, bağ evinə gedələrmiş. İsmail Xankişi onlara mərsiyə deməyi öyrədərmiş. Əli /ə/ məddahı Əlisöhbət İmanverdi oğlunun birinci ustadı İsmail Kərbəlayi Xankişi oğlu olmuşdur.

Böyük vətən müharibəsi illərində gizli olaraq, hökumət adamları xəbər tutmaısn deyə, Məhərrəm ayının birinci on günlüyündə İmam Hüseynə və tərəfdarlarına xanə açaraq matəm saxlayırdılar. Kürdəxanı kəndində əsasən 10 günlük matəm məclisləri Mollalı Fətulla kişinin evində təşkil olunardı. İsmail Kərbəlayi Xankişi oğlu bu matəm məclislərində elə mərsiyələr deyərdi ki, o mərsiyələri söyləməyə başqaları cürət etməzdi. Bu mərsiyələrdən məsələn:

1. Fəryad o zamandan ki, Şamə üsara gəldi,
həm Zeynəb, həm Gülsüm, həm Zeynələba gəldi.
2. Çəkildi şamə qətari Zeynəb.

Bu mərsiyələri İsmayıl kişi kimi yanıqlı və gözəl havacatla deyən olmazdı.

İsmail Kərbəlayi Xankişi oğlu 1971-ci ildə dünyasını dəyişib. Allah onun ruhunu şad eləsin.

## NƏZƏROV BAYRAMƏLİ TACİR OĞLU



Nəzərov Bayraməli Tacir oğlu 1936-cı il sentyabrın 23-də Bakının Kürdəxanı qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur.

Əmək fəaliyyətinə bərbər kimi başlamış və uzun müddət bu sənəti davam etdirmişdir. Bundan əlavə mükəmməl hafizəsi, məlahətli səsi olduğundan muğam və ruhaniliyə maraq göstərmişdir. Lakin İslam dininə möhkəm bağlı olduğundan mərsiyələr deməyə başlamışdır. İlk dəfə 1972-ci ildə dərvişlik etmiş, bu sənətin sirlərini qəsəbənin ruhaniləri Molla Cəlil, Əlisöhbət əmi, Kərbəlayi Əzizulla və başqalarından öyrənmişdir. Əvvəlcə qəsəbənin şairləri Dadaş Va-

sifə və Məşhədi İmaməliyə müraciət etmişdir. Sonralar isə Füzuli, Xətayi, Raci, Qüdsi, Seyid, Sabir, Mir Cəlal, Bakir, Mail və Namik Kamalın qəsidələrindən istifadə etmişdir.

O, ömrünün axırına kimi Bakıətrafı kəndlərin məclislərinə dəvət olunmuşdur.

Ruhanilər arasında böyük nüfuz qazanmış Nəzərov Bayraməli 1993-cü il mayın 6-da vəfat etmişdir.

## KƏRBƏLAYİ GÜLFƏT NURU OĞLU (1932-2004)



Məmmədov Kərbəlayi Gülfət Nuru oğlu 1932-ci il fevralın 11-də Kürdəxanı qəsəbəsində dünyaya göz açmışdır. 1996-cı il aprel ayında Kərbəla ziyarətində olmuşdur.

Əmək fəaliyyətinə "Leninneft" qarajında çilingər kimi başlamış, Politexnik Texnikumunu bitirdikdən sonra isə həmin qarajda mexanik vəzifəsində çalışmışdır. 1988-1989-cu illərdə qəsəbədəki məscidin təmir-bərpa işlərindəsında xüsusi fəaliyyət göstərmiş, uzun illər həmin məscidə rəhbərlik etmişdir. O, Kürdəxanı məscidi nəzdində mədrəsə təşkil etmiş, bu mədrəsədə gənclərin Qurani-Kərimin və dini

biliklərin öyrənməsinə şərait yaratmışdı. Məhz onun səyi nəticəsində qəsəbədə yeni-yeni gənc nəsil Qurani-Kərimə və islami biliklərə yiyələnmişdir. O, qəsəbənin ən tanınmış din xadimi kimi ömrünün qalan hissəsini islam dininin təbliğinə həsr etmiş və bu sahədə xüsusi əmək sərf etmişdir. Bir ağsaqqal kimi Kürdəxanı qəsəbəsində keçirilən bütün tədbirlərdə fəal iştirak etmiş və qəsəbə camaatının xüsusi hörmətini qazanmışdı.

Kürdəxanı qəsəbəsinin ən hörmətli ağsaqqallarından biri kimi tanınan Kərbəlayi Gülfət Nuru oğlu 2004-cü il mayın 20-də vəfat etmişdir.

## HÜSEYNƏLİ KƏRBƏLAYİ MƏLİK OĞLU



Hüseynəli Kərbəlayi Məlik oğlu 1910-cu il iyunun 20-də Kürdəxanı kəndində anadan olmuşdur. Atası Kərbəlayi Məlik kişi kəndin sayılıb-seçilən ağsaqqallarından biri idi. O, ruzusunu maldarlıqdan çıxarmış, ailəsinin böyük olmasına baxmayaraq, kəndin kasıb ailələrinə də köməklik etmişdir.

Belə bir ailədə böyümüş Hüseynəli kişi də kəndin

xeyrində-şərində yaxından iştirak etmiş, xüsusən də rəhmətə gedənlərin müsəlman adətilə dəfn edilməsində təmənnasız xidmət etmişdir. Adı çəkiləndə indi də onu rəhmətlə yad edirlər.

Hüseynəli Məlik oğlu 2004-cü il iyunun 26-da vəfat etmişdir.

## QULİYEV İMANQULU MƏMMƏDQULU OĞLU (1912-1964)



Quliyev İmanqulu Kürdəxanı kəndində kəndli ailəsində anadan olub. 113 saylı orta məktəbi bitirib. Çox gənc yaşlarından musiqiyə, ədəbiyyata və ümumən incəsənət sahəsinə böyük həvəsi olub. Onun bu marağı getdikcə artmaqda idi. Bir tərəfdən öz həvəsi, digər tərəfdən isə ətraf mühitin təsiri, onun oturub-durduğu insanlar, həmyaşıdları bu həvəsin daha da genişlənməsinə və bu sahədə biliklərinin artmasına gətirib çıxarırdı.

Quliyev İmanqulu incəsənət üzrə ətraflı biliklərə malik olsa da, lakin bu sahə üzrə deyil, başqa əmək fəaliyyətləri

ilə məşğul olmuşdur. Gənc yaşlarından 1932-1940-cı illər arasında ilk olaraq kənd sovetində katib işləmiş, daha sonralar kolxozda briqadir olmuşdur. 1941-ci ildən 1944-cü ilədək müharibədə iştirak etmişdir. Müharibədən sonra Vətənə qayıtmış, 113 saylı məktəbin təsərrüfat müdiri kimi fəaliyyət göstərməyə başlamışdır. Bütün bu işlərlə yanaşı, musiqiyə və ədəbiyyata olan marağı daha da təkmilləşməkdə idi, gündəlik mütaliələr, böyük Şərq klassik musiqisinə və ədəbiyyatına olan meyillər özünü göstərməkdə idi. Xüsusilə muğam sənətinin dərinliklərini öyrənmək onun daimi arzusu idi. Belə ki, kəndin sayılıb-seçilən, muğamı və ədəbiyyatı dərindən bilən ziyalılarından Məşhədi Hüseynağa, Məmmədəli Həkim, Hacı Murad, Məşhədi Çırağəli, Məşhədi Məzahir, Zülfüqar, Əmirəhməd, Vəli, Heydər və başqaları tez-tez onun yanına gələrdilər. Bu gecələr o qədər maraqlı keçərdi ki, bəzən sübhə qədər davam edərdi. Bu gecələri "Məclisi-üns" kimi qələmə vermək düzgün olardı. Bu məclislərdə əsasən Şərq dünyasının dühalarından olan Məhəmməd Füzuli, Hafiz Şirazi, Əbülqasım Firdovsi kimi dahilərin əsərlərindən bəzən bütöv şəkildə, bəzən də hissələr oxunur və bunların ümumilikdə müzakirələri aparılırdı. Bu şeirlərin mənaları açıqlanır, bir şairin yaradıcılığı digər şairin yaradıcılığı ilə müqayisə olunardı. Ən maraqlı məqamlardan biri də bu idi ki, muğam deyərkən qəzəl, qəzəldən söz açıldıqda muğam sənəti yada düşdüyü üçün məhz bu gecələrdə də hər iki sənət vəhdət halında öyrənilirdi. Yalnız nəzəriyyə deyil, gözəl səsə malik olanlar arabir qəzəlləri muğam üstündə zümzümə edərdilər. Qeyd etmək yerinə düşərdi ki, Quliyev İmanqulunun çox gözəl həzin səsi olmuşdur. Toy

məclislərində iştirak edən böyük muğam ustaları, şairlər, incəsənət xadimləri onun evində qonaq olmuşlar. Buna misal olaraq dahi Azərbaycan sənətkarları Zülfi Adıgözəlov, Əlyar Əmirov, Seyid Şuşinski, Mütəllim Mütəllimov onun qonağı olmuş və muğam sənəti ilə bağlı söhbətlər aparmışlar. Azərbaycanın dahi sənətkarı, qəzəlxan-şair Əliağa Vahid 1940-cı illərin sonuna yaxın Kürdəxanıda toyda olarkən onun evində qalmışdır. Gedərkən özünə məxsus əl əsasını, panama və plaşını hədiyyə olaraq İmanquluya vermişdir. Dahi qəzəlxandan olan bu hədiyyələrdən əsa bu gün də qalmaqdadır.

Quliyev İmanqulu 1964-cü il yanvarın 29-da dünyasını dəyişmişdir. Allah rəhmət eləsin.

# ŞAİRLƏR

## KƏRBƏLAYİ DADAŞ VASİF



Dadaş Əbdürrəhim oğlu Qasımov 1880-ci ildə Bakının Kürdəxanı kəndində doğulub.

Bakıətrafı kəndlərdə mahir sənətkar - xarrat kimi tanınmışdır.

Uşaqlıqdan ədəbiyyata həvəs göstərən Dadaş Vasifin xeyli şeri vardır. 1960-cı il fevralın 10-da vəfat etmişdir.

### QƏLƏM EYLƏR

B*u dəhrdə hər müşkülü asan qələm eylər,*
*Hər dərdin ola, dərdinə dərman qələm eylər.*

*Elm ilə olar xəlqdə yüksək mədəniyyət,*
*Elm ilə tutar düz yolu insan əbədiyyət,*
*Elm ilə çatar məqsədinə, bil, bəşəriyyət,*
*Dünyanı tamamilə çıraqban qələm eylər.*

*İstərsən əgər zövq alasan öz əməlindən,*
*Nadanlığı, cahilliyi üz, at təməlindən,*
*Elm almağa sərf eylə – gəlir hər nə əlindən,*
*Çünki vətəni gülli-gülüstan qələm eylər.*

*Yüksəlməkdədir göylərə insan bilik ilə,*
*Dərya quruyur, düz olur ümman bilik ilə.*
*Abad olacaq Azərbaycan bilik ilə,*
*Səyyah kimi hər ölkədə cövlan qələm eylər.*

*Gər olmasa dünyada, gülüm, dövlətü malın,*
*Zülfi-siyəhin, incə belin, qaşı-hilalın,*
*Olsa savadın, bir də ki, əql ilə kəmalın,*
*Bunlarla bütün işləri saman qələm eylər.*

*Varlanmağa çox səy eləmə, yoxdu vəfası,*
*Çün simü zərin daim olur cövrü cəfası,*
*Elm ilə olur, hansı mərəz olsa, dəvası,*
*Hay bilməyən insanı da insan qələm eylər.*

*Hər şeydən əziz ölkədə, ellərdə qələmdir,*
*Daim dolanan şöhrəti dillərdə qələmdir.*
*Həm sülhə dayaq, həm də silah əldə qələmdir,*
*Vasif, səni də bil ki, qəzəlxan qələm eylər.*

***

*Qəlbimi yaraləyib, ey quzu ceyran, getmə!*
*Öldürər, bil, məni getdikcə sən hicran, getmə!*

*Bir ayaq saxla, dayan, gözlə, sözüm var, gözəlim,*
*Hər atanda qədəmin sənlə gedir can, getmə.*

*Gözlərin ahu gözü, kirpiyin oxdan yaranıb,*
*Dilimi parə edən gözlərə qurban, getmə!*

*Mən sənin Vasifinəm, darda qoyub getmə məni,*
*Ətəyindən daşı tök, ol mənə mehman, getmə!*

***

*Bir vətən mülkünə bax, gör nə gülüstanım var,*
*Nərgisim, yasəmənim, sünbülü reyhanım var.*

*Vətən eşqinə yaşar indi bütün insanlar,*
*Verməyə can kimi məndə ona qurbanım var.*

*Vətənimdir mənə məşuqə, onun aşiqiyəm,*
*Deməsin Qeys ki, Leyla kimi cananım var.*

*Məni şam yandıra bilməz oda pərvanə kimi,*
*Yurdum odlar vətəni çun Azəristanım var.*

*Qədəmin düşmən əgər qoysa Vətən torpağına,*
*Onu məhv eyləməyə lazımi imkanım var,*

*Kim ki sevmir vətəni, bir də əziz torpağını –*
*Həqqi yoxdur belə insan deyə vicdanım var.*

*Vasifa, varlığını sərf elə öz xəlqin üçün,*
*Fəxr edib xəlq desin hatəmi-dövranım var.*

*"Deyilən söz yadigardır" kitabından*

## ON İKİ İMAM

*Əvvəl imamım Əli ərzü-səma ləngəridir,*
*Qasimi narü cinan Naibi-peyğəmbəridir.*

*Düvvüm ol şahi Həsən sibti rəsuli mədəni,*
*Verdilər zəhri-cəfa səbz olub gül mədəni.*
*Qardaşı qüsl verib etdi hənuti kəfəni,*
*Hamı ümmətlər üçün ruzi-cəza rəhbəridir.*

*Sevvüm ətşani Hüseyn padişahi-Kərbübəla,*
*Bir içim istədi su vermədi o qövmi-cəfa,*
*Yarü ənsari ölüb oldu zəbi-hənbi qəfa,*
*Peykəri yerdə qalıb ovci-cidadə səridir.*

*Çarüm ol Zeynül Əba qafilə salari-Hüseyn,*
*Üsəra dəstəsinin dərdinə qəmxari-Hüseyn.*
*Ömrün itmam elədi oldu əzadari-Hüseyn,*
*Ruzi şəb ağlar idi dildə Hüseyn əzbəridir.*

*Pəncüm ol Bağiridir, elmidə darayi-üsul,*
*Əbdülxaliqi cəhan varisi həm xətmi-rəsul,*
*Atası Zeynul Əba, həm babası zövci-bətul,*
*Düşmənin canın alan şahi Qəzənfər fəridir.*

*Şəşşüm o Cəfəridür din evin abad elədi,*
*Düşməni xar qılıb, xanəsi bərbad elədi.*
*Xaneyi-dini açıb ümməti azad elədi,*
*Naibi-şahi-Nəcəf sahibi həm mənbəridir.*

*Həftum ol Museyi-Kazımdu çəkib dərdi-fəraq,*
*Həştüm İmam Rza gəldi Xorasana qonaq,*
*Verdilər zəhri-cəfa xanəsi bi fərşü çıraq,*
*Gözü yollarda qalan naibi qəmpərvəridir.*

*Nöhhüm ol şahi cahan ismi Mühəmməddi Təği,*
*Aç gözün xabidən, ey qafil, oyan, oyan şəqi.*
*Höccəti dəhhimdür hər iki dünyadə Nəqi,*
*Hər kim inkar eləsə həqqin onun kafəridir.*

*Yaz dəhum ol Həsənş Əsgəridür şahi-cahan,*
*On ikinci də ki o sahibi Sultani-zaman,*
*Vasif, itmamə yetir eyləmə çox ahu-fəqan,*
*Müşkülü həll edən o həyyü-xuda Əkbəridir.*

*Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin*
*"Gizli xəzinələrdən incilər" kitabından*

## QIZIM RƏNAYA

*Gözün aydın atanın şöhrəti, həm şanı qızım,*
*Nərgizi, yasəməni, sünbülü, reyhanı, qızım.*

***Səni təbrik edirəm şanlı ana olmaq ilə,***
***Öp mənim ağzım ilə o yeni oğlanı, qızım.***

***Təzə oğlun sənə bülbül, sən onun gülşənisən,***
***Verdi Xalıq sənə bu bülbüli-şeydanı, qızım.***

***Bəxtiyar olsun, əzizim, sən ilə körpə quzun,***
***Bəbəyin tək qoru daim quzu ceyranı, qızım.***

***Analıq haqqı sənin boynuna qoymuş bu yükü,***
***Sən əzizlə balanı, mən də ki Rənanı, qızım.***

***Verməərəm bir telini, gər mənə təklif edələr,***
***Günəşi, göydə Ayı, ulduzu, dünyanı, qızım.***

***Nəvəmə layla deyəndə oxu bu sözlərimi,***
***Daima sal yadına Vasifi-nalanı, qızım.***

## KƏRBƏLAYİ DADAŞ VASİF

Dadaş Əbdürrəhim oğlu Qasımov 1880-ci ildə Bakının Kürdəxanı qəsəbəsində fəhlə ailəsində anadan olmuşdur. İlk təhsilini mollaxanada alan Dadaş Vasifin uşaq yaşlarından ədəbiyyata böyük marağı olmuşdur. Lirik şerlər və qəzəllərlə yanaşı qəsidə və rübailəri də olmuş, şairin yazdıqlarından bizim dövrə yalnız bir qismi gəlib çatmışdır. 19 yaşında Kərbəla ziyarətində olmuş, dövlət neftçıxarma idarələrində uzun müddət çalışmışdır. Əsas sənəti dülgər

kimi Bakı kəndlərinin bir çoxunda tanınmış, hətta Buzovna məscidindəki minbəri düzəltmişdir.

Təxminən 30 yaşlarında ailə həyatı qurmuş şairin 11 övladı olmuşdur. Böyük oğlu İsmayıl Rəhimov atasının təxəllüsünü öz üzərinə götürərək İsmayıl Vasif təxəllüsü ilə atasının şairlik sənətini davam etdirmişdir. İsmayılın "Azərbaycan" jurnalında dəfələrlə şeir və qəzəlləri dərc edilmişdir. Dadaş 1960-cı il fevralın 10-da ürək xəstəliyindən qəflətən vəfat etmişdir.

## BABA DAĞI



Xoşbəxt adam idi. Ürəyində dünyanın dağ boyda kədərini gəzdirə-gəzdirə xoşbəxt idi. O, xoşbəxt idi ki, Allah ondan söz kimi ən qiymətli nemətini əsirgəməmişdi. O, xoşbəxt idi ki, hamı onu tanıyırdı. Hətta tanımayan da birinci dəfə onu görəndə elə bilirdi, illər uzunu bu insanla yaxından tanış olub və nə dərdi var, ona danışa bilər. Çünki qarşısında dərdini başa düşəcək, ona həmdərd olacaq bir insanın durduğuna əmin idi. Bu məhrəmlik onun sadəliyindən gəlirdi. Bu məhrəmlik sadə, iddiasız insanın

dünyanı görmək qabiliyyətindən irəli gəlirdi. Dünyanı istədiyi kimi yox, olduğu kimi görürdü. Gördüyü dünyadan heç nə istəmirdi. Az adam dünyanı olduğu kimi görə bilir. Biri onu kitabdan görür, biri kosmosdan, biri televizordan, biri Afrikadan, biri Avropadan… O, dünyanı Azərbaycandan görürdü. Dünya yaranandan necə varsa, elə də Azərbaycanın bu günündə, problemlərində, əyərində-əskiyində özünü güzgü kimi ona göstərirdi. O da bu güzgüyə baxıb acı həqiqətlərdən şirin-şirin yazır, özünə xalqın məhəbbətini qazanırdı. O, xoşbəxt idi, sadədən də sadə bir insanın timsalında da bizə Baba Pünhan adlı böyük bir şairi hədiyyə edib getdi.

Cəmalə Mədətova: Mən onun qızıyam. Ailədə iki uşaq olmuşuq – mən və qardaşım Namiq. Atam da, anam da daha çox Namiqin başına fırlanırlar, daim ona gözün yetirib, qayğısına qalıblar. Qardaşım uşaqlıqdan ağır asma xəstəliyi keçirib. Elə onun hesabına ailəlikcə hər yay yığışıb gedərdik Şimali Qafqazda yerləşən sanatoriyalardan birinə. Kislovodsk, Yesentuki, Nalçik… Atam bütün ili işləyər, işdən yollanış alar, əlində az, ya çox, nə qədər pul olardısa, hamısını qardaşımın səhhətini yaxşılaşdırmaq, hamımızı təngə gətirən o lənətə gəlmiş xəstəlikdən qurtarmaq üçün xərcləyərdi. Həkimlərə gedərdi, hardan bir soraq eşidərdisə, qardaşımı ora aparardı. Nəhayət, onu sağaltdı. Həkimlər öz yerində, amma atamın qayğısı, atamın duaları, elə bil, sağalmaz olan bu xəstəliyi yox edib göyə sovurdu. Amma yenə nigaran qalardı. Deyirdi: “Ölüm haqdır, Allah nigarançılıqdan saxlasın”. Kimsə evə bir az gec gələndə, bir az yubananda durub gedərdi əvvəllərdə “Kirov posyolkası”

adlanan bizim qəsəbənin qurtaracağına, şəhər yolunun üstünə. Orda nigaran-nigaran gəzişər, təkrar-təkrar boylanıb yola baxardı. Hamıdan nigaran qalardı. Təkcə özündən başqa. Özünə nəsə olanda, xəstəlik, ya başqa bir hadisə baş verəndə, fərqinə varmazdı, “heç, keçib gedər” deyərdi.

Bir gün əmimgildən çağırdılar ki, Babanı telefona istəyirlər. Həyətimiz iki yerə bölünüb, bir tərəfində əmimgili yaşayır, bir tərəfində biz. Atam evdə yox idi. Gedib kimin onu soruşduğunu öyrəndik. Dedilər Daxili İşlər Nazirliyindən təcili onu axtarırlar, sabah birbaş xüsusi idarənin rəisinin yanına gəlsin. Bax, burda artıq bizim nigarançılığımız başlandı. Ay aman, görəsən nə olub? 1996-cı il idi. Atam “Baba Pünhan” təxəllüsü ilə satirik şeirlər yazır, respublikanın müxtəlif qəzetlərində onları çap etdirirdi. Bəzən çox qamçılı, oxlu-tikanlı alınardı onun yazdıqları. Həmin gün çox yaxşı əhvalda gəlmişdi. Hiss olunurdu ki, fikrində  nə isə dolaşır, indi oturub yazacaq. Amma bu gün yazmaq vacib deyildi, vacib onun yüksək vəzifəli polis tərəfindən axtarılması idi. Bu barədə ona xəbər verdik. Heç nə demədi. Keçib oturdu. Stolun üstündən təzə qəzeti götürüb başlıqlara göz gəzdirdi, amma oxumadı. Cibindən qələm çıxarıb başladı qəzetin ağ kənarlarına şeir yazmağa. Şeri yazıb qurtarandan sonra yenə üzündə həmişəki mehriban, sakit ifadə ilə bizə baxdı.

– Ora getmə ha! Allah bilir, səni nəyə görə axtarırlar, – onu xəbərdar etdik.

– Yəqin təşəkkür bildirəcəklər, – halını pozmadan cavab verdi.

– Əşi, nə danışırsan? Təşəkkür üçün adamı polisə çağırırlar?

Demək olar, hər gün ehtiyatlı olmağı tapşırır, həmin qəzetlərə getməməyi, şeirlərini dərc etdirməyi məsləhət görürdü. Belə nigaran günlərin birində evə gec gəldi. Çox gec. Bilmirdik neyləyək, gedib hamılıqla dayanaq yol kənarında? Bu da yaraşan iş deyil, deyərlər uşaq deyil ki, ondan nigaran qalırsınız? Nəhayət, handan-hana gəlib çıxdı. Yenə də susurdu. Axır sükutu biz pozmalı olduq:

– Haradaydın?

– Nazirliyə getmişdim.

– İndi ordan gəlirsən?

– Yox, ordan çıxıb gəzdik, söhbət etdik, – bunu deyib yenə fikrə getdi və bir azdan elə bil öz-özünə pıçıldadı: – Yaxşı ki sözü bilib qiymət verən adamlar hələ dünyada var.

Hacı Əziz Mövlamov: Mən onun dostuyam. Dostluğumuzun maraqlı tarixçəsi var. 1996-cı ildə mən Daxili İşlər Nazirliyinin Xüsusi İdarəsində rəis işləyirdim. Çoxları kimi hər səhər kabinetimə gələndə əvvəl qəzetlərə baxır, maraqlı yazıları sürətlə oxuyurdum. İrihəcmli və oxunulası qəzetləri ayırıb bir kənara qoyurdum. Elə ki işdə müəyyən fasilə yaranırdı, onu da mütaliəyə həsr edərdim. “Zarafat” adlı tanınmayan qəzet də o gün hardansa gəlib düşmüşdü mənim poçtuma. Qəzetə göz gəzdirərkən son səhifədə əruz vəznində bir şeir gördüm. Əruzu çox sevirəm, odur ki, bu qəzeti də kənara qoyub, sonra oxumağı qərara aldım. O gün mənim ən böyük təəssüratım elə həmin əruzda yazılan şeirdən oldu. Şerin altındakı imza mənə tanış deyildi: Baba Pünhan. Bundan bir neçə vaxt sonra başqa bir qəzetdə yenə onun imzası ilə şeir gördüm. Həvəslə oxudum. Sonra, doymayan kimi bir də oxudum. Bu, yeni söz idi. Köməkçimi çağırıb

tapşırdım ki, bu şəxsi tapsınlar, onunla tanış olmaq istəyirəm. Doqquz ay mən o kişinin sorağında oldum. Gümanım gələn hər yerə onun adını vermişdim. Qəzəl məclislərinə yığışan dostlarımdan onu soruşanda, sevindim ki, mənim axtardığımı adamı tanıyırlar. Amma Baba gəlib çıxmaq bilmirdi. Bir gün ezamiyyətdən qayıdanda katibədən burda olmadığım vaxt məni kimlərin soruşduğunu xəbər aldım. Vərdiş etdiyim adamların adlarını sadaladı və bir də "Baba Pünhan adında bir nəfər gəlmişdi" – dedi. Onun adını eşitcək sevindim, ünvanını soruşdum. Katibə bildirdi ki, ünvan götürməyib, rəisin burda olmadığını söyləyib, o kişi də çıxıb gedib. O an mənə elə gəldi ki, nəsə böyük bir şey itirdim, daha tapmayacağam. Amma yox, günlərin bir günü, özü də yaxşı bir günü katibə xəbər verdi: "Atababa Mədətov adlı bir nəfər qəbulunuza düşmək istəyir. Deyir, Baba Pünhanam". Katibəyə dedim, onu bir az yubandırsın. Tez durub stolumun üstündən artıq nə var yığışdırdım, hər şeyə sadə görkəm vermək istəyirdim. Yaman həyəcanlanmışdım, özümə oxşamırdım. Ortaboylu, bəlkə də bir qədər alçaqboylu, qarayanız, sadədən də sadə, baxan kimi fəhlə olduğu bilinən bir kişi məndən on dəfə artıq həyəcan keçirə-keçirə qapını açıb içəri girdi. Təxminən on beş dəqiqə hər ikimizə hakim kəsilən həyəcanı üstələməyə çalışdıq. Onun imzası ilə oxuduğum bütün şeirləri əzbər bilirdim. Elə tanışlığa da şeirlərdən başladım. Sonra otağın onu sıxdığını görüb idarədən çıxmağı təklif etdim. Bulvarda maşından düşüb, bir xeyli piyada gəzib söhbət elədik. Baba gözəl şair olmaqdan savayı, həm də gözəl insan idi. Onunla danışanda ruhum dincəlirdi. O gündən dostlaşdıq. Bu mənim həyatımda çox böyük hadisə oldu.

Cəmalə Mədətova: Atam özü də fəhlə ailəsində anadan olmuşdu. Əsilləri kürdəxanılıdır. Amma sovetin elə ilk vaxtlarından babam Seyidəli kişi burda, Kirovneftdə işləməyə başlamışdı. Ona Binəqədidə ikiotaqlı mənzil, yanında da balaca bir həyət vermişdilər. İndi həyət ikiyə bölünüb, əmimlə biz yaşayırıq burda. Bir dəfə qohumlar məsləhətləşib qərara gəldilər ki, əmimgiliylə aramıza hasar çəkək, uşaqlar böyümüş, ailə qurmuş, nəvələr dünyaya gəlmişdilər. Hasar çəkilən gün atamı ağlamaq tutdu, dözməyib evdən getdi. Elə bil nədənsə, həyatın hansısa bir dövrünü, atasıyla, anasıyla bağlı mərhələsini qoparıb ondan alırlar. Uzun müddət hasara alışa bilmirdi.

Seyidəli Babamın altı övladı olub – üç qız, üç oğlan. Atam ortancıl övladı idi. Babamdan fərqli olaraq o, anası kimi mülayim xasiyyətli adam idi. Elə şairlik ona nənəmgil tərəfdən keçib. Atamın dayıları qəzəlxan olublar, məclisişüəralarda iştirak edir, orda qəzəllər oxuyurdu. O da dayıları kimi tanınmayacağını güman edib, özünə "Pünhan" təxəllüsü götürmüşdü. Amma Seyidəli babamın da xasiyyətindən ona miras qalmışdı. Bu da düzlük idi. Düz bildiyinin üstündə ölümə gedərdi babam. Başını kəssəydilər belə, düz bildiyini danmazdı. Şairlik, mülayimlik nənəmgildən, düzgünlük, acı, sərt həqiqətlərin gözünün içinə baxmaq babamgildən.

1963-cü ildə orta məktəbi bitirib  və elə həmin il Bakı Rabitə Texnikumuna daxil olub. Texnikumu bitirəndə Bakıda metropoliten açılırdı. Bütün şəhər bu hadisə ilə yaşayırdı. Söz-söhbət elə metro haqqında olardı. O ildən pensiyaya çıxana qədər atam Bakı Metropolitenində işləyib. Şeirlərinin də bir çoxunu metropolitenin qəzetində çap etdirib.

Atam on iki yaşından şeir yazmağa başlamışdı. Baba Pünhanın əsərlərində daim siyasi hadisələrə, tarixi faktlara aid saysız-hesabsız eyhamlarla, dini rəvayətlərdən misallarla, ədəbiyyat tariximizdən gələn deyimlərlə, əfsanəvi surətlərlə rastlaşırıq. Amma maraqlı budur ki, bunların heç birini kitabdan oxuyub yazmamışdı. Onun mütaliəsi demək olar ki, yox idi. Məlumatları, hətta klassik ədəbiyyatımız haqqında bilikləri daha çox şifahi söhbətlərdən alardı. O, qəzəllərindən birində "aqilin hər kəlməsin, tut göydə bir qartal kimi" deyirdi. Amma yenə də… Məgər söhbətlərin alınan məlumatla belə çətin mətləbləri bu qədər dəqiqliyi ilə açmaq, onları ümumiləşdirmək, onların üzərində öz baxışlarını, öz fəlsəfəni ifadəni etmək mümkündürmü? Görünür bu da möcüzədir.

Əsasən dəftər vərəqlərinə və ayrıca ağ vərəqlərə yazardı. Bir də oturduğu yerdə əlinə nə keçsə, ora yazardı. Məsələn, telefon kitabçasına, qəzetə, salfetkaya…

Hacı Əziz Mövlamov: Kiçik, xudmani bir məclis idi. Yalnız dostlar-aşinalar iştirak edirdi. Orda Alim Qasımov oxuyurdu. Mən Alimlə qudayam, onun qızı Fərqanə mənim gəlinimdir. Alimi Baba ilə tanış eləyəndə hər ikisinin sevincinin həddi-hüdudu yox idi. Onların söhbətləri tuturdu. Həmin məclisdə Alim "Bayatı-kürd" oxudu. Muğamı dinləyəndə özümdən xəbərsiz gözlərim doldu. Muğam sona yetdi, bir də gördüm, ofisiant qonşu stoldan kiril əlifbası ilə üstü yazılı bir salfet gətirib mənə verdi. Sən demə, Baba da "Bayatı-kürd" oxunanda mənə baxırmış, həm muğamın təsirindən, həm də mənim keçirdiyim haldan o da doluxsunub və tez stoldan salfet götürüb üstünə bir qəzəl yazıb: "Ağlama, sən ağlasan Pünhan

da ağlar, ağlama". Onun kitabını yığanda həmin salfeti də gətirib o qəzəli kitaba saldırdım. Salfeti isə bu gün də evimdə ən əziz əşya kimi qoruyub saxlayıram.

Cəmalə Mədətova: Bir dəfə bazar günü yır-yığış edirdik. Birdən gördük, atam köhnə çamadanı həyətə çıxartdı. Həmin o çamadana öz şeirlərini, kiril əlifbasıyla o üz-bu üz yazıb doldurduğu vərəqləri yığdı. Çamadan bu illər ərzində ağzınacan dolmuşdu. Atam çamadanı ağzıüstə çevirib vərəqləri yerə tökdü. Anam təəccüblə soruşdu:

– Neyləyirsən, a kişi?

– Yandırıram… Nə xeyri var, qalıb yer tutur…

Mən ağlamsındım. O mənim ədəbiyyata həvəsim olduğunu, hərdən şeir yazdığımı bilirdi. Odur ki, yazdıqlarını ailəmizdə adətən tək mənə oxuyardı. Çox vaxt məni də özü ilə Hacı Mailin şeir məclislərinə aparırdı. O, Hacı Mailə ata kimi baxardı. Elə onun məsləhətinə qulaq asıb, əsasən satirik şeirlər yazmağa başlamışdı. Amma birdən-birə bu qədər şeri yerə töküb yandırmaq… Həyətin ortasında vərəqlərin od tutub yanması indi də gözümün qabağındadır. Bu, faciə idi! Mən atama baxdım. Günortaçağı olsa da, rəqs edib əlyazmaları külə çevirən alov onun üzündə, gözlərində əks olunurdu. Ona baxanda özümü saxlaya bilməyib, başladım hönkür-hönkür ağlamağa. Atam gəlib məni qucağına götürdü, göz yaşımı sildi, üzümdən öpüb dedi:

– Ağlama, qızım, biz səninlə hələ çox şeirlər yazacağıq.

Mən onda uşaq idim. İndiki vaxtım olsaydı, şeirləri yandırmağa qoymazdım. Amma nə bilmək olar. Bəlkə də belə olmalıymış. Bəlkə biz başqa bir Baba Pünhan tanıyacaq-

dıq. Bəlkə bizim tanıyacağımız artıq "Pünhan" olmayacaqdı. Onun ürəyində gəzdirdiyi dərd böyük idi. Bu dərd Baba dağıydı. O, balaca həşəratın, ya qarışqanın ayaq altda qalıb əzilməsini də özünə dərd edərdi. Kiminsə, heç tanımadığı bir kəsin dərdinə şərik olur, onu öz dərdi kimi çəkərdi. Haqsızlığa dözməzdi. Elə adamlar çox yaşamır. Hələ onun 55 il yaşaması da bir mükafat, Allah möcüzəsidir. Ürəyində o böyüklükdə dağ gəzdirən adam üçün şeirlərin yanması nə idi ki?.. İllər keçib. Atam artıq dünyada yoxdur. Hər dəfə rəqs eləyən alovun onun üzündə necə əks olunduğunu, alışıb-yanan əlyazmalara sakit-sakit baxan gözlərini yadıma salanda elə bilirəm, hansısa sirri açmağa yaxınlaşıram. Sanki bu an hər şey mənə aydın olacaq. Onun ilk baxışda heç bir səbəb olmadan qəm dəryasına batması, o doğma, mehriban gözlərinin dərinliyindən heç zaman çəkilməyən kədərin nə demək olduğunu anlayacağam. Amma elə o an da, yaxınlaşdığım kimi tez bir zamanda onu gözdən itirirəm, fikirlərim dolaşır, yenə hər şey qeybə çəkilib görünməz olur.

O, ölümdən qorxmurdu. İmam Mehdi Sahib Zamanın intizarında idi. "Biz o həzrətin gəlişini tezləşdirməliyik". Belə düşünürdü. İnsanlar hər şeyin sonuna hazırlaşmalı, özlərini buna kökləməli, əməllərini saflaşdırmalı, hesab verəcəyi günün yaxınlaşdığı barədə düşünməlidirlər. O gözləyirdi ki, dünya bir gün nura qərq olacaq, hər şey aydınlaşacaq. Ona görə də hamıya deyirdi ki, gözləyin, xoşbəxt gün gələcək. Əvəzində nə görürdü? Ədalətsizlik, əyrilik, xoşbəxt günü yubandıran rəzillik, riyakarlıq, xudbinlik və bunların hamısının az qala həyat normasına çevrilməsi…

Atam birinci dəfə 35 yaşında infarkt keçirib. Evdə təmir

işilə məşğul idi. Qurğu ilə divarı deşirdi. Birdən qurğunu əlindən  yerə salıb oturdu. Ona yaxınlaşanda yavaşca “İçim yanır elə bil” dedi. Sonra durub bayıra çıxdı. Bir az qaytarandan sonra əl-üzünü yudu və gülümsündü:

– Keçib getdi.

Elə siqaret yandırıb bir qullab vurmuşdu ki, yenə dəyişdi, yenə içəridən nəsə onu yandırmağa başladı. “Təcili yardım” çağırdıq. Həkimlər onu müayinə edib, yubanmadan xəstəxanaya getmək lazım olduğunu bildirdilər. Başqa söz ola bilməzdi. Biz bildik ki, atam infarkt keçirib. O, içəri otağa keçib geyinməyə başladı. Özü geyinirdi. Heç kimi köməyə yaxın buraxmırdı. Həkimlərdən biri bunu görcək heyrət içində çığırdı:

– Neyləyirsən, sənə hərəkət etmək olmaz! Qoy səni geyindirsinlər.

Heç o qoyardı ki, onu kimsə geyindirsin. Geyinib-kecinəndən sonra gəlib həkimlərin yanında dayandı. Elə bil toya, ya hansısa bir xoş tədbirə hazırlaşmışdı. Həyəcanlı deyildi, üzü gülürdü. Ona təəccüblə baxan həkimlərə dedi:

– Hə, nə deyirsiniz, gedək? Getdik!

“Təcili yardım” onu aparandan sonra mənə elə gəldi ki, təkcə bəlkə ev, həyət-baca yox, bütün dünya boşaldı. Mənə elə gəldi, o bir daha qayıtmayacaq. Amma qayıtdı. Hələ Baba Pünhan ömrü qabaqdaydı.

Hacı Əziz Mövlamov: Mən onu 2000-ci ildə xeyli dilə tutandan sonra, xəstəxanaya qoya bildim. Mərkəzi Klinik Xəstəxanada Türkiyədən gələn yüksək səviyyəli həkimlər onu müayinə edəndən sonra, ürəyi üzərində əməliyyat aparmaq qərarına gəldilər. Buna qədər onlar on bir nəfərin

də üzərində bu növ əməliyyat aparmışdılar. Razılıq vermədən əvvəl, mən on bir nəfərdən səkkizini tapıb söhbət elədim. Gördüm, hamı əməliyyatdan sonra özünü yaxşı hiss edir. Yalnız bundan sonra əməliyyata razılıq verdik. Babanın ürəyinin damarlarını şuntladılar. Əməliyyat uğurla keçdi. Bu müddət ərzində Baba çox arzularına yetmişdi. Özünü xoşbəxt hiss edirdi. Uzun illər arzusunda olduğu Həcc ziyarətinə gedib gəldi, oğlunu evləndirib ona ev aldı, qızını ərə verdi, iki nəvə gördü. Onları necə də sevirdi. "Acı həqiqətlər" adında ilk kitabı nəşrdən çıxmışdı. Onu tanıyırdılar. ANS TV-nin "Qulp" proqramında hər həftə çıxış edirdi. Proqramın aparıcısı Mübariz Əsgərov onu "Vahid" poeziya evində keçirilən şeir məclisində görəndən sonra televiziyaya dəvət etmişdi. Zəngin yaradıcılıq dövrü yaşayırdı. Amma nədənsə şeirlərində yenə Baba dağının ağrısını hiss edirdim. Bax elə bu dərd onun səhhətini yenə pisləşdirdi. Bir daha şuntlama əməliyyatı keçirməli oldu.

Cəmalə Mədətova: Ən acığı gələn o idi ki, xəstəxanada yatdığı zaman, onun sözünə baxmadan bütün qohumlar, pərəstişkarları, dostları, tanışları axışıb gəlirdilər yanına. Bir gün əl telefonu ilə bizə zəng vurub dedi ki, gəlməyin. Akif İslamzadə ona demişdi ki, heç kim gəlməsin, özü maşınında onu evə gətirəcək. Getmədik. Doğrudan da sabahı, bir gün tez onu evə buraxmışdılar. Akif İslamzadə ilə birgə evə gəldilər. Oturub xeyli söhbət elədilər. Akif bəy onun şeriyyətini sevirdi. Getməzdən əvvəl  birgə oturub xatirə şəkli də çəkdirdilər. Sonra atam mənə dedi ki, gəl birgə gedək bazara, sən yükü götürərsən. Bazarlıq eləməyi xoşlayırdı. Elə yaxşıca bazarlıq elədi, nəvələrinə hədiyyə aldı.

Qayıdanda gördük anam, qardaşım, qohumlarımız evdədirlər. Atam xoşbəxt idi. Deyib-gülür, şəkil çəkdirir, nəvələri ilə oynayır, zarafatlaşırdı. Gözəl axşam idi. Dostları da zəng edib onu evə qayıtmağı münasibətilə təbrik edirdilər. Gecə düşürdü, məclis yavaş-yavaş dağılışırdı. Hərə evinə getdi, anam, qardaşımgil də otaqlarına çəkilib yatdılar. Səhər işə gedəcəkdilər. Atam mətbəxdə tək oturmuşdu. Məni çağırdı yanına. Xahiş elədi ki, ona şirin qatıq-çörək düzəldim. Bir az söhbət elədi, bir-iki şeir oxudu. Yeyəndən sonra "daha bəsdir, get yat, mən də yorulmuşam" dedi.

Səhər yuxudan ayılanda gördüm atam yoxdur. Demə, qardaşım, anam işə getməyə duranda görüblər o da oturub, başı yaman ağrıyır. Başağrı dərmanlarının da köməyi olmayıb. Halı get-gedə pisləşib. Tez "təcili yardım"la onu müalicə olunduğu xəstəxanaya aparıblar. Mən yuxudan qalxanda yenə iyirmi il əvvəlkitək evi boş gördüm. Atam getmişdi. Düşündüm ki, qayıdacaq. Amma qayıtmadı.

Hacı Əziz Mövlamov: Onu insult vurmuşdu. Xəstəxanaya çatanda artıq danışa bilmirdi. Həkimlər ona iynə vurmaq istəyəndə etiraz olaraq güclə əlini yellətmişdi. Hiss etmişdi ki, bu daha sondur. On beş gün komatoz vəziyyətdə yatdı. Ayılmadı, gözüyumulu keçindi.

Cəmalə Mədətova: Həyat yoldaşımın bir dostu var. Atam öləndən sonra tanışlıqları yaranıb. O, Baba Pünhanı sağlığında şəxsən tanımırdı, televizorda hərdən görürdü. Onun heç ölümündən də xəbəri yox idi. Bir gecə ona yuxuda, elə bil, kimsə deyib ki, "sabah axşamüstü get Kürdəxanıdakı qəbiristanlığa, orda bir nəfəri dəfn edəcəklər. Sahib Zaman da orda olacaq". Oğlan bütün günü yuxunun təsiri

altında olub, axşamüstü maşınına minib gəlib Kürdəxanıya. Qəbiristanlığa çatanda görüb izdihamlı dəfn mərasimidir. Maşından düşüb adamlara yaxınlaşıb, kimin dəfn olunduğunu soruşanda ona belə cavab veriblər:

– Baba Pünhan adlı şairimiz vardı, onu yola salırıq.



***Kürdəxanı, Baba Pünhanın məzarı***

Hacı Əziz Mövlamov: Onun adı Atababa idi. Soyadı Mədətov. Atasının adı Seyidəli. 1948-ci ilin noyabrında anadan olmuşdu. 2004-cü ilin aprelində vəfat etdi. Onu satirik şeirlər yazan şair, qeyri-adi qələm ustası kimi tanıyırdılar. O, böyük Mirzə Cəlildən, böyük Sabirdən gələn ənənələrin layiqli davamçısı oldu. Bununla belə, özünə, sonu görünməyən iç dünyasına daim səyahət edən, yaranışın sirlərini dışarıda tapmayıb özündə axtaran bir insan, ürfani bir şair olub.

O özü üçün də gizli, sirli, pünhan bir insan idi. Allah ona söz, sözün içində sirr, sirlə yanaşı dağ boyda kədər vermişdi. Bir gün gəlib yetişdi, Baba bütün bunları bizə yadigar qoydu, özü də gəldiyi kimi çevrilib Haqq dünyasına qayıtdı. Sözü dilimizdə, kədəri ürəyimizdə. Sirr isə aləmi nura qərq edəcək. O həzrət gələnə qədər açılmaz.

Bir də Baba xoşbəxtdir ki, sağlığında xalqın məhəbbətini qazana bildi. Özü demişkən:

***Atayam, həm də Baba, həm babam Adəm babadır,***
***Babanı sevdi oba, çün Baba aləm Babadır.***

***Qələmə aldı: N.BƏDƏLOV***
***"El" jurnalı***

***RÜSTƏM TOFİQ***

## BÜTÜN DÖVRLƏRİN ŞAİRİ

Vaxtilə Abbas Səhhət ədəbiyyatımızda yeni tipli satiranın əsasını qoyan, tənqidi realizmin inkişafında misilsiz xidmətləri olan M.Ə.Sabir haqqında demişdi: "… əzim bir inqilab vücudə gətirdi, köhnə şeirlər ilə yeni şeirlər arasında bir əsirlik qədər uçurum açdı ki, bir daha geri dönüb də o uçuruma atılmağa kimsədə cürət qalmadı…" Belə də oldu. Sabirdən sonra bir sıra gözəl sənətkarlarımız yetişsə də, onlar Sabirin inqilab edib yaratdığı yeni söz sənətinin sərhədlərindən kənara çıxa bilmədilər. Lakin A.Səhhətin dediyi kimi, doğrudan da "bir əsirlik uçurum" oldu. Çünki

belə bir söz var: "Dahilər yüz ildən bir yetişir". Düz yüz ildən sonra ədəbiyyat tariximiz yeni bir inqilabın şahidi oldu və bu inqilabda eşidilən şüarların ən gözəli aşağıdakı idi:

***"Ay alan, məmləkəti-Rey satıram" sözlərini,***
***Mən yüz ildən sonra qoy bir də salım yadə, satım.***

Bu inqilabın banisi isə Baba Pünhan təxəllüsü ilə yadda qalan gözəl şairimiz Mədətov Atababa Seyidəli oğlu idi. Baba Pünhanın böyüklüyü onda idi ki, o, Sabirin açdığı sənət yolunu kor-koranə təqlid etmək istəməyib geriyə boylandı və bu yolun hardan başlandığına və həmin yolda kimlərin iz qoyub getdiyinə nəzər saldı və Sabirin açdığı uçurumun üstündə bir körpü yaratdı.

Baba Pünhan yaradıcılığında klassik şerimizin müasir dildə ifadəsinin şahidi oluruq. Onun qəzəlində hətta həllac və Nəsiminin "ənəlhəqq" sədası, Füzulinin hicran naləsi, Sabirin qəzəb və nifrət dolu tənqidi gülüşü eşidilməkdədir. Bu cür üç böyük yolu bir nöqtədə birləşdirib vəhdət halına gətirmək, doğrudan da çox çətindir, özü də çox sadə və xalqın hər bir təbəqəsinin başa düşəcəyi tərzdə. Lakin Baba Pünhan bu çətinliyin öhdəsindən çox bacarıqla gəldi. Nəsimi kimi "sinəni daşa çalıb həqqi izhar eylədi", Füzuli kimi "nalə tərkin qılmayıb bəndü bənd" oldu və Sabir kimi "pisi – pis, əyrini – əyri, düzü – həmvar" yazdı.

***Həm Baba, həm də Pünhanam, Adəm atamla bir canam,***
***Haqq dağında vulkanam, bil ki, nihanə sığmazam.***

***Nalədəndir, ney kimi, pünhan, kəsildim bəndü bənd,***
***Nalə tərkin qılmazam, naləm şüar olsun gərək.***

***Otur acqarına, Pünhan, hələlik namə oxu,***
***Gələcək əsrimizə tazə "Hophopnamə" gəlir.***

Lakin o, bu sənətkarların heç birinin davamçısı olmayıb, onların yollarını birləşdirdiyi nöqtədən yeni cığır açmağa başladı.

Baba Pünhan şeri ilk növbədə öz sadəliyi və səmimiliyi ilə yadda qalır. Şair, gündəlik məişətdə işlənən ən sadə sözləri, hətta ədəbi dil üçün yad olan dialektizmi və varvarizmləri elə ustalıqla, yerli-yerində şerə daxil edir ki, yaşı bilinməyən və öz şairindən qüdrət tələb edib, Füzulinin dediyi kimi, "Nazimin şöhrətini artıran" qəzəl janrına cüzi xələl yetirməsinə baxmayaraq, onu daha da gözəlləşdirir, yeni ruhda və yeni təravətdə oxucuya təqdim edir. Bəzən ölçüyə sığmayan fikirlərin təsvirində vəzn və qafiyə xətasına yol versə də, oxucunun diqqətini misradakı mənaya və ifadə tərzinin gözəlliyinə elə cəlb edir ki, bu xətalar görünməz olur. Və ya elə xətalara yol verir ki, onlar şerin incəliyini və məlahətini daha da artırmış olur. Şair özü bunu müxtəlif cür izah edir.

***Şeirdə səhv eyləsə, tən eyləmə Pünhana,***
***Çünki mənim hər sözüm öz tarəzimnən gedir.***

***Əgər şerin zəif olsa mənə tən etməsin dostlar,***
***Zəiflik xəstə Pünhanın yarımcan olduğundandır.***

Bu sadə və gözəl misralar böyük şairin qəlb dəryasında dalğalanan təvazökarlığın təzahürüdür. Əslində o, göründüyündən də qat-qat böyük və əzəmətli şairdir.

Satira Baba Pünhan yaradıcılığının əsasını təşkil edir. O, M.F.Axundovun "Pis və çirkin adətləri insanın təbiətindən istehza və məsxərədən başqa bir şey qoparıb çıxara bilməz" fikrinə şərik çıxır və bu yolla gedərək özündən bixəbər qafillərə və insan donuna girmiş şeytanlara gülür, qafilləri öz güzgüsündə əks etdirib onları öz-özünə gülməyə məcbur edir. Şər xislətləri isə "Pünhanam, mən haqq sözümlə çox nahaqlar sancmışam" deyərək öz öldürücü gülüşüylə mənən məhv edir. Baba Pünhan bütün təbəqələrdən olan oxucu kütləsinin rəğbətini qazanmış və hərənin yaddaşında bir cür iz qoymuşdur. Bir qisim insanların yaddaşında "sözü duzlu, özü şit", bir qismində "dili zəhərli" şair kimi. Bir qisim insanlar onun "xəmiri kündəyə gəlmir, gözü çox nəm Babadır", "axtar Baba Pünhanı məyuslar arasında", "şükürlər olsun Allaha, mənə min bir ələm verdi" və başqa misralarını oxuyub qəminə şərik çıxırlar. Bir qismi isə Babanı dindar şair kimi tanıyır.

Əslində isə Babanın qəzəllərində pünhan qalan məqamlar var ki, bunlar da şairin qəlbində tüğyan edən eşq dənizindən xəbər verir.

***Babanın sözlərini haqq mizanıyla çəkin,***
***Ona haqdan gələn hər kəlmədə məna yükü var –***

deyən şairin hər misrasının arxasında bir aləm gizlənir və bir çox sadə beytlərin batinində dəm irfani düşüncələr

təzahür edir. Baba Pünhan həmin aləmlərə və düşüncələrə işarə edir:

***Pünhanın eyhamını baş sındırıb dərk eyləyən***
***Pünhanın edamına versin sərəncam, ağlasın –***

beyti Nəsiminin aşağıdakı misralarını yada salır:

***Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz;***
***Bu, quş dilidir, bunu Süleyman bilir, ancaq.***

Baba Pünhan dövrünün həllacıdır və haqq eşqiylə alışıb yanır. Zəmanəsinin haqq şairi olub, daim bir şam kimi qiyam edir və əzəli məşuqun (Allahın) eşqində fani olub, Ona qovuşmağı arzulayır:

***Onu zülmətlərə dəvət eləyin Xızı kimi,***
***Alışıb haqq ilə yansın ki, o, bir şəm Babadır.***

O, haqqın yolunda canını fəda etməyə hazır olan bir aşiqdir:

***Pünhanam, həqq yolunda məni qorxutmaz ölüm,***
***Çünki mənalı ölümlər ölüm üstündə olub.***

Baba Pünhanı İlahidən mərifət kəsb edən bir sənətkardır və o şairlərdəndir ki, həqqi-Təala onları "İlləlləzinə amənu" ("İman gətirənlərdən başqa") "Əş-şüəra" (ayə 227) ayəsiylə "vəş-şüərau yəttəbiuhumul-ğavun" ("şairlərə gəlincə onlara yalnız azğınlar uyar" "Əş-şüəra" (ayə 224) hədəfi olmaqdan xilas etmişdir.

Həqiqət bağçasının xoş ətrindən bihuş olub, bu ətri Yer üzündə yaymağa məmur olan şair bu barədə deyir:

***Mən həvadən yazmıram, haqdan gəlir beynimdəki,***
***Ağ varaqlar üstə sonra həkk olur zehnimdəki.***

***Səni xəlq etdi, Pünhan, Haqq-Təala haqqı yazmaqçün,***
***Yoxun haqqında hey yazsın, çətin ki, qurtarasənmiş.***

Şeir onun həyatının bir hissəsinə çevrilmişdi və onu yaşadan bu ilahi bəxşiş idi:

***Pünhanam, qəddimi sındır, qələmim sındırma,***
***Şairik ömrümüzü biz də varağnan sürürük.***

Baba Pünhan Allahın seçilmiş bəndələrindəndir ki, bu bəndələrin, səmazənlər kimi, bir əli daim ilahi səltənətinə tərəf uzanmış olur və Allahdan kəsb etdiklərini digər əl ilə onun bəndələrinə paylayırlar. Şair bunu belə ifadə edir:

***Pünhanam, haqq sözümü xəlqə nəzir paylayaram,***
***Haqq verən söz sərvətin haqqın yolunda payladım.***

Baba Pünhan özünün dünyaya "əşara görə" gəldiyini qeyd edərək əsərləri ilə sanki dövrün salnaməsini yaradır. Onun qəzəlləri bir güzgüyə çevrilir və bu güzgüdən İlahi nur zahir olur, elə bir nur saçılır ki, görməyən gözləri də açılmağa və əks olunan həqiqətləri görməyə məcbur edir.

Şairin ruhu daim var olan Allaha tərəf pərvaz etməyə

can atır. "Həyat zülmdü insana, ölüm həyatdı Pünhana" deyən şair fani cahandan köçüb əbədilik dünyasında o tək yarına qovuşmağı arzulayır, ondan başqasına aşiq ola bilmir və daim onun axtarışındadır. Bu axtarışdan ötrü bir xəlvət məkana çəkilir və sanki

***Guşeyi-vəhdət nə əcəb ca imiş,***
***Sirri-nihan ondan hüveyda imiş –***

deyən Nəbatinin səsinə səs verərək aşağıdakı beyti söyləyir:

***Tərki-dünyalıq edib, Pünhan, qatıl tənhalığa,***
***Bil ki haqqı tapmaq üçün misli yoxdur təkliyin.***

Baba Pünhan Həqqinə qovuşmağı çox arzuladı. 56 yaşında ikən ömür bağının xəzan yeli yetişdi və zamanın əli onun həyat gülünü bu torpaqdan üzüb, əbədiyyət bağçasının bağbanına tapşırdı.

Baba Pünhan xalq üçün yaşadı, xalq üçün yaratdı. Xalq üçün yaşayanları isə xalq özü əbədi yaşadır.

***Əlində dəftər eyləyib, yazıb Baba elin qəmin,***
***Dilində əzbər eyləyib, elim Babanı gəzdirir…***

## BABA PÜNHANIN ŞEİRLƏRİNDƏN NÜMUNƏLƏR

### SƏN DEMƏZDİN, MƏN DEDİM

*Haqq sözün bu iqtidarə sən deməzdin, mən dedim,*
*Ağu qatmış ruzigarə sən deməzdin, mən dedim.*

*Bu mücərrəd var ki, neyçün qurd qiyamətçün qalır;*
*Qurdu çıxsın aşikarə sən deməzdin, mən dedim.*

*Yurdu döndərmiş bazarə hər şeyi satmış ucuz,*
*Xəlqi salmış ahu–zarə, sən deməzdin, mən dedim.*

*Diz çöküb Pərvərdigarımdan qiyamət istədim,*
*Bax bunu Pərvərdigara sən deməzdin, mən dedim.*

*Çatmışıq min şükür ola Sahib–Zaman dövranına,*
*Son sözü son zülmkarə sən deməzdin, mən dedim.*

*“La fəta illa Əli, la seyfə illa Zülfüqar”,*
*Hikmətin bu hökmüdarə sən deməzdin, mən dedim.*

*Bir müqəddəs ruh enir, Pünhan, o göylərdən yerə,*
*İblisi qoysun məzarə sən deməzdin, mən dedim.*

*9 iyul 2001–ci il*

# QARABAĞ GETSƏ ƏGƏR

*Məni udsun qara torpaq, Qarabağ getsə əgər,*
*Yoxdur haqqım mən olum sağ, Qarabağ getsə əgər.*

*Nə qədər qız-gəlinim düşdü əsir göz görəsi,*
*Yaz mənim qəbrimə alçaq, Qarabağ getsə əgər.*

*Dərd vətən dərdidi, bağ dərdi çəkənlər alacaq,*
*Özgə bir yerdə gözəl bağ, Qarabağ getsə əgər.*

*Qorxudar bir gecə vallah səni xalqın qəzəbi,*
*Yetməz imdadına çildağ, Qarabağ getsə əgər.*

*Oxuyub tarixi bir gün nəvələrimiz deyəcək,*
*Bizə min tən ilə qorxaq, Qarabağ getsə əgər.*

*Oynasaq ermənin in işvə-nazıynan yenə biz,*
*Qoyacaq çox yerə barmaq, Qarabağ getsə əgər.*

*Girəcək tayqulağın qəbrinə tuş çaldıracaq,*
*Deyəcək bizdədi Arsağ, Qarabağ getsə əgər.*

*Qatılır gah vəhabiylə xristian bu işə,*
*Atmaq üçün təzə qarmaq, Qarabağ getsə əgər.*

*Belə sirli və müəmmalı gedişnən, Pünhan,*
*Ümid Allahadır ancaq, Qarabağ getsə əgər.*

*15 iyun 2001-ci il.*

## SÖZDƏN QOPAR QİYAMƏTİMİZ

*Zaman gələr açılar sirr olan cinayətimiz,*
*Açılsa qır qazanı olmaz heç kifayətimiz.*

*Yaxınlaşdıqca zühur qeyri–adilər çoxalar,*
*Yetincə Sahib əz–Zaman çaşar cəmaətimiz.*

*O vəqtidən ki, Badu–Kubəmiz dönərlə dolub,*
*O vəqtidən də möhürsüz olub ibadətimiz.*

*Gələndə Əzrayıl Xuda verən əmanət üçün,*
*Deyin hökumət alıb, ondadır əmanətimiz.*

*Çadır vilayəti bizdə çadır şəhərciyidir,*
*Şəhərdə, amma ki, hər villa bir vilayətimiz.*

*Səxavət ilə danışsaq da ahu qeyrətdən,*
*Xəyanət ilə düşüb tarixə hekayətimiz.*

*Təmami–şöhrət üçün bircə həccimiz çatmır,*
*Təmam olar bu məqsəd ilə Həcc ziyarətimiz.*

*Əli ayağı dəyən Zülfüqar diyarında,*
*Kələkdən olsa, küləkdən uçar imarətimiz.*

*Söz ilə, Pünhan, olubsa bu cahan xəlq əgər,*
*Qənaətimdi kim, sözdən qopar qiyamətimiz.*

*20 iyun 2000–ci il*

## TƏRPƏNDİ, YA TƏRPƏNMƏDİ?

*Titrəyib yer tərpənəndə bilmirəm insanların,*
*Şübhəli imanları tərpəndi, ya tərpənmədi?*

*Hündür eyvandan baxıb dövran mənimdir söyləyən,*
*Məmurun eyvanları tərpəndi, ya tərpənmədi?*

*Allahın torpaqların ac kəndliyə pulnan satan,*
*Quldarın ormanları tərpəndi, ya tərpənmədi?*

*Həm evi, həm qəlbi sınmış binəvalarçün görən,*
*Dövlətin imkanları tərpəndi, ya tərpənmədi?*

*Şah Hüseyn ilə Yəzidi bir tutan cahillərin,*
*Şah damarda qanları tərpəndi, ya tərpənmədi?*

*Özgənin ünvanına öz nəslini yerləşdirən,*
*Acgözün ünvanları tərpəndi, ya tərpənmədi?*

*Dövri-Sabirdən bu yanə bir əsr yatmışların,*
*Lərzədən yorğanları tərpəndi, ya tərpənmədi?*

*Can güdən oğlanların dəhşətdə ikən özləri,*
*Özgələrçün canları tərpəndi, ya tərpənmədi?*

*Pünhanın söznən vurub tərpətdiyi insanların,*
*Siz bilən vicdanları tərpəndi, ya tərpənmədi?*

***20 dekabr 2000-ci il***

## ŞAXTALI ÜNVANIMIZA

*Min şükürlər dilərəm rəhmli Rəhmanımıza,*
*Nəzərin saldı bu əhvali-pərişanımıza.*

*Millətin dərdi, demə məndə qubar etmiş idi,*
*Onu cərrah kəsib atdı xiyabanımıza.*

*Demə bu dərdi qoparmaq neçə min dollar imiş,*
*Beş minə dəydi bıçaq sineyi-qalxanımıza.*

*Halal olsun sözə qiymət verən oğlanlara ki,*
*Qatdı imkanını heç olmayan imkanımıza.*

*"Opires"dən sora, əmma ki, göy ilən gedirəm,*
*İqtidardan deyəsən qan vurulub qanımıza.*

*Bizə torpaqları qaytarmağa cərrah gərək,*
*Çeçenin qeyrətini "şunt" eləyə canımıza.*

*Necə getsin bu gözəl isti otaqdan ayağım,*
*O Rəsulzadədəki şaxtalı ünvanımıza.*

*"Qəlbim"i Ben Əli bəy şunt eləyəndən sonra,*
*Əli meydanı gərəkdir Baba Pünhanımıza.*

*22 noyabr 2001-ci il*
*Mərkəzi Klinik xəstəxana*

## MƏN QARABAĞÇÜN YAŞADIM

*Elə zənn eyləmə ki, tək yaşamaqçün yaşadım,*
*Mən elin dərdini gizlin daşımaqçün yaşadım.*

*Bir ürək dözmədi yüksəklərin alçaqlığına,*
*Ona güc verdi xuda dözməli dağçün yaşadım.*

*Gözümün qarəsi əşk ilə töküldü varağa,*
*Varağım qarələnincə bu varaqçün yaşadım.*

*Gələcək nəslə həqiqətləri çatdırmaq üçün,*
*Anadan olmayan onlarla uşaqçün yaşadım.*

*İblisin son gününə xeyli marağım var idi,*
*Allahın hökmü ilə böylə maraqçün yaşadım.*

*Mən demişdim kişi yox, ölkə papaqnan doludur,*
*Bu mənə yer elədi, bax bu papaqçün yaşadım.*

*Bir Müqəddəs qonağın gəlməsin hiss etmədəyəm,*
*Əlli dörd ildi dözüb sirli qonaqçün yaşadım.*

*Pünhanın bağın alıb zorla keçirtdin adına,*
*Sən bu bağçün yaşadın, mən Qarabağçün yaşadım.*

*23 noyabr 2001–ci il*
*Mərkəzi Klinik xəstəxana*

## NƏYİMƏ GƏRƏKDİR QARABAĞ?!

*İki bağ əlli otaq – nəyimə gərəkdir Qarabağ?*
*Bura dərya, ora dağ – nəyimə gərəkdir Qarabağ.*

*Qıdı kirvəm də mənimlə qapıbir qonşu düşüb,*
*Vururuq gündə araq – nəyimə gərəkdir Qarabağ.*

*Deyirəm, yaxşı ki çox qurdalamırlar bu işi,*
*Dolanır arvad-uşaq – nəyimə gərəkdir Qarabağ.*

*Yekə dağlar ətəyindən tutan alçaq təpəyəm,*
*Təpədəndirsə maraq – nəyimə gərəkdir Qarabağ.*

*Onun hərbində də, sülhündə də sirlər görünür,*
*Qalanır sirli ocaq – nəyimə gərəkdir Qarabağ.*

*Demə, yüzlərlə "mataq"lar dolaşırmış Bakıda,*
*Bakıda varsa "mataq" – nəyimə gərəkdir Qarabağ.*

*Bu Bakı əhli nə sadə, nə qonaqpərvər imiş?!*
*Oturur başda qonaq – nəyimə gərəkdir Qarabağ.*

*Binədə, Maştağada çox yeri zəbt eyləmişəm,*
*Nə dinir dil, nə dodaq – nəyimə gərəkdir Qarabağ.*

*Kimisi atəşi kəsdi, kimi düşmən qulağın,*
*Xatası məndən uzaq – nəyimə gərəkdir Qarabağ.*

*O qədər səbr edirik ki, dığa həll etsin işin,*
*Sümüyə çatsa bıçaq – nəyimə gərəkdir Qarabağ.*

*Demə, Pünhan, Qarabağ bir də gərəkdir nəyimə,*
*Yaşıla, qırmızıya, göyümə gərəkdir Qarabağ.*

*20 aprel 1998-ci il, Bakı*
*Baba Pünhanın "Acı həqiqət" kitabından*

## QANLI BİR SƏHRADI BU
### (Növhə)

*Göz yaşım leysan olub səhrada bir dəryadı bu,*
*Gəl gedək burdan, Hüseynim, qanlı bir səhradı bu!*

*Xatəmin övladına yas tutmağa Adəm gəlib,*
*Adəmin fəryadına peyğəmbəri-Xatəm gəlib,*
*Kərbəla torpağına göydən bütün Aləm gəlib,*
*Car çək başsız Hüseynə baş çəkən Zəhradı bu,*
*Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu!*

*Ötdü min dörd yüz ilim, dur Şümrə bir meydan oxu,*
*Yetdi son Aşura, zülmün qətlinə fərman oxu,*
*Bitdi həqqin intizarı, döndü bu dövran oxu,*
*Surələr Sur oldu xətmi-qeybəti-kübradı bu,*
*Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu!*

*Badu Kubə şəhrinə bir gün Əliəkbər gələr,*
*Həzrəti-Əbbas ilə həzrət Əli-Əsgər gələr,*
*Zülfüqarıynan Əmir-əl-Mömünün Heydər gələr,*
*Sahibi-əsr-Zamandan öncəki peydadı bu,*
*Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu!*

*Ol Yəzidin ləşkərindən bir başa min baş gedər,*
*Şah Hüseynim başdadır hər başda gizlin baş gedər,*
*Baş düşər başdan çıxar qaş başa bir gün baş gedər,*
*Yazdığım misralar içrə qalibi-misradı bu,*
*Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu!*

*Bir səhər mən at belində göydə gördüm hüccəti,*
*Endi göylərdən yerə sildim min illik həsrəti,*
*İnşəallah gün gələr Kubəmdə görrük Həzrəti*
*Bir həqiqətdir yazıb Pünhan demə xülyadı bu,*
*Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu!*

*12 aprel 1998-ci il.*

## BU ƏCƏLDİR, SUSGİNƏN!

*Hər xəta söz bir fəlakətçün təməldir susginən,*
*Hər fəlakət çox həlakətçün əməldir susginən.*

*Öylə yer var ki, dinərsən sözlərin nöqsan çıxar,*
*Böylə yerdə bir baxış sözdən gözəldir susginən.*

*Hər şeyin ən ibtidası həm təmiz, həm doğrudur,*
*Yəni ki, susmaq danışmaqdan əzəldir susginən.*

*Mən ürək oynatdım at yox, şeir meydanında bil,*
*Aləmə səs salma ki, təbim əfəldir susginən.*

*Özgədən məna götürmək xislətimdə yox mənim,*
*Söz ümumi, leyk hər mənam əzəldir susginən.*

*Sözlərin ömrün qışın yaz eyləyirsə yaz yarat,*
*Yox əgər, görsən ki solmuş bir xəzəldir susginən.*

*Sən məni susdurmağa qadir deyilsən, ey gəda,*
*Çünki bir şahəm tacım Allahdan əldir susginən*

*Bir qonaq var hər yerə pünhan gələr, aşkar gedər,*
*Gəlsə, Pünhan, salma hay-küy, bu əcəldir susginən!*

*16 may 2001-ci il*

## MƏN NƏ DEDİM Kİ?!

*Yoxdan gələni var elədim, mən nə dedim ki?!*
*Haqq əhlin ümidvar elədim, mən nə dedim ki?!*

*Məzlumlara qan udduran alçaqları bir−bir,*
*Söz udmağa vadar elədim, mən nə dedim ki?!*

*Xofdan əyilib bütpərəst olmuşlar önündə,*
*Qansız bütü inkar elədim, mən nə dedim ki?!*

*Allahı unutmuşlara xatırladan oldum,*
*Qafilləri huşyar elədim, mən nə dedim ki?!*

*Tərk eylədi şeytan bu könül mülkünü getdi,*
*Haqqımla yerin dar elədim, mən nə dedim ki?!*

*Can verdi Xuda, amma ki, eşq istədi məndən,*
*Yoxdur deməyə ar elədim, mən nə dedim ki?!*

*Gördüm ki, pul üstündə bu dünyanı tuturlar,*
*Dünyanı xəbərdar elədim, mən nə dedim ki?!*

*Haqqın özün axtardım onun qəbrini tapdım,*
*Amma sözün aşkar elədim, mən nə dedim ki?!*

*Pünhan, mən əməl dəftərini şerə çevirdim,*
*Yəni onu təkrar elədim, mən nə dedim ki?!*

*2 avqust 2002−ci il*

*Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə*

## ŞAİR DOSTUM HACI BABA PÜNHANA

*Etdi səni həqq yanına dəvət, Baba Pünhan,*
*Getdin tapasan haqq ilə vəhdət, Baba Pünhan.*

*Dünyada həqiqətdən əsər görmədin, heyhat,*
*Getdin alasan həşrdə qiymət, Baba Pünhan.*

*Duzlu–məzəli şeirlərin nəğməyə döndü,*
*Hər qəlbi də coşdurdu məhəbbət, Baba Pünhan.*

*Ekranda göründünsə kifayətdi bizimçün,*
*Hüsnündə yazılmışdı həqiqət, Baba Pünhan.*

*Tez getdin həyatdan – ölümün çox qəfil oldu,*
*Az düşdü sənin bəxtivə möhlət, Baba Pünhan.*

*Mum tək sözü əzdin, daş edib baş–gözü əzdin,*
*Nitqində bəyan oldu ədalət, Baba Pünhan.*

*Şerində tapıb şəklini faş oldu cahana,*
*Kim ki Vətənə etdi xəyanət, Baba Pünhan.*

*Soltan sənə rəhmət diləyir xəlqin adından,*
*Xoş ki əsərin qaldı əmanət, Baba Pünhan.*

*Hacı Arif Buzovnalı*

## ŞAİR DOSTUM BABA PÜNHANIN VƏFATINA

*Əfv et, ey dost, göz yaşardan bir neçə misra desəm,*
*Bəlkə etdim dərdbilməz qafili ehya, desəm.*

*Alini dünya edir tərk, ali dünya tərk edir,*
*Tərif olmaz, qaldı sənsiz bu fəna dünya desəm.*

*Söz bilən, məna duyansan, anlayarsan şübhəsiz,*
*Yoxluğa sonsuz həqiqət, varlığa xülya desəm.*

*Şuxluğundan doymayan can doydu daşdı qüssədən,*
*Dağa bənzər dərdimi daşmazmı hər dərya desəm?*

*Həqqi Pünhansız da pünhan eyləmək mümkün deyil,*
*Köhnə məna inciməz gər bir təzə məna desəm.*

*Həq sözün pünhan qılıncından keçirrəm nakəsi,*
*Bir dəfə zikrilə şerin "La fəta illa" desəm.*

*Xaliqin eşqilə həqqi söyləyər şair dili,*
*Yaxşılar əla olar, əlaya mən əla desəm.*

*Rəngli üzlərçün sözə rəng qatmağın mənası yox,*
*Bənzəməz röyaya gerçək, gerçəyə röya desəm.*

*Bir payız əfsanəsində soldu eşqi Arifin,*
*Məğzi vardır rəng alan hər yarpağa tənha desəm.*

*Rüstəm Tofiq*

***Ağla, ey göz, ağla ki söz mülkü sultansız qalıb,***
***Ağla, hey tök qanlı yaşlar, xəlq Pünhansız qalıb.***

***Dövrdə Pünhan idi tək həqqə meydanlar açan,***
***Ağla ki, Pünhan gedəndən həqq meydansız qalıb.***

***Ağla, ey biçarə çeşmim, sözlərim qan ağlayır,***
***Ağla, söz karvanım ağla, çünki sarbansız qalıb.***

***Ağla, ey göz, həqqə düşmən kəslərin dövranıdır,***
***Ağla, həqq düşmənləri çün indi düşmansız qalıb.***

***Aşkarı  Pünhan idi ekranda aşkar göstərən,***
***Ağla ki, Pünhan gedəndən aşkar ekransız qalıb.***

***Qeyrilər torpaqda xan ikən, qəzəlçün xan idi,***
***Xan da getdi, xəlq qəzəlxansız, qəzəl xansız qalıb.***

***Həqqi tut Pünhan kimi, cismin gedərkən can qala,***
***Var elə bir şəxsə, Rüstəm, cismi var, cansız qalıb.***

## KƏRİMOV RAHİB SAHİB OĞLU



1939-cu ildə Kürdəxanıda anadan olub. Gənclik illərindən taleyini zəhmətə bağlayıb. Bağçılıq işlərini, əkib-becərməyi çox sevərdi. Xeyriyyəçiliyi ilə kənd camaatı arasında yaxşı tanınırdı. 2001-ci ildə vəfat edib. Ədəbiyyatın, poeziyanın vurğunu idi. Bəzən asudə vaxtlarında şeir nümunələri yaradardı.

### DOSTA SADİQ OL

***Dost deyibən dost qədrini bilənin,***
***Qəlbinə küdurət dolmasın gərək.***
***Duz-çörək kəsibən çörək yeyəndə,***
***Halalı harama qatmasın gərək.***

***Əhdi ilqarından sadiq dayansın,***
***Söz ilə əməldə təmiz dolansın.***
***Hicran adlı oda daim qalansın,***
***Namərdə dostunu satmasın gərək.***

*Dostluq satılmasın dövlətə, vara,*
*Vəzifə pozmaya məhəbbət, ara.*
*Dünya malı daim dünyada qala,*
*Sədaqət, etibar batmasın gərək.*

*Yaxşı dost dar gündə sınaqdan çıxar,*
*Dost deyibən canın odlara yaxar,*
*Kəsilən çörəyə namusla baxar,*
*Ortada haramlıq olmasın gərək.*

*Dostunun dostu da dostundur sənin,*
*Dostun çox olarsa, uzundur əlin,*
*Dostluqda sadiq ol, olmasın qəmin,*
*Məhəbbət ehtiram solmasın gərək.*

*Atalar sözündə var haqqın səsi,*
*Hər şeyin təzəsi, dostun köhnəsi,*
*Qiymətdə yüksəkdir qədrin biləsi,*
*Qiymətsiz yerini tutmasın gərək.*

*Rahib sadiq qalıb dosta, ilqara,*
*Qohumla qardaşa düz qurub ara,*
*İstəsən hörmətin dünyada qala,*
*Kimsəyə pisliyin çatmasın gərək.*

## DAĞLAR

*Həsrətlə ayrılıb gedirəm dağlar,*
*Sizdə keçən günüm xoş günlərimdir.*
*Ay zirvə, göy tala xəyalda qalar,*
*Qəlbimə yurd salan dəyanətindir.*

*Göy meşə, xan çinar, kəklikli qaya,*
*Turacın, cüyürün heç gəlməz saya.*
*Şiş qayan ucalıb çatsa da Aya,*
*Bulaqlı göy talan kəramətindir.*

*Sizdə yetişmişəm boya, vüsala,*
*Mərifət, səxavət, əqlə, kamala.*
*Vüqarınız sizin gələcək xəyala,*
*Xatirəmə dolan səxavətindir.*

*Uca qayaları buludlar sökən,*
*İldırım şığıyıb sel sular tökən,*
*Sənli günlərinə intizar çəkən,*
*Sənin Rahib balan əmanətindir.*

*Kərimov Rahib Sahib oğlu*
*6 noyabr 1939–21 sentyabr 2001*

# KÜRDƏXANININ XEYRİYYƏÇİLƏRİ

## HACI CABBAR

Hacı Cabbar 1800-cü ildə Kürdəxanı kəndində kasıb kəndli ailəsində dünyaya göz açmışdır. Evləri kəndin aşağı məhəlləsində "Axund Qasım Əli" deyilən yerdə olmuşdur. "Molla Cəlilin evinin günbatanı".

O dövrdə kənd sakinləri maldarlıq və əkinçiliklə məşğul olardılar.

Cavan yaşlarından əkinçiliklə məşğul olan Hacı Cabbar bir il səpin üçün toxumluq buğda az olduğundan əkin sahəsinin yarısını boyaq otu alıb əkir. Bu sahədən yaxşı səmərə götürdüyünə görə boyaq əkin sahələrini genişləndirir. Allah-təala onun malına o qədər bərəkət verərmiş ki, xalq bir zərbül-məsəl kimi deyərdi: "Hacı Cabbar daşda da əksə göyərir".

Hacı Cabbar əkinçiliklə yanaşı heyvandarlığı da artırmışdır. Mal-davarın camaata əziyyət verməməsi üçün aşağı məhəllədəki evini satıb yuxarı məhəllədə torpaq sahəsi alıb ev tikdirmişdir. O vaxtlar su ancaq quyulardan işlədilərmiş. Hacı Cabbar evinin yanında quyu qazır. Ancaq su bir az şor çıxır. Axşam yatıb yuxuda görür ki, ona deyirlər narahat olma, qazdığın quyudan 3 metr aralı birini də qazdır, şirin su oradadır. Elə də olur. Əvvəl qazdığı quyunun yerində qara tut ağacı əkir. İndi hal-hazırda həmin tut ağacı, quyu vardır. O evinin ətrafında deyilənə görə 10 ağ tut, 3 qara tut əkib ehsan edib camaata.

Hacı Cabbar bir dindar şəxs kimi el arasında ehtiram və ləyaqətlə indi də yad edilməkdədir.

O öz həyətində məscid tikdirmiş və bütün xərcini özü vermişdir. Məscidin suvağını çəkən usta Əlirza kişiyə zəhmət haqqı olaraq böyük bağ sahəsi bağışlamışdır (usta zəhmət haqqı almadığına görə). Onun inşa etdirdiyi ovdanlar, çəkdirdiyi yollar, qazdırdığı quyular Allah yolunda gördüyü bütün işlər indi də el-oba arasında anılmaqdadır.

O, həmişə kasıblara, yoxsullara kömək edib. Oğul evləndirən, qız köçürdən yoxsul ailələrin cehizini alıb, toylarını edərmiş.

Hacı Cabbar bir zəhmətkeş insan kimi də ad qazanmışdır. O özü də təsərrüfat işlərində işlərdi. O deyərdi: "Mən özüm işləyirəm ki, kasıb da baxsın mənə işləsin, kasıb olmasın". İşlətdiyi fəhlələri günortaya qədər işlədib bütöv günün haqqını verib yola salardı. Evində saxladığı köməkçisini qıraqdan yad adam baxsaydı, onun ailə üzvlərindən biri sanardı.

O dövrdə aclıq olanda taxıl anbarlarını açmış, Bakı kəndlərinə xəbər göndərib ki, evində taxılı olmayan gəlib taxıl aparsın. Özü də taxıl aparanlara deyərmiş: "Kimin imkanı olar qaytarar, olmaz – halal xoşu". İndi də onun taxıl sahələrinin yeri "40 hektar" adı ilə məşhurdur.

Allah-təala onun bu səxavətinə görə onun varını-dövlətini daha da bol edirdi. Aclıq illərində o, iki il kəndin dövlətə olan borcunu da ödəmişdir.

Onun dəvə karvanının sayını elə deyirlər ki, Hacı Cabbarın dəvələri Kürdəxanıya çatanda bir ucu Pirşağıda olarmış. Bakıdan Qubaya neft, duz aparıb, taxıla və başqa ərzaq mallarına dəyişərmiş. Yaxşı cəhətlərindən biri də Hacı Cabbarın el arasında çoxlu var-dövlət sahibi olmasına bax-

mayaraq özünü çox sadə aparmasıydı.

O dövrdə hacılar üçün məxsusi don biçərmişlər. Bu donu ancaq mərasimdə geyinərdilər hacılar.

Hacı Cabbarı ancaq mərasimlərdə tanıyardılar ki, bu şəxs hacıdır. Qalan vaxtlarını öz sadə kəndli libasında olarmış ki, xalqdan seçilməsin…

1937-ci ilin ab-havası onun ailəsindən də yan ötməyib. Hacı Cabbarın oğul nəvəsini və ailəsini xalq düşməni edib tutublar. Evini 40-cı ildə ştab və kolxoz idarəsi, 1945-ci ildən 1979-cu ilə qədər isə uşaq bağçası etdilər. Baxımsızlıqdan bu binalar uçuldu. İndi də bu binalara bəraət verilməyib.

Hacı Cabbar 1886-cı ildə vəfat edib. İki övladı olub. Oğlu Məşhədi Kərim, qızı Xanımnisə.

## HACI ƏBDÜRRƏHİM ABBASQULU OĞLU VƏ OĞLU QULİYEV HACIBALA HAQQINDA



Kürdəxanı kəndində 1859-cu ildə anadan olmuş Hacı Əbdürrəhim Abbasqulu oğlu yaşadığı müddət ərzində xeyirxah əməlləri ilə özü üçün saysız-hesabsız hörmət qazanmışdır.

Kürdəxanı kəndində yaşayan yaşlı insanların söhbətlərinə görə o öz sürüsündən hər kasıb ailəyə 10 baş qoyun

verib ki, saxlayın balasını götürüb anasını qaytararsınız. Ancaq çox vaxt heç anasını da götürmürdü. Ona sual verəndə ki, Hacı, niyə onlara qoyun əvəzinə pul vermirsən? O deyirmiş ki, pulu xərcləyərlər, ancaq qoyunu saxlayıb kasıbçılığın daşını atarlar.

Bu söhbəti kənd sakini qohumu Hənifə Əmiraslan oğlu danışır. Hənifə kişinin söhbətinə görə babası Hacı Hənifə ilə yeznəsi Hacı Əbdürrəhim Abbasqulu oğlu ikisi bir yerdə Məkkəni ziyarət edib dönərkən yolda Hacı Hənifə rəhmətə gedir. Hacı Əbdürrəhim Abbasqulu oğlu öz pulu ilə bir dəvə alır və dəvəni kəsib ətini kasıblara paylayır. Dəvənin dərisini o rəhmətə gedən adamı büküb qaytarıb yoldan Məkkəyə aparıb və orada dəfn edib. O, kənddə yaşadığı müddət ərzində rəhmətə gedən adamların kəfənə bükülməsi üçün xərcini öz üzərinə götürmüşdü. O çox vaxt etdiyi yaxşılığı heç kimə bildirməzdi. Qaranlıq düşəndən sonra kasıbların, vəziyyəti ağır olan adamların həyətinə ərzaq qoyarmış. Səhər açılanda ev yiyəsi görərmiş həyətində ərzaq var.

Hacı Əbdürrəhim Abbasqulu oğlu 1908-ci ildə Kürdəxanı vətəgəsinin qərarını alıb və tikdirməyə başlayıb. 1910-cu ildə tikilib qurtarıb. Yaşlıların söhbətinə görə, 7 hektar torpaqda balıq anbarları tikdirib. Təxminən 1915-ci illərdə tora o qədər balıq düşübmüş ki, Abşeron kəndlərinə xəbər göndərib ki, gəlib təmənnasız balıq aparsınlar. Onun yeganə övladı Hacıbala Əbdürrəhim oğlu 1881-ci ildə dünyaya gəlib. 1922-ci ildə Hacı Əbdürrəhim Abbasqulu oğlu vəfat edib. Onun oğlu Hacıbala atasının xeyirxah yolunu davam etdirirdi. O, kənddə un dəyirmanı və kərpicxana tikdirib ki, qonşu kənddə yaşayan insanlar da faydalansın. O həmişə

oruc tutar, namaz qılarmış. Onun anası Məşhədi xanım olduqca alicənab və ağıllı xanım olub. 1937-ci il 21 oktyabr qərarı ilə Maştağa milisi erməni daşnakı Ziyalov Hacıbala Hacı Əbdürrəhim oğlunu bağda namaz qılan yerdə həbs edib. Məhkəmənin qərarı ilə 10 il müddətinə həbs edilib.

***Qələmə aldı: nəvəsi Əliyyə***

## HACI ZEYNAL

Hacı Zeynal X1X - XX əsrin əvvəllərində Kürdəxanı kəndində yaşamış, rəncbərliklə məşğul olmuş və onunla da varlanmışdır. Kəndin uzaqgörən şəxslərindən olmuşdur. O, qayğıkeş bir insan kimi kənddə o zamanlar ağır zəhmət hesabına başa gələn bir el hamamı inşa etdirmişdir. Kəndin, elin rifahı üçün çalışmasına görə kənd ağsaqqalları onu kəndə “kəndxuda” seçmişlər.

Hazırda həmən “Hacı Zeynal hamamı” dövlət tərəfindən XVII əsr abidəsi kimi qorunub saxlanılır.

Doğulduğu və vəfat etdiyi tarix dəqiq məlum deyil.

## QASIMOV Kərbəlayi QASIMƏLİ QASIMƏLİ OĞLU (1886-1964)



1886-cı ildə Kürdəxanı kəndində anadan olmuşdur. Ruhani təhsili almışdır. Əmək fəaliyyətinə qoyunçuluqla başlayıb, bir müddət keçdikdən sonra varlı bir şəxsiyyət olaraq Sabunçu neft mədənində neft sahəsi alır. Orada uzun müddət çalışdıqdan sonra, həmin sahənin sahibi olur. Onunla işləyən şəxsiyyətlərdən – onun köməkçiləri Qubalı Mürsəl bəy, Sabunçulu Şirin və Qafar bəy, bir çox neft mədənində işləyən fəhlələr olmuşdur. Atam 1913-1920-ci ilə qədər həmin neft mədəninin sahibi olur.

1921-ci il sovet hökuməti qurulduqdan sonra neft mədəni onun əlindən alınmışdır. 1937-ci ildə isə Kürdəxanıda bağ sahələri də kolxoza verilmişdir.

Atam sonra şəhərə köçür, ailəsi üçün ev tikdirir (evimizin ünvanı keçmiş Kamo küçəsi, dalan 6, mənzil 122). Nəhayət, 1918-ci ildə Bakıda erməni-müsəlman müharibəsi baş verir. O, müharibədə mərdliklləı vuruşur. Özünün dediyinə görə (həmişə keçmiş xatirələrini bizimlə bölüşərdi) bir gün qohum və qonşu qadınları əlli-altmış nəfəri 4-5 arabaya yığıb, Kürdəxanı kəndinə aparır. Onları apararkən yolda çox çətinliklərlə üzləşir Atam danışardı ki, şəhərə qayıtdım, nələr gördüm bir Allah bilir. Dalanlarda, küçələrdə, qapılarda insan meyitləri qalaq-qalaq idi. Mən əlisilahlı ermənilərlə vuruşurdum. Əlbəttə ki, tək deyildim, özümə böyük bir dəstə düzəltmişdim. Türklər Bakıya gələnə qədər ermənilərlə vuruşduq. Nəhayət, türk qardaşlarımız bizə kömək etdilər. Erməniləri Bakı şəhərindən qovdular.

Atam çox xeyriyyəçi bir insan olmuşdur. Həmişə kasıblara kömək edib, müharibə vaxtı kənddə taxıl əkib camaata paylayarmış. Onun çox yaxşı dostları olub, kənddə bir çox adamlara kömək əlini uzadıb, küsənləri, düşmən olanları bir-biri ilə barışdırıb. Bir çox kənd uşaqlarını sürücü məktəbinə oxumağa göndərib.

O Allahı çox sevən bir şəxsiyyət kimi hər il məhərrəm ayında iki gün imam ehsanı verərmiş – bir gün kənd camaatına, bir gün isə şəhər adamlarına. Həmişə mən özüm şahidi olmuşam ki, məclisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyx Mövsüm, sonra isə Şeyx Mövla Əliağa onun məclisində iştirak etmişlər. İndi isə bu ənənəni onun qızı Səyyarə xanım Qasımova davam etdirir. Onun evində, həyətində Kəbleyinin işığını nəvəsi Mahmud bəy yandırır. Mənə elə gəlir ki, atamız haqqında nə qədər danışsaq, bitib-tükənən deyil.

Atam 1964-cü ildə iyunun 17-də Kürdəxanı kəndində vəfat etmişdir. O, uzaqgörən adam kimi özünə məzar da tikdirmişdi.

Atamın 7 övladı olub. 5 övladı dünyasını dəyişib. Hazırda iki övladı var. Səyyarə xanım evdar qadındır. Rüxsarə xanım isə dil-ədəbiyyat müəllimi işləyir.

Onun davamçıları iki oğlan nəvəsi – Dəmirbəyli Mahmud İsmayıl oğlu (diş həkimi), Qasımzadə İlham Niyazi oğludur (hərbi vəzifədə polkovnik).

***Qızlarının xatirəsindən***

## Kərbəlayi ƏMİRASLAN



Kərbəlayi Əmir Aslan Hacı Hənifə oğlu 1876-cı ildə Bakı şəhərinin Kürdəxanı kəndində anadan olmuşdur. O, körpə ikən atası vəfat etmişdir. Babası Eldar kişinin Əmir Aslanın böyüyüb boya-başa çatmasında çox böyük zəhməti olmuşdur. Eldar kişi halal zəhmətlə dolanmağı dəfələrlə nəvəsinə tövsiyə etmişdir. Əmir Aslan böyüdükcə babası ona atasının Həcc

ziyarətinə gedib, orada rəhmətə getdiyini danışır.

Əmir Aslanın atası Hənifə öz yaxın qohumu olan o dövrdə Kürdəxanı kəndinin imkanlı və hörmətli sakini Hacı Əbdülrəhim ilə Məkkəyə Həcc ziyarətinə yola düşür. Hənifə Məkkədə Həcc ziyarətini başa vurduqdan sonra xəstələnir və dünyasını dəyişir. Hacı Əbdülrəhim öz xərci hesabına bir dəvə alıb kəsdirir. O, həmin dəvənin ətini Məkkə kasıblarına payladıqdan sonra Hacı Hənifəni müsəlman adəti ilə kəfənə tutub, cənazəsini dəvə dərisinə büküb öz xüsusi xərci hesabına Məkkədən Mədinəyə gətirib orada dəfn eləyir.

Sonra öz doğma kəndinə qayıdıb əhvalatı olduğu kimi Hacı Hənifənin atası Eldar kişiyə danışır.

Uşaq yaşlarından Əmir Aslan atasının qəbrini və Mədinə torpağını ziyarət etmək arzusu ilə yaşayır. Babası Eldar kişi nəvəsinə yalnız halal zəhmət ilə pul qazanıb atasının qəbrini və Mədinə torpağını ziyarət etməyi tövsiyə edir. Əmir Aslan böyüdükcə bağçılıq, heyvandarlıqla və o dövrün nəqliyyat vasitəsi olan at-qazalaq işlətməklə məşğul olur. O, qazandığı pulu babası Eldar kişiyə verir. Babası onun qazancını yığıb, nəvəsini evləndirib ona ev tikmək qərarına gəlir. Bir gün Əmir Aslan pul verdikdə babası pulun məbləğini görüb, bu pulu haradan və hansı yolla qazandığını soruşur. Kürdəxanı bağları Xəzər dənizi sahilində yerləşir. Sahildən kənarda o dövrdə çoxlu balıq vətəgələri var idi. Sahil ilə balıq vətəgələri arasında yüz metrlərlə hündür narın qum örtüyü var idi. Dənizdən tutulan balıqları at-qazalaqla həmin təpəni qalxıb vətəgəyə, oradan əhaliyə satmaq üçün şəhərə aparardılar. İmkanlı bir vətəgə sahibinin toruna böyük bir ağ balıq düşür. Bir neçə at-qazalağı bu balığı narın qumluqla vətəgəyə qaldıra bilmir. Həmin vətəgə sahibi Əmir Aslana

balığı at-qazalaqla vətəgəyə, oradan da şəhərə çatdırmaq şərti ilə istədiyi məbləği ona verəcəyini bildirir. Bu işin öhdəsindən gəldikdən sonra həmin şəxs Əmir Aslana çoxlu miqdarda pul verir. Qazandığı pulu babasına verdikdə babası onu götürüb, Axundun yanına getdi. Axund həmin pulun zəhmət haqqısını götürüb, yerdə qalan pulu vətəgə sahibinə qaytarılmasını məsləhət bildi. Babası həmin pulu sahibinə qaytardı. Əmir Aslan evləndikdən sonra, zəhmətlə yığdığı pulun hesabına 1927-ci ilin əvvəlində Kərbəla ziyarətinə yola düşür. Onun daim ürəyində gəzdirdiyi arzu gerçəkləşir. O, müqəddəs Kərbəla torpağını ziyarət edir. Ziyarətdən qayıtdıqdan sonra Kərbəlayi Əmir Aslanın bir oğlu olur, ona atasının adını verir. Kərbəlayi Əmir Aslanın 4 oğlu və üç qızı olur. Özünün dediyinə görə iki müharibə görmüşdür. Birinci erməni-Azərbaycan müharibəsi, İkincisi sovet-alman müharibəsi. O, ermənilərin törətdikləri vəhşiliklərdən ömrünün axırına qədər söhbət edərdi.

Ziyarətdən qayıtdıqdan sonra onun dindar dostları daha da çoxalır. Onun evinə Azərbaycanın bütün rayonlarından və Bakı kəndlərindən qonaqlar gəlib-gedərdi. Kərbəlayi Əmir Aslan da Azərbaycanın bütün rayonlarını gəzmişdi. Dünyagörüşü çox olduğu üçün bir çox adamlar onun yanına məsləhətə gələrdi.

Kürdəxanı kəndində ən çox ömür sürən ağsaqqallardan biridir. Onun çox yaşamasının səbəbi 97 yaşına kimi at sürməsi, fiziki əməklə məşğul olmasıdır. Kərbəlayi Əmir Aslan 1973-cü ilin payızında noyabrın 18-də yeddi gün xəstə yatdıqdan sonra vəfat edir. Öz doğma kəndi olan Kürdəxanı kəndində dəfn edilir.

***Hənifə Kərbəlayi Əmiraslan oğlu***

# USTA SƏTTAR ƏLİ OĞLU
# (1904-1976)



Səttar Əli oğlu 1904-cü il yanvarın 31-də Bakı şəhərinin Kürdəxanı qəsəbəsində anadan olmuşdur. Ailəsinin sonbeşiyi, dörd bacının qardaşı olan Səttar həyatının hələ ilk illərindən çətinliklərlə qarşılaşmalı olmuşdur. Dörd yaşında atasını, səkkiz yaşında anasını itirən Səttar məcburi olaraq Bakıda qohumlarının yanında yaşamalı olmuşdur.

XX əsrin əvvəllərində Bakı milyonçularının böyük tikinti işləri aparması onun gələcək həyatının formalaşmasında böyük bir iz qoymuş olur. Belə ki, 10-12 yaşlı Səttar daşyonan və mozaika işlərini öyrənmişdir. Sonralar mükəmməl bir usta kimi şöhrət qazanmışdır. 1927-ci ildə doğulduğu qəsəbəyə dönərək öz əmək fəaliyyətini burda davam etdirmişdir. Baxımsız torpaqlarını tezliklə abadlaşdırmış, sənətini isə daha da təkmilləşdirmişdir.

1929-cu ildə kəndimizdə tikintiyə başlayan ilk orta məktəbin tikintisində məşhur bir usta kimi fəaliyyət göstərmişdir. Təmənnasız çalışan usta Səttar sonralar da bir

xeyriyyəçi insan olduğunu sübuta yetirmişdir. Onlarla kimsəsiz insanların evlərinin tikintisində birbaşa iştirak etmişdir. Bir çox dövlət binalarının (kolxoz əmlakı) tikintisində çalışmışdır. Buna sübut üçün 1964-cü ildə təqaüdə çıxan Səttar aldığı ilk təqaüd puluna qəsəbə kənarında avtobus dayanacağı tikmişdir.

1939-cu illərdə kənddə fəaliyyətə başlamış kolxozda ən tanınmış simalardan olmuşdur.

1941-ci ildə hamı kimi o da dünya müharibəsinin başlanması ilə müharibə iştirakçısına çevrilmişdi. İki dəfə ağır yaralansa da, öz döyüş yolunu davam etdirmişdir. 1946-cı illər ordudan tərxis olunan Səttar geri, doğulduğu kəndə gələrək yenidən öz fəaliyyətini davam etdirmişdir. Kolxozçular arasında öz nizam və intizamına görə seçilməsi onun briqadir təyin olunmasına şərait yaratmışdır.

Beş uşaq atası olan Səttar kənddə gözəl ailə başçısı kimi tanınmışdır.

Poeziya həvəskarı olan Səttar ibtidai təhsil almasına baxmayaraq gözəl şeir söyləməyi bacarmış, Füzuli, Şirvani, Sabirin həvəskarı olmuşdur.

Böyük və çətin həyat təcrübəsi olan bu el ağsaqqalı, bu zəhmətkeş insan 1976-cı ildə dünyasını dəyişmişdir. O, indi də xalq arasında böyük bir ehtiramla yad olunur.

# DƏYİRMANÇI NƏRİMAN ƏLMAN OĞLU

Nəriman Əlman oğlu 1905-ci ildə Kürdəxanı kəndində rəncbər ailəsində anadan olmuşdur. O, gənc yaşlarından Binəqədi neft mədənlərində çilingər kimi fəaliyyət göstərmişdir. 1936-cı ildə kənddə kolxoz qurulanda onu kolxozda işləməyə çağırmışdır. O, əvvəlcə kolxozun su quyularında motor-nasos işlərinə baxmış, sonra yaxşı sənətkar olduğu üçün onun təşəbbüsü ilə kolxozda dən üyütmək üçün dəyirman inşa etdirmişdir.

O, İkinci dünya müharibəsi illərində kolxoz tərəfindən bron almışdır. O, çətin müharibə illərində kənd camaatına əlindən gələn köməyi əsirgəməmişdir. Güzəranı lap ağır olan ailələrdən üyütdüyü dən üçün əvəz almamışdır. O, dindar, xeyirxah bir insan kimi rəhmətə gedən yoxsulların dəfn xərcini özü ödəmişdir.

Nəriman kişi o zaman qonşu kəndlərə də öz köməyini əsirgəməmişdir. Qonşu kəndlərdən – Pirşağıdan, Məhəmmədidən, Digahdan, Fatmayıdan, Novxanıdan, hətta Şurabaddan dəvə ilə dən gətirib Kürdəxanıda üyüdərlərmiş.

O, 1972-ci ildə vəfat etmişdi. Allah ona rəhmət etsin.

# SƏRHƏNG NADİRƏLİ OĞLU



Sərhəng Nadirəli oğlu 1896-cı ildə Bakının Kürdəxanı kəndində anadan olmuşdur.

Gənc yaşlarından bağda, bostanda çalışmışdır. Ləş bağlarında böyük bağ sahələri olub. Sovetləşmə dövründə kolxozun anbardarı, sonralar Kürdəxanı kənd mağazasında işləmişdir. Sərhəng kişi halalzadə və xoşxasiyyət bir insan olduğuna görə, Kürdəxanı əhli onun hörmətini uca tutub ona bir ağsaqqal kimi həmişə hörmət ediblər.

Sərhəng kişi 1966-cı ildə vəfat edib.

Allah ona rəhmət eləsin.

## SAFAYIL NOVRUZƏLİ OĞLU



Safayıl Novruzəli oğlu 1906-cı ildə Bakının Kürdəxanı kəndində dünyayə gəlmişdir.

Kiçik yaşlarından ata və anasını itirmiş, əmisi Nadirəli kişinin himayədarlığında olmuşdur. Hələ çox gənc ikən zəhmətə alışıb, bağ-bostan becərməklə məşğul olub. O, Kürdəxanı kəndində nümunəvi bağban kimi tanınıb. Hətta Abşeronun başqa-başqa məntəqələrindən onun yanına məsləhətə gələrlərmiş.

Safayıl kişinin öz bağı Ləş bağlarının Kürdəxanı kəndinə çox yaxın bir hissəsində yerləşir. Özü sağlığında o bağda Abşeron yarmadasında bitən bütün meyvə ağaclarından əkmişdi. Onun bağı da nümunəvi bağ idi. Hətta suvarılmayan qumsal bağda cürbəcür güllər də əkib becərirdi.

Safayıl kişi həmin o bağdan əldə etdiyi qazancla halal zəhmətinin pulu ilə ailəsini saxlayırdı.

Safayıl Novruzəli oğlu 1985-ci ildə Kürdəxanı kəndində vəfat edib. Allah ona rəhmət eləsin.

# SARƏNC ƏLİMUXTAR OĞLU



Sarənc Əlimuxtar oğlu 1906-cı ildə Bakının Kürdəxanı kəndində dünyaya gəlmişdir. Kiçik yaşlarında mədrəsədə Quran oxumaq dərsi keçmişdir. Deyilənə görə Quranı avazla çox gözəl oxuyarmış.

1937-39-cu illər çoxları üçün bəlalı illər olub. O, cümlədən Sarənc kişi də 30-cu illərin qurbanı olub.

Həmən illərdə öz yaxın dostu Əbdürrəhman Sadıq oğlu ilə birlikdə Kürdəxanı kənd mağazasında işləyiblər. İş elə gətirib ki, hökumət Əbdürrəhmanı (sifarişlə) həbs etmək üçün mağazaya yoxlama göndərir və Əbdürrəhmanı həbs edirlər.

Az sonra Sarənc Əlimuxtar oğlunun dalınca da adam göndərirlər ki, gəlib məhkəməbə ifadə versin. Onu aparmağa gələnlərdən biri, açıq məsləhət görüb ki, Əbdürrəhmana qarşı ifadə versən salamat ailənə, evinə qayıdacaqsan. Bunu eşidən Saranc kişinin yataqda olan xəstə anası, Pərinaz xanım oğluna deyir: Əgər sən Əbdürrəhmana qarşı ifadə versən südümü sənə halal etmərəm.

Sarənc Əlimuxtarın oğlu ailəsi ilə son dəfə vidalaşır və geri dönmür.

Əbdürrəhmanın anası Xalisə xala, ölənə qədər oğul yolu gözlədi.

Sarənc Əlimuxtar oğlunun yataqda xəstə anası, həyat yoldaşı və 4 kiçik yaşlı qız uşaqları qaldı. Bu ailə də ömürlərinin axırınadək Sarənc kişinin qayıtmasını ümüdlə gözlədilər.

Allah onların hamısını rəhmət eləsin.

## HÜSEYNOV ƏLİBALA MƏMMƏDRƏHİM OĞLU



Hüseynov Əlibala Məmmədrəhim oğlu 1903-cü ildə Bakının Kürdəxanı kəndində anadan olmuşdur.

1920-ci il sovetləşmə zamanı ailəlikcə Binəqədi kəndinə köçüblər. Buna baxmayaraq Əlibala kişinin ömrünün çox hissəsi Kürdəxanı kəndində keçib. El adətinə görə yaz fəsli başlanandan qış girənə kimi kənddə cavanların toy mərasimləri keçirilərdir. Əlibala kişi Kürdəxanı toylarının aparıcısı olub. Yaxın qohumu Əmir kişi ilə birlikdə bütün Kürdəxanı toylarının sərpayısı olan, toy ənənəsini çox yaxşı bilən və kənd əhli ilə mədəni rəftar etməyi bacaran Əlibala kişi kənd camaatının böyük hörmətini qazanmışdı.

O vaxtlar, yəni 50-60-cı illərdə Kürdəxanı toylarına klassik muğam oxuyan məşhur xanəndələr, xalq aşıqları dəvət olunardı. Bunlardan Xan Şuşinski, Seyyid Şuşinski, Mütəllim Mütəllimov, Yaqub Məmmədov, Hacıbaba Hüseynov, Aşıq Şakir, Aşıq Qurban, Aşıq Pənahı göstərmək olar. Bu muğam ustalarını zövq ilə dinləmək üçün aparıcı lazım idi ki, toyxanada sakitlik yaransın.

Belə aparıcılığın öhdəsindən Əlibala kişi ilə Əmir kişi ustalıqla gəlirdi.

Allah onların hər ikisini rəhmət eləsin.

Onu da qeyd etmək lazımdır ki, Kürdəxanı kəndində muğamı dərindən bilənlər az deyildi. Məsələn Məşhədi Məzahir, Məşhədi Hüseynağa, Məmmədəli doktor, akademikimiz Vasim Məmmədəliyev, ustad tarzənimiz Vamiq Məmmədəliyev və başqalarının adını sadalamaq olar.

Əlibala Məmmədrəhim oğlu 1967-ci ildə vəfat etmişdir.



Əmir Əliyulla oğluna el arasında «Əmir dayı» deyərdilər. Onun bir məşhur sözü vardı. Elə indinin özündə də el arasında işlədilir:

«Pis günümüz bunda olsun», deyə toyu nəzərdə tutardı.

Əmir dayı 1902-ci il Kürdəxanıda dünyaya gəlib. 1973-cü ildə Kürdəxanıda vəfat edib.

Allah dünyasını dəyişmiş cəmi xeyirxah insanlara rəhmət eləsin.

# QULİYEV HACI
# XUDAVERDİ MƏŞHƏDİ ƏJDƏR OĞLU



1937-ci ildə Bakının Kürdəxanı kəndində anadan olub. 1959-cu ildə Pedaqoji məktəbi, 1964-cü ildə Bakı Ticarət Texnikumunu, 1983-cü ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsini bitirib.

Əmək fəaliyyətinə 1959-cu ildən başlayıb. Pedaqoji məktəbi bitirdikdən sonra təyinatla Qonaqkənddə işləyib. Bir ildən sonra Bakıya qayıdıb. Ticarət texnikumunu bitirdikdən sonra ticarət sahəsinə işləməyə başlayıb. Nəsimi rayon Yeyinti Ticarəti şöbəsində işləyib.

Bir övladı var.

Ziyarətləri: 1991, 1992 – Məkkə, 1993 – Məşhəd, Kərbəla.

Hacı Xudaverdi Məşhədi Əjdər oğlu 2003-cü ildə dünyasını dəyişmişdir.

# HACIBALA KƏRBƏLAYİ ƏLİHÜSEYN OĞLU



Hacıbala Kərbəlayi Əlihüseyn oğlu 1915-ci ildə Bakının Kürdəxanı qəsəbəsində, rəncbər ailəsində dünyaya göz açmışdır.

1918-ci il mart hadisələrində erməni daşnaklarına qarşı çıxan Adil Paşanın qardaşı oğludur. Onu da qeyd edək ki, Adilə "Paşa" adını Türkiyənin baş komandanı Nuru Paşa vermişdir. 1933-cü ildə əmisi Adil Paşanın tək övladı olan Mənzər xanımla ailə həyatı qurmuşdur. 1937-ci ildə Hacıbalanın həyat yoldaşı Mənzər xanım uzun sürən xəstəlikdən dünyasını dəyişir. 1940-cı ildə öz kəndlisi olan Tahirə Niyaz qızı ilə ailə həyatı qurur. İkinci nikahdan 5 oğlu, 4 qızı olmuşdur. Hal-hazırda ortancıl övladı əmisi Adil Paşanın adını daşıyır. Hacıbala Kərbəlayi Əli Hüseyn oğlu bir neçə şerin müəllifidir. Onu sevənlər arasında Hacıbala "Şeyda" ləqəbi ilə tanınır.

Hacıbala Kərbəlayi Əlihüseyn oğlu 1995-ci ildə vəfat etmişdir.

# KƏRBƏLAYİ AĞARƏHİMİN ÖVLADLARI



Kərbəlayi Ağarəhim Kürdəxanı kəndinin sayılan adamlarından olub, gördüyü xeyirxah işlərlə başqalarından seçilib. Onun böyük oğlu Zülfüqar da atası kimi camaatın xeyir-şərinə yarayan olub. Fəqət Böyük Vətən müharibəsindən geri dönməyib, itkin düşüb. Digər oğlu Güldiyar cavankən dünyasını dəyişib. Vərağa adlı kiçik qardaş 1914-cü ildə dünyaya gəlmişdir. 1922-ci ildə Kürdəxanı kəndində təhsilə başlamışdır. Məktəbi bitirdikdən sonra 1934-1939-cü illərdə isə Tibb İnstitutunda təhsil almış, təyinatla Kəlbəcər rayonunun Ağcakənd kəndinə göndərilmişdir. Şair ruhlu bu gənc həkim bir çox lirik şeirlərin, qəzəllərin müəllifi kimi də yaddaşlarda iz buraxmışdır. Lakin vaxtsız ölüm onun da ömrünü yarıda qoyur. 1941-ci ildə Kəlbəcərdə torpağa tapşırılır. Vərağa həkimlik etdiyi dövrdə ağır xəstələrə şəfa vermiş, çox xəstələri sağaltmışdır. Müalicə etdiyi şəxslər bu günə qədər onun xeyirxahlıqlarından danışırlar. Ağcakənd camaatının böyük hörmətini qazanmışdır.

**Rəhbərəli Ağarəhim oğlu (1906-1983).**

Rəhbərəli Ağarəhim oğlu o dövrdəki Azərbaycan Dövlət Sosialist Uçotu İnstitutuna daxil olmuş, lakin ailə vəziyyəti-

nə görə təhsilini yarımçıq qoyub işləmək məcburiyyətində qalmışdır. Vətən müharibəsi illərində energetik kimi fəaliyyət göstərən Rəhbərəli sözün həqiqi mənasında öz işinin ustası idi. Azsavadlı olmasına baxmayaraq Rəhbərəli xaricdən gətirilmiş elektrik cihazlarının dilini ali təhsilli mütəxəssislərdən yaxşı bilirdi.

O, çox namuslu, elin təəssübünü çəkən, hamıya bacardığı qədər kömək etməyə çalışan bir insan idi. Müharibə vaxtı onu cəbhəyə aparmadılar, çünki neft istehsalında işləmək o zaman cəbhədə vuruşmaqdan vacib sayılırdı.

Müharibə qurtardıqdan sonra da Rəhbərəli uzun müddət o dövrkü Leninneft mədənlərində əmək fəaliyyətini uğurla davam etdirirdi.

Kürdəxanı kəndində onu düz danışan, sözü üzə deyən bir şəxs kimi tanıyırdılar.

Rəhbərəlinin bir din xadimi kimi də bir neçə Quran oxuyan şəxslər hazırlamışdır. Həmin şəxslər məclislərdə ona bir müəllim kimi rəhmət oxuyurlar.

# ELM VƏ SƏNƏT ADAMLARI

## NƏNƏM HAQQINDA XATİRƏLƏRİM



Məşhədi Tubu xanım Hacı Əhməd qızı 1839-cu ildə Kürdəxanı kəndində anadan olmuşdur. Kiçik yaşlarında ata-anasını itirmiş, onu öz bibisi tərbiyə etmişdir. Təhsilini Ruhani mollaxanada almışdır. Bibisi Nurşərəf xanım xalq təbabətini yaxşı bilirmiş. Tədricən bibisindən öyrəndiyi üsulu ilə öz kəndinin əhalisinə təmənnasız uzun müddət müalicə etmişdir. Ruhani təhsilinə görə bu işi özünə savab kimi qəbul edirdi. Onun müalicələri müxtəlif və ətraflı idi. Qurudulan müalicə bitkilərini göyərən vaxtını, təsir və saxlanılma müddətini yaxşı bilirdi. Onu istifadə etdiyi otlardan (dazı otu, gicitkən otu, gicitkən toxumu, dəmrov otu, çobanyastığı, əməköməci, bağayarpağı və s.) nənəm bir neçə göz xəstəliklərini otlarla müalicə edirdi, hətta gözün görmə qabiliyyətini artıran otlarla müalicə edirdi.

Göz bulanmasının qarşısını almaq üçün o gözə bal çəkmək və ya camış yağı ilə təzə yumurtanın qatışığını gözə çəkmək məsləhət edirdi. Gözdə görmə qabiliyyətini artır-

maq üçün ağ turpun yarpaqlarını yeməyi tövsiyə edirdi.

Yanığa görə kələmi əzib yumurtanın ağı ilə qarışdırıb yanığın üstünə bir neçə dəfə çəkmək ilə xəstə sağalırdı. Yanıqda olan suluğun, ağrının qarşısını almaq üçün:

– bal sürtmək;

– zeytun yağı üstünə duz səpmək;

– bağayarpağının döyülmüş kütləsini yanığa qoymaq;

– çuğundur yarpağını əzib yanığın üstünə qoymaq göstərişini verirdi.

Ekzema və göbələyə qarşı:

– hananı kərə yağı ilə qarışığını;

– bənövşə yağını;

– limon suyunu və ya soğanın suyunu dəriyə sürtməyi məsləhət görürdü.

Böyüklərdə qarın boşluğu xəstəliyinə gəldikdə (qara ciyər, mədə-bağırsaq, mədəaltı vəzinin iltihabı zamanı zəfəran dəmləməsindən bir neçə gün istifadə etməyi məsləhət bilirdi. Bir azca (bir çimdik ılıq suda dəmlənmiş kimi) zəfəranı stəkanda ağzı örtülü saxladıqdan, 6-7 saat keçəndən sonra, gündə bir-iki qurtum daxilə qəbul etməyi məsləhət bilirdi ki, bu müalicə qarın nahiyəsində olan ağrını, köpü, narahatlığı, qəbizliyi aradan qaldırırdı. Xəstələr bu müalicədən çox razı qalırdılar.

Körpə uşaqlarda anadangəlmə göbək yırtıqlarını nənəm onları cərrahi əməliyyatsız ilk dövründən bu cür müalicə edərdi və yırtıqdan tamamilə xilas edərdi:

1. Uşağı çimizdirəndən sonra onu arxası üstə uzandırırdı, yırtığı qarın boşluğuna basıb, yırtığın hər iki tərəfdən boylama orta xətt üzrə qarın əzələlərini bir-birinə yaxın-

laşdırırdı, onun üzərinə parçaya bükülmüş qədimi mis 5 qəpikliyi qoyub çalın-çarpaz fiksasiya edirdi; üstündən baş ləçəyini göbək nahiyədən belindən və qarnının üstündən düyün vururdu. Beləliklə, uşağı bu üsuldan 2 ay müddətinə saxlayırdı. Gec-gec çimizdirib, o vaxt 5 qəpiklik götürülürdü, çiməndən sonra həmin üsul ilə göbək bağlanırdı.

2. Ümumiyyətlə, körpə uşaqların qarnında köp olanda ağrı hissiyyatını azaltmaqdan ötrü raziyanə tumunu (boyana) əzib ikiqat cunaya 0,5 çay qaşığı miqdarda töküb cunanı bağlayırdı, kiçik çaydanda həmin raziyanənin üzərinə 2 stəkan su əlavə edib 5-7 dəqiqə qaynadırdı, sonra ılıq vəziyyətdə süzülmüş 0,5 çay qaşığı bir neçə dəfə gün ərzində verirdi, beləliklə, uşaqda köp aradan götürülürdü. Bu müalicə göbək yırtığı olan uşağa 2 ay müddətində davam etdirilirdi.

3. Anaya tövsiyə edilirdi ki, yırtığı olan uşağı ağlamağa qoymasın. Beləliklə, anadangəlmə göbək yırtıqları bu üsulla aparılan müalicədə cərrahi əməliyyatsız bitişirdi. Bu üsuldan uşaqların tam sağalmasını mən özüm müşahidə etmişəm.

Nənəm əsəbi xəstələrdə uzun müddət başağrısı, ümumi əzginlik və yaxud yuxusuzluq olan xəstələri bu növ üsul ilə müalicə edirdi. Ləçəyin bir ucunu xəstənin əlinə verib dirsəyini isə düzbucaq vəziyyətdə qatlayırdı. Xəstəyə yaxın ölən qohumlarının adını bir-bir deməyə vadar edirdi. Hər bir ölənin adı çəkiləndə, o hər dəfə ləçəyin o biri ucunu dirsəyinə qədər aparırdı. Ləçəyin qadının əlindəki ucu dirsəyə çatmayanda xəstəni inandırırdı ki, sənin (nənənin və ya bibinin…) ruhu tutub, onun üçün “Yasin” oxutdur və ya qəbrinin üstünə get “Fatihə” de və cümə axşamlar 7 dəfə salavat çevir. Buna el arasında ruh ölçmək deyilirdi. Xəs-

təyə bu cür yanaşmaq hal-hazırda psixoterapiya adlanır, beləliklə, bu cür xəstələr təlqinetmə ilə sağalırdı.

Bərk başağrıları olan, hal-hazırkı səhiyyəvi yanaşma ilə desək, qan təzyiqi yüksək olan zamanda, kürəyə küpə qoyub dərini çərtmə ilə xeyli qan götürməyi nənəm məsləhət verirdi, beləliklə, həmən xəstə o ağır vəziyyətdən çıxırdı.

Tez-tez qrip, bronxit, öskürəyi olan adamlara nənəm yay vaxtı ayaqyalın gəzməyi, ayaqlarını soyuq quyu suyu ilə tez-tez yumağa, səhər tezdən ayaqyalın bağda şehli torpaqda gəzməyi tövsiyə edirdi. Hazırda ingilis alimləri təsdiq etmişlər ki, çox ayaqyalın gəzən adamların arasında böyrək xəstəliklərinə təsadüf olunmur, nəinki ayaqqabı ilə gəzən adamlarda. Havaların istiləşməsi ilə əlaqədar olaraq, soyuqdəymədə çimib isti torpaqda günəş altında bir neçə dəqiqə oturub və onu təkrar etməyini məsləhət edirdi.

Öskürəyi olan adamlara dənizin havası, dəniz kənarında yüyürməyi və ya dənizdə qayıq ilə səyahəti göstəriş verirdi.

Bundan əlavə, sınıq çıxığı olan xəstələrə nənəm kömək edərdi. O çox asanlıqla çıxıqları salırdı. Əgər sınıq varsa, yumurtanın ağını çalıb bir az un qatırdı və bir az da sönmüş əhəng tozu əlavə edib sınığa uyğun olan çit parçaya yaxıb sınığın üstünə qoyurdu, əks tərəfinə isə parçaya sərilmiş dik parçasını və ya qalın karton qoyub sınığı sarıyardı, ona görə ki, o sahədə hərəkət sümük bitişənə qədər olmasın.

Qadının doğuşa gəldikdə, özünün qurudulmuş halda qönçə formalı və ətrafında ikiyarpaqlı bitkisi var idi. Onu bir kasa suyla qoyurdu doğanın yanına. Həmin bitkinin gül kimi açılmağa doğuşun yaxınlaşmasını bildirirdi. O doğuşu yarım oturaq vəziyyətində qəbul edirdi. Qeyd etmək istəyi-

rəm ki, tibb elminin son təsdiq olunmuş məlumata görə, yarımoturaq vəziyyətində doğuş qadın üçün daha yüngül keçir, nəinki uzanıqlı arxası üstə. Bunu xarici alimlər də təsdiq ediblər.

Belə ki, iki qazan ağzı üstə qoyulurdu, iki qazan arasında uzunsov düzbucaq evin torpağı qazılırdı, çuxura altdan xalça parçası, üstünə isə təmiz çit parçası elə salınırdı ki, doğan adamın ayağının altında qazanların üstündə qalırdı. Qadın ayaqlarını yarımoturaq vəziyyətində qazanların üstünə qoyurdu. Sağ və sol tərəfində cavan iki qadın qollarından tuturdular. Təzə nehrədən çıxmış yağ ilə nənəm uşaqlıq yolunu xaricə qədər yağlayardı. Geniş tumanı dizlərinin üstünə saldıqdan sonra nənəm özü isə doğan qadının arxa tərəfində oturub doğulan uşağı qadının arxa tərəfindən qəbul edərdi. Doğulan uşağın göbəyi bağlanandan sonra (ciftdən ayrılandan sonra) ılıq su ilə uşağı yüngül çimizdirib bələyirdi. Beləliklə, doğan qadının heç bir əzası görünmürdü. Ona görə ki, nənəm evin küncündə və doğanın arxa tərəfində olduğuna görə, doğanın yanında olan adamlar uşaqdan başqa heç bir şey görmürdülər. Qadının hər işi qurtarandan sonra, sağında, solunda olan qadınlar ona kömək edib yerinə salırdılar. Doğuşla əlaqədar olan axıntılar iki qazanın arasına salınmış çitə bürünüb götürülürdü.

Müsəlman adəti ilə əlaqədar olaraq, uşaq və ana olan yerə adam buraxılmazdı, ona görə uşaq basılar və ya çiləyə düşər və daha qadın doğmaz. Əgər otaqlar çox deyilsə, uşağın və ananın yatacaq yeri tamamilə ayrılırdı. Buna «uşağın damı ayrıldı» deyirlər. Evin bir tərəfində pərdələr tutardılar, ümumi otaqdan izolyasiya edilirdi. Belə ki, ev

formasında parçadan qurulmuş evciyin üst tərəfindən (damının ortasından) bir yumurta sallanardı. Ona görə ki, uşağa nəzər dəyməsin, nəzər dəysin canlı olan yumurtaya.

Qadın iltihabı xəstəliklərinə gəldikdə çox yekə bir qazanda müxtəlif iltihab əleyhinə olan təmizlənmiş otları axşamdan qazanda suyun içərisində səhərə qədər saxlayırdı, səhər onu qaynadırdı, soyudardı, otların qalığını qazandan götürəndən sonra qadını göbəyə qədər (dözümlü isti suya) 0,5 saat müddətində otuzdururdu. Beləliklə, 9-10 vanna qəbul etdikdən sonra əgər uşaqlıq sağa-sola və yaxud arxaya əyilmişdirsə, bu vaxt o xaricdən qarnının aşağı hissəsini masaj edirdi, əks tərəfinə isə kiçik kasacıq ilə banka qoyurdu və həmin tərəfə uzandırırdı.

Əgər uşaqlıq arxa tərəfə əyilmişdirsə (qadının belində ağrı olurdu) onda böyük bişmiş yumurtanı düzbağırsağa yeridirdi (dizi və dirsəyi yerdə üzüqoylu vəziyyətdə) qarnının aşağı hissəsində banka qoyurdu, bir müddət bu vəziyyətdə saxlayırdı. Bu, aybaşıdan 8-10 gün sonra təkrar olunurdu. Bu üsulla gedən müalicə doğmayan qadına tətbiq olunurdu.

Hamiləlik və doğuş travmaları ilə təzə doğulmuş körpələrin əli və ayağında yuxarı və aşağı ətrafında olan əyrilikləri də öz üsulu ilə fiksasiya edib tam normal vəziyyətə gətirənə qədər müalicə edirdi, eləcə də əyri boyun doğuşmuş uşaqları da müalicə edirdi.

1957-ci ildə 119 yaşı tamam olanda nənəm vəfat etmişdir və Kürdəxanı kəndində torpağa tapşırılmışdı.

***Tibb elmləri doktoru, professor***
***Nisəxanım Ağayevanın nənəsinə aid xatirələri***

# MƏMMƏDƏLİ İBRAHİM OĞLU MƏMMƏDƏLİYEV



Məmmədəli İbrahim oğlu Məmmədəliyev 1900-cü il noyabrın 9-u Sabunçuda zadəgan ailəsində anadan olub. Gənc ikən dövrün böyük mütəfəkkiri, sonralar repressiya olmuş Seyid Hüseynin ədəbiyyat dərnəyində məşğul olmaqla bərabər musiqiyə də maraq göstərib. Tar çalmaqla bərabər muğamlarımızı dərindən öyrənib. O dövrün sənətkarları – xanəndələri və tarzənləri ilə geniş ünsiyyətdə olub. Lakin buna baxmayaraq, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəb və fars dillərini öyrənməklə ali təhsilə başlayıb. Universiteti əla qiymətlərlə bitirdikdən sonra təhsilini davam etdirmək məqsədilə Tiflisə yollanan M.Məmmədəliyev tibb ixtisasını seçir və hərbi səhra həkimi kimi fəaliyyətə başlayır. 30-cu illərdə kvalifikasiyadan ötrü Leninqrada (indiki Sankt-Peterburq) yola düşən M.Məmmədəliyev orada patoloq-anatom kimi çalışır. 1936-cı ildə vətənə qayıdır və Bakının Pirşağı kəndində həkim kimi fəaliyyətini davam etdirir. Az sonra qonşu Kürdəxanı kəndinə köçür. Yenicə açılan ambulatoriyaya işə düzəlsə də,

qazancı qayğılarını ödəmirdi. Ona görə də orta məktəbdə fransız dilindən dərs deyir. Ambulatoriyada akuşer kimi çalışan gələcək həyat yoldaşı Səidə xanımla tanış olur. 1938-ci il dekabrın 31-i onlar evlənirlər. Xeyli müddət Kürdəxanı kəndinin sakini Gülbala kişinin evində kirayənişin qalırlar. Elə həmin dövrlərdə M.Məmmədəliyev Azərbaycan Tibb İnstitutuna daxil olur. Təhsillə bərabər həyat yoldaşı Səidə xanımla birlikdə Kürdəxanı kəndinin ambulatoriyasında çalışır. Bir müddətdən sonra həkim personalı kənddə tikilən yeni ambulatoriya binasına köçür. Xalqa, elinə göstərdiyi xidmətlərinə görə köhnə bina çoxuşaqlı Məmmədəliyevlər ailəsinə bağışlanır. Tibb Universitetini əla qiymətlərlə bitirdikdən sonra latın dili kafedrasında müəllimlik fəaliyyətinə başlayan doktor Məmmədəli İbrahim oğlu Məmmədəliyev, həkim kimi bütün Azərbaycanda məşhur olan Məmmədəli doktor rus, ərəb, fars, fransız, alman, türk və latın dillərini mükəmməl bilən, xalq musiqisini – muğamları, qəzəliyyatı dərindən təhlil etməyi bacaran, fenomenal yaddaşa malik olan alim, ziyalı bir şəxs kimi tibb sahəsində çalışdığı 40 ildən çox müddətdə onlarla mütəxəssis yetişdirmiş, latın dilinin qrammatikasına aid bir neçə kitabın müəllifi, ikinci müəllifi və redaktoru olmuşdur.

Səkkiz uşağı – beş oğlu, üç qız övladı olan həkim ailəsində bir çox sahələri əhatə edən gələcək ziyalı nəslinin toxumu cücərirdi. Məmmədəli İbrahim oğlu zəhmli ağsaqqal, həm də gözəl ailə başçısı kimi də Azərbaycan elminə Vasim Məmmədəliyev kimi şərqşünas, Vamiq Məmmədəliyev kimi nadir musiqiçi, Nasir Məmmədəliyev kimi ərəb dili mütəxəssisi, Xariqə Məmmədəliyeva kimi qadın həkimi,

Nəzifə Məmmədəliyeva kimi məşhur ginekoloq, Səyyarə Məmmədəliyeva kimi pediatr bəxş etmişdir.

1997-ci il dekabrın 17-si Məmmədəli İbrahim oğlu ömrünün müdrik çağında, 97 yaşında vəfat etsə də onun dühası, ensiklopedik biliyi, müdrik kəlamları, həyata nikbin baxışları kimi qoyduğu irs çağdaş tibb alimlərinin, qohumlarının, bütün el-obasının yaddaşına əbədi həkk olundu.

## YUSİFZADƏ SƏTTAR BƏY ƏBDÜLƏZİM BƏY OĞLU



Yusifzadə Səttar bəy Əbdüləzim bəy oğlu 1889-cu ildə Bakı şəhərində Kürdəxanı kəndində sahibkar ailəsində doğulmuşdur.

Onun atası Əbdüləzim bəy Yusifbəyli Zabrat və Suraxanıda neft quyularının sahibkarı olmuşdur. Neftdən əldə olunan sərmayəni yoxsul camaata sərf etmişdir. Vaxtilə Kürdəxanı kəndində tikilən yeganə məscid Əbdüləzim bəyin həyat yoldaşı Balaxanımın adı ilə bağlıdır.

Hazırda bu məscidə "Xanım məscidi" deyirlər.

Əbdüləzim bəyin övladlarından biri də Səttar bəy olmuşdur. Səttar bəy iki qardaşı Hüseyn bəy və Ağa bəy ilə birlikdə Tiflis şəhərində pedaqoji təhsilə sahib olmuşdular.

Səttar bəy 1912-ci ildə İçərişəhərin "Ağşalvarlılar" nəslindən olan Səkinə xanım ilə ailə həyatı qurmuşdu. Onların 7 övladı – 6 qızı və bir oğlu olmuşdur. Səttar bəy Kürdəxanı kəndində öz vəsaiti hesabına ilk orta məktəb tikdirmiş və ömrünün sonunadək bu məktəbdə direktor vəzifəsində çalışmışdır. O, təhsilə əsasən qızları cəlb etmişdir. O illərdə qadınların məsul vəzifədə işləməsinə icazə verilmirdi, buna baxmayaraq Səttar bəyin qızları Sara, İqbal, Məryəm, Şərafət həmin məktəbdə müəllimə işləmişdilər. Sonralar böyük qızı Məryəm xanım ailə həyatı qurduqdan sonra Maştağadakı məktəbdə ilk qadın ibtidai sinif müəlliməsi olmuşdur. Səttar bəyin digər qızı Sara Pedaqoji İnstitutu bitirərək uşaq bağçasının müdiri, İqbal Tibb İnstitutunu bitirərək Hocahəsən və Xırdalanda uşaq həkimi, Şərafət Bakı Dövlət Universitetini bitirərək hüquqşünas, yeganə oğlu Aydın isə dənizçi olmuşdur.

1937-ci ildə Azərbaycanın repressiya dövrü Səttar bəyin var-dövlətinin əlindən alınmasına səbəb olmuşdur. Bu vəziyyəti ilə barışa bilməyən Səttar bəy ağır xəstələnmiş və 1940-cı ildə Bakı şəhərində vəfat etmişdir.

# BALAĞA MÜƏLLİM



Quliyev Balağa Məşhədi Çırağəli oğlu 1930-cu ildə Bakının Kürdəxanı kəndində ruhani ailəsində anadan olmuşdur. İlk təhsilini Kürdəxanı kənd orta məktəbində almışdır. Hələ kiçik yaşlarından dahi Füzuli, Nizami, Seyid Əzim, Raci, Qumru, Dəxil kimi klassiklərin əsərlərinə maraq göstərən, şeirlərini əzbərləyən Balağa orta məktəbi əla qiymətlərlə bitirərək 1949-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinə qəbul olur. Universitetdə oxuyarkən gözəl şeirlər yazırdı və ömrünün axırınadək bu işi davam etdirdi. Universitetdə fars və ərəb dillərini öyrənərək tərcüməçiliklə məşğul olurdu. 1956-cı ildə universiteti Azərbaycan dili və İran filologiyası ixtisası üzrə bitirir. İki il təyinatla Yardımlı rayonunda müəllim işlədikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda 1963-cü ilə qədər kiçik elmi işçi işləyir. 1968-ci ildə namizədlik dissertasiyası müdafiə edərək institutda baş elmi işçi vəzifəsində işləməyə başlayır. Müstəqil elmi fəaliyyəti ilə bir çox elmi jurnallarda İran ədəbiyyatı tarixi barədə mə-

qalələr dərc etdirir. H.Araslı, Z.Bünyadov, Cəfər Xəndan, Əlibala Hacızadə, Rəfael Hüseynov kimi nəhənglərlə bir yerdə işləyən Balağa müəllim onların yaradıcılıq və biliklərindən də bəhrələnir. 1968-ci ildə ailə qurur. 1974-cü ildə həyat yoldaşını itirən Balağa müəllim azyaşlı üç övladı ilə öz ata-baba ocağı olan Kürdəxanıya köçür. Elm adamı üçün belə çətin olan vəziyyətdə qohumları xüsusilə dayısı Məşhədi Hüseynağa ona dayaq olublar. Kənd həyatına alışmasında, insanlarla təmasında Məşhədinin böyük rolu olmuşdur. Məşhədi Hüseynağa arif adam idi: özünü tək-tənha hiss edən Balağa müəllim xalqın xeyir-şər məclislərinə özü ilə birgə aparır, onu söhbətlərdə, mübahisələrdə bir alim kimi iştirak etməyə həvəsləndirirdi.

Ailəcanlı idi, eyni zamanda xalqın taleyinə də biganə qalmırdı. O, kənd uşaqlarının təhsili ilə maraqlanır, onlara kənd həyatına bağlanıb qalmamağı, savad və elm ardınca getməyi tövsiyə edirdi.

Övladları onun bu ziyalı yolunu davam etdirirlər. İki qızı ali məktəbdə təhsil alır, biri orta məktəbdə müəllimə işləyir. Oğlu isə dini təhsil alıb, kənddə axunddur.

Balağa müəllim 1989-cu il iyunun 7-də vəfat etmişdir. O öz xalqının xatirində namuslu, zəhmətkeş, xalqın xeyir-şərinə yarayan, istiqanlı və dili düz, əməli düz bir insan kimi qalmışdır.

XƏYALIM DEDİ

***Yenə dilə gəldi xəyal tutisi,***
***Dünyaya ibrətlə bax, dedi şair!***
***Ulduz tək gündüzlər sönən olunca,***
***İldırım ol hər dəm çax, dedi şair.***

*Böyük həqiqətdir ölüm həyatda,*
*Yaxşı bir ad qoy get fani dünyada,*
*Bir ağ gün görməsən bu kainatda,*
*Dünyadan sel kimi ax, dedi şair!*

*Səadət səninlə qardaş olmasa,*
*Eşqin ürəyinlə sirdaş olmasa,*
*Ağıllı-kamallı bir baş olmasa,*
*Üstünə od töküb yax, dedi şair!*

*Vicdanı satma gəl, pula, şöhrətə*
*Aldanma hər yalan sözə, söhbətə*
*Bu sözləri salıb şerə, sənətə*
*Tarixin qəlbinə tax, dedi şair!*

*Q.Balağa*
*28 mart 1957, Yardımlı.*

# BALƏLİ VƏLİ OĞLU VƏLİYEV
## (1925-2005)



Baləli Vəli oğlu Vəliyev Bakının Kürdəxanı kəndində anadan olub. İlkin yaşlarından elmə maraq göstərmiş və gələcəkdə bu yolu davam etdirib müəyyən bir elmi zirvəyə çatmaq arzusunda olub. Elmə olan bu böyük həvəs həqiqətən də onu 1940-cı ildə ikiillik müəllimlər institutunun fizika-riyaziyyat fakültəsinə daxil olmasına gətirib çıxarır. Yüksək savadı ilə seçilən B.Vəliyev buranı 1942-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir.

Baləli müəllim 1942-ci ildə əmək fəaliyyətinə elə müəllimliklə başlamışdır. Bu da onun elm dalınca gedəcəyinə işarət idi. Orta ümumtəhsil universitetinə 20 il müəllimlik edən B.Vəliyev pedaqoji fəaliyyətini daha da mükəmməlləşdirmişdir.

Baləli müəllim öz peşəsini ürəkdən sevmiş və bu yolda sözün əsil mənasında əlindən gələni əsirgəməmişdir. Belə ki, onun dərs dediyi şagirdlər ümumittifaq və respublika riyaziyyat olimpiadarında layiqli mükafatlar qazanmışlar. Məhz bu müsbət cəhətinə görə o, 1962-ci ildə Azərbaycan

Mərkəzi Müəllimlər İnstitutunun riyaziyyat kafedrasının metodisti vəzifəsinə dəvət olunur. Baləli müəllimin xüsusi təşkilatçılıq qabiliyyəti burada da özünü göstərir. Üç il sonra Baləli müəllim həmin institutun direktor müavini (1965-1967), ardınca isə 10 ilə yaxın bir müddət ərzində (1967-1976) direktoru vəzifəsində çalışmışdır. Elmi fəaliyyətini yorulmadan davam etdirən Baləli müəllim 1985-1991-ci illərdə institutda fizika-riyaziyyat kafedrasının müdiri işləmiş, ömrünün qalan hissəsini isə bu kafedrada professor kimi elmə həsr etmişdir. Qeyd etmək yerinə düşərdi ki, Baləli müəllim 17 kitab və dərslik, 5 monoqrafiyanın müəllifidir.

Bundan əlavə B.Vəliyev mənəvi dəyərlərə də hörmətlə yanaşmış, islam dininin elmə və ümumilikdə insanlığa verdiyi sonsuz qiyməti, dəyəri heç zaman unutmamışdır. Bunu onunla göstərmək olar ki, professorun 2001-ci ildə işıq üzü görən Axund Şeyxəli və digər din xadimlərinə həsr olunmuş "Dinimizin saflığı uğrunda çırpınan ürək" adlı kitabında bir çox əxlaqi, milli və mənəvi dəyərləri işıqlandırmışdır. Bu kitabı oxuyan hər bir kəsə vətənpərvərlik hissi, vətənə qayğı, islam dininin qoyduğu qanunlara ciddi şəkildə riayət baxımından gözəl təəssürat bağışlayır.

# AĞAYEV MƏZAHİR MİRZAĞA OĞLU



Ağayev Məzahir Mirzağa oğlu 1906-cı ildə Bakı şəhərinin Kürdəxanı kəndində anadan olmuşdur.

Orta təhsilini aldıqdan sonra Lenin rayonunun fəhlə fakültəsində öz təhsilini tamamlamışdır. Həmin fakültəni bitirdikdən sonra 1930-cu ildə Azərbaycan Neft-Kimya İnstitutunun (Azərbaycan Neft Akademiyası) dağ kəşfiyyatı fakültəsinə qəbul olunmuş və 1935-ci ildə mühəndis-geoloq ixtisası üzrə həmin fakültəni bitirmişdir. 1933-1937-ci illərdə Kürdəxanıneft Kəşfiyyatı Trestində geoloq vəzifəsində çalışmışdır. 1937-1938-ci illərdə Leninneft Trestində əvvəllər geoloq-mühəndis, sonra isə sahə rəhbəri vəzifəsində işləmişdir.

1939-1940-cı ilə qədər Leninneft mədənində rəis vəzifəsində işləmişdir. 1940-1942-ci illərdə Naftalanneft Trestinə baş geoloq kimi göndərilmişdir və orada neft kəşfiyyatı rəisinə qədər yüksəlmişdir.

1942-1948-ci illərdə Molotovneft Trestində baş geoloq vəzifəsində çalışmışdır. 1948-1950-ci illərdə Azərneft Kəşfiyyatı Birliyinin rəisi vəzifəsində işləmişdir. 1950-1954-cü illərdə Azərbaycan Dənizneft Kəşfiyyatı üzrə rəis, 1954-

cü ildən ömrünün sonuna kimi Buzovnaneft Birliyinin nəzdində olan təkrar neft emalı idarəsində rəis vəzifəsində çalışmışdır.

Üç övlad atasıdır:

Ağayeva Ziya Məzahir qızı, biologiya elmləri namizədi, Elmlər Akademiyasında çalışır.

Ağayeva Nəsibə Məzahir qızı, Xalq Təsərrüfatı İnstitutunu bitirib və Azərbaycan Neft Şirkətində baş mühasib vəzifəsində işləmişdir.

Ağayeva Rəna Məzahir qızı, Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir.

1966-cı il aprelin 27-də iş zamanı qəflətən dünyasını dəyişmişdir və vətəni Kürdəxanı kəndində torpağa tapşırılmışdır.

## AĞAYEV ƏHMƏDAĞA MƏMMƏDAĞA OĞLU



Ağayev Əhmədağa Məmmədağa oğlu 1905-ci ildə Bakının Kürdəxanı kəndində anadan olmuşdur.

İbtidai təhsilini aldıqdan sonra Lenin rayonunun (Sabunçu rayonu) fəhlə fakültəsinə daxil olub və 1929-cu ildə oranı bitirib. Həmin ildə Azərbaycan Neft-Kimya İnstitutu (Azərbaycan Neft Akademiyası) neft-texnoloji

fakültəsinə daxil olmuşdur və 1934-cü ildə institutu bitirmişdir.

1934-cü ildə institutu bitirdikdən sonra Qara Qarayev adına Azərbaycan neft-qaz zavoduna göndərilmişdir. Orada mühəndis, baş mühəndis və sonra isə müdir vəzifəsində çalışıb.

1936-cı ildə zavodda işlədiyi müddətdə Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. 1942-ci ildə ikinci ali təhsilə yiyələnmişdir.

1941-ci ildə İkinci dünya müharibəsi şəraitində Frunze adına kükürd-turşu zavodunda işləri o vaxtın müasir tələblərinə uyğun olmadığına görə, Ağayev Əhmədağa Məmmədağa oğlu Qara Qarayev adına neft-qaz zavodundan, kükürd-turşu zavoduna göndərilmişdir və ömrünün axırına kimi burada işləmişdir. Baş mühəndis vəzifəsindən tez bir zamanda rəhbər vəzifəsinə seçilmişdir. Bir sıra praktiki səmərələşdirici təklifləri Moskva şəhərində təsdiq olunandan sonra Azərbaycan neft zavodlarında tətbiq olunmuş və dövlətə xeyli mənfəət gətirmişdir. Bir neçə mükafatlarla təltif olunmuşdur.

Üçüncü təhsili Bakı şəhərində Ali Partiya Məktəbində almışdır.

1957-ci il iyulun 27-də qəflətən vəfat etmişdir və Kürdəxanı kəndində torpağa tapşırılmışdır.

# QULİYEV CƏLİL QULU OĞLU



Azərbaycan tibbinin inkişafında bir çox şəxsiyyətlərin əməyi olub. Bu mövzu geniş, sanballı olsa da, bir çox əsərlər həsr olunmuşdur. Bunun məqsədi təkcə o böyük şəxsiyyətləri sevindirmək və ya hörmətlə yad etmək deyil, qalan nəsli öz xalqı üçün çalışıb mənəvi şərait yaratmağa sövq etmək məqsədi daşıyır. Belə nadir şəxsiyyətlərdən biri olan dünya miqyasında yüksək müalicəvi əhəmiyyəti tam tanınmamış Naftalan neftini öz xalqına və dünya xalqlarına tanıtmaq məqsədi ildə həyatı boyu gecə-gündüz bilmədən Naftalan nefti ilə müalicənin yayılmasına çalışan əsil həkim Quliyev Cəlil haqqında öz xatirələrimi bölüşdürmək istərdim.

Quliyev Cəlil Qulu oğlu 1916-cı ildə Yevlax rayonunun Malbinəsi kəndində həyata göz açmışdır. 1941-ci ildə iyul ayının əvvəllərində Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun rus bölməsini bitirmişdir. Sonra 6 saylı Bakı şəhər ambulatoriyasına baş həkim təyin olunmuşdur.

Faşizmin sovetlər ölkəsinə təcavüzü ilə əlaqədar olaraq, 1941-ci il sentyabrın 9-da həmin institutun Kiçik dəniz

küçəsindəki binanın həyətində 100 nəfər əczaçı, 250 nəfər həkim hərbi xidmətə çağırıldığına görə, onlar sıraya düzülüb, hökumət tapşırıqlarını gözləyirdilər.

Ön sırada Quliyev Cəlil öz doğma qardaşı Cabbar ilə başqaları kimi hərbi komandirlərini dinləyirdilər. Yola düşməmişdən qabaq onlara qohumları, tələbə yoldaşları və müəllimləri ilə görüşmək məqsədi ilə bir saat vaxt verildi.

Bu təntənəyə çağırılmış tələbə-müəllim qrupu ilə hərə bir yanda görüşürdülər. Biz isə dəniz qırağında olan dondurma kafesində oturub vidalaşma mərasimi keçirirdik. Tələbələrdən biri Cabbara sual verdi:

– Niyə sən çiynində iki hərbi çanta ilə ön sırada durmuşdun?

O bir an dolğun dayanıb sonra udqundu və dedi:

– Cəlilin üç yaşı olanda biz anamızı və dörd yaşı olanda isə atamızı itirdik. Onlar dünyalarını dəyişdilər. Baxmayaraq mən ondan ancaq iki yaş fərqli idim, böyük qardaş kimi çanta ona ağırlıq etməsin deyə mən çiynimə aldım.

Bundan sonra kiminin nişanlısı, kiminin sevgilisi və ya qonşuları ilə görüşmək vaxtı çatdı. Nəfəsli orkestr ilə təntənəli surətdə biz onları Bakının dəmiryol vağzalına qədər yola saldıq. Onlar 1941-ci il sentyabrın 9-da cəbhəyə yola düşdülər. Bir müddətdən sonra həkim Quliyev Cəlil ağır xəstəliyə görə arxa hospitala, oradan da Bakıya qayıtdı. Hərbi qulluqdan xəstəliyi ilə azad olunandan sonra Azərbaycan rayonlarında həkim və rayon tibbi xidmətlərinin idarəedici vəzifələrində işləmiş, 1946-cı ildən etibarən Fizioterapiya və Kurortologiya Elmi-Tədqiqat İnstitutunda çalışmışdır.

Bir az keçmədən fizioterapiya və kurortologiya elm-

tədqiqat institutunda kurort klimatoloji şöbəsinə rəhbərlik işi ona tapşırıldı. Bu müddətdə həm İstisu, həm də Naftalan sanatoriyasına rəhbərlik etmişdir. Bu zamanlar Kəlbəcər, İstisu və Naftalan sanatoriyaları yalnız yay mövsümündə işləyirdilər. Çünki o zaman bu müalicəvi mənbələrdə yalnız ambulator müalicə qəbulu mümkün idi. Mərkəzi və yerli kurort sanatoriya və istirahət evləri idarəsinin əmri ilə 1949-cu il sentyabrın 1-dən Naftalan sanatoriyasına baş həkim təyin olunmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, sanatoriya iyun, iyul və avqust aylarında fəaliyyət göstərirdi. Bütün müalicə prosesi ondan ibarət idi ki, ancaq isti yay günlərində xəstələr günəşlə isidilmiş (yerdə qazılmış divarı sementlə örtülmüş) ümumi gölməçədə 10-15 dəqiqə Naftalan neftində oturub yüngül silindikdən sonra istirahət palatalarına daxil olurdular. Sonra intensiv tərləmə üçün, onlar odeallara bürünürdülər. On gün ambulator müalicə müddətində çimmək qadağan idi. Tibbi kadrlar professional yox, Bakı, Gəncə və respublikanın digər şəhərlərindən ancaq mövsüm müddətində işləyən həkimlər çağırılırdı. Naftalan sanatoriyası üç barak tibbi bərbad korpuslardan ibarət idi. Bu korpuslarda müvafiq sanitariya-gigiyenik mədəni-məişət şəraiti də yox idi. Kanalizasiya, qaz, su, işıq, istilik, köhnə işlənmiş çarpayılar müvəqqəti samanla doldurulmuş döşəklər, primitiv xarrat əli ilə düzəldilmiş masa, stul, tumbalar və s. müalicə prosedura kabinetindən ibarət idi, yeməkxanadan isə danışmağa dəyməz.

Xəstələrin istifadəsində olan yumşaq avadanlıq tamamilə naftalan nefti ilə mazutlanmış idi.

Beləliklə, hər il yumşaq inventarı dəyişmək, Naftalanı xəstənin bədənindən silmək və s. üçün hökumət tərəfindən xərclər lazım idi. Bu çatışmazlığı aradan qaldırmaq üçün kurortun daimi tibbi və elmi kadrlarının təşkilindən sonra daxili imkanların köməyi ilə köhnə binaların abadlaşdırılması, su, qaz və elektrik şəbəkələrini yaxşılaşdırılmaq lazım idi.

Çarpayıların sayının artırılması, ümumiyyətlə, bütün inventarın artırılması, yeməkxana, Naftalan müalicəsinin yeni elmi üsullarla aparılması üçün, Naftalan neftinin qəbulundan ötrü vanna otaqları tikilməsi, Naftalan neft texniki barakların sanatoriyasının profilinə uyğun qurğuların yeniləşdirilməsi, müalicə üçün Naftalan neft yataqlarının ixtisaslaşdırma, abadlaşdırma, yaşıllaşma istirahət üçün kurort sahəsində süni gölün tikilməsi müstəqil yardımçı təsərrüfatların təşkili (təzə meyvə, tərəvəz, toyuqçuluq) tələb olunurdu.

Kurortun itkilərdən azad edilib gəlirli kurorta çevrilməsi, yeni-yeni sanatoriya kompleksinin tikintisi ən lazımlı məsələlərdən idi. Bütün bu məsələlərin həyata keçirilməsi dövlət səviyyəli bir çox müəssisələrdən, nazirliklərdən asılı idi. Bundan əlavə, o vaxtkı ümumittifaq təşkilatının razılığı ilə böyük məbləğdə maddi təminat tələb edirdi.

O vaxtkı Naftalan kurortunun baş həkimi Cəlil Quliyevin dönə-dönə yuxarı təşkilatlara aydınlıq gətirən müraciətlərini xüsusi qeyd etmək lazımdır.

Qeyd etmək yerinə düşərdi ki, Naftalan sanatoriyasının vəziyyəti haqda yazılı və şifahi olaraq yorulmadan müraciətdən sonra Ümumittifaq Mərkəzi Həmkarlar Soveti Naftalan sanatoriyasını birinci dəfə maliyyələşdirirdi. Bu, Naftalan sanatoriyasının ilk intibahı idi. Onu da qeyd etmək lazımdır

ki, bu iş Azərbaycanın bəzi yerli müəssisələrinin xoşuna gəlmədi, çünki məsələ onların başı üstündən həll olunmuş idi. Ona görə də baş həkim Cəlil Quliyev bir xeyli müddət bəzi idarələrə cavab verməli oldu. Beləliklə, köhnə binaların təmiri, kurort sahəsinin abadlaşması, yaşıllaşdırılması, yardımçı ərzaq və tərəvəz təsərrüfatlarının yaradılma işi başlandı.

Azərbaycan SSR 1958-ci il fevralın 4-də Mərkəzi Komitənin və Nazirlər Şurasının "Respublika kurortlarının gələcək inkişafı haqqında" qərarından sonra, Naftalan kurortunun ikinci mərhələsinin inkişafı başlayır. Bir müddət keçəndən sonra 250 çarpayılıq 2 sanatoriya kompleksi, 150 çarpayılıq 3 pansionat, 50 kabinəli vanna binası, 200 nəfərlik qəbuldan ötrü poliklinika, klub, 500 nəfərlik o vaxtın restoran tipli istirahətçilər üçün yeməkxana. Sanballı elmi iş aparmaqdan ötrü dəyərli böyük klinik biokimya bakterioloji eksperimental laboratoriyaların binası tikilib lazımi aparatlarla təchiz olunur.

Beləliklə, Naftalan neftinin elmi əsaslarla tamamilə müalicə prosesi dəyişdirilmişdir. Onun təşkili ilə xəstələrin Naftalan vannası qəbul etdikdən sonra ürək, qan-damar sisteminin ağır təsirini yüngülləşdirmək məqsədi ilə xəstələrin bədənindən yapışqanlı Naftalan neftinin yuyulması təkliflərinə əlavə olaraq, mineral qələvi buruq sularının xəstənin asan yuyulmasından ötrü təklifi ilə fizoterapeftik institutunun elmi şurası tərəfindən yüksək təriflə təsdiq edilmişdir. Elmi konfranslarda çoxlu çıxışlardan əlavə, onun elmi məqalələri Azərbaycanda da, ondan kənar ölkələrdə də çap olunmuşdur. Hələ o zaman bəzi əsərlər rus və ingilis dilinə tərcümə edilmişdir.

Onun tibb elmləri namizədliyi dissertasiyasından bir sıra səmərəli təkliflər Naftalan kurortunun təcrübəli müalicə işində əsaslı yer tutmaqdan əlavə, respublikanın Naftalan nefti ilə işləyən başqa müalicəvi müəssisələrində də hazırda istifadə olunur.

1957-ci ildən başlayaraq kurort bütün xəstələrin tam rahatlığı ilə fəaliyyət göstərməyə başlayır.

Baş həkim Quliyev Cəlil mərkəzi ümumittifaq kurortlar şurasının fəxri fərmanı, Azərbaycan Həmkarlar İttifaqının Səhiyyə Nazirliyinin fərqlənmə nişanı ilə təltif olunmuşdur. 1966-cı il iyunun 20-də Azərbaycan SSR Ali Şurasının göstərişinə görə respublikanın əməkdar həkimi fəxri adına layiq görülmüşdür. O zamanlar o Azərbaycan Kurortlar Şurasının müavini kimi tibb şöbəsinə rəhbərlik edirdi. 1976-cı il yanvarın 1-də qəflətən vəfat etmişdir.

O həmişə deyirdi ki, hər həkim müalicəvi işindən əlavə öz xalqı üçün özündən sonra qalan bir iş görməyə borcludur.

# ƏLİYEV İSMAYIL ŞIXƏLİ OĞLU



Əliyev İsmayıl Şıxəli oğlu 1914-cü il avqustun 15-i Bakı şəhəri Kürdəxanı qəsəbəsində anadan olmuşdur.

1931-ci ildə Bakı şəhərinə oxumağa getmişdir. 1931-ci ildə həm işləyib, həm də oxumuşdur.

1938-ci ildə avtomobil üzrə institutu qurtarıb. 1938-ci ildən müəllim işləyib. 1939-cu ildən avtomobil məktəbinin müdiri işləyib. 1971-ci ilə kimi müdir vəzifəsində çalışıb.

1971-ci il noyabrın 24-də vəfat etmişdir.

# ƏLİZADƏ ŞADƏR MƏHƏMMƏD OĞLU



Əlizadə Şadər Məhəmməd oğlu Bakı şəhəri Kürdəxanı kəndində anadan olmuşdur. 1925-ci ildə kənd məktəbinə yazılmış, 4 il oxuduqdan sonra 1929-cu ildə şəhər yeddiillik məktəbə qəbul olunmuşdur. 1931-ci ildə oranı bitirdikdən sonra Azərbaycan Tibb İnstitutuna daxil olmuş, 1939-cu ildə oranı bitirmişdir.

Təyinatla Naxçıvan Muxtar Respublikasının Şahbuz rayon səhiyyə şöbəsində müdir işlədikdən sonra, 1939-1942-ci illərdə Laçın rayon xəstəxanasına baş həkim təyin edilmişdir.

1942-ci ildə ordu sıralarında həkim, 1943-44-cü illərdə 2-ci atıcı batalyonunun 41-ci diviziyasında (Uzaq Şərq) sanitar xidmət alayının rəisi olmuşdur.

1944-1945-ci illərdə Daxili İşlər Xalq Komissarlığının (NKVD) 22-ci diviziyasında həkim işləmişdir.

1945-1946-cı illərdə Noraşen (indiki Şərur Naxçıvan MSSR) rayon səhiyyə şöbəsinin müdiri, 1946-56-cı illərdə Naxçıvan MR-si vərəm xəstəxanasının baş həkimi olmuşdur. 1956-58-ci illərdə Ağdam rayon vərəm dispanserinin baş həkimi, 1959-1969-cu illərdə Bakı şəhər Buzovna qəsəbə-

sində 4 saylı vərəm xəstəxanasında şöbə müdiri işləmişdir.

Yeganə övladı Əlizadə Aydın Şadər oğlu atasının sənətini davam etdirir. Həkim cərrahdır. Kliniki Tibbi Mərkəzinin baş həkiminin müavini, ümumi xəstəxana heyəti cərrahi əməliyyat blokunun rəhbəridir.

## ƏMRAH BALA OĞLU ƏMRAHOV

Əmrah Bala oğlu Əmrahov 1923-cü ildə Kürdəxanı kəndində anadan olub. Kürdəxanı kənd məktəbinin birinci sinfində bir neçə ay oxuduqdan sonra göz həkimləri ona oxumağı qadağan ediblər. Beş il müalicə olunduqdan sonra 1936-cı ildə məktəbə gedib. 1944-cü ildə 9-cu sinfi bitirərək Azərbaycan Dövlət Universitetinin hazırlıq şöbəsinə daxil olub.

1945-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olub. Eyni zamanda «Azərbaycan pioneri» qəzeti redaksiyasında xüsusi müxbir işləyib. 1950-ci ildə universiteti müvəffəqiyyətlə bitirib və həyatını həmişəlik «Azərbaycan pioneri» qəzeti ilə bağlayıb. Əmrah müəllim ömrünün sonuna kimi, 38 il bu qəzetdə çalışıb. Ədəbi işçi, şöbə müdiri, məsul katib, nəhayət, qəzetin redaktoru. Onun sayəsində «Azərbaycan pioneri» o dövrdə nəinki məktəblilərin, hətta böyüklərin də ən sevimli qəzetinə çevrilib.

Əmrah Əmrahov ədəbi fəaliyyətə şeirlə başlayıb. İlk şeirləri 1938-ci ildə «Azərbaycan pioneri», «Abşeron kolxozçusu» qəzetlərində çap olunub. Sonra oçerk və hekayələri dövri mətbuatda dərc olunub. Bədii tərcümə ilə də məşğul olub. «Ürək Vətən üçün döyünəndə», «Ədəbi şöhrət», «0 illər unudulmur»,

«Zastavaya gedən yol», «Sənin həyatının qanunu», «Ulduzlar gecə parlar», «Ölməzlər», «Dağ bənövşəsi», «Gizli aləmlər», «Lalələr apreldə açır», «Tapılmış kitab», «Yaxşıların dünyası» kimi əsərlərində yazıçı-jurnalist illərlə ürəyində gəzdirdiyi, beynində yaşatdığı düşüncələri, vətənpərvərlik duyğularını oxucuya çatdırmağa çalışıb. Əmrah müəllim Azərbaycan LKGİ-nin bütün qurultaylarında komsomolun Mərkəzi Komitəsinin üzvü seçilib. 1960-cı ildən ömrünün sonuna kimi respublika pioneri MK-nın büro üzvü olub. Əmrah Əmrahov Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müxtəlif fərmanları ilə təltif olunub.

Əmrah Bala oğlu Əmrahov 1988-ci il noyabrın 18-də Bakıda vəfat edib.

## MUXTAROV NƏCƏFALI KƏRBƏLAYİ MUXTAR OĞLU



1906-cı ildə Kürdəxanı kəndində anadan olmuşdur. Təhsilini doğma kəndində almış, 1933-cü ildə ali məktəbi bitirmiş, 1934-cü ildə MK-nın təklifi ilə Naxçıvanın Şahbuz rayonunda 1-ci katib təyin edilmişdir. Müharibədən sonrakı illərdə «koj-qalanteriya»nın müdiri olmuş, 1960-cı ildə təqaüdə çıxmışdır. Nəcəfalı Muxtarov 2001-ci ildə vəfat etmişdir.

# RƏHİMOV İSMAYIL Kərbəlayi DADAŞ OĞLU



Rəhimov İsmayıl Dadaş oğlu 1915-ci il mayın 15-də Kürdəxanı kəndində dünyaya gəlmişdir.

Atası Kərbəlayi Dadaş Əbdülrəhim oğlu, anası Bilqeyis xanım olmuşdur. Çoxuşaqlı fəhlə ailəsindən çıxan İsmayıl orta məktəbi kənddə əla qiymətlərlə bitirdikdən sonra 1934-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəhlə fakültəsinə daxil olub. Oranı əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan SSR Nazirlər Sovetində nəqliyyat şöbəsinə təyin edilib. Böyük məsuliyyətlə, sevgiylə öz Vətəninə bir masanın arxasında 38 il xidmət edib.

Onun qəzələ, şerə böyük həvəsi var idi.

"Ulduz" jurnalında şeirləri çap olunardı.

Gözəl insan, hamıya diqqətlə yanaşan, mehriban 7 uşaq atası övladlarının hamısını boya-başa çatdırmış və oxutdurmuşdur.

Hazırda 13 nəvəsi, 5 nəticəsi var. Hər biri müxtəlif peşə sahibidir.

# KÜRDƏXANILILARDAN BİRİ – HƏYAT XƏTTİ

*Atamız Şahbazov Eyvaz Bədəl oğlu haqqında xatirələrimiz*


*Eyvaz Bədəl oğlu*

Biz atamızı zabitəli, tələbkar və hərdən tək-tək hallarda uşaq kimi kövrək və məsum xatırlayırıq.

Atam Eyvaz və anam Səlimə xanım iki ulu nəslin övladlarıdır. Hacı Şahbaz və Hacı Cabbar xalaoğlu və eyni zamanda bacanaq olublar. Hacı Şahbaz kəndin kəndxudası, Hacı Cabbar ölkəmizin sözü ötən hacılarından olmuşdur.

Atamın atası usta Bədəl Hacı Şahbazın nəvəsidir. O, Almaniyada neft-qazmada istifadə edilən maşın və mexanizmlərin təmir və istismarını mükəmməl öyrənmişdi.

1917-ci ildə (dövlət registrdə №9914, 22 iyun 1917) o, "Şahbazov və Ko" neft-qazması üzrə şəxsi kompaniyasını yaradıb. Usta Bədəlin kompaniyası neftxudaların sifarişi əsasında Abşeronun müxtəlif yerlərində neft quyusu qazma işləri aparırdı. Eyni zamanda o, böyük xeyriyyəçi olub.

Usta Bədəl kasıb və yetimlərə kömək edib. O, Kürdəxanı bağlarında olan məscidə məşhur xanəndə Qəmbər Zülalovu (onun qardaşı da xanəndə olub) dəfələrlə qəsidə

oxumağa gətirib. O, 1918-20-ci illərdə erməni-rus işğalçılarına qarşı mübarizəyə dəfələrlə maddi köməklik edib. Türk ordusu Bakıya gələndə onları qarşılayıb, şadyanalıqlar edib və yeni anadan olmuş kiçik oğlunun adını Atatürkün şərəfinə Kamal qoymuşdur.

Anamın atası Kərbəlayi Əlidost Hacı Cabbarın nəvəsidir. Qədimdə Abşeron yarımadasında – Bakı kəndlərində adət olub – hər ay bir kənddə hacılar yığılıb ölkədə olan hadisələri, kəndlərdə olan əyər-əskikləri müzakirə edər və onların həlli üçün bir qərar verib həll edərdilər. Növbəti yığıncaq Kürdəxanıda olanda Hacı Cabbar nədənsə xeyli yubanır. Yığılan hacılar səbirlə onu gözləyir, onsuz söhbətə başlamırlar. O vaxt hacıların ağ kürkü olub (indi dublyonka deyirlər). Hacı Cabbar gələndə əynindəki kürkü nimdaş olub. Qonşu kəndin hacısı (Hacı Cabbarı tanımayan) o gələndə tanımayıb narazı tərzdə deyib:

– Budu Hacı Cabbar?! Bayaqdan bunu gözləyirik?

Hacı Cabbar dinməyib. Məşvərət başlayıb. Sonda hər iş yoluna qoyulub. Hacılar evlərinə gediblər. Sabahı səhər tezdən Hacı Cabbar (atını çox sevərdi) atının xurcunlarını qızıl beşlik və onluqlarla doldurub gedir həmin hacının qapısına. Qapını döyür, hacını bayıra çağırır və deyir ki, ailəsini bayıra çıxarıb, evinə qiymət qoysun. Neçəyə desə, o qiymətə alıram. O kişi Hacı Cabbardan üzr istəyir, "səhvimi başa düşdüm" deyir.

Bu hadisə iki əsr qabaq olub, indi də qocaman kürdəxanılılar bunu misal kimi danışırlar. Hər paylayan şey qızıl olmaz, hər kişidə səbir olmaz, hər kişi səhvini boynuna alıb üzr istəməz!



*Kərbəlayı Əlidost*

Babamız Kərbəlayi Əlidost mülkədar-iqtisadiyyatçı olub. Torpaqlar və sürülər (hətta dəvə sürüləri) sahibi olan Kərbəlayi Əlidost öz babası Hacı Cabbarın şərəfinə Kürdəxanıda uca minarəli məscid tikdirmişdir. Məscidin hər ləvazimatı (Qurani-Kərim, ələmlər, xalçalar, ehsanat üçün qab-qacaq) Kərbəladan, İrandan müqəddəs yerləri ziyarət edərkən gətirilmişdi. Sovetlər 1937-ci ildə bu məscidi dağıtmış, əşyalar oğurlanmış, quranlar yandırılmışdı. Xalam Leyli xanım danışardı ki, "getdim dedim sökməyin, günahdır, sökdülər" (1921-ci ildə anadan olan xalamın 1937-ci ildə cəmi 16 yaşı vardı). Yalvardım ki, heç olmasa daşlarını Əli yolu edin. Kənd camaatı yığılıb məscidin daşlarından yol düzəltdilər.

Babamız Hacı Cabbarın evi bu yaxınlaradək uşaq bağçası kimi istifadə edilib. İndi isə atılıb. Hər iki nəsildən həmişə kənd üçün ürəyi yanan, xeyriyyəçilik edən adamlar olub. Kərbəlayi Əlidost babamız Müsavat partiyasının üzvü və iş adamı olub. 1937-ci ildə repressiyaya məruz qalıb. Anam danışardı ki, atamı tutub bir qədər həbsdə saxlayıb, sonra evə buraxıblar. Babamız Kərbəlayi Əlidostu İran əksinqilabçıları ilə əlaqədə günahlandırıblar, onu izləyiblər. O gəlib anamıza deyib ki, qızımı ZAQS-dan boşa, kəbininiz qalsın, çıxın

gedin Bakıdan – sizi də tutarlar. Sonra o, tələsik Kürdəxanıya gedib, qardaşlarını da başa salıb nə etsinlər ki, onları da tutmasınlar, sonra şəhər evinə qayıdıb. O daha oradan bayıra çıxmayıb, bir neçə gündən sonra qırmızı əsgərlər gəlib onu aparıblar. O, evdən çıxanda yeganə nəvəsi Bədəli dönə-dönə öpüb. Həyətdə ətrafa hey baxıb-baxıb, bir neçə qızılgül dərib iyləyib və əsgərə verib. Cavan əsgərin gözü yaşarıb və deyib ki, "Kərbəlayi, bizə halal et". Biz bir daha atamızı görmədik.

Xalamız Leyli xanım kimsəsiz qalıb, oxuyub və Tibb İnstitutuna daxil olub. Lakin onu xalq düşməninin qızı kimi institutdan xaric ediblər. Müharibəyə tibb bacısı kimi göndərilərkən əmisi Cabbar, xalamızın sənədləri guya itmişdir deyə təzədən sənəd düzəldərkən onun soyadını dəyişmişdir. Sonra xalam yenidən Tibb İnstitutuna daxil olub və əczaçı olub. Rəhmətlik doğmaları, tanışları, Kürdəxanı camaatı üçün tapılmayan dərmanları tapıb gətirərdi. Kürdəxanı bağları yenidən camaata qaytarılanda, xalam o bağlarda yol üstündə olan qədim quyunu öz vəsaiti ilə ehsanat üçün bərpa etdi.



*Leyli Kərbəlayı Əlidost qızı*

Babamız Kərbəlayi Əlidost repressiya olanda onun həyat

yoldaşı Mina xanım da həbs olundu. Onu 25 illik Qazaxıstan çöllərinə sürgünə göndərdilər.

8 il Astanada sürgündə o başını ağır zəhmətə qatıb staxanovçu adı qazanıb, onu əfv edib evə buraxıblar. Anam danışardı ki, həyətdə şəhər evində oturub nahar edirdik. Həyət qapısı açıldı və atam dedi ki, dur o qadına çörək və noxariş ver. Qadına baxdım, ayaqlarım tutuldu – anam idi. Tanımalısı qalmamışdı. Mina xanım nənəmiz az danışar, "özünüzdən muğayat olun" tapşırardı. Həmişə namaz qılanda Allaha yalvarardı ki, məni qışda öldürmə, məni basdıranda qəbir üstə cavanlara soyuq olar…"

Ata nənəm Səlimə xanımın atası Kərbəlayi Cəlil idi. Onun Pirşağıda barkasları, vətəgəsi olub. Kərbəlayi Cəlilin dənizdə tapdığı böyük qaya daşı indi də "Cəlil daşı" deyə tanınır, vətəgə isə bu yaxınlarda tamam söküldü. Nənəmiz Səlimə xanım ötkəm, tələbkar, dindar, həmişə xalq məsəlləri ilə sözünü tamamlayan xanım idi. "Mənim ixtiyar vaxtımdır" (yaşını nəzərdə tutardı). "Əzizim əzizdir, tərbiyəsi canından əzizdir", "Biqeyrət yaşamaqdansa, qeyrətlə ölmək yaxşıdır" – məsəlləri onun sevimli atalar sözü idi.

Atamız Şahbazov Eyvaz Bədəl oğlu 1914-cü il martın 21-də anadan olub. Atası xozeyin usta Bədəli erkən itirib. Anası Səlimə xanım 28 yaşında 3 azyaşlı oğlanları ilə tək qalıb. Təbii ki, bu ev xanımı ərindən qalan mülk və mədənləri inqilab vaxtı itirib. Atam ağlıkəsən vaxtından 14-15 yaşında Donbasa kömür mədənlərinə işləməyə könüllü gedib. Ailəni dolandırmaq lazım idi. Bir müddət orada işləyib, anasının təkidi ilə geriyə – Bakıya dönüb. O, 1928-ci ildə N.Nərimanov adına texnikuma daxil olub. 1932-ci ildə tex-

nikumu bitirib, dağ-mədən ixtisası üzrə texnik adı alıb.

1932-38-ci illərdə Bakı şəhəri Azneftin elektro-kəşfiyyat müəssisəsində texnik işləyib. 1938-ci ildə kommunist olaraq repressiya edilmiş qayınatasının məsləhəti ilə həyat yoldaşını rəsmi boşasa da, ailəsini götürüb Türkmənistanın Nəbitdağ şəhərinə köçür və 1943-cü ilədək sex rəisi vəzifəsində çalışır. Orada çalışarkən dəfələrlə rəhbərliyə cəbhəyə getmək üçün ərizə ilə müraciət edib. Onun işlədiyi sahə çox vacib olduğu üçün onu cəbhəyə yox, Oktava limanına cəbhə evakuasiya punktuna rəis təyin etmişdilər. Çünki o vaxt belə təşkilatçılıq qabiliyyətinə malik insanlar çox lazım idi.

1943-1945-ci ildə Bakı şəhəri Suraxanı elektrokəşfiyyat müəssisəsində Azərbaycan KP Mərkəzi Komitəsinin partiya katibi təyin edilmişdir.

1945-1946-cı illərdə o, Bakı şəhəri Orconikidze rayon komitəsində kadrlar üzrə katib vəzifəsində çalışıb.

1941-1945-ci qanlı-qadalı illərdə onu həmişə məsuliyyətli vəzifələrə təyin ediblər. Onun əməyi o dərəcədə vacib və böyük olmuşdur ki, cəbhədə olmadığı halda o, SSRİ Ali Soveti tərəfindən "Qafqazın müdafiəsinə görə" (№ 015371, 11 yanvar 1945-ci il) və "Böyük Vətən müharibəsində əmək fəaliyyətinə görə" medalları ilə təltif edilmişdir.

1946-1948-ci illərdə E.B.Şahbazov Bakı şəhəri neft hasilatı müəssisəsinin müdiri vəzifəsində çalışıb. 1948-50-ci illərdə Azneft geofizika bazasının rəisi vəzifəsində, 1953-1955-ci illərdə Neftçala şəhəri geoloji-kəşfiyyat partiyasının rəisi, 1955-1957-ci illərdə Bakı şəhəri Rabitə

Nazirliyinin avtonəqliyyat kontorunun rəisi, 1957-ci ildən isə təqaüdə çıxanadək Bakı Baş Tikinti İdarəsinin 2 nömrəli avtobazasının müdiri işləyib. 1956-cı ildə o, SSRİ-nin "Rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşdur.

Müharibə illərində tikinti işləri heçə endirilmişdi, indi bu sahə son dərəcə vacib sayılırdı. Atamız bu sahədə də son dərəcə tələbkar və gözəl təşkilatçı olmuşdur. Bakının elə rayonu yoxdur ki, onun orada fəaliyyəti olmasın. Həyatının ən qızğın çağlarını 2 saylı Avtobazada işləyərkən keçirmişdir. O, gənclər üçün yaxın dost və məsləhətçi olub, savadlanmaqda kömək edib. Sonralar onun yetirmələri bir çox məsuliyyətli vəzifələrdə işləyiblər. Atamızın yanına daim həbsdən çıxan adamlar gələrdi. O öz idarəsində ən zəhmətkeş və qabaqcıl adamların yanına həbsdən çıxanları işə götürərdi. Hamı onu Şahbazov və ya Eyvaz dayı çağırardı. Rəhmətlik gülərdi: "Mənim heç bacım olmayıb, amma gör nə qədər bacım oğlu var!"

Atamız savada, mütaliəyə çox qiymət verərdi. Onun şəxsi kitabxanasında 5 mindən artıq kitab vardı. Bu kitabxanada hər sahəyə aid – tibb, hüquq, klassik ədəbiyyat və çoxsaylı qədim kitablar var idi. Şahbazov öz kitablarını şəxsi möhürü ilə möhürləyib qeydiyyatını aparardı. Ona məxsus qədim "Qurani-Kərim"i isə görkəmli alimlər Vasim Məmmədəliyev və akademik Ziya Bünyadov Quranı tərcümə edəndə Vasim müəllimə bağışlamışdı.

Atamız doğma Azərbaycan dili kimi ərəb, fars və rus dillərini də mükəmməl bilirdi. O, Bakıda yazıçıların ədəbi yığıncaqlarına gedərdi. Bu yığıncaqların birində dahi yazıçımız Hüseyn Cavidə bir "bolşevik" yazıçısı müraciət

edir ki, "sən niyə sosializmi tərənnüm etmirsən?". Hüseyn Cavid cavab verir: "Nə yazım? Nöyütlü şalban, mən sənə qurban". Səhərisi günü onu həbs edirlər.

Atamız musiqini, ələlxüsus, muğamı çox sevərdi. Özü tarda, udda çalar, muğamı mükəmməl oxuyardı. Xanəndələrlə dostluq edər, onları evimizə qonaq çağırar, muğam axşamları təşkil edərdi.

Atamız təbiəti çox sevən insan idi. Azərbaycanın elə bir dilbər guşəsi yoxdu ki, o orada olmasın.

O, ovçuluğu sevərdi. Azərbaycan Ovçular Cəmiyyəti İttifaqının (1954-cü il, QD №150) üzvü, sonralar sədr müavini olmuşdu.

Onun təbiətə olan sevgisi Kürdəxanıdakı həyət bağında da hiss olunurdu. Burada növbənöv nadir meyvə ağacları və gül-çiçək əkmişdi. Bunları o müxtəlif bölgələrdən gətirər, dost-tanışlarına göstərər, hətta poçtla başqa respublikalardan sifariş edərdi. Bağında istixanada peyvənd yolu ilə 800-1000 q limon yetişdirmişdi, arı pətəyi saxlayırdı.

O, idmanı çox sevərdi, gənclikdə gimnastika ilə məşğul olmuşdu. Futbolun böyük azarkeşi idi – həmişə abonement alırdı. Neftçi komandasının bir çox üzvləri ilə şəxsən tanış idi.

Atamız səliqəli və zövqlə geyinməyi xoşlar, gözəlliyi hər şeydə qiymətləndirərdi. O, məişətdə bütün texniki yenilikləri izləyib, əldə edərdi. Hətta 1957-ci ildə televiziya translyasiyası başlayanda o televizor aldı. Köhnə həyətimizdə ("Olimp" mağazasının arxası) yaşayardıq. Axşamlar o televizoru həyətə çıxarardı. Bütün həyət sakinləri 20-30 adam (böyüklü-kiçikli) onun ətrafına yığılıb baxardı.

Valideynlərimiz çox qonaqpərvər idilər. Gözümüzü

açandan evimizi qonaq ilə dolu görmüşük. Onların içində məşhur yazıçılar, musiqiçilər, alimlər olub. Onlar öz əsərlərini müəllif imzası ilə atamıza hədiyyə edərdilər (kitablar, vallar, şəkillər).

Anamızın adı da nənəmizin adı kimi Səlimə xanım idi. Mənası eyibsiz, nöqsansız, doğru, dürüst deməkdir. Anam Kərbəlayi Əlidostun böyük qızı idi. Atama anası bu qızı almağı məsləhət görəndə, o deyib ki, görməsəm, xoşuma gəlməsə evlənmərəm. Anamın şəklini ona göstərirlər. Onlar evlənəndə atamızın 19 yaşı var idi. Anamız isə ondan bir az gənc idi.

Anamız evdar xanım idi. O çox gözəl, mavi gözlü, ağ bənizli, gur saçlı idi. Çox mülayim, səbirli, qonaqpərvər, əliaçıq idi. O, ailəsini fədakarcasına sevən insan idi. Demək olar ki, valideynlərimizin xasiyyətləri tam əks təzadlı idi. Atam səbirsiz,  anam təmkinli idi. Anam, sözün əsil mənasında, ziyalı Azərbaycan qadını idi. Bu ziyalı adama tərbiyə və mühit verir – diplom, savad başqa anlamdır. Hər bir uğurlu kişinin arxasında bir fədakar qadın durduğu kimi, anam da atamızın arxa-dayağı idi. Anamız biz uşaqlara qarşı çox yumşaq,atamız isə tələbkar idi. Hətta o, oğlanları yuxarı siniflərdə oxuyarkən onları zavoda işləməyə göndərdi. Eyni zamanda onlar məktəbi bitirib, ali məktəbə daxil oldular. Hər üçümüz alisavadlı olsaq da, atamız bu yolda bizə heç vaxt “kömək” etməmişdir. Anamız fikir edirdi ki, uşaqlara çətindir. Atamız isə qoy boş vaxtları qalmasın və zəhmətə erkən alışsınlar deyərdi. Anamız çox dadlı xörək bişirərdi. Anamız gəlin gələndə əmilərim Ağazaman və Kamal hələ

uşaq olub və onları böyütməyə anamız nənəmizə çox kömək edib. Əmilərimiz anamızı “bacı” deyə çağırardı. Ata-anasının repressiya olunması anamıza çox pis təsir etmişdi. Atam 1938-ci ildə anamla Türkmənistana gedəndə, o yeganə bacısından da ayrı düşmüşdü. Vətəndən uzaq, qohum-əqrəbadan uzaq yaşamaq çətindir. 1943-cü ildə valideynlərimiz, atamızı partiya işinə təyin edildiyinə görə, Bakıya qayıdıblar. Sonralar da atam harada işləyibsə, anam onunla olub. İndi biz özümüz yaşa dolub, valideyn olandan sonra dərk edirik ki, onların taleyinə nə çətin keşməkeşli illər, hadisələr düşüb. Onlar bu çətinliklərdən mərd və ləyaqətlə çıxıblar. Biz fəxr edirik ki, Səlimə xanımın və Eyvaz bəyin övladlarıyıq.

Biz fəxr edirik ki, əsl-nəslimiz Kürdəxanı kəndindəndir, çünki Kürdəxanı kəndinin igid oğlu Məşhədi Adil Paşa 1918-20-ci illərdə Bakının 32 kəndinin mərd igidlərini başına yığa bilib və qardaş Türk orduları köməyə gələnə qədər erməni-rus işğalçılarının qarşısını kəsə biliblər! Vətən əldən getməyib.

***Şahbazova Böyükxanım Eyvaz qızı***
***Şahbazov Hüseyn Eyvaz oğlu***

# HÜSEYNOV KƏLBHÜSEYN ƏLİHÜSEYN OĞLU



Hüseynov Kəlbhüseyn Əlihüseyn oğlu 1902-ci ildə Kürdəxanı kəndində dünyaya göz açmışdır.

1918-ci ildə atası vəfat etmişdir. Əmək fəaliyyətinə 14 yaşından başlamışdır. 1916-cı ildən neft mədənlərində Balaxanıda, Bibiheybətdə və Binəqədidə çalışmışdır. 1924-cü ildən 1926-cı ilə kimi iki il qırmızı ordunun Azərbaycan diviziyasının birinci atıcı polkunda xidmət göstərmişdir.

1926-cı ildən Binəqədi rayonunda sənaye şöbəsində işə qəbul olunmuşdur. 1931-ci ildən 1937-ci ilə kimi müxtəlif vəzifələr tutmuşdur. 1927-ci ildən şəxsən Mircəfər Bağırovun təyinatı ilə Azərittifaqa direktor müavini təyin edilir. 1954-62-ci illər, 8 il Azərittifaqın direktoru olmuşdur.

1962-ci il mayın 29-da xəstəliyi ilə əlaqədar öz istəyi ilə işdən azad edilmişdir. 1965-ci ildə vəfat etmişdir.

1944-cü ildə "Əməkdə fərqlənməyə görə" medalı, 1945-ci ildə "Rəşadətli əmək" medalı, 1945-ci ildə "Qafqazın müdafiəsində, qırmızı ordunu yaxşı təmin etməyə görə əmək medalı" ilə mükafatlandırılıb.

1937-ci ildə Azəpittifaqın direktoru olan Cəbrayılzadəni nazir vəzifəsinə təyin edəndə M.Bağırov ona öz yerinə bacarıqlı bir adam təyin etməyi təklif edir.

Cəbrayılzadə öz yaxın dostu, həm də müavini olan Kəlbhüseynin bu vəzifənin öhdəsindən gələ bilməsini M.Bağırova bildirir. 1937-ci ilə kimi Kəlbşüseyn Əlihüseyn oğlu bu sahədə Azərittifaqda direktor vəzifəsində fəaliyyət göstərir.

O çox xeyirxah şəxs olub.

Hər hansı çətin vəziyyətdən çıxmağı və həm də başqalarını çətin vəziyyətdən çıxarmağı bacaran adam olub. Onun yanına həm yaxın, həm də ona yad olan adamlar kömək üçün xahişə gələrmişlər. O fərq qoymazmış, kim olur olsun, deməli, sayıb gəlib kömək etmək lazımdır, deyib. Kəlbhüseyn kişi sözünün ağası olub, bir kəlmə söz iki olmazmış. Onun sözünü yerə salan olmayıb. Yaşadığı dövr ərzində Kürdəxanı kəndində, kimsənin özünü pis aparmasının qarşısı onun tərəfindən vaxtında alınmış və tənbeh edilmişdir. Kəlbhüseyn kişi haram tikə yeməmişdir, o halal insan, əsilli-köklü bir ailədən çıxmışdır.

Onun haqqında çox deyilir, yaxşı mənada.

Bir gün Kəlbhüseynin yanına bir nəfər ticarət işçisi, Göyçay rayonundan hədiyyə gətirir. İcazə alıb içəri girir və deyir:

– Kəbleyi, bizim rayonun mağaza müdirləri sənə hədiyyə göndəriblər.

Kəlbhüseyn deyir:

– Bax gör soyuducuda yer varsa, qoy.

Kişi elə başa düşür ki, Göyçaydan ət və yağ-pendir göndəriblər.

Hədiyyə gətirən şəxs deyir:

– Kəbleyi, hədiyyə  soyuducuya qoyulası deyil, həm də böyükdür.

Kəlbhüseyn:

– Gətir görüm nədir?

Hədiyyə gətirən bağlamanı açanda çoxlu miqdarda pul görünür. Kəbleyi pulu görən kimi deyir:

– Götür bunları çıx bayıra.

Həmin şəxs bağlamanı götürüb pərt halda bayıra çıxır.

Bir neçə dəqiqədən sonra Kəlbhüseyn qonağı yanına çağırtdırır və deyir:

– Gedirsiniz Maştağa kəndində filankəsi tapırsınız, onun iştirakı ilə pulu kassaya köçürüb çekini mənə gətirirsiniz.

Elə də edirlər, 500 min rubl pulu Azərittifaqın hesabına köçürüb, bir nəfəri ağır həbs cəzasından xilas edirlər. Yəqin ki, bu iş hər adamın əlindən gəlməz, bu işi Kəlbhüseyn kimi şəxsiyyət görə bilər.

Kəlbhüseynin dostu çox olub, o hörməti pulla qazanmayıb, insani qabiliyyəti ilə qazanıb. Onun dostlarından xanəndələr (muğam ustadları) Mütəllim, Zülfü, Yaqub həmişə evinin qonağı olublar. Özü də muğamı yaxşı bilib.

Yaşadığı dövrdə Kürdəxanı toylarında, ustad xanəndələrin apardığı bütün toylarda yaxından iştirak etmişdir. Onun ən yaxın dostları, elə demək olar ki, muğam həvəskarları və biliciləri idi. Onlardan Məşhədi Hüseynağa, Məşhədi Məzahir və başqalarının adını çəkmək olar.

## QULİYEV NƏCƏF KƏRBƏLAYİ ƏJDƏR OĞLU



Əslən kürdəxanılıdır, 1923-cü ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, müharibə illərində (1941-1945) N. saylı hərbi sursat istehsal edən zavodda əmək fəaliyyətinə başlamışdır.

1947-ci ildə Azərbaycan Neft Sənayesi İnstitutunu bitirmişdir.

1949-cu ildən Quliyev Nəcəf Bakı Elektrik avtomatları zavodunda mühəndislikdən sex rəisinə qədər yüksəlmişdir.

1961-ci ildən Bakı elektrik avtomatları zavoduna müdir vəzifəsinə təyin edilmişdir.

1963-cü ildə Bakıda yeni Bakı elektrik ştampları zavodu yaradılmışdır və həmin zavodun ilk direktoru Quliyev Nəcəf olmuşdur. Bu vəzifədə o, 12 il çalışmışdır.

1976-cı ildə Bakı metalplastmas zavoduna müdir təyin edilmişdir.

1977-ci ildən ömrünün sonunadək Yerli Sənaye Nazirliyinin xüsusi konstruktor bürosunda rəis vəzifəsində çalışmışdır.

Məhsuldar əmək fəaliyyəti dövründə Quliyev Nəcəf bir sıra orden və medallarla təltif olunmuşdur:

“ Qafqazın müdafiəsi uğrunda” medalı; “Şərəf nişanı”; “Rəşadətli əmək naminə”; “Əmək bayrağı ordeni”; “Əmək veteranı” medalı; SSRİ xalq təsərrüfatının inkişafı uğrunda nailiyyətlərinə görə gümüş medalı.

Fərdi təqaüdçü olub.

1987-ci ildə vəfat edib.

## QULİYEV MƏMMƏDAĞA NƏCƏF OĞLU



1948-ci ildə Bakı şəhərində anadan olmuşdur. Əslən kürdəxanılıdır.

Orta məktəbi bitirdikdən sonra 1967-ci ildə Azərbaycan Neft Sənayesi İnstitutuna daxil olub. 1972-ci ildə ali məktəbi müvəffəqiyyətlə bitirmişdir.

Əmək fəaliyyətinə Ümumittifaq Elmi-Tədqiqat Maşınqayırma İnstitutunda elmi işçi kimi başlamışdır.

Səksəninci illərdə Azərbaycan Yerli Sənaye Nazirliyinin metallurgiya zavoduna müdir təyin edilmişdir.

1986-cı ildən ömrünün sonunadək Bakı zərgərlik zavodunda rəhbər vəzifələrdə işləmişdir.

1997-ci ildə vəfat etmişdir.

# MƏMMƏDOV MƏMMƏDRZA ƏLİPƏNAH OĞLU (1903-1977)



Məmmədov Məmmədrza Əlipənah oğlu 1903-cü ildə Bakı şəhəri Kürdəxanı kəndində anadan olmuşdur. Gənc yaşlarından valideynlərini itirən Məmmədrza 1916-cı ildən Sabunçu rayon neft mədənlərində fəhlə işləməyə başlamışdır. Bu illərdə o, neftçilərlə birlikdə inqilabi fəaliyyətə başlamışdır. Neftçilərin sosial vəziyyətinin və onların iş şəraitinin yaxşılaşdırılması tələbləri ilə dəfələrlə Sabunçu və Binəqədi neft mədənlərinin fəhlələri ilə tətillərin təşkilində iştirak etmişdir.

1917-1918-ci illərdə Kürdəxanı kəndi ətrafında erməni-daşnak qüvvələri ilə aparılan döyüşlər zamanı döyüş mövqelərində olan yerli döyüşçülərə ərzaq və sursat daşımaqla köməklik göstərmişdir. M.Məmmədov ilk əlifba savadını Sabunçu neft mədəni nəzdində fəhlə məktəbində almışdır.

1920-ci ildə yeni qurulmuş Azərbaycan Sovet Respublikasında gənc kadrların idarəçiliyə cəlb edilməsi tələbi gənc Məmmədrzaya diqqəti artırmış olar. 1923-cü ildə M.Məmmədov komsomol sıralarına qəbul olunur. Bir ildən

sonra – 1924-cü ildə o, bolşevik partiyasının üzvü olur.

1926-1928-ci illərdə sovet partiya məktəbində təhsil aldıqdan sonra Bakı şəhər Partiya Komitəsində təlimatçı vəzifəsində işləmişdir. O, 1930-cu ildə Moskva şəhərində yerləşən Həmkarlar İttifaqı Ali Məktəbində təhsil almağa göndərilmişdir. Ali məktəbi 1934-cü ildə bitirdikdən sonra 1936-cı ilədək Məmmədrza Məmmədov Neftçilər İttifaqının Mərkəzi Komitəsində baş təbliğatçı vəzifəsində çalışmışdır.

1936-1937-ci illərdə Azərbaycan KP Mərkəzi Komitəsi yanında təbliğatçılar məktəbinin kursantı olmuş və sonradan Naxçıvan MSSR KP MK-nin birinci katibi vəzifəsində işləmişdir. Bu vəzifədə o, 1940-cı ilədək işləmişdir. Bu dövrdə o, Naxçıvan KP VK-nin bürosunun və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin üzvü olmuşdur.

1940-cı ildə Torpaq Komissarlığı nəzdində yaradılmış AzGosSortFond-un sədri vəzifəsinə təyin edilmişdir.

1941-ci ildə sovet qoşunları İrana yeridildikdən sonra Cənubi Azərbaycan iqtisadiyyatının qurulması məqsədilə yaradılmış "İranbalıq" Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilmiş və bu vəzifədə 1944-cü ilədək işləmişdir. Bu illərdə o daha çox İran Azərbaycanında yerli yeyinti sənaye müəssisələrinin yaradılması və inkişafı proqramını həyata keçirmişdir.

1944-cü ildə sovet ordusu Cənubi Azərbaycanı tərk etdikdən və milli hökumətin süqutundan sonra "İranbalıq" konserni ləğv edildikdən sonra 1944-1947-ci illərdə SSRİ Yeyinti Sənayesi Nazirliyinin Bakı şəhərində Baş Təchizat İdarəsinin sədri vəzifəsində çalışmışdır.

1947-1956-cı illərdə Azərittifaqda müxtəlif rəhbər və-

zifələrdə çalışmışdır. Bu dövrlərdə o, Bakı üzrə ticarət-iaşə kombinatı "Orbit"in rəisi, sonradan isə Xaçmaz və Sabirabad rayonlararası bazaların müdiri, "Göygöl" restoranının direktoru, Kirovneft ORS-in direktoru vəzifələrində çalışmışdır. 1957-ci ildə Məmmədrza Məmmədov Ural vilayətindəki "Krasnoufimskiy Lespromxoz" trestinin direktoru vəzifəsinə təyin olunmuş və bu vəzifədə 1960-cı ilədək işləmişdir.

1960-1962-ci illərdə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin "Glavselsnab" Trestinin anbar təsərrüfatı üzrə direktoru vəzifəsində işləmişdir. Təqaüdə getməmişdən əvvəl 1966-cı ildə son iş yerlərindən biri də Bakı Elektromexanik zavodunun (BEMZ) istehsalat şöbəsinin rəisi və sonra dispetçer vəzifəsində işləmişdir. Təqaüd dövründə Məmmədrza Məmmədov yaşadığı Kirov rayonu Xalq Deputatları Sovetinin və gənc nəslin tərbiyəsi işində aktiv fəaliyyətdə olmuşdur. Onun Bakı şəhəri, respublika və SSRİ-nin müxtəlif regionlarında keçirilmiş çoxsaylı qurultay, konfrans və forumlarda iştirakı ona saysız tanışlıq və yaxın dostlar bəxş etmişdir.

Müxtəlif dövrlərdə Məmmədrza Məmmədovun Azərbaycanın tanınmış şəxsləri ilə də dostluq münasibətləri olmuşdur. Onlardan respublikanın xalq artistləri Mirzağa Əliyev, Nəsibə Zeynalova, dahi sənətkar Əlağa Ağayev və başqalarını da göstərmək olar. "Göygöl" restoranının müdiri işlədiyi dövrdə poeziya və şeir vurğunu olan M.Məmmədov dahi qəzəlxan Əliağa Vahidlə tanış olur. Ağır maddi vəziyyət dövrü keçirən qəzəlxan Məmmədrzanın daim diqqət mərkəzində olmuş və onun tərəfindən böyük ustada layiqli hörmət göstərilmişdir. Tanınmış tarixçi, Azərbaycan et-

nogenezi sahəsində görkəmli alim Əlisöhbət Sumbatzadə Məmmədrza Məmmədovun doğma bibisi nəvəsidir.

Məmmədrza Məmmədovun 1920-ci ildə İzzət xanım Mürvət qızı ilə qurduğu ailədən 3 oğlu (Əliməmməd, Əhməd və Məsim) və 3 qızı (Humay, Firuzə və Sona) dünyaya gəlmişlər. Ömrünün son illərini ailə diqqəti və nəvələri (8 nəvəsi) ilə əhatə olunmuş Məmmədrza Kirov rayon Partiya Komitəsi yanında Partiya Veteranları Şurasında da fəaliyyətini davam etdirmişdir. Bütün ömrünü aktiv ictimai əmək fəaliyyətində olan Məmmədrza həyatını başqa cür təsəvvür edə bilmirdi.

Məmmədov Məmmədrza Əlipənah oğlu 1977-ci ildə vəfat etmişdir.

## DADAŞOV BALAQULU BƏGİ OĞLU



Dadaşov Balaqulu Bəgi oğlu 1935-ci il noyabrın 9-da Bakı şəhərinin Kürdəxanı qəsəbəsində fəhlə ailəsində anadan olub.

Atası Dadaşov Bəgi Dadaşbala oğlu 1898-ci ildə anadan olub, 1965-ci ildə vəfat edib.

Anası Ziba Balaqulu qızı 1905-ci ildə anadan olub, 1973-cü ildə vəfat edib.

Dadaşov Balaqulu 1946-

cı ildə Bakı şəhəri Binəqədi rayonundakı 182 nömrəli orta məktəbə daxil olub. 1956-cı ildə həmin məktəbi bitirib. 1957-ci ildə Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olub. 1963-cü ildə isə həmin institutu bitirib.

1957-ci ildə Bakı Elektrik Maşınqayırma zavoduna çilingər şagirdi kimi qəbul olunub. 1957-ci ildə üçüncü dərəcəli çilingər vəzifəsinə, 1959-cu ildə isə dördüncü dərəcəni alıb.

1962-ci ildə isə həmin zavodun 10 nömrəli sexin ustası təyin olunub. 1963-cü ilin mart ayında Elektroştamp zavoduna sex ustası göndərilib. 1963-cü ilin aprelində sex rəisi 1965-ci ildə isə DEİŞ-in rəisi, 1970-ci ildə isə PİŞ rəisi, 1972-ci ildə baş mühəndis, 1978-ci ildə həmin zavodun direktoru vəzifəsinə təyin olunub.

1963-cü ildə partiya sıralarına daxil olub.

1958-ci ildə ailə həyatı qurub, üç övlad atasıdır.

1978-ci ildə Bakı Leytenant Şmidt adına zavoda (indiki Səttarxan adına) direktor vəzifəsinə təyin olunub. 1989-cu ildən Bakı "Tərəqqi" kiçik mebel müəssisəsində baş direktor vəzifəsində çalışıb.

# MƏZAHİR KƏRBƏLAYİ MƏLİK OĞLU



Məzahir Kərbəlayi Məlik oğlu 1929-cu ildə Bakının Kürdəxanı kəndində dünyaya gəlmişdir.

Orta təhsilini Kürdəxanıdakı 113№-li orta məktəbdə almışdır.

Ali məktəbdə ədəbiyyatçı kimi formalaşmış və ali məktəbi bitirdikdən sonra Kürdəxanı 113№-li orta məktəbində Ədəbiyyat və Azərbaycan dili müəllimi işləmişdir. O, bütün ömrünü doğma kəndi Kürdəxanıda müəllimliyə sərf etmişdir.

İctimai işlərdə, /tədbirlərdə/ kəndin xeyrində-şərində yaxından iştirak edib, özköməyini əsirgəməmişdir.

Kəndin ən hörmətli ziyalılarından olmuşdur.

1999-cu ildə dünyasını dəyişmişdir. Allah ona rəhmət eləsin.

## O YENİDƏN DOĞULSAYDI

*Ayıra bilmişmi görən bir nəfər,*
*Həqiqi dünyadan körpə dünyanı.*
*Qayıda bilsəydi əgər gedənlər,*
*Dərk edən olardı bəlkə dünyanı.*



Həyatda məqsədi, niyyəti olmayan adam qaranlıqda yolunu azmış yolçuya bənzər, hara getdiyini bilməz. Məqsədi insanı yaşadar, onu şan-şöhrətə çatdırar. Eynilə Həsənbala Möhüb oğlu kimi.

1927-ci ildə soyuq yanvar ayının 10-da neftçi Möhüb kişinin ailəsində bir oğlan uşağı dünyaya gəldi. Möhüb kişi Bakının neft sənayesində mexanik-qazmaçı işləyirdi. Oğlunu da özü kimi namuslu zəhmətkeş görmək istəyirdi. Anası Umcahan Qulam qızı evdar qadın olub, balalarının təlim-tərbiyəsi ilə məşğul idi. Lakin tanrı Həsənbalaya ana məhəbbətini çox görür. 1932-ci ildə Həsənbala anasını həmişəlik itirdi. Zaman Həsənbala üçün çətin gəlmişdi. Orta məktəbi 1941-ci ildə qurtaranda Böyük Vətən müharibəsi başlayır. Kəndin əksər kişiləri müharibəyə gedir. Qocalar, qadınlar acından ölməmək üçün min bir zəhmətə qatlaşırdılar. Ürəyində bitməz-tükənməz arzular qaynayan Həsənbala iki yol ayrıcında qalır. Kənddə qa-

lıb ailəyə kömək etmək, ya da ali təhsil. O, birincini seçir. Sənət öyrənmək üçün 1943-1945-ci ildə Zabrat 1 nömrəli peşə məktəbinin "usta qazmaçı" sənətinə yiyələnir. Eyni zamanda ailəsinə kömək məqsədilə balıqçılıq sənayesində fəhlə işləyirdi.

Deyirlər, dama-dama göl olar. 1945-ci il onun üçün müvəffəqiyyət ili olur. Həm amansız müharibə qurtarır, həm də neft-kimya texnikumuna daxil olur.

Müharibədən çıxmış ölkəyə çoxlu savadlı kadrlar lazım idi. "Hər şey ana vətən üçün" devizinə qoşulan Həsənbala 1952-ci ildə texnikumu bitirdikdən sonra təhsilini artırmaq üçün ali məktəbə daxil oldu. İnstitutda həm seçdiyi ixtisasın sirlərini öyrənir, həm də neft avadanlıqları hazırlayan maşınqayırma zavodunda (o zaman S.M.Kirovun adını daşıyırdı) müxtəlif vəzifələrdə işləyirdi.

Acı, qanlı-qadalı günlər arxada qalmışdı. Yaxşı deyiblər ki, şöhrətin meyarı əməkdir. Əmək insanı ucaldır, el-oba içində başını uca edir. Bir insan əməyi sevməsə, zəhmətə qatlaşmasa arzusuna çata bilməz. Odur ki, Həsənbala da axtarışlarını davam etdirirdi. İllər uzunu böyük zehni əmək sayəsində o, xalqın, kəndinin dərin zəkalı simalarından biri oldu.

1963-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası yanında "Neft qazma qurğularının dərin laylarda, özəklərdə işinin daha da təkmilləşdirilməsi" mövzusunda aspiranturaya qəbul olundu. Onun arzuladıgı gün gəlib çatmışdı. Dissertasiyanı yazarkən o sanki elmin zirvələrinə qalxırdı.

İlk tədqiqatlar, yuxusuz gecələr öz bəhrəsini verdi. Nəhayət, 1970-ci ildə elmi şura onun dissertasiyasını təsdiq elədi. Gənc mühəndis "Texnika elmləri namizədi" adına layiq görüldü. Bu elmi əsər neft-qazma sənayesində sanki

bir sıçrayış oldu. Bütün bunlar yeni texniki layihələrin, səmərələşdirici təkliflərin yaranmasına səbəb oldu.

O, çox tələbkar adam idi. Belə adamların məqsədi mənalı yaşamaq, həyatda nişanə qoymaqdır. Neft-maşınqayırma zavodunda baş konstruktor vəzifəsində çalışan Həsənbalanın işgüzarlığı zavodun hüdudlarından qat-qat kənara çıxmışdı. Dəfələrlə xarici ölkələrdə, keçmiş SSRİ-nin tanınmış şəhərlərində olmuş, elmi konfranslarda Azərbaycanı təmsil etmişdi. Ürəyi zəhmətdən su içən bu insan “Əmək igidliyinə görə” medalı, digər mükafatlar ilə qiymətləndirilmişdi. Hazırda onun ixtiraları nəinki yerli, həmçinin bir çox xarici dövlətlərin neft-qazçıxarma sənayesində uğurla tətbiq olunur.

Deyirlər quş uçmaq, insan ucalmaq üçün yaşayır. Bu doğrudan da belədir. O, Kürdəxanı qəsəbəsi icra başçısı olanda bunun bir daha şahidi oldu. İnsanlarla ünsiyyət tapmaq, onların ürəyinə yol tapmaq asan deyildi. O, ağıllı, tədbirli və bacarıqlı təsərrüfat başçısı idi. Sanki bir təbib kimi, kəndin illərlə yığılmış dərdlərini müalicə edirdi. O, az bir müddət ərzində kəndin yollarına asfalt örtüyü çəkdirir, kanalizasiya xəttinin inşasına xitam verir, evdar qadınların çalışması üçün köhnə məktəb binasını tikiş fabrikinə çevirir. İşıq dirəkləri təzələnir, “ev kitabçaları” yeniləşdirilir, kəndin içməli su problemini həll edir, kənd təsərrüfatını qaydaya salır. Hamının vəziyyəti ilə maraqlanıb müşkül məsələləri həll edirdi.

Daima insanların məhəbbəti, hörməti onu ruhlandırdı. Doğma kəndini işıqlı gələcəyə aparmaq üçün daha əlavə vasitələr axtarırdı. Lakin ölüm onu qəfil yaxaladı. Axır nəfəsində o, bu sözləri deyə bilmişdi: “Əgər yenidən doğulsaydım”.

## BİTMƏMİŞ ÖMÜR

*Həyatdan getsəm də xatiratdayam,*
*Arzuma həmişə çathaçatdayam.*
*Üstümə nə qədər torpaq atılsa,*
*İşığam, yenə mən ən üst qatdayam.*



Mənalı keçən ömür ürəklərdə isti yuva qurur. Həyatda yaxşı ad qoyur. Onu hamı, böyükdən kiçiyə qədər Kiçikxanım müəllimə deyib çağırardı.

Əliyeva Kiçikxanım Mirzəməsi qızı 1932-ci il avqustun 15-də Bakı şəhərinin Kürdəxanı kəndində dünyaya göz açmışdı. Kürdəxanı Xəzər dənizinin qırağında yerləşib, üzüm, əncir, şəfaverici qızıl qumu, duzu ilə zəngin kənddir. Kəndin əhalisinin demək olar ki, əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu. Lakin içərilərində elmə, təhsilə maraq göstərənlər az deyildi. Ailənin ağsaqqalı Məşhədi Cavad kişi XX əsrin əvvəlində sayılan ziyalılarından idi. Kiçikxanım müəllimə babası haqqında həmişə fəxrlə danışardı. Onun Firdovsi, Sədi Şirazi, Nizamidən çoxlu qəsidə söylədiyini deyərdi. Savadın əvəzedilməz xəzinə olduğunu bilən Cavad kişi övladlarını ali təhsillə savadlandırmışdı. Böyük

oğlu Mirzəməsi elektrik mühəndisi, kiçik oğlu Mehdi isə həkim peşəsinə yiyələnmişdi. Qız balası Qəmər xanım isə orta təhsilli idi. Kəndin bir çox üzvləri, o cümlədən Cavad kişinin ailə üzvlərindən çoxusu o dövrün repressiya qurbanına çevrilmişdi. Çox sevdiyi, hörmət bəslədiyi əmisi Mehdi də. Zamanın ağırlığı ailənin qürurunu sındırmamışdı. Cavad kişi Mirzəməsinin ilk övladı Kiçikxanıma baba qayğısı göstərmiş və qələm tutmağı, yazıb-oxumağı öyrətmişdi.

Müharibə (1941-1945) başlayanda o kənd məktəbinin üçüncü sinfində oxuyurdu. Fenomenal yaddaşa, səlis danışıq qabiliyyətinə malik olan Kiçikxanımı çətin günlər sarsıtmır, onu daha da həvəslə oxumağa ruhlandırırdı. Fitri istedad və elmə sonsuz marağı onu yoldaşlarından xeyli fərqləndirirdi.

İllər ötdükcə onun da arzuları özü kimi böyüyürdü. Müəllim peşəsi onun həyat amalına çevrilir. 1949-cu ildə məktəbi fərqlənmə attestatı ilə qurtarıb APİ-nin tətbiqi riyaziyyat fakültəsində əyani şöbəsinə daxil oldu. Lakin doğma kənd çətin müharibə illərinin caynağından hələ də qurtulmamışdı. Məktəbin o zamankı rəhbəri Fəttah müəllimin xahişi, Maarif Nazirliyinin əmri ilə institutunun birinci kurs tələbəsi Kiçikxanım fizika-riyaziyyat müəllimi kimi işə dəvət olundu.

Ürəyində vətənə, doğma kəndinə böyük məhəbbət bəsləyən Kiçikxanım hər bir çətinliyə baxmadan özünü bütünlüklə sevdiyi işə həsr edir. Dərin həyatı müşahidə qabiliyyətinə malik olan müəllimə daim öz üzərində çalışırdı. Savadlı kadrlar yetişdirmək üçün var qüvvəsini sərf edirdi. Buna görə də o, ali məktəbi qiyabi qurtarmaq məcburiyyətində qalır.

O, müəllim kimi körpə ürəklərdə isti yuva qururdu. Ki-

çikxanım müəllimi nəinki Kürdəxanıda, hətta ətraf kəndlərdə də tanıyırdılar. Yüksək şüurlu və vicdanlı vətəndaşlar tərbiyə etməkdə, onlarda yaşamağa doğru və cəmiyyətin ideallarına uyğun, sağlam şüura əsaslanan, mənəvi tələbat oyatmaqda və istiqamətləndirməkdə böyük rol oynayırdı.

Kənd müəlliminin ən böyük əsəri onun şagirdləri idi. Onun şagirdlərinin içində akademik Vasim Məmmədəliyev, əməkdar artist, tarzən Vamiq Məmmədəliyev, Milli Qəhrəman İlqar Quliyev və onlarla, yüzlərlə müəllimlər, həkimlər və başqa peşə sahibləri var. Çəkdiyi zəhmət hədər getmədi. O, hökumət tərəfindən "Qabaqcıl maarif işçisi" mükafatı ilə təltif olunmuşdu.

Yüksək həyat eşqi, qurub-yaratmaqla çırpınan bu müqəddəs insan peşəsindən doymamışdı. Ömrünün ən qaynar çağında 45-ci baharında bronxial asma xəstəliyinə düçar oldu. Artıq əmək fəaliyyətini davam etdirə bilmədi. Lakin ona yenə də müraciət edir, ondan məsləhət alırdılar.

Bitməz-tükənməz arzular müəlliməni ruhdan salmırdı. O, yenə də bildiyini, savadını ali məktəblərdə artırmaq istəyən uşaqlardan əsirgəmədi. Millətin və yurdunu maarifləndirmiş bu insan hər yerdə, həmişə yetirmələri ilə fəxr eləyir, onlar haqqında xoş söhbətlər edərdi. Kiçikxanım müəlliməni kənd sevir və hörmət eləyirdi.

Heyhat, gəlimli-gedimli dünya. Qayıdışsız gedişin, əbədi həsrətin – ölümün insan çöhrəsinə qonmuş qaramat əksi onu doğma ocaqdan, əzizlərindən həmişəlik ayırdı.

2007-ci il dekabrın 20-də bu nurani çöhrəli qocaman müəllimə əbədiyyətə qovuşdu.

## ƏLİYEVA ROZA ƏHMƏD QIZI



Əliyeva Roza Əhməd qızı 1939-cu il iyunun 17-də Bakı şəhərində fəhlə ailəsində anadan olub. 18 nömrəli orta məktəbi bitirdikdən sonra, təhsilini davam etdirərək kitabxanaçı ixtisasına yiyələnib.

1960-cı ildə Azkitabda, 1965-ci ilə Bakı elektrastart zavodunda kitabxanaçı işləyib. 1968-ci ildə Kürdəxanı qəsəbəsinə gəlin köçüb.

1971-ci ildə Kürdəxanı qəsəbəsində rus dili müəlliməsi vəzifəsinə işə qəbul olunub.

İşlədiyi dövrdə Kürdəxanı sakinlərinin çoxunun rus dili bilməsində böyük zəhməti olub. İşlədiyi kollektivdə və qəsəbədə böyük hörmət qazanıb. Bütün tədbirlərdə fəal iştirak edib. Çox işgüzar, ailəsini sevən olub.

1989-cu ildə müəllimə işlədiyi dövrdə "Əmək veteranı" medalı ilə təltif olunub.

1994-cü ildə öz xahişi ilə təqaüdə çıxıb. Müəllimliyə ehtiyac olduğuna görə yenidən öz iş yerinə qaytarılıb.

2003-cü il fevralın 27-də vəfat edib.

## YUSİFZADƏ QƏZƏNFƏR PAŞABƏY OĞLU



Yusifzadə Qəzənfər Paşabəy oğlu 1894-cü il martın 18-də Bakı şəhərinin Kürdəxanı kəndində anadan olmuşdur. Atası sahibkar olmuşdur. Rus-tatar məktəbini bitirdikdən sonra 1922-ci ildə Ali hərbi məktəbə daxil olub, oranı bitirmişdir. 1938-ci ildə Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş və 1943-cü ildə oranı bitirmişdir. Elə həmin ildə Kirov adına Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olmuş, ancaq ailə vəziyyəti ilə əlaqədar olaraq təhsilini başa çatdıra bilməmişdir. Hərbi təhsili və leytenant polk komendantı hərbi rütbəsi olduğuna görə Bakı şəhərinin KME-də (Kolxozçunun Mərkəzi Evi) hərbi müəllim işləmişdir.

Sonralar müxtəlif vaxtlarda rus dili və ədəbiyyat müəllimi vəzifəsində Lerikdə, Tovuzda, Bakı şəhərinin Oktyabr rayonunun 14 saylı məktəbində, Azərbaycan Dövlət Konservatoriyasında, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda, Xəzər dənizçiləri orta məktəbində işləmişdir. 1959-cu ildən 1969-cu ilə kimi Odessa Hərbi Dəniz Donanması İnstitutunun Bakı filialının axşam fakültəsində rus dili müəllimi vəzifəsində çalışmışdır. 1969-cu ildən təqaü-

də getmişdir. 1931-ci ildə mayın 18-də Oktyabr inqilabının ildönümü münasibətilə fəxri fərmanla, “Qızıl əmək nişanı” ordeni ilə təltif olunmuşdur. Üç övlad atasıdır.

Oğlu Yusifzadə Tofiq SSRİ DTK-nın ali məktəbinin hüquq fakültəsinin dosenti işləmiş, ehtiyatda olan polkovnik olmuşdur.

Digər oğlu Yusifzadə Elmar texniki elmlər namizədi, sonuncu vəzifəsi Kosmik Tədqiqatlar İnstitutunun laboratoriya rəhbəri işlədikdən sonra təqaüdə çıxmışdır.

Qızı Yusifzadə Laura tibb elmləri namizədi, Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasının assistentidir.

Qəzənfər bəy 1979-cu il oktyabrın 18-də dünyasını dəyişmişdir.

## YUSİFZADƏ AYDIN SƏTTAR BƏY OĞLU



Yusifzadə Aydın Səttar bəy oğlu 1931-ci ildə Bakının Kürdəxanı kəndində ziyalı ailəsində doğulmuşdur.

Onun atası Səttar bəy Kürdəxanıda ilk orta məktəb tikdirmiş və ömrünün sonunadək burada direktor vəzifəsində çalışmışdır. Anası Səkinə xanım dənizçi ailəsində doğulmuşdur. Aydın da həyatda ilk addım atanda babası Hacı Musarzanı və dayıları

İbrahimi və Rəsulu yaraşıqlı dənizçi geyimində görmüşdür. Elə həmin vaxtdan onun uşaq qəlbində dənizçi olmaq, gəmilərdə uzaq sahillərə üzmək istəyi həkk olmuşdur. O da babası və dayıları kimi kapitan olmağı qərara almışdı.

O vaxt Bakıda Dəniz Donanması Nazirliyinin "Yunqa" dənizçilik məktəbi fəaliyyət göstərirdi. O, 1945-ci ildə həmin məktəbə daxil oldu. 1948-ci ildə məktəbi bitirən Aydın birinci dərəcəli matros vəsiqəsini alır və həmin il "Bakı dəniz yolları məktəbi"nə daxil olur. 1952-ci ildə Aydın məktəbi leytenant rütbəsi ilə bitirib "Qırmızı bayraqlı Xəzər" hərbi donanmasında xidmətə başlamışdır.

1955-ci ildə komandir vəzifəsinədək yüksələn Aydın donanmadan tərxis olunur. Xəzər dənizçiliyinə gəlir və "Kalinin" tankerində kapitan köməkçisi vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

Aydın 1960-cı ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutuna daxil olur. Ali məktəbdə oxuduğu dövrdə donanmanın hərəkəti və daşıma xidmətində növbətçi dispetçer, sonra isə xidmətin xaricə üzmə şöbəsində çalışır. Ona Dəniz Donanması Nazirliyinin ən yaxşı dənizçilik dispetçeri adı verilmişdir. 1968-ci ildə Aydın polkovnik rütbəsinə yüksəlmişdir.

1971-ci ildə Aydın Xəzərdə, Qara dənizdə, Aralıq dənizində səfərlərə çıxmışdır. 1975-ci ildə gəmiçiliyin rəhbərliyi ona yeni inşa edilmiş "Aşıq Ələsgər" teploxodunu qəbul etməyi təklif etmişdir və Aydın böyük sevinc hissi ilə təklifi qəbul edərək özünün ilk müstəqil gəmisini Yuqoslaviya Respublikasından gətirmək üçün ora yollanır. Gəminin inşasına rəhbərlik məqsədilə 2 il Yuqoslaviyada qalır

və 1977-ci ildə gəminin inşası bitdikdən sonra onu doğma Xəzərə gətirmişdir.

O öz peşəsini sevmiş və daim işinə məsuliyyətli olduğuna görə Kaspar tərəfindən fərqlənmələrlə təltif olunmuşdur. 1970-ci ildə "Leninin 100 illik yubileyi" medalına, 1978, 1979 və 1980-ci illərdə "Sosialist əmək yarışmasının qalibi" medalına layiq görülmüşdür.

2002-ci il iyul ayının 27-də Bakı şəhərində vəfat etmişdir.

## ƏHMƏDOV ƏLİƏKBƏR NEMƏT OĞLU



Əhmədov Əliəkbər Nemət oğlu 1931-ci il fevralın 5-də Bakı şəhərinin Kürdəxanı kəndində anadan olub.

1948-ci ildə Kürdəxanı kəndində orta məktəbi bitirib.

1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olub.

1950-1954-cü illərdə Tiflis şəhərində artilleriya hərbi məktəbinə daxil olub və bitirib.

1954-cü ildə evlənib. Yoldaşı Əhmədova Suğra Hüseyn qızıdır.

1956-cı ildən 1958-ci ilədək Rumıniyada yerləşən sovet qoşunlar qrupunda qulluq edib.

1958-ci ildən Ukraynada müxtəlif vəzifələrdə hərbi xidmətini davam etdirmişdir.

1967-ci ildə Leninqrad şəhərində Jukovskaya adına Akademiyada oxuyub.

1978-ci ilədək Vinnitsa şəhərində raket alayının qərargah rəisi vəzifəsində qulluq edib və həmin vəzifədən ehtiyata buraxılıb. Sovet ordusunun müxtəlif medal və fərmanlarıyla təltif olunub. Rütbəsi mayordur.

2000-ci ildə rəhmətə gedib. Bakı şəhəri Kürdəxanı kəndində dəfn edilib.

## ƏHMƏDOV RAFİQ ƏLİƏKBƏR OĞLU



Rafiq Əliəkbər oğlu 1957-ci il yanvarın 16-da Rumıniyada, Fokşanı şəhərində anadan olub. 1974-cü ildə Vinnitsa şəhərinin 12 nömrəli orta məktəbini bitirib.

1976-1978-ci illərdə sovet ordusunda həqiqi hərbi xidmətdə olub.

1979-cu ildə Vinnitsa Politexnik İnstitutuna daxil olub.

1981-1990-cı ilədək Bakı Elektrik maşınqayırma zavodunda alətçi-çilingər vəzifəsində çalışıb.

1990-cı ilin dekabr ayından müddətsiz hərbi xidmətə çağırılıb. Rabitə briqadasında xidmət edib.

1992-ci ildən Milli Orduda rabitəçi kimi öz xidmətini davam etdirib.

2002-ci ildə xəstəliklə əlaqədar ordu sıralarından istefaya buraxılıb. İki qızı var. 2008-ci ildə vəfat edib.

## DƏMİRBƏYOV DƏMİRBƏY İSMAYIL OĞLU



Dəmirbəyov Dəmirbəy İsmayıl oğlu 1954-cü il avqustun 29-da Bakının Kürdəxanı qəsəbəsində doğulmuşdur. 1971-ci ildə məktəbi bitirib, 1973-cü ildə Novqorod şəhərində hərbi xidmətini layiqincə yerinə yetirib. 1975-ci ildə tərifnamə ilə vətəninə geri dönüb. Bu tərifnamənin əsasında həmin il Tallin şəhərində milis məktəbinə daxil olur. Təhsilini bitirdikdən sonra Pskov şəhərində işə başlayır. İşə başladığı ilk gündən əldə etdiyi nailiyyətlər nəticəsində tez bir zamanda leytenant rütbəsinə layiq

görülüb. Tapşırılmış əməliyyatı yerinə yetirərkən ciddi xəstəliyə tutulmuşdur. Vətənində müalicə olmaq istəyilə geri dönüb. Müalicə olunduğuna baxmayaraq həmin il fevralın 29-da vəfat etmişdir.

## RZAYEV HACIQƏDİR GÜLMİRZƏ OĞLU



Rzayev Hacıqədir Gülmirzə oğlu 1955-ci il martın 29-da, Bakının Kürdəxanı kəndində fəhlə ailəsində anadan olub. 1972-ci ildə 113 nömrəli Kürdəxanı kənd orta məktəbini bitirib. 1976-cı ildə Ziya Bünyadov adına Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsinin gecə şöbəsinə daxil olub və eyni zamanda Bakelektroştamp zavodunda işləyib. 1981-ci ildə institutu bitirdikdən sonra, DİN-də işə qəbul olunub. 1981-86-cı ilə qədər Bakı dəmiryol milis idarəsində çalışıb.

1984-cü ildə ailə qurub, iki övladı var. 1986-91-ci illərdə Şirvan dəmiryol stansiyasında baş əməliyyat müvəkkili vəzifəsində çalışıb. 1989-91-ci illərdə Rusiyanın Volqoqrad şəhərində Milis Akademiyasının qiyabi şöbəsində

təhsil alıb. 1991-ci ildə Bakı Şəhər Polis İdarəsində cinayət axtarış şöbəsində şöbə rəis müavini, baş əməliyyat müvəkkili vəzifəsinə təyin olunub. Qarşısına qoyulan bütün tapşırıqların öhdəsindən gəldiyinə görə, öz peşəsinin bacarıqlı mütəxəssisi olduğu üçün, dəfələrlə SSRİ DİN, Azərbaycan Respublikası DİN, Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən mükafatlandırılmışdır. 1993-cü ildə mayor rütbəsi almışdır.

Hacıqədir yüksək insani keyfiyyətə, səmimi davranışa görə rəhbərlik, kollektiv, dost və tanışlar arasında böyük hörmət və ehtiram qazanmışdır. Bu gün də Hacıqədir Gülmirzə oğlunun adı böyük hörmətlə yad edilir.

1996-cı il martın 20-də vəfat etmişdir.

Allah rəhmət eləsin!

## AĞAVERDİYEV HÜSEYNBALA AĞAVERDİ OĞLU



Ağaverdiyev Hüseynbala Ağaverdi oğlu 1888-ci ildə Bakının Kürdəxanı kəndində anadan olmuş, 1938-ci ildə vəfat etmişdir. 1917-ci ilin mayından Sov. İKP-nin üzvü. 1917-ci ilin əvvəllərində fəhlə hərəkatına qoşulmuş, Binəqədidə fəhlələr arasında inqilabi iş aparmışdır. Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra Binəqədi rayon İnqilab Komitəsinin tərkibinə daxil olmuşdur.

1922-26-cı illərdən respublika Mədən Fəhlələri Həmkarlar İttifaqı Mərkəzi İdarə Heyətinin sədrinin müavini olmuş, 1926-cı ildə AKP-nin Mərkəzi Komitəsinin katibi seçilmişdir. 1927-29-cu illərdə Azərbaycan SSR XTŞ-nin sədri, 1929-34-cü illərdən Azneft Birliyi rəisinin müavini işləmişdir. 1935-ci ildən Azərbaycan SSR XKS sədrinin müavini, eyni zamanda xalq yerli sənaye komissarı vəzifəsində çalışmışdır. Azərbaycan SSR, ZSFSR və SSRİ-nin bir çox Sovetlər qurultaylarında nümayəndəsi olmuşdur. Azərbaycan SSR ZSFSR və SSRİ, UİK(b)R Zaqafqaziya ölkə komitəsinin üzvü olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.

Kürdəxanı qəsəbəsində 113 saylı orta məktəb və mərkəzi küçələrindən birinə onun adı verilmişdir.

H.Ağaverdiyev 1933-cü ildən Azneftdə çalışarkən ABŞ-a göndərilmiş və neft sənayesində böyük təcrübə qazanmışdır.

**Hacı Casim Əlisöhbət oğlu**

## ƏFSANƏVİ «NARKOM HÜSEYNBALA»

Hüseynbala Ağaverdiyev haqqında yaşlı nəslin nümayəndələrindən dəfələrlə eşitmişəm. Zabratdan Kürdəxanının mərkəzinə qədər olan ikitərəfli avtomobil yolunu otuzuncu illərdə «Narkom Hüseynbala» çəkdirmişdir. Yonulma daşlardan düzülmüş bu avtomobil yolu, yaxın keçmişdə kənd əhalisi tərəfindən «mostavoy yol» adlandırılırdı.

Kəndin mərkəzində gözəl memarlıq üslubu ilə tikilmiş orta məktəb binası da, onun xeyirxah əməllərindən nişanədir. Kürdəxanıdan şimal-şərqdə yerləşən Ləş bağlarının kəndə yaxın olan hissəsində, «Hüseynbala bağı» kimi tanınan, kənd sakinlərinin yaddaşında bir əfsanə kimi qalan bu bağ ona məxsus olub. 30-cu illərdə o, özünün «Ford» markalı avtomobili ilə kəndin şərq tərəfindən (yay vaxtı suyu quruyub çəkilmiş Kürdəxanı şorunun



qırağı ilə) bağına gəlib-gedərdi. Bu avtomobili ona, ABŞ-da səfərdə olarkən, yüksək dərəcəli neft mütəxəssisi olduğuna görə Amerikanın neft şirkəti bağışlamışdır.

O dövrdə «Ford» markalı minik avtomobili Azərbaycanda ancaq Hüseynbala Ağaverdiyevdə olub. Deyilənə görə o zaman Azərbaycan rəhbərliyi «M-1» markalı minik avtomobilindən istifadə edərdi. Ona görə də ölkə rəhbərliyi Hüseynbala Ağaverdiyevlə ədavət apararmış. Məhz həmin ədavətin nəticəsi olaraq Hüseynbala Ağaverdiyev 1937-ci il repressiyasının qurbanı olmuşdur.

## KÜRDƏXANI NEFTÇİLƏRİ

Qədim zamanlarda Bakı və Abşeronda torpaq və su üzərindən qalxan əbədi alovlar insanları heyrətə gətirib. Buna ilahi bir qüvvənin yaratdığı möcüzə kimi baxıblar. Yerdən çıxan bu qara yanar mayeyə «yer yağı» deyiblər. Makedoniyalı İsgəndərin əsgərləri Xəzər sahillərində yaşayan əhalinin «yer yağı»ndan çıraqlara tökərək yandırdığını görüb, bu barədə öz sərkərdələrinə məlumat veriblər. İsgəndərin göstərişilə Bakıdan aparılan qara rəngli maye onun yürüşləri zamanı çıraqlarda yandırılıb.

Neft tarix boyu Azərbaycanın «yanar möcüzəsi», qiymətli təbii sərvəti sayılıb. Tanrı sanki Abşeron camaatının zəhmətsevərliyini nəzərə alıb torpağın altını «qara qızıl» xəzinəsinə çevirib. Əsrlər boyu bu diyarın sakinləri yer altından qiymətli nemətin çıxarılması zəhmətinə qatlaşıb, dünyanın min bir peşəsindən ən ağırı olan neftçi peşəsinə kamilliklə yiyələnib. 1871-ci ildə Balaxanıda sənaye üsulu ilə dərinliyi 42 metrə çatan neft quyusunun qazılması və güclü fontan dünya neft sənayesi tarixində elmi-texniki tərəqqinin əsasını qoyub. 1877-78-ci illər Bakı nefti tarixində fontanlar dövrü idi. Xüsusilə bu dövrdə

Bakı kəndlərinin, xüsusilə Kürdəxanı kəndinin camaatı bir parça çörək pulu qazanmaq üçün neft mədənlərinə axışıb. Bəziləri başını aşağı salıb gecə-gündüz çalışıb, yalnız öz gün-güzəranını fikirləşib. Dövrün siyasi hadisələrindən geri qalmayıb mübarizə meydanına atılanlar, neft sahəsində mütəxəssis kimi yetişənlər də olub. Onlardan biri Azərbaycanın siyasi həyatında və neft sənayesi tarixində dərin iz qoymuş Hüseynbala Ağaverdi oğlu Ağaverdiyevdir.

Ağaverdi kişinin dörd övladı vardı: Hüseynbala, Soltan, Tutu və Rzaqulu. Hüseynbala ailənin ilki idi. O, 1888-ci ildə Kürdəxanı kəndində anadan olub. 1901-ci ildə atasının vəfatından sonra ailənin vəziyyəti ağırlaşıb. Kürdəxanı kənd ibtidai məktəbini bitirən Hüseynbala təhsilini davam etdirə bilməyib. Ailəni dolandırmaq vəzifəsi onun üzərinə düşüb.

Balaxanıda alman sahibkarı Ridelin neft mədənlərində fəhləliyə başlayıb.

13 yaşından taleyini neftə bağlayan Hüseynbala ömrünün sonuna kimi peşəsinə sadiq qalıb. 23 yaşında «Usta Hüseynbala» kimi məşhurlaşıb. Ağaverdiyev öz zəhməti, savadı, bacarığı sayəsində fəhləlikdən məsul vəzifələrə qədər yüksəlib. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri, «Azərneft» Birliyinin rəis müavini, 1935-ci ildən isə Xalq Komissarları Soveti sədrinin müavini və eyni zamanda Xalq Yerli Sənaye komissarı vəzifəsində işləyib. Hüseynbala Ağaverdiyev Gəncə və Şəkidə elektrik stansiyalarının tikintisi məsələləri üzrə hökumət komissiyasına rəhbərlik edib. Onun təşəbbüsü ilə «Azərneft» Birliyinin nəzdində turbin qazmasının tətbiqi ilə əlaqədar yaradılan xüsusi komissiya Kalelyuşnikovun qazma maşınının Bakı mədənlərində mənimsənilməsinə nail olub. Hələ quruda kifayət qədər neft çıxarılsa da, o, Pirallahı adasının yaxınlığında və Neft daşları sahəsində dənizdə qazma

işləri aparmaq üçün pontanlar yaradılması planını hazırlayıb. Əgər 37-ci il gəlməsəydi, Azərbaycanda artıq 30-cu illərdə üzən qazma qurğuları olacaqdı. Neft sənayesinin qabaqcıl metodları ilə tanış olmaq üçün 1933-cü ildə neft sənayesi üzrə təcrübə mübadiləsi aparmaq məqsədilə ABŞ-a gedən Sovet nümayəndə heyətinə rəhbərlik edən Hüseynbala Ağaverdiyev neft sənayesinin inkişafındakı xidmətlərinə görə Lenin ordeni və digər medallarla təltif olunub. 1934-cü ildə Zaqafqaziya partiya təşkilatlarının VII qurultayında ÜİK (b) Zaqafqaziya Ölkə Komitəsinə, 1935-ci ildə isə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinə üzv seçilib.

Lakin 37-ci ilin ölüm və cəza maşını onu da unutmadı. Bütün bu xidmətlərinin son mükafatı olaraq Vətənini, xalqını böyük məhəbbətlə sevən Hüseynbala Ağaverdiyev 1937-ci il iyulun 17-də «Azərbaycan neft sənayesində əksinqilabi Trotski-Zinovyevçi təşkilatın fəaliyyətində iştirak etməkdə» ittiham olunaraq 766 nömrəli orderə əsasən həbsə alınıb. Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılan materiallardan məlum olur ki, onun barəsində 12493 nömrəli istintaq işi açılıb. 1937-ci ilin sentyabrında isə ittihamnamə hazırlanıb. İttihamnamədə qeyd olunur ki, Hüseynbala Ağaverdiyevin həbsindən bir gün əvvəl onun Qubanov 63 ünvanda (Neftçilər prospekti 103) yerləşən evində axtarış aparılıb. Axtarış zamanı onun evindən aşağıdakı əksinqilabi kitablar tapılıb:

1. Trotskinin əsərləri - III, V, XII cildlər.
2. Buxarin. «Çin inqilabının problemləri»
3. Oktyabr inqilabının dərsləri haqqında.
4. Partiyaların iqtisadi, siyasi mövqeyi.

1937-ci il iyulun 31-də Ağaverdiyevin ilk istintaqı olub. Dindirməni NKVD-nin əməkdaşı leytenant Qvozdev aparıb. Qvozdev onu Kirovun qətlinin təşkilində iştirak etməkdə günahlandırıb. 1295 nömrəli məhbus belə bir ittihamnaməni

rədd edib, heç bir əksinqilabi təşkilatın üzvü olmadığını bildirib. Dindirmələr, üzləşdirmələr, işgəncələr oktyabr ayına qədər davam edib. Azərbaycanın bir sıra tanınmış ziyalıları ağır, ağlagəlməz işgəncələrə dözməyərək üzləşdirmələr zamanı yalan ifadə verərək, onun əksinqilabi fəaliyyətinin «şahidi» olduqlarını «etiraf» ediblər. Oktyabrın 12-də Hərbi Kollegiya onun işinə yekun vurub. Cinayətlərini sübut edən heç bir əsaslı dəlil tapılmasa da, 15 dəqiqəlik məhkəmə onu ən ağır cəzaya - ölümə məhkum edib. Hüseynbala Ağaverdiyev 1938-ci ilin axırında 50 yaşında «üçlüyün» qərarı ilə güllələnib. Nə yaxşı ki, onun anası Hənəbacının, həyat yoldaşı Xədicə xanımın, dörd qızının - Sara, Törə, Lətifə və Şükufənin, qardaşları - Soltan və Rzaqulunun, dayısı Kəblə Niyazın oğlu Nazaralının, xalası oğlu Allahyarın faciəli taleyindən xəbəri olmadı.

Hüseynbalanın həbsindən sonra onların şəhərdəki evləri müsadirə olunub. Ailə Kürdəxanıdakı ata-baba bağından küçəyə atılıb. Qohum-əqraba, süfrələrinin yuxarı başında oturanlar, Hüseynbalanın çörəyini yeyənlər qorxularından onlara yaxın düşməyib, salam belə verməyə qorxublar. Hətta Hüseynbalanın qaynı Musa kişi də evsiz-eşiksiz qalmış bacısı uşaqlarını öz bağında yerləşdirməyə qorxub. Çox əzab-əziyyətdən sonra rəsmi icazə alan Musa kişi onları öz bağına aparıb. Yalnız payızda Mirzə Fətəli küçəsi 96 nömrəli binanın on kvadrat metrlik mətbəxində yaşamağa onlara icazə verilib.

1938-ci ilin sentyabrında yaşadıqları evin qabağında qara rəngli «M-1» markalı maşın dayanıb. Hətta NKVD-nin rəisi Sumbatov-Topuridze də maşında olub. Hüseynbalanın həyat yoldaşı Xədicə xanımı guya əri ilə görüşdürmək bəhanəsi ilə maşına mindirib aparıblar. Xədicə xanım o gedən gedib, Xədicə xanım, «xalq düşməni»nin arvadı kimi 8 il həbs cəzasına məhkum edilib, Karakanda şəhərinə həbsxanaya göndərilib. 1943-cü ilin iyul ayında xəstəliyinə görə Qazaxıstanda qalmaq şərtilə

həbsdən «azad edilib». Xədicə xanım 1944-cü il fevralın 13-də təqsirinin, günahının nə olduğunu bilmədən doğma Vətənindən uzaqda dünyasını dəyişib.

Hüseynbalanın Binəqədi mədənlərində fəhləlik edən qardaşı Soltan da həbs olunub. Soltanın ürəyi bu haqsızlığa dözməyib. O, məhkəmə zalında dünyasını dəyişib. Altı oğlu, bir qızı yetim qalıb. 1941-ci ilin oktyabrında kiçik qardaşı Rzaqulu, arvadı, altı qızı, iki oğlu ilə Qazaxıstanın Semipalatinski vilayətinə sürgün olunub. 1942-ci il noyabrın 21-də Qazaxıstanda onu da həbs ediblər. 8 il iş kəsilib. Onu Komi ASSR-in Qızıl Orda şəhərinə həbsxanaya göndəriblər. Doqquz baş ailəsi Qazaxıstan çöllərində başsız qalıb.

Hüseynbala Ağaverdiyevin Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılan 12493 nömrəli istintaq işində Mirzə Fətəli küçəsi, 96 nömrəli evdə yaşayan Hənəbacı Ələkbər qjzının 1954-cu il avqustun 2-də Dövlət Komissiyasına yazdığı ərizəsini həyəcansız oxumaq mümkün deyil: «Mənim oğlum Hüseynbala kasıb bir ailədə anadan olub. 13 yaşında atasını itirəndən sonra neft mədənlərində işləyib. 1917-ci ildə Kommunist Partiyası sıralarına daxil olub. 1917-ci ildən 1937-ci ilə kimi öz zəhmətinin sayəsində müxtəlif vəzifələrdə çalışıb. 1937-ci il iyulun 17-də mənə məlum olmayan səbəbdən həbs olunub. İndiyə kimi onun haqqında heç bir məlumat yoxdur. Onun arvadı Xədicə Xudaverdi qızını, heç bir təhsili olmayan, bronxial astmadan əziyyət çəkən gəlinimi də sürgün ediblər. Onun da taleyindən xəbərim yoxdur. Mənim yüz yaşım var. Bir ana kimi oğlumun əqidəsinə yaxşı bələdəm. Onun Sovet hökumətinin düşməni olmasına inanmıram. Mənim ömrümə çox az qalıb. O dünyaya nigaran, nisgilli getmək istəmirəm. Dövlət Komissiyasından xahiş edirəm ki, oğlumun işi ədalətlə yoxlanılsın. Oğlumun taleyi, sağ olub-olmaması haqqında mənə məlumat verməyinizi xahiş edirəm».

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə

Hüseynbala Ağaverdiyevə yalnız 1956-cı il dekabrın 24-də bəraət verilib. Hüseyn-bala Ağaverdi oğlu cəmi 50 il ömür sürüb. O, həm fəhlə köməkçisi, həm nazir olub. Ancaq həmişə «Usta Hüseynbala» kimi tanınıb və yaddaşlara həkk olunub.

1978-ci ildə dövlət və ictimai xadim Hüseynbala Ağaverdi oğlu Ağaverdiyevin anadan olmasının 90 illiyi dövlət səviyyəsində qeyd olunub. Boya-başa çatdığı Kürdəxanı kəndindəki 113 saylı məktəbə onun adı verilib.

Hüseynbala Ağaverdiyevin övladları təzyiqlərə, əzab-əziyyətlərə baxmayaraq, həyatda özlərinə layiq yer tuta biliblər.

Hüseynbalanın böyük qızı Sara xanım 1922-ci ildə anadan olub. 1940-cı ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun geologiya fakültəsinə daxil olub.

«Xalq düşməni»nin qızı olduğu üçün təhsilini davam etdirməyə imkan verilməyib və heç bir əsas gətirilmədən institutdan xaric edilib. İki övladı olub. Qızı Xədicə tanınmış memar idi. Dünyasını dəyişib. Oğlu Murad mühəndisdir. Ailəlidir. İki övladı var. Sara xanım dünyadan köçərkən ürəyində dərin nisgil aparıb: «Atam vəzifə sahibi idi. Ola bilər təqsiri olub. Bəs anamın günahı nə idi? O ki, savadsız, fağır bir qadındı. Atamın iş yerinin adını, vəzifəsini belə düzgün bilmirdi».

Ağaverdiyeva Törə Hüseynbala qızı 1925-ci ildə dünyaya gəlib. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. Törə xanım danışırdı ki, dekan atasının dostu oldduğu üçün Dövlət Təhlükəsizlik Komitəsindən yoxlama gələndə ona xəbərdarlıq edirdi ki, «Ağaverdiyeva, sən sabah dərsə gəlmə». Törə xanım «Xalq düşməni» damğasının yaratmış olduğu çətinliklərə sinə gərərək universiteti bitirib. M.Ə.Sabir adına Pedaqoji Məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib. Üç övladı var: oğlu Aslan babasının yolunu tutaraq M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun neft-mədən fakültəsini bitərərək, mühəndis ixtisasına yiyələnib.

Ailəlidir, iki övladı var. Qızı Rəna Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya Institutunda «Torpaq muzeyi»nin rəhbəri, dosentdir. Ailəlidir, iki övladı var. Kiçik oğlu Tahir mühəndis idi, vəfat edib. Üç övladı qalıb.

Ağaverdiyeva Lətifə Hüseynbala qızı 1929-cu ildə anadan olub. Tibb bacısı idi, üç övladı var: Hənəbacı, Hüseynbala və Natiq.

Ağaverdiyeva Şükufə Hüseynbala qızı 1934-cü ildə doğulub. Azərbaycan Dövlət Universitetinin riyaziyyat fakültəsini bitirib. Riyaziyyat müəllimi işləyib. İki övladı var. Tamilla Dövlət Neft Şirkətində normativ tədqiqat mərkəzinin şöbə müdiridir. Telman da babası kimi vətənpərvərdir. Qarabağ döyüşlərində iştirak edib. Müharibə veteranıdır.

Hüseynbala Ağaverdiyevin nəvələri babalarının xatirəsini əziz tutur, övladlarını onun adına layiq böyütməyə çalışırlar.

***Zemfira Rzayeva***

## XANLAROV XANBALA BALABƏY OĞLU

1895-ci ildə Kürdəxanı kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada almışdır. Uşaqlıq dövründən başlayaraq dədə-baba sənəti olan dəmirçiliklə fəaliyyətə başlamışdır. 1920-ci ilə qədər neft mədənlərində fəhlə kimi çalışmış, eyni zamanda ibtidai təhsilini davam etdirmişdir. 1920-ci ildə Sabunçu fəhlə fakültəsinə daxil olmuş, eyni zamanda Kürdəxanı Neft Kəşfiyyatı Trestində neftçi kimi fəaliyyətini davam etdirmişdir. Sonralar neft ustası kimi Bibiheybətneft, Balaxanıneftdə işləmişdir. Onu əhatə edən fəhlə taleyi ilə əlaqədar olan o vaxtkı üsyanlar çox narahat etdiyinə görə özü də üsyanlara qoşulmuşdur.

Müsavat partiyasının fəal üzvü olaraq, Kürdəxanı kəndində özü yaratdığı Müsavat Firqə Təşkilatına rəhbərlik etmişdir. Xanbala Balabəy oğlu Məmməd Əmin Rəsulzadənin silahdaşı olub. Azərbaycanın ilk müstəqillik rəmzi olan üçrəngli bayrağı onun

kabinetinin qarşısında asılmış idi. Azərbaycanın müstəqilliyini saxlamaq əzmində olan və tez-tez təkrar olunan mitinqlərdə fəal iştirakçı və rəhbər idi. Əsas yürütdüyü məqsəd yadelliləri (rus ordusunu) Azərbaycana yaxın qoymamaq idi. 1920-ci ildə, Sovet İttifaqı qurulandan xeyli sonra, 1933-1934-cü illərdə rus senzurası uzunmüddətli nəzarətinə görə qəddar rejimdən uzaqlaşıb məcburən Azərbaycanı tərk edib İrana keçmişdir. Əvvəl Ərdəbil şəhərində yaşamış, sonra isə Tehran şəhərində məskunlaşmışdır. 1973-cü ildə vəfat etmiş və Tehranda Behişt Fatimeyi-Zəhra qəbiristanlığında torpağa tapşırılmışdır.

## USTA BALAKƏRİM KÜRDƏXANILI



Usta Balakərim Binəqədi neft mədənlərində fəhləlikdən başlayaraq usta sənətinə qədər yüksəlib. O öz kəndinə gələrək işsiz kasıb uşaqlarını özü ilə apararaq onları işə düzəldib, onlara öz sənətini öyrədib. Həmin şəxslərdən öz bacısı oğlu usta Bəxtiyar, usta Dəryaqulu Balamirzə oğlu, usta Səlim və başqaları olub. Həmin şəxslər müharibə illərində Uralda, Başqırdstanda neft ustası kimi işləyiblər. Sonralar Usta Balakərimə xalq düşməni kimi ad verərək 1937-ci ildə güllələyiblər.

# DƏRYAQULU BALAMİRZƏ OĞLU RZAYEV



Dəryaqulu Balamirzə oğlu Rzayev 1904-cü il iyunun 26-da Kürdəxanıda anadan olub. Ailənin böyük övladı kimi atasına kömək etmək üçün kiçik yaşlarından neft mədənlərində işləməyə məcbur olub. Zəhmətsevərliyi, bacarığı ilə rəhbərliyin hörmətini qazanıb. 1924-cü ildən artıq Usta Dəryaqulu kimi tanınıb. 1929-cu ildə Kommunist Partiyası sıralarına daxil olub. Dövlət onun zəhmətinə həmişə yüksək qiymət verib. İki dəfə Lenin ordeni ilə təltif edilib. Müharibənin ən qızğın dövründə «Qırmızı Əmək Bayrağı» ordeninə, «Qafqazın müdafiəsi» medalına, Stalin mükafatı laureatı adına layiq görülüb.

Böyük Vətən müharibəsi illərində arxa cəbhədə çalışaraq öz briqadası ilə «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» devizi altında əmək fəaliyyətini daha da gücləndirib. Cəbhəyə daha çox neft vermək məqsədilə briqadası ilə Uralda, Başqırdıstanda «Tuymazneft»də çalışıb.

Usta Dəryaqulu bir neçə dəfə Bakı Sovetinə deputat seçilib. Müharibədən sonrakı illərdə də bir müddət öz sevdiyi peşəsindən ayrılmayıb. O zaman respublikya rəhbərlik edən Mircəfər Bağırov onun işi ilə xüsusi maraqlanıb, əməyinə,

zəhmətinə yüksək qiymət verib. 1950-ci ildə Usta Dəryaqulu işdə aldığı ağır zədə nəticəsində sevdiyi işindən uzaqlaşmalı olub, təqaüdə çıxıb, respublika əhəmiyyətli təqaüdə layiq görülüb. Ustanın səhhəti ilə maraqlanan Mircəfər Bağırovun göstərişi ilə Topçubaşov onu müalicə edib, boğazında cərrahiyyə əməliyyatı apararaq xüsusi trubka qoyub. 1964-cü ildə Dəryaqulu Rzayev həmin xəstəlikdən dünyasını dəyişib.

Usta Dəryaqulunun ilk dəfə qurduğu ailə həyatı uğursuz olub. Həyat yoldaşı Səməngül xanım vaxtsız vəfat edib. Oğlu Abbas, qızı Sona yetim qalıb. Usta 1939-cu ildə ikinci dəfə Məşhədixanım Balalı qızı ilə evlənib. Bu nigahdan yeddi övladı olub. Övladlarının dördü vəfat edib. Üç qızı, iki oğlu müxtəlif sahələrdə çalışsalar da, onlar üçün doğma olan bir peşə var: neftçi peşəsi!

Azərbaycan neftçiləri Dəryaqulu Balamirzə oğlunu daim xatırlayır, xatirəsini əziz tutur.

## NEFT USTASI BƏXTİYAR MƏMMƏDRƏSUL OĞLU

Bəxtiyar Məmmədrəsul oğlu 1895-ci ildə Kürdəxanı kəndində rəncbər ailəsində anadan olmuşdur.

O, cavan yaşlarından ailədə güzəran ağır olduğu üçün gedib Binəqədi neft mədənlərində fəhlə işləmişdir. Bacarıqlı bir işçi kimi fəhləlikdən buruq ustası vəzifəsinə qədər yüksəlmişdir.

Müharibə illərində ona yaxşı usta olduğuna görə dövlət “bron” verib Bakıda saxlamışdır.

1942-ci ildə usta Bəxtiyarı öz briqadası ilə Ufa şəhərinə "Tuymazneft"ə neft çıxarmağa göndərmişlər. Orada ilk neft quyusu qazanlardan biri də usta Bəxtiyar olmuşdur. O, 1944-cü ilin ortalarında yenidən Bakıya qayıtmışdır. Dövlət tərəfindən dönə-dönə mükafatlandırılmışdır.

Onu həmişə el arasında "usta Bəxtiyar" adı ilə çağırırlar.

O, 1968-ci ildə vəfat etmişdir.

## ASLAN BƏYDƏMİR OĞLU POLADOV



Aslan Bəydəmir oğlu Poladov 1909-cu ildə Bakının Kürdəxanı kəndində anadan olub. Əmək fəaliyyətinə 1924-cü ildə Balaxanı mədənlərində arabaçı olaraq başlayıb, sonrlar böyük qardaşı Müslüm Poladovun işlədiyi Binəqədi mədənlərinə gəlib, 1927-ci ildən 1961-ci ilə qədər Bakının Binəqədi mədənlərində işləyib. İşlədiyi dövrdə adi fəhlədən sex rəisi vəzifəsinə qədər yüksəlib. 1941-ci ildə Azərbaycanın neft mütəxəssisləri ilə birlikdə Urala göndərilib. Onun əmək fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Aslan Poladov 1951-ci ildə «Qırmızı Əmək Bayrağı» ordeni il əvə

SSRİ-nin ən yüksək mükafatı olan Lenin ordeni ilə təltif olunub. 1961-ci ildə təqaüdə çıxıb. Aslan Bəydəmir oğlu Poladov 1989-cu ildə 80 yaşında dünyasını dəyişib.

## MÜSLÜM BƏYDƏMİR OĞLU POLADOV



Müslüm Bəydəmir oğlu Poladov 1906-cı il fevralın 5-də Kürdəxanı kəndində anadan olub. 1923-cü ildən Balaxanı, keçmiş «Kirovneft», indiki Binəqədi neft mədənlərində usta köməkçisi, buruq ustası, qazma sahəsinin rəisi işləyib. Müharibə başlayanda o, Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alırdı. Bir neftçi kimi bronu olduğuna baxmayaraq, könüllü cəbhəyə gedib.

Müharibədən sonrakı illərdə, 1962-cı ilə kimi («Kirovneft») Binəqədi Neft və Qazçıxarma trestinin qazma idarəsinin baş mühəndisi, həmin idarənin rəisi vəzifələrində çalışıb. Məşhur neftçi müxtəlif illərdə Zaqafqaziya Federasiyasının Mərkəzi İcraiyyə Komitəsinin, Bakı şəhəri və Binəqədi rayon sovetlərinin deputatı seçilib.

Müslüm Poladovun əməyinə keçmiş SSRİ, Azərbaycan Respublikası rəhbərliyi tərəfindən yüksək qiymət verilib. «Qafqazın Müdafiəsi», «Şərəfli Əməyə görə» medalları, Lenin ordeni, fəxri fərmanlarla təltif olunub. «Fəxri usta» adı verilib. Ömrünün sonuna qədər respublikanın fəxri təqaüdçüsü olub. Müslüm Poladov 1991-ci ildə vəfat edib.

Müslüm kişi böyük bir ailə başçısı idi. Bu ailədən 4 oğul, 4 qız pərvazlanıb, qol-budaq atıb. Müslüm Poladovun üvladları, nəvələri, nəticələri arasında neft sənayesi üzrə elmi işçi, müəllim, həkim, memar, iqtisadçı, ən başlıcası isə neft sənayesinin müxtəlif sahələri üzrə mühəndis var.

Uzun illər müxtəlif neft-qazçıxarma idarələrində məsul vəzifələrdə işləyən kiçik oğlu Kamalın övladları - babasının adını daşıyan Müslüm və Elşən hal-hazırda Binəqədi Neft-Qazçıxarma idarəsində çalışırlar.

## GÜLDAR MUXTAR OĞLU MUXTAROV



Güldar Muxtar oğlu Muxtarov 1906-cı ildə görkəmli neftçi usta Muxtarın ailəsində Kürdəxanı kəndində anadan olub.

Muxtarov Güldar kiçik yaşlarında neft mədənlərində işə başlayıb. Bacarıqlı buruq ustası kimi şöhrət tapıb. Onun zəhməti dövlət tərəfindən yüksək qiymətləndirilib. 1951-ci ildə o dövlətin ən qiymətli or-

deni – Lenin ordeni ilə təltif edilib.

Muxtarov Güldar ömrünün sonuna qədər «Kirovneft» mədənlər İdarəsində buruq ustası vəzifəsində çalışıb.

Güldar Muxtar oğlu Muxtarov 1955-ci ildə Kürdəxanı kəndində vəfat edib.

## MUXTAR MUXTAROV

Görkəmli neftçi usta Muxtar 1878-ci ildə Kürdəxanı kəndində anadan olub. «Kirovneft» mədənlərinin yaranmasında və təkmilləşdirilməsində onun müstəsna rolu olub.

Görkəmli neftçilər Müslüm Bəydəmir oğlu, Aslan Bəydəmir oğlu, Güldan Muxtar oğlu və başqaları onun yetirmələridir.

Usta Muxtar 1932-ci ildə Kürdəxanı kəndində vəfat edib.

## BALƏLİ ALLAHVERDİ OĞLU NURİYEV

Baləli Allahverdi oğlu Nuriyev 1912-ci ildə Kürdəxanı kəndində anadan olub.



1928-ci ildən «Kirovneft» mədənlər idarəsinin avto-nəqliyyat bölməsində çalışıb. Qısa müddətdə rəhbərliyin etimadını qazanıb və qaraj müdiri vəzifəsinə qədər yüksəlib.

Baləli Nuriyevin təşəbbüsü ilə ilk dəfə olaraq fəhlələri mədənlərə çatdırmaq üçün Kürdəxanı, Novxanı,

Goradil və Fatmayi kəndlərinə nəqliyyat ayrılıb.

1941-1946-cı illərdə dövlətin göndərişi ilə «Kirovnet» mədənlər idarəsinin yanğından mühafizə bölməsində növbə rəisi vəzifəsində çalışıb.

1946-cı ildən o yenidən «Kirovneft» mədənlər idarəsinin avtonəqliyyat idarəsində təqaüdə çıxana qədər çalışıb. Balali Allahverdi oğlu Nuriyevi 1996-cı ildə Rəsulzadə qəsəbəsində vəfat edib.

## RZAQULU BALAMİRZƏ OĞLU RZAYEV



Rzaqulu Balamirzə oğlu Rzayev 1924-cü il aprelin 10-da Kürdəxanı kəndində anadan olub. Kürdəxanı kənd məktəbini bitirdikdən sonra neft mədənlərində işə düzəlib. Böyük Vətən Müharibəsi adlandırdığımız savaşın qələbə ilə bitməsində Azərbaycan neftinin rolu danılmazdır. Bakı neftçiləri cəbhəni neftlə təmin etmək üçün gecə-gündüz çalışırdı. 1941-ci ilin noyabrında alman qoşunları Moskvanın 6 km-nə çatmışdı. Stalinqrad mühasirəyə alınmışdı. Artıq Bakı neftini Volqa çayı boyunca cəbhəyə çatdırmaq mümkün deyildi. Cəbhəni neftlə təmin etmək üçün Bakı neftçiləri Şərqi Urala göndərildi. Bakı neftçiləri içərisində kürdəxanılılar üstünlük təşkil edirdi. Məşhədi Gülağa oğlu Bəymirzə, usta

Dəryaqulu, Şəbgül Kərimoğlu, Şaban Cavad oğlu və bir çox Kürdəxanı neftçiləri Urala göndərildi. Onların arasında 17 yaşlı Rzaqulu da vardı. Azərbaycan neftçilərinin gərgin əməyi nəticəsində Uralda II Bakı yaradıldı. Stalinqrad mühasirədən azad olunandan sonra Bakı neftçiləri geri qayıtdı. Uraldan dönəndən sonra Bakı neft texnikumuna daxil olan Rzaqulu həyatını həmişəlik sevdiyi peşəsinə bağlayıb. 1942-ci ildən 1988-ci ilə kimi eyni təşkilatda - Abşeron Qazma İdarəsində buruq ustası vəzifəsində işləyib. 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində bir neçə dəfə Bakı Şəhər Sovetinin deputatı seçilib. Müxtəlif fəxri fərman və medallarla təltif edilib. Onlarla neftçi mütəxəssislərin yetişməsində onun böyük rolu olub. Usta Rzaqulunun yanında iş təcrübəsi keçən Azərbaycan Neft və Kimya İnstitutunun tələbələri indi Azərbaycanın tanınmış neft mütəxəssisləri, alimləridir.

Rzaqulu Balamirzə oğlu Rzayev 1989-cu il martın 7-də 65 yaşında dünyasını dəyişib. Rzaqulu Rzayev zəhmətkeş insan olmaqla bərabər, gözəl bir ailə başçısı, 3 oğul, 2 qız atası idi. İki oğlu həyatdan vaxtsız gedib. Kiçik oğlu Rafiq Rzayev Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirib. Sabunçu Rayonu İcra Hakimiyyəti başçısının Kürdəxanı qəsəbəsi üzrə nümayəndəsidir.

Böyük qızı Rəhilə Rzayeva Azərbaycan Dövlət Universitetinin (BDU) filologiya fakültəsinin məzunudur. Kürdəxanı qəsəbəsindəki 113 saylı orta məktəbdə dil və ədəbiyyat fənnini tədris edir.

Kiçik qızı Zemfira Rzayeva Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində (AzTV) redaktor vəzifəsində çalışır.

Usta Rzaqulunun 4 nəvəsi, 2 nəticəsi var.

## ELMİMİZİN CÖVHƏRİ, DİNİMİZİN ŞƏRƏFİ

Bismillahir-rəhmanir-rəhim!

Dünya şöhrətli şərqşünas, mütəfəkkir ilahiyyatçı və əziz dostum professor Hacı Vasim Məmmədəliyevin 60 yaşı tamam olur.



60 il – ömrün müdriklik zirvəsidir. Hüsn və cəlal sahibi Böyük Rəbbimiz hər bir insanın taleyini doğuluşundan müəyyənləşdirir və qismət payını öz kəraməti ilə bölüşdürür. Bu gün Vasim Məmmədəliyev kimi düha və zəka sahibi-

nin həyat yoluna, elmi fəaliyyətinə, ictimai xidmətlərinə və insani keyfiyyətlərinə nəzər saldıqda, tam əminliklə demək olar ki, Allah-təala onu seçilmişlərindən etmiş və ilahi vergisi ilə şərəfləndirmişdir. Necə ki, müqəddəs kitabımız Qurani-Şərifdə bu barədə buyurulur: "...Şübhəsiz ki, lütf Allahın əlindədir, onu istədiyinə bəxş edər. Allah çox böyük kərəm sahibidir!" (Hədid, 29).

Bir çox şəxsiyyətlər kimi Hacı Vasimin də ömür yolu şərəfli və nəcib bir ailədən başlayır. Onun atası Məmmədəli müəllim XX əsr tarixinin şahidi və salnaməçisi idi. Nəsil ağacının ən parlaq budaqlarından biri olan akademik Yusif Məmmədəliyevi – Azərbaycan Elmlər Akademiyasının Prezidentini təqdim və təqdis etməyə isə, məncə, ehtiyac yoxdur. Belə bir nəslin nümayəndəsi və davamçısı olan Vasim müəllimin əzəl bünövrəsi, təbii ki, milli ziyalılığımızın şöhrət bulağından qaynaqlanır.

İnsanın həyatda ikinci böyük xoşbəxtliyi, onun ailəsindən sonra xüsusi əhəmiyyətə malik olan müəllimləri və məktəbidir. Mən bilirəm ki, Vasim Məmmədəliyev mərhum ədibimiz, Quranın, klassik Azərbaycan ədəbiyyatının və əruzun gözəl bilicisi Əli Fəhmi Ələkbərovun və Ələsgər Məmmədovun xatirəsini daim əziz tutur, onları daim hörmətlə yad edir. Ustadlarını hörmətlə xatırlamaq, onların ruhunu Allah rəhməti ilə şad etmək Vasim müəllimə xas olan xüsusiyyətlərdəndir. Bu isə onun kamilliyinə, qədirbilənliyinə və yüksək mədəniyyətinə dəlalət edən cəhətlərdən sayılmalıdır.

Vasim Məmmədəliyevin elmi fəaliyyəti barədə müfəssəl danışmağa lüzum görmürəm. Bu, məncə, özü bir elmi

əsərin və yaxud kitabın mövzusu olmağa layiqdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Vasim Məmmədəliyev 400-ə qədər əsərin, 20 kitabın müəllifidir. O, Bakı Dövlət Universitetinin dekanı, prorektoru vəzifələrində çalışıb, hazırda ilahiyyat fakültəsinin rəhbəri kimi fəaliyyət göstərir. İraq Elmlər Akademiyasının, Suriya Quran elmləri və Ərəb filologiyası Akademiyasının üzvüdür. Professor Vasim Məmmədəliyevin elmi metodologiyası ərəb dilçiliyi, ümumi dilçilik, islamşünaslıq, quranşünaslıq və ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələri sahəsində geniş istifadə olunur.

Bütün bu faktları Vasim müəllimin elmi fəaliyyətinə ekskurs niyyətilə yazıram. Təbii ki, mənim üçün Vasim Məmmədəliyevin üləmalıq tarixində çox nəcib və önəmli olan bir cəhət vardır: Vasim müəllim XX əsr Azərbaycan şərqşünaslığında yeganə alimdir ki, elmin və dinin qarşılıqlı münasibətlərini, vəhdətini və təkamülünü yaratmağı bacarmışdır. Uzun illik sovet ateist təbliğatından, ilahiyyatşünaslığın tam atrofiyasından sonra qazanılmış bu nailiyyət ideoloji vakuuma ölümcül zərbə vurdu və yeni düşüncə tarixinə yol açdı.

"Allah kəlamı olan Quran elə bir ecazkar ilahi kitabdır ki, heç bir müfəssir onu tam dolğunluğu ilə təfsir və mütərcim mükəmməl tərcümə edə bilməz". Bu sətirlər Vasim Məmmədəliyevin Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsinə yazdığı "Ön söz"dəndir. Təvazö-iman sahiblərinə məxsus keyfiyyətdir. Ziya Bünyadov ilə birlikdə Qurani-Kərimin dilimizə tərcüməsinə başlarkən, Vasim müəllim

də, məsləhətçi-redaktor kimi mən də çox böyük həyəcan keçirirdim. Heç kim üçün sirr deyil ki, Quran yalnız zahirdə anlamlı görünür, əslində isə fani insan düşüncəsinin əhatə edə bilmədiyi möhtəşəm ümmana bənzəyir. Bu gün artıq yeddinci nəşri işıq üzü görən Qurani-Kərim öz tərcümələrinə mütəvazilik müqabilində ədəbi şöhrət çələngi bağışlayır. Həqiqətən "Elm verilmiş kimsələr Rəbbindən nazil edilənin haqq olduğunu və onun yenilməz qüvvət sahibi (hər cür) şükrə layiq olan yolunu göstərdiyini görürlər" (Səba, 6).

Qurani-Kərimin tərcüməçisi, təfsirçisi və tədqiqatçısı kimi Azərbaycan alimi Vasim Məmmədəliyevin adı dünya islamşünaslığının diqqət mərkəzində və şərəf səhifəsindədir. Mən Vasim müəllimlə saysız-hesabsız xarici səfərlərdə olmuşam, beynəlxalq müsamirələrdə iştirak etmişəm. Onun sanballı elmi çıxışlarının necə böyük maraqla qarşılandığının, dünya şöhrətli şərqşünasların heyrət və rəğbətinin canlı şahidiyəm. Və bu məclislərdə ən çox fərəhlənən, qürurlanan şəxs mənəm. Çünki, Azərbaycan xalqının bu şərafətli nümayəndəsi, Vətənimin bu möhtəşəm alimi  mənim ən əziz dostum, ən dəyərli qardaşımdır.

Vasim Məmmədəliyev həqiqətən adı böyük hərflərlə yazılmağa layiq olan Azərbaycan vətəndaşıdır. Onun bütün yüksək insani keyfiyyətləri və daxili mənliyi vətənpərvərlik hissi ilə yoğurulub. Doğma torpağa, milli soykölərə əsrlərdən keçib gələn tarixi yaddaşa bağlılıq onun özəl cəhətlərindəndir. Vasim Məmmədəliyevi xarakterizə edən ən mühüm amil isə, onun milli dövlətçilik ideyalarına sadiqliyi və mütərəqqi mənəvi intibah uğrunda mübarizliyidir.

Mən onun dəruni zənginliyini uzun illər boyu müşahidə

etmişəm. Tale elə gətirib ki, bizim ümumi amallar uğrunda qarşılıqlı əməkdaşlığımız sonradan sarsılmaz dostluğa və qardaşlığa çevrilib. Biz islamın inkişafında din ilə elmin vəhdətinə xüsusi əhəmiyyət verdiyimiz üçün Qafqaz Müsəlmanları İdarəsi nəzdində professor Vasim Məmmədəliyevin rəhbərliyi altında Elmi-Dini Şura yaradılmasına qərar verdik və şükür Allaha ki, niyyətimiz uğurla nəticələndi. Şura bu günə qədər səmərəli fəaliyyətini davam etdirir, dini-mənəvi dəyərlərin təbliğində aparıcı rol oynayır.

Vasim Məmmədəliyev fenomeninin bir cəhəti də var: o, həm öz sahəsinin inkişaf istedadını, həm də universal biliklərin toplusunu özündə birləşdirməyi bacaran şəxsiyyətdir. Bəzən mən onu Şərq poeziyasının ən incə sərrafı kimi dinləməkdən doymuram. Bəzən isə o məni muğam, onun şöbələri, təsnifləri barədə mükəmməl söhbətləri ilə əsil mənada heyran edir. Ümumiyyətlə, bir elmi dərindən, mənbəyindən öyrənmək, daim öz üzərində çalışmaq, öyrəndiklərini hər zaman təkmilləşdirmək və dinləyicisi qarşısında çox mükəmməl savad nümayiş etdirmək Vasim müəllimin məxsusi özəl keyfiyyətidir. Doğrusu, bu keyfiyyətlər az alimlərimizdə müşahidə olunan cəhətlərdir.

Mən Vasim Məmmədəliyev haqqında sonsuza qədər danışsam, bəlkə yenə də içimdə deyilməmiş sözlərim, düşüncələrim qalar. Bu da ondan irəli gəlir ki, onun haqqında yalnız bir fərd kimi söz söyləmək mövzunu yarımçıq edər. Bunun müqabilində "Vasim Məmmədəliyev məktəbi" haqqında danışmaq isə, böyük bir xəzinəni uzun illər boyu araşdırmağa bənzər. Məncə, bu dilemmanın ən dürüst cavabı – "Vasim Məmmədəliyev məktəbi"nin mövcudluğu, inkişaf və dai-

miliyidir. Bu isə bizim fərəhimiz və qürurumuz üçün tükənməyən bir mənbə olacaqdır.

Bəli, 60 yaş ömrün kamillik zirvəsidir. Bu zirvəyə qalxan yol şərəfli, irəlidəki yol zəfərlidir. Qoy uca Pərvərdigari-Aləm bəndələrindən mərhəmətini heç zaman əsirgəməsin. "Və özlərinə elm verilən kəslər də bilsinlər ki, haqq sənin Rəbbindədir" (Həcc, 54).

Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuhu.

***Şeyxülislam Hacı Allahşükür Paşazadə,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

## ELMİMİZİN SÜTUNLARINDAN BİRİ

Bismillahir-rəhmanir-rəhim!

Hər dövrün, hər zamanın müəyyən sahələrdə lider sayılan mütəfəkkir şəxsiyyətləri olur. Onlar dünyanın nəbzini tuta bilən, bəşəriyyətə örnək olub onun həqiqət yolundan sapmasına yol verməyən, insanlara Allahı tanıdıb müqəddəs şəxslərin kimliyini anladan, öz nümunəvi əməlləri ilə hər kəsə ibrət verə biləcək Allahın sevimli bəndələridir. Bəşərin dünyagörüşünü artırmaq, çətin zamanda öz elminin gücü ilə insanlara arxa olmaq, xalqı başına gələ biləcək bəlalardan hikməti sayəsində qorumaq və bacardıqca həqiqəti yayıb Allah buyuranları təbliğ etmək məhz bu cür şəxsiyyətlərin fitrətindədir. Azərbaycan xalqının məkan və zamandan asılı olmayaraq bu qüdrətə malik oğulları daim olub və indi də vardır.

Gözəl insan, nəcib dost və elmimizin sütunlarından biri olan Hacı Vasim Məmmədəliyev də bu gün bu sırada öndə duranlardandır. Ömrünün böyük hissəsini xalqına xidmətdə keçirmiş bu alicənab insanın altmış yaşı tamam olur. Biz də bütün təbriklərə qoşulub Allah-Təaladan Vasim müəllimə cansağlığı, firavan həyat və potensialı yerə-göyə sığmayan təfəkküründən bəşər və elmimiz naminə yeni-yeni nailiyyətlər dolu növbəti bir 60 il arzulayırıq. Cənabi Haqq ona və bütün mömin bəndələrə yar olsun, inşaallah!

***Elmin, hünərin dəhrdə ünvanıdı Vasim,***
***Ən ali sözün, hikmətin ümmanıdı Vasim.***

***Çün əsli müəllimdi verir zəhmətə qiymət,***
***Düzgün əməlin ölçüsü, mizanıdı Vasim.***

***Quranı bizə şərh eləyib ayəbəayə,***
***Məntiq bağının bir güli-reyhanıdı Vasim.***

***Ya rəbb, olarmış belə bir xülqdə insan,***
***Fövqəlġdəbin, mərifətin kanıdı Vasim.***

***Dostluqda ona sadiq olubdu Hacı Tələt*,***
***Çünki muğamın, musiqinin canıdı Vasim.***
***Var öz adı, öz hörməti ariflər içində,***
***Şəksiz bəşərin azimi-meydanıdı Vasim.***

* *Hacı Tələt Qasımov - xanəndə*

*Həm qareyi-Qurandı, həm Hafizi-Quran,*
*İslamımızın şöhrətidi, şanıdı Vasim.*

*Soltan ona ustad desə, səhv eyləməz əlbət,*
*Elm adlı diyarın ulu sultanıdı Vasim.*

*Hacı Soltan Hüseynqulu oğlu,*
*Qafqaz Müsəlmanları idarəsinin Qazısı,*
*Buzovna qəsəbəsinin axundu*

## VASİM MƏMMƏDƏLİYEVİN TƏRCÜMEYİ-HALINDAN BƏZİ MƏQAMLAR

V.M.Məmmədəliyev 1942-ci il avqustun 27-də Bakı şəhərinin Kürdəxanı kəndində anadan olmuşdur.

O, 1949-1959-cu illərdə Bakı şəhərinin Kürdəxanı kəndindəki 113 saylı orta məktəbdə oxumuşdur.

V.M.Məmmədəliyev 1959-1964-cü illərdə BDU-nun şərqşünaslıq fakültəsində ərəb filologiyası ixtisası üzrə təhsil almışdır.

V.M.Məmmədəliyev 1968-ci ildə Tbilisi Dövlət Universitetində "Müasir ərəb-Azərbaycan ədəbi dilində və İraq dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik, 1974-cü ildə həmin universitetdə "Müasir ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1978-ci ildən professordur.

Professor V.M.Məmmədəliyevin elmi nəticələri ərəb dilçiliyi və ümumi dilçilik sahələrində (eləcə də Azərbaycan dilçiliyində), islamşünaslıqda, ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələrində geniş istifadə olunur.

Professor V.M.Məmmədəliyev Rusiya Federasiyası (1978-1981), Polşa (1979), Misir (1995-2000), İndoneziya (1998), ABŞ (1996) və digər ölkələrdə keçirilmiş beynəlxalq və regional konfransların iştirakçısı olub.

Professor V.M.Məmmədəliyev 16 dissertasiya işinə elmi rəhbərlik, 30-dan artıq dissertasiya işinə rəsmi opponentlik etmişdir.

Professor V.M.Məmmədəliyev İraq Elmlər Akademiyasının (1989), İslam Təşkilatı Konfransı nəzdində İslam hüququ Akademiyasının (1994), Suriya Quran Elmləri və Ərəb Filologiyası Akademiyasının (1995) üzvü seçilmişdir.

Professor V.M.Məmmədəliyev BDU-nun şərqşünaslıq fakültəsinin dekanı (1981-1991), prorektoru (1991-1992) vəzifələrində çalışmışdır. Hazırda BDU ilahiyyat fakültəsinin dekanı, ərəb filologiyası kafedrasının müdiridir.

O, dünyanın müxtəlif ölkələrində çap olunmuş 300-dən çox elmi əsərin, 20 kitabın müəllifidir.

Professor V.M.Məmmədəliyev 1991-ci ildən indiyə qədər respublika televiziyasında ümumxalq məhəbbəti qazanmış "Haqqın dərgahı" adlı verilişin aparıcısıdır.

Professor V.M.Məmmədəliyev Türkiyə, İran, İraq, Misir, Liviya, Gürcüstan, Rusiya, Səudiyyə Ərəbistanı, Suriya, BƏƏ, Küveyt və digər ölkələrlə sıx elmi əməkdaşlıq edir.

Professor V.M.Məmmədəliyev 1992-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2001-ci ildə Azər-

baycan MEA-nın müxbir üzvü seçilmişdir.

Vasim Məmmədəliyev 2002-ci il avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə ölkənin ali mükafatı Şöhrət" ordeni ilə təltif edilmişdir.

2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının akademiki seçilmişdir.

## AĞAYEVA NİSƏXANIM MƏMMƏDAĞA QIZI

Tibb elmləri doktoru, professor Nisəxanım Ağayeva ilk professor otolarinqoloq kimi tanınır. Ona qədər Tibb İnstitutunda tədris işini tibb elmləri namizədləri və dosentlər aparırdılar. Professor isə Moskvadan İvan İvanoviç Lukov, bir qədər sonra professor Məhəmməd Davidoviç Kajlayev Dağıstandan bu işdən ötrü dəvət olunmuşdur.



Ağayeva Nisəxanım 1921-ci il iyunun 28-də Abşeron yarımadasının Kürdəxanı kəndində dünyaya göz açmışdır. O, 1928-ci ildə oxumağa başlamışdır. 1938-ci ildə Bakı şəhər 136 saylı orta məktəbi

əla əxlaq və biliklə bitirmişdir. Həmin ildə Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. 1941-ci ildə İkinci cahan müharibəsinin başlanması ilə əlaqədar olaraq Azərbaycanda həkimlərin əksəriyyəti müharibəyə səfərbər olduğuna görə nəinki periferik xəstəxanada, poliklinikalarda, hətta Tibb İnstitutunda belə praktik həkimlər çox az idi. Belə vəziyyətlə əlaqədar olaraq, Azərbaycan Tibb İnstitutunda üçüncü və yuxarı kurslarda oxuyan ancaq əlaçı tələbələrin toritik dərsləri axşam saat 17-dən 21-dək təsis olunmuş ki, onlar gündüz bilavasitə professorların rəhbərliyi altında praktik işlər icra etsinlər. O cümlədən Ağayeva Nisəxanım Həkimləri Təkmilləşdirmə İnstitutunun hərbi səhra kafedrasının müdiri, məşhur cərrah, professor, tibb elmləri xadimi Hüseyn Kərim oğlu Əliyevin rəhbərliyi altında Tibb İnstitutunun üçüncü kurs tələbəsi olduğu zamanda cərrahi fəaliyyətə başlamışdır. 1942-ci ildə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. O vaxtdan Səhiyyə Nazirliyinin qəti göstərişinə görə Azərbaycan Tibb İnstitutunu bitirmiş həkimlər perefirik sahələrdə işləməmiş mərkəzdə işləməyə ixtiyar verilmirdi. Ona görə Ağayeva Nisəxanım Azərbaycanın müxtəlif bölgələrində çalışdıqdan sonra 1946-cı ildə Azərbaycan Tibb İnstitutunun cərrahiyyə kafedrasının müdiri, tanınmış tibb elmləri xadimi, layiqli professor Zülfüqar Məmmədovun rəhbərliyi altında institutda müəllimlik fəaliyyətinə  başlamışdır. Bir müddətdən sonra Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda otolarinqologiya kafedrasında çalışmış, əvvəl ordinator, az sonra həmin kafedraya müsabiqə yolu ilə assistent seçilmişdir. 1960-cı il martın 8-də tibb elmləri namizədi alimlik

dərəcəsi almışdır. 1964-67-ci illərdə həmin kafedraya dosent elmi dərəcəsi ilə rəhbərlik etmişdir.

Nisəxanım Ağayeva yüksək ixtisaslı klinisist olduğuna görə, burun, qulaq və boğaz xəstəlikləri üzrə ən mürəkkəb cərrahi əməliyyatları sərbəst bacardığına görə, doktorluq dissertasiyası üzərində işləmək üçün institut elmi şurasının qərarı ilə Moskva şəhərinə Mərkəzi Otolarinqologiya kafedrasına göndərilmişdir. Doktorluq işini orada tamam etdikdən sonra 1970-ci il dekabrın 16-da Azərbaycan Təkmilləşdirmə İnstitutuna girmiş, həmin kafedraya rəhbərlik etmişdir. 1975-ci il dekabrın 26-da ona tibb elmləri doktoru, elmlər dərəcəsi diplomu verilmişdir. SSRİ Nazirlər Şurası tərkibində olan komissiyanın qərarı ilə 1981-ci il iyulun 24-də ona professor elmi dərəcəsi, otolarinqologiya kafedrası üzrə diplom verilmişdir.

Beləliklə, Nisəxanım Ağayeva 1945-ci il yanvarın 1-dən Azərbaycan Tibb İnstitutu və sonra Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda 1990-cı ilə qədər Azərbaycanda ən məşhur və ən yüksək hesab olunan Azərbaycan Təkmilləşdirmə İnstitutunda layiqli praktik və pedaqoji fəaliyyət göstərmişdir.

Nisəxanım Ağayeva Azərbaycanda otolarinqoloqların tam az olan vaxtında Otolarinqologiya Mərkəzi yaratmışdır. Pedaqoji fəaliyyəti dövründə yüzlərlə ixtisaslı kadrların hazırlanmasında mühüm xidmətləri olmuşdur. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu SSRİ Mərkəzi İnstitutunun filialı olduğuna görə, SSRİ respublikalarının və demokratik ölkələrin otolarinqoloqları professor Nisəxanım Ağayevanın rəhbərliyi altında ixtisaslarını artırmışlar.

Beynəlxalq və ümumi SSRİ-nin konqreslərində, simpozi-umlarda öz elmi-praktiki yenilikləri üzrə çıxışları çap edil-mişdir: İtaliyada, Moskvada, Sankt-Peterburqda, Cambulda, Kaunasda və s. 1971-1990-cı illərdə Azərbaycan Respub-likasının baş otolarinqoloqu təyin edilib. 1970-ci ildə SSRİ Səhiyyə Nazirliyinin 4-cü qərargah müalicə komissiya-sında otolarinqologiya üzrə baş məsləhətçi, bir sıra böyük xəstəxanaların otolarinqologiya şöbələrinin elmi və prak-tik məsləhətçisi olmuşdur. Ümumittifaq Otolarinqoloqlar Cəmiyyətinin Azərbaycan şöbəsinin rəyasət heyətinin səd-ri, Azərbaycan Respublikasının Mərkəzi Hərbi Çağırış Ko-missiyasının uzun müddət otolarinqologiya üzrə baş məslə-hətçisi olmuşdur. Moskvada çap olunan mərkəzi "Vestnik otolarinqoloqii" jurnalının uzun müddət redaksiyasının üzvü olmuşdur. Azərbaycan Səhiyyə Nazirliyi otolarinqologiya üzrə attestasiya komissiyasına sədrlik etmişdir. 120-dən çox elmi məqaləsi çap olunmuş, 10-a yaxın dərslik və metodik vəsaitin müəllifidir. Praktik işdə 12 səmərələşdirmə təklifi almışdır. Rus və alman dillərini bilir. Hökumət tərəfindən bu gərgin, uzunmüddətli fəaliyyətinə görə bir çox medal, təşəkkür və tərifnamə ilə təltif olunmuşdur. 1990-cı ildən hal-hazıra kimi Azərbaycan Mərkəzi Neftçilər Xəstəxana-sında fəaliyyət göstərir.

Üç övlad anasıdır. Quliyeva Esmiralda Cəlil qızı S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indi-ki Bakı Dövlət Universitetinin) kimya fakültəsini bitirmiş, hazırda Azərbaycan Politexnik Universitetində müəllimdir.

Quliyev Emin Cəlil oğlu hərbçidir, rütbəsi polkovnik-dir. Ermənilərin Azərbaycana təcavüzü zamanı o, Binəqədi

rayonun hərbi komissarı idi, həm də respublika Hərbi Komissarlığından ona bəzi tapşırıqlar verilmişdi.

1990-cı il yanvarın 20-də baş verən faciədən bir gün sonra Azərbaycan hərbçiləri ilə görüşmüşdür. Həmin görüşdə polkovnik Emin Quliyev rus hərbçiləri ilə çox sərt danışıb. Ona görə Emin yanvarın 24-də işə gedəndə maşını hərbi şəhərciyin yanında saxlayır ki, müavini ona benzin gətirsin. Elə dayandığı yerdə ona pulemyotdan 32 güllə atırlar. Güllənin 6-sı Eminə, qalanları isə maşına dəyir. Emin birtəhər imkan tapıb özünü "podyezə" sala bilir. Qapını döysə də açan olmur. Müavini Eminin qanının izi ilə gəlib onu podyezdə tapır, yaxın olduğuna görə Musa Nağıyev adına xəstəxanaya gətirir. Dəfələrlə cərrahi müdaxilə olunur. Hazırda o, birinci dərəcəli Qarabağ əlilidir.

Quliyeva Elmina Cəlil qızı həkimdir. Həyat yoldaşı Quliyev Cəlil tibb elmləri namizədi idi. Respublikanın əməkdar həkimi idi. 1976-cı il yanvarın 1-də vəfat etmişdir. Məzarı Kürdəxanı kəndindədir.

## ƏLİZADƏ AYDIN ŞADƏR OĞLU



Əlizadə Aydın Şadər oğlu 1959-cu il fevralın 14-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1976-cı ildə Nərimanov rayon 82 saylı orta məktəbi bitirmiş, 1976-1978-ci illərdə Bakı Elektrik Ştampları və metal-plastik kütlə zavodlarında çilingər işləmişdir.

1978-ci ildə N.Nərimanov adına ATİ-nin birinci müalicə profilaktika fakültəsinə daxil olmuş, 1984-cü ildə institutu bitirib cərrah ixtisası almışdır.

1985-1989-cu illərdə Abşeron rayon mərkəzi poliklinikasında cərrah işləmişdir.

1989-cu ildən M.Nağıyev adına kliniki təcili tibbi yardım xəstəxanasında cərrah işləyib.

2005-ci ildə M.Nağıyev adına KTTUX-sı Semaşko adına 1 saylı şəhər klinik xəstəxanası ilə birləşdirilib, Kliniki Tibbi Mərkəz yaradıldıqdan sonra həmin mərkəzdə çalışır.. Müxtəlif illərdə qəbul şöbəsinin müdiri olmuşdur.

Hazırda Kliniki Tibbi Mərkəzinin baş həkiminin müavini, ümumi xəstəxana heyəti cərrahi əməliyyat blokunun rəhbəridir.

Ailəlidir, iki övladı var.

## AYDINDIR

Mərd, xeyirxah və ləyaqətli həkim dostum
Aydın Əlizadəyə ithaf

***Mərd həkimdi, dağ boydadır ürəyi,***
***Elimizin nər övladı Aydındır.***
***Süfrəsinin əskik olmaz çörəyi,***
***Müqəddəsdir, pir övladı Aydındır.***

***El oğludur, el qədrini biləndir,***
***Tikəsini dostla yarı böləndir,***
***Dar ayaqda ağlayan yox, güləndir,***
***Bu torpağın ər övladı Aydındır.***

***Nə şöhrətə, nə sərvətə satılmaz,***
***Sal qayadır, parçalanmaz, çapılmaz,***
***Bərabəri hər obada tapılmaz,***
***Od yurdunun zər övladı Aydındır.***

***Cəsarətdən yoğrulubdur mayası,***
***Bir örnəkdir ləyaqəti, həyası,***
***Gözlərinin əskilməsin ziyası,***
***Pir övladı, nur övladı Aydındır.***

ƏFLATUN

## XOŞBƏXT İNSAN, SOYUQQANLI CƏRRAH

Dünyada peşə çoxdur. Sadalamaqla bitməz. Amma bütün peşələrin arasında Allaha ən yaxın olanı həkimlikdir. İnsanların ömrünü uzatmaq, dərdinə əlac etmək, çarəsizlərə şəfa vermək, yəqin ki, Allahın insanlara bəxş etdiyi ən böyük bacarıqlardan biridir. Bu peşə sahibləri çox diqqətli, nəcib, mehriban, həssas və anlayışlı olurlar. Mən də Aydın həkimi – Əlizadə Aydın Şadər oğlu Kürdəxanılını belə tanıdım.

Bizi Kürdəxanı kəndində, öz evində Peyğəmbərimizin (s) mövlud gününü qeyd edən, mərhum Əli (ə) məddahı Əlisöhbətin oğlu Hacı Casim tanış etdi.

Elə ilk andan, ilk kəlmədən çox istiqanlı, mülayim və incə ruhlu bir insan olduğunu anladım. Çoxdan görüşməyən dostlar kimi söhbət etdik. Hər şeydən bir az – dünyadan, insanlardan, həyatdan… Gülərüzlülüyü və səmimiliyi ilə ən çətin mövzunu da sadə və adi edirdi. Öz-özümə fikirləşirdim ki, bu şəxsdə bu qədər enerji və həyat sevgisi haradandır? Təbəssümü, baxışı, bakılı ədası yaxşı mənada pessimizmin əsl qənimidir. Aydın həkim peşəkar cərrahdır. İş-gücü insan bədənindəki dərdləri cərrah bıçağı ilə kəsib atmaqdır. Ancaq ilk baxışdan elə düşünmək olar ki, bu xoşbəxt insanla soyuqqanlı cərrah arasında bir uçurum var. Əslində isə Aydın həkim ilk əməliyyatı öz üzərində apararaq əsəbini və həyəcanını kəsib atıb. Ən yorğun vaxtında belə həyat dolu, məhəbbət dolu vulkana bənzəyir. Dahi şairimiz M.Füzuli zəmanəsində əgər Aydın həkimə rast gəlsəydi

***Eşq dərdiylə xoşam, əl çək əlacından, təbib,***
***Qılma dərman kim, həlakim zəhri-dərmanındadır.***

- beytini bir az fərqli yazardı.İki dəqiqəlik söhbəti yüz ağrıkəsicidən üstün olan Aydın həkim çox güman ki, Füzuli babanın da könlünü oxşayar və həkimlərin təkcə bədəni deyil, ruhu da müalicə edə bilmək bacarığını dahi şairə sübut edib yuxarıdakı beytin nisbətən fərqli deyiminə səbəb olardı.

Dilində və əməlində Allahın, qəlbində insan məhəbbətinin üstün olmasınıda dediklərimə əlavə etsəm, necə gözəl bir insanla, necə ropessional bir həkimlə dostluqdan qürur hissi duyduğumuvə belə qədirşünas şəxsiyyətlə necə fəxr etdiyimi hər kəs anlayır.

Hazırda Kliniki Tibbi Mərkəzin baş həkiminin müavini, cərrahi əməliyyat blokunun rəhbəri vəzifəsində çalışan Aydın həkim tibbi fəaliyyətinin 25-ci ilini yüksək əhvali-ruhiyyə ilə qarşılayır. Bu zaman kəsiyində şəfa verdiyi yüzlərlə insan adından, eləcə də öz adımdan Aydın qardaşıma böyük Allahdan lütf və səadət diləyirəm. Əsl Azərbaycan vətəndaşına, Azərbaycan həkiminə nümunə olan Aydın Əlizadəyə cismani və ruhani mərəzlərin cəmiyyətimizin batinindən kəsilib atılması yolunda uğurlar arzulayıram. Yorulmayasan, həkim!

***Arif Buzovnalı***

## ZEYNALOVA HƏQİQƏT NAMƏLİ QIZI



Zeynalova Həqiqət Naməli qızı 1949-cu il avqustun 9-da Bakı şəhərində anadan olub.

1957-ci ildə Bakı şəhəri 36 saylı məktəbin birinci sinfinə gedib, 1967-ci ildə isə həmin məktəbin 10-cu sinfini bitirib.

1969-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinin birinci kursuna daxil olub, 1975-ci ildə isə institutu bitirib.

Atası Zeynalov Naməli 1914-cü ildə doğulmuş, Böyük Vətən müharibəsi iştirakçısı olmuş, 1972-ci ildə vəfat etmişdir.

Anası Zeynalova Nurgül Cənnət qızı 1927-ci ildə doğulmuş, 2007-ci il iyunun 5-də ürək xəstəliyindən vəfat etmişdir.

Həyat  yoldaşı Mustafayev Əfradin Əlikram oğlu 1942-ci ildə dünyaya gəlib. Uzun müddət Sabunçu rayon İcra Hakimiyyəti Kürdəxanı qəsəbəsi nümayəndəsi vəzifəsində işləyib. 2006-cı ilin may ayının 23-də dünyasını dəyişib.

Qızı – Mustafayeva Rəna Əfradin qızı 1976-cı ildə anadan olmuşdur. Ailəlidir, bir oğlu var.

Oğlu – Mustafayev Naməli Əfradin oğlu 1978-ci il təvəllüdlüdür. H.Əliyev adına Hava Limanında DT.Y-də işləyir.

Həqiqət xanım isə 1979-cu ildən Kürdəxanı qəsəbəsi 33 saylı ambulatoriyasında uşaq həkimi vəzifəsində çalışır.

## RZAYEVA GÜLƏR QƏDİR-AĞA QIZI



1966-cı il 7 yanvar tarixində əslən Bakının Kürdəxanı kəndindən olub Bakı Şəhərində ziyalı ailəsində anadan olub. İlk təhsilini 31 saylı orta məktəbdə alıb. 1973-cü ildən 1983-cü ilə kimi orta təhsilini müvəffəqiyyətlə bitirdikdən sonra 1984-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profılaktika fakültəsinə daxil olmuş və ali təhsilli həkim kimi 1992-ci ildə həmin institutu bitirmişdir.

Atası - Əliyev Qədir-Ağa Bəhman oğlu.

Əslən Bakının Kürdəxanı kəndindən olub, ali təhsillidir, 1957-1962-ci illərdə Az.Pİ-nin mexanika fakültəsini bitirmiş və respublikanm bir neçə elmi-tədqiqat və istehsalat müəssisələrində elmi işçi kimi, həmçinin bitirdiyi elm ocağmda müəllim kimi fəaliyyət göstərmişdir. Hal-hazırda təqaüdçüdür.

Anası - Əliyeva Səyyarə Bəxtiyar qızı.

Əslən Bakının Kürdəxanı kəndindən olub, mama-akuşer ixtisasma yiyələnmiş, ananın sonradan qızının tibbi savad almasında müstəsna rolu olmuşdur. 2003-cü ilin 02 yanvar tarixində dünyasmı dəyişmişdir.

Ailəlidir, bir qızı var.

Həyat yoldaşı Rzayev Elçin Atif oğlu əslən Kürdəxanı kəndindən olub, ali təhsilli, Azərbaycan Dövlət İqtisad universitetini bitirmiş və iqtisadçı kimi fəaliyyət göstərmişdir.

2007-ci il 17 aprel tarixində dünyasım dəyişmişdir.

Rzayeva Gülər Qədir-Ağa qızı iş fəaliyyətinə 1993-cü ildən Bakı şəhəri 5 saylı Şəhər poliklinikasmda tibbi bacısı kimi işə başlamışdır.

1992-ci ildən bu günə kimi hal-hazırda Mərkəzi Neftçilər xəstəxanasının stasionar və poliklinika şöbəsində otorinolarinqoloq həkimi vəzifəsində fəaliyyət göstərir.

1993-cü ildə Ə.Əliyev adma Həkimləri Təkmilləşdirmə İnstitutunun otorinolarinqoloji kafedrasmda ixtisaslaşma və 1998-ci ildə həmin kafedrada təkmilləşmə kursları keçmişdir.

İş fəaliyyəti dövründə elmi və tibbi şuralarda tibb bacılarınm seminarlarında fəal iştirak etmişdir, məruzələrlə çıxış etmişdir. «Azərbaycan neftçilərinin otorinolarinqoloji müayinəsinin təşkili haqqında», «Neftçilərdə xroniki tonzillitm EKQ göstəricilərinə təsiri haqqında» və sairə məqalələri vardır.

İş fəaliyyəti dövründə gündəlik manipulyasiya və cərrahi əməliyyatlarda iştirak edir. Azərbaycan və rus dillərini mükəmməl, ingilis dilini orta səviyyədə bilir.

# MİRZƏYEV ATAƏMİ HACI BALAŞ OĞLU



1965-ci il mayın 25-də Kürdəxanı qəsəbəsində anadan olmuşdur. 1972-ci illərdə qəsəbədəki 113 saylı orta məktəbdə oxumuşdur. 1982-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) filologiya fakültəsinin əyani şöbəsinə daxil olmuş, birinci kursu bitirdikdən sonra 1983-1985-ci illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra 1985-ci ilin sentyabrından təhsilini davam etdirmiş, 1989-cu ildə universiteti bitirmişdir. 1990-1993-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda aspiranturada təhsil almışdır. 1994-cü ildə "Klassik Azərbaycan-türk ədəbiyyatında "Yusif və Züleyxa" mövzusu (ilkin qaynaqlar və onların poetik təcəssümü)" adlı namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsində böyük elmi işçi vəzifəsində işləyir. "Klassik Azərbaycan ədəbiyyatında bədii tərcümə və Fü-

zulinin tərcümə əsərləri" mövzusunda yazdığı doktorluq dissertasiyasını bitirərək müdafiəyə təqdim etmişdir.

İlk monoqrafiyanın "Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis" (Bakı, 1997), "Füzulinin "Həqiqətüs-süəda" əsəri orta əsrlər tərcümə abidəsi kimi" (Bakı, 2001), 70-dən artıq elmi məqalənin müəllifidir. Bir çox beynəlxalq elmi simpozium və konfranslarda (Tehran, fevral 2002; Tehran, iyun 2002) elmi məruzələrlə çıxış etmişdir.

Ailəlidir, iki övladı var. Qızı Xanım BDU-nun tələbəsidir.

## ƏLİYEV MİRZƏ BALAYAR OĞLU



Əliyev Mirzə 1936-cı il yanvarın 14-də Bakı şəhəri Kürdəxanı qəsəbəsində anadan olmuşdur. 1954-cü ildə qəsəbədəki 113 saylı orta məktəbi bitirmiş, Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Neft-Kimya Akademiyasına qəbul olunaraq, 1959-cu ildə bitirmişdir. 1963-1993-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda işləmişdir. "Neft-qaz quyularının qazılması texnologiyası" üzrə dissertasiya müdafiə edərək, texniki elmlər namizədi adına

layiq görülmüşdür. 30-a yaxın elmi əsərlərin və müəllimlik şəhadətnaməsinin müəllifidir. 1993-cü ildən əmək fəaliyyətini Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) "Bulla" DKQİ, "Neft daşları" DQİİ-də davam etdirmişdir. Hazırda ARDNŞ-in Elmi Tədqiqatlar İnstitutunun böyük elmi işçisidir.

Evlidir, iki övladı və iki nəvəsi vardır.

## VAMİQ MƏMMƏDƏLİ OĞLU MƏMMƏDƏLİYEV



Vamiq Məmmədəli oğlu Məmmədəliyev 1946-cı il iyunun 9-u Bakının Kürdəxanı kəndində ziyalı ailəsində anadan olub. 1953-1964-cü illərdə 113 nömrəli Kürdəxanı kənd məktəbində orta təhsil alıb. İbtidai musiqi təhsilini kənd klubunun tar dərnəyini aparan Dərdayıl Aydəmirovun sinfində alıb. Bir müddət sonra 1963-cü ildə Kürdəxanı kənd klubunda tar dərnəyini və daha sonralar "Bahar" xalq çalğı alətləri ansamblını yaradır. Kəndin çoxlu sayda istedadlı gəncləri bu an-

samblda özünü həm sınayır, həm də asudə vaxtını səmərəli keçirir. 1967-1972-ci illərdə həmin klubda təlimatçı, bədii rəhbər və müdir vəzifəsində çalışıb. 1965-1967-ci illərdə Astara rayonunda hərbi xidmətdə olub. 1972-1976-cı illərdə isə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda aldığı təhsillə bərabər Kürdəxanı uşaq bağçasında nəğmə müəllimi kimi çalışan V.Məmmədəliyev kəndin azyaşlılarının musiqi qavramasının artırılmasında xidmət göstərir, hətta bəstəkarlıqla da məşğul olub, bir neçə uşaq mahnısının müəllifi kimi tanınır. 1980-1985-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında tar üzrə ali təhsillə bərabər Vamiq Məmmədəliyev digər tədris ocaqlarında Bəhram Mansurov, Əhməd Bakıxanov, Hacı Məmmədov, Adil Gəray, Oqtay Quliyev, Sərvər İbrahimov kimi mogikanlardan muğamın sirlərini, ifa texnikasını və xanəndəni müşayiət formalarını mənimsəyərək canına hopdurur. Mədəni Maarif Texnikumunu bitirən kimi tar aləti üzrə ixtisas müəllimi (1971-1993), Bakı Musiqi Akademiyasında baş müəllim, dosent kimi (1988-2001) fəaliyyət göstərən Vamiq Məmmədəliyev 2001-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində açılmaqda olan musiqi sənəti fakültəsinə dekan vəzifəsinə dəvət olunur. O vaxtdan bu günədək rəhbər kimi çalışaraq fakültənin qurulmasında gərgin əmək sərf edən Vamiq Məmmədəliyev yaradıcılıqdan da kənar qalmır. Onlarla elmi məqalə, metodik göstərişlər tədris proqramları tərtib etməklə bərabər, mövcud kütləvi informasiya vasitələrində fəal iştirak edir. Gənc xanəndə və müşayiətçilər yetişməsində, onların xalq tərəfindən tanınmasında, meydan üzü görməsində yardımçı

olaraq xeyirxah işlər görür.

Azərbaycan radiosunda Vamiq Məmmədəliyevin ifasıyla lentə alınan "Bayatı Şiraz", "Humayun", "Rahab", "Xaric Segah", "Bayatı Qacar", "Nəva" muğamları qızıl fonda daxil edilərək gələcək nəsillərə ərməğan kimi qiymətləndirilir. Həmin dövrlərdə demək olar ki, bütün xanəndələri Yaqub Məmmədov, Hacıbala Hüseynov, Əbülfət Əliyev, Arif Babayev, Canəli Əkbərov, Ağaxan Abdullayev, Alim Qasımov, Zahid Quliyev, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Qəndab Quliyeva, Könül Xasıyeva, Nazpəri Dostəliyeva və s. müşayiət etmiş Vamiq Məmmədəliyev nəinki konsertlərdə, dövlət televiziyasında, qastrol səfərlərdə, festivallarda uğurla çıxış edərək, ödüllərə layiq görülür. 1985-ci ildə Ümumittifaq "Melodiya" firması Vamiq Məmmədəliyevin ifasında "Xaric Segah" və "Rahab" muğamlarını lentə alaraq yüksək tirajla çap edir. 1989-cu ildə İsveçdə keçirilən "Falun Folkmisus Festival" folklor festivalda uğurla çıxış edərək birinci yerə layiq görülür və digər Avropa ölkələrinə dəvətlər alır. 1994-cü ildə Fransanın "Maison De's Cuktures Du Monde" şirkəti Vamiq Məmmədəliyevin ifasında Nəva və Rahab muğamlarını və onun müşayiətilə Qəndab Quliyevanı və Canəli Əkbərovu lentə alır. 1996-cı ildə Vamiq Məmmədəliyev kompakt-disklərin təqdimatından ötrü Fransaya dəvət alır. 1996-1997-ci illərdə Avropa ölkələrində bu albomlar yüksək tirajla yayılır. Dəfələrlə İran İslam Respublikasında, Türkiyə Cümhuriyyətində (Hacı Bektaş Vəlinin 500 illiyində), İraqda (Babilistan festivalında), Danimarkada, Rusiya Federasiyasının bir çox şəhərlərində, Ukrayna Respublikasında keçirilən tədbirlərdə

uğurla çıxış etmiş, konsertlər vermişdir.

Kürdəxanıda el şənliklərini musiqi gecələrinə, muğam axşamlarına çevirən V.Məmmədəliyev uzun müddət müşayiətçi qismində ustad xanəndələri müşayiət etmiş, kəndin ağsaqqalları və muğam biliciləri arasında rəğbət qazanmışdır. O deyir ki, "cavan vaxtlarında qardaşım Vasimlə birlikdə toy məclislərinə dinləyici kimi daxil olanda xanəndə və musiqiçilər bizim muğam bilicisi olduğumuza böyük qiymət verər, dəsgahı başlamazdan əvvəl ehtiramla adımızı çəkib sonra oxuyardılar. Hətta yaşlılar arasında muğamın guşələri üzərində mübahisə düşəndə belə "doktorun oğlu Vamiqi çağırın" deyib mənim fikrimi dinləyər və razılaşardılar". Bu ənənə hazırda nəinki Kürdəxanıda, hətta bütün Abşeronda davam etməkdədir. Ən mübahisəli məsələlərdə son söz həmişə Vamiq Məmmədəliyevin olur. Bundan əlavə, Vamiq kəndin aztəminatlı ailələrinin toy məclislərində valideynlərin arzu və istəklərini hər zaman qiymətləndirib, onların imkanları xaricində olan məsələlərin həllini hər zaman öz üzərinə götürməyi bacaran insandır. Sovet dövründən bu günə kimi minlərlə gəncin toy mərasimlərinin Abşeronun ən yadda qalan muğam gecələrinə çevrilməsində Vamiq Məmmədəli oğlunun rolu əvəzsizdir.

Ölkəni qarış-qarış gəzən, bütün zonalarda – istər döyüş bölgəsində, istərsə də dinc rayonlarımızda keçirilən konsertlərdə iştirak edən Vamiq Məmmədəli oğlu Azərbaycanın musiqisevərləri, ziyalıları arasında da yaxşı tanınır.

2005-ci ildə ulu öndərimiz "Heydər Əliyev fondu"nda YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyət proqramına daxil olan Azərbaycan muğam-

ları layihəsinin müzakirəsi zamanı Vamiq Məmmədəliyev yaxından iştirak edərək öz arzu və tövsiyələrini sənət yoldaşları ilə bölüşür. Az sonra Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə ərsəyə gələn "Qarabağ xanəndələri" layihəsi Azərbaycan musiqi mədəniyyətinin inkişafında daha bir addım oldu. Vamiq Məmmədəliyev respublikada keçirilən müsabiqələrdə münsiflər heyətinin üzvü və sədri kimi də fəal ziyalı mövqeyini nümayiş etdirir. Bir sözlə musiqidən, qəzəliyyatdan, muğamlardan bəhs edən mədəni tədbirləri, xatirə gecələri, məclisləri Vamiq müəllimsiz təsəvvür etmək qeyri-mümkündür.

2006-cı ildə ölkə başçısı cənab İlham Əliyevin imzaladığı fəxri adlar siyahısında Vamiq Məmmədəliyevin adının olması tarzənin 60 illik yubileyinə töhfə oldu.

Hazırda başçılıq etdiyi kollektivdə sərbəst ünsiyyət, yaradıcı mühit, gənc musiqiçilərin yetişməsi, onların ifaçılıq üslublarının cilalanması, sağlam rəqabət Vamiq Məmmədəliyev kredosudur.

Vamiq Məmmədəliyev həm də gözəl ailə başçısıdır. Dörd övladı – üç oğlu, bir qızı var. Böyük oğlu İqbal Məmmədəliyev öz nəslinin tanınmış kino rejissorlarındandır. Ortancıl övladı Salam Məmmədəliyev televiziya rejissoru kimi bir neçə ildir ki, fəaliyyət göstərir. Üçüncü övladı Nərmin Məmmədəliyeva ingilis dili üzrə pedaqoq kimi Kürdəxanı qəsəbəsi 113 saylı orta məktəbdə müəllimlik fəaliyyətindədir. Kiçik övladı Qurban Məmmədəliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin sənətşünaslıq fakültəsində "nəşriyyat və redaktəetmə" ixtisası üzrə təhsilini davam etdirir. Bütün övladlarına verdiyi ali təhsil-

lə yanaşı Vamiq Məmmədəliyev ailəsinin timsalında bütün cəmiyyətə yararlı, zəhmətkeş insan olmağı aşılayan ata və ulu peyğəmbərimizin “beşikdən qəbrədək öyrən” kəlamını əsas prioritet kimi tutan şəxsiyyətdir.

## AXUND MƏŞHƏDİ ÇIRAĞƏLİ BALAĞA OĞLU QULUZADƏ



Quluzadə Məşhədi Çırağəli Balağa oğlu 1973-cü il fevralın 25-də Bakı şəhərində anadan olub. 1974-cü ildə anasını itirən Çırağəli iki bacısı ilə yalnız ata himayəsində qalır. Onun ailəsi 1978-ci ildə doğma kəndə, Kürdəxanıya köçür. Atasının filoloq olması Çırağəlinin bir ədəbiyyatsevər kimi yetişməsinə, şərqşünas olması oğlunun Şərq dünyasına bağlılığına, ərəb və fars dillərini bilməsi isə onun bu dillərə qarşı həvəsinə və sərbəst öyrənməsinə səbəb olur.

Hələ orta məktəbdə oxuyarkən 1989-cu ildə atasını da itirən Çırağəli çətinliklərlə üzləşir. Orta məktəbi bitirərək bir neçə il fərdi əməklə məşğul olur. Bu illər ərzində dini

ədəbiyyatın tapılmadığı dövrlərdə atasının kitabxanasında Xacə Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsəri əlinə keçir və bu əsər onun əxlaqına və əqidəsinə sirayət edəcək, onun həyatında böyük dönüş yaradır. Özünün dediyi kimi "Nəsirəddin Tusi mənim həyat və əxlaq müəllimimdir".

Müxtəlif kəslərdən bir neçə ay ibtidai dini dərslər aldıqdan sonra Çırağəli Maştağa qəsəbəsində yenicə açılmış "İmam Sadiq (ə.) mədrəsəsi"nə gəlib çıxır. Mədrəsədə təhsil aldığı müddətdə tələbələr arasında böyük hörmət qazanır və ustadı Kazim Məhəmmədidən dərs alaraq onun xüsusi diqqət mərkəzində olur. Gözəl səsə və avaza malik olan Çırağəli əvvəlcə camaat namazında azan oxumağa, sonra isə tələbələr arasında "Camaat namazının imamı" olmağa seçilir.

"İmam Sadiq (ə.)" mədrəsəsində "Sərf", "Nəhv" (ərəb qrammatikası) dərslərini mənimsəyir, "Fiqh", "Üsuli fiqh" və "Məntiq" elmlərini öyrənir.

Aldığı elmlər ustadı tərəfindən qənaətbəxş sayıldığına görə ona xüsusi libas və əmmamə təqdim olunur. Mədrəsəni fərqlənmə ilə bitirən Məşhədi Çırağəli kəndin camaatı tərəfindən Axund seçilir və 1998-ci ildən ictimai-dini borcunu öz fəaliyyəti ilə yerinə yetirməyə başlayır.

Hər gün gözəl avazla xalqı namaza səsləyən bu sadiq insan, babası Məşhədi Çırağəlinin dərvişlik sənətinə biganə deyil. O, bu sənətin sirlərinə maraq göstərir və müasir dövrümüzdə yayılmaqda olan "İlahilər" silsiləsi üzərində işləyir.

Axund Məşhədi Çırağəli gənc olmasına baxmayaraq xalqın hörmət və etibarını qazanmışdır.

# HACI ƏZİZAĞA ƏLİŞAN OĞLU



Hacı Əzizağa Əlişan oğlu 1943-cü ildə Bakı şəhərinin Kürdəxanı qəsəbəsində anadan olub.

1950-ci ildə Kürdəxanı 113 saylı orta məktəbin birinci sinfinə daxil olmuşdur.

1960-61-ci ildə həmin məktəbin 10-cu sinfini bitirib, həmin ildə Bakı Neft Texnikumuna daxil olmuşdur. 1964-cü ildə isə texnikumu bitirmişdir. 1964-cü ildə Leninneft neft-qazçıxarma İdarəsinə işə düzəlmişdir. Orda əvvəlcə fəhlə işləmiş, bir müddət keçəndən sonra isə onu baş usta müavini təyin etmişlər. 1974-cü ildən o, baş usta vəzifəsinə təyin olunur. O vaxtdan indiyə qədər Sabunçu rayonunun Balaxanı Neft-Qazçıxarma İdarəsində çalışır.

Əzizağa Əlişan oğlu gənc yaşlarından İslam dininə böyük hörməti olub. Gənc olmasına baxmayaraq o, məclislərdə gözəl səslə mərsiyələr oxuyub. Getdikcə onda islam dininə olan məhəbbət daha da artır və 1977-ci ildən başlayaraq yas məclislərində qəsidə oxumağa başlayır. Özünün dediyinə görə, Kürdəxanı kəndində çoxlu Əli (ə.) məddahları olub. Onlar olan məclislərdə Əzizağa onlarla birlikdə çox olub. Bu həvəs də demək olar ki, onlardan ona keçmişdir. Hazırda Əzizağa Əlişan oğlu məclislərdə gözəl qəsidələr, mərsiyələr oxuyur.

## HACI FAİQ İBRAHİM OĞLU



Hacı Faiq İbrahim oğlu 1979-cu ildə Bakının Kürdəxanı kəndində dindar bir ailədə anadan olmuşdur. O, orta təhsilini həmin kəndin 113 saylı orta məktəbində almışdır. O, hələ 10 yaşında öz anasından Qurani-Kərimi oxumağı öyrənmişdir. Sonralar orta məktəbi qurtardıqdan sonra Maştağadakı İmam Cəfəri-Sadiq adına mədrəsəyə daxil olur. Həmin mədrəsəni oxuya-oxuya Bakı İslam Universitetinə daxil olur. Həmin universiteti 2002-ci ildə qırmızı diplom ilə bitirir. Hazırda tələbələri var. Qurani-Kərimdən, şəriətdən, əqaiddən dərs deyir.

## RAFİQ RZAQULU OĞLU RZAYEV



Bakı Dövlət Universitetinin professor-müəllim heyəti uzun illər keçməsinə baxmayaraq hərtərəfli dünyagörüşə malik, savadlı, biliyinə arxalanıb müəlllimlərilə bəhsə girən, heç nədən çəkinrmədən dediyini sübuta yetirən «Bakılı balası» adlandırdıqları tələbəni hələ də unutmayıblar. Tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə deyir ki, Rafiq tarix fakültəsinin ən sayılıb-seçilən tələbələrindən idi. Biz onun simasında gələcəyin alimini, Azərbaycan tarixinin tədqiqatçısını görürdük. Ona böyük ümidlər bəsləyirdik. Təəssüf ki o, elm yolunu seçmədi.

Taledən, qismətdən qaçmaq olmaz. Görünür Allah-təala onu ata-baba yurdunun dərd-sərini, qayğısını çəkmək üçün dünyaya gətirib.

Rafiq Rzayev 1982-ci ildə universiteti bitirəndən sonra Kürdəxanı kəndindəki 113 saylı məktəbdə tarix fənnini tədris etməyə başlayıb. Şagirdlərində Azərbaycan tarixinə maraq və məhəbbət oyatmaq üçün əlindən gələni əsirgəməyib. Onun şagirdlərindən indi həmin məktəbdə tarix müəllimi kimi çalışanlar da var.

1993-cü ildə Rafiq Rzaqulu oblu Rzayev Abşeron Meyvə Tingliyi üzrə DKT istehsal müəssisəsinə direktor vəzifəsinə təyin olunub. Müəssisədə çalışdıbı 12 il ərzində öz bacarığı, zəhmətsevərliyi ilə həmişə rəhbərliyin diqqətini cəlb edib. Rafiq müəllim 2005-ci ildən Sabunçu rayon İcra başçısının Kürdəxanı qəsəbəsi üzrə nümayəndəsidir. Bu illər ərzində o, kəndlə bağlı bir çox problemlərin həllinə nail olub.

Prezident İlham Əliyevin 2005-ci il noyabrın 2-də «Bakı və Bakı ətrafı kəndlərin iqtisadi problemlərinə dair» keçirdiyi müşavirədə Rafıq müəllimin məntiqli çıxışı respublika rəhbərinin diqqətini cəlb etmişdi. O, çıxışında Sabunçu rayonunda görülən işlər və nöqsanlar barədə məlumat vermişdi. Kürdəxanı kəndində səhiyyə ocağının, uşaq bağçasının, məktəbin bərbad vəziyyəti, yeni iş yerlərinin açılmasının zəruriliyi, Zabrat kəndində məktəb və xəstəxanaya olan ehtiyac, vaxtilə nefti ilə məşhur olan Balaxanının zibilliyə çevrilməsi məruzədə öz əksini tapmışdı. Cənab Prezident qısa müddət ərzində bu nöqsanların aradan qaldırılmasına nail oldu.

Kürdəxanı camaatı bunun şahididir. Kürdəxanıda 1971-ci ildə tikilmiş məktəb əsaslı şəkildə təmir olundu. Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və birbaşa qayğısı ilə iki mərtəbəli sağlamlıq mərkəzi, 120 yerlik uşaq bağçası tikilib kürdəxanılıların istifadəsinə verildi. Təcili yardım stansiyası yaradıldı. Süd məhsullarının emalı zavodunun tikilməsi isə yeni iş yerlərinin açılması deməkdir. Kürdəxanı və Pirşağı kəndləri arasında idman kompleksinin tikilməsi idmançılarımıza olan qayğının təzahürüdür. İri tipli ATS, müasir poçt xidməti, yeni mədə-

niyyət evidə kürdəxanıların istifadəsinə veriləcək. Prezidentin fərmanına əsasən 2009-13-cü illər ərzində qəsəbə tam kanalizasiya xətləri ilə təmin olunacaq. Rafiq Rzaqulu oğlu Rzayev artıq 25 ilə yaxındır ki, Kürdəxanıda çalışır. Şəhərdə yaşasa da hər gün 20 km yolu Kürdəxanıya gedir. O, öz həyatını Kürdəxanısız təsəvvür etmir.

Rafiq müəllim ailəlidir. İki oğlu var. Həyat yoldaşı İradə xanım 99 saylı orta məktəbdə rus dilini tədris edir. Böyük oğlu Rəşad Bakı Slavyan Universitetinin regionşünaslıq fakültəsinin məzunudur. Kiçik oğlu Fərhad isə Texniki Universitetin «Yerüstü nəqliyyatın istismarı» fakültəsini bitirib, öz ixtisası üzrə çalışır.

## SOLMAZ NAMƏLİ QIZI MƏMMƏDOVA



Məmmədova Solmaz Naməli qızı 1948-ci il avqustun 1-də Kürdəxanı kəndində anadan olmuşdur. 1955-ci ildə kənddəki 113 saylı orta məktəbinə daxil olmuş, 1965-ci ildə orta məktəbi bitirmişdir.

1966-1967-ci illərdə 113 saylı məktəbdə katibə və laborant vəzifəsində işləmişdir.

1968-ci ildə V.İ.Lenin adına ADPİ-yə qəbul olub, 1974-cü ildə ali məktəbi qurtarmışdır.

1973-cü ildən 2005-ci ilə kimi 113 saylı orta məktəbdə

ibtidai sinif müəllimi işləmişdir.

2005-ci ildən hazıra kimi 113 saylı orta məktəbdə direktor vəzifəsində çalışır.

Ailə üzvləri aşağıdakılardan ibarətdir:

1. Həyat yoldaşı – Məmmədov Bəhram Məmməd oğlu – Azərbaycan Nəqliyyat İstehsalat Birliyində mühəndis vəzifəsində işləyir.

2. Oğlanları: Məmmədov Mayıl Bəhram oğlu – ali təhsillidir, Ədliyyə Nazirliyində baş əməliyyat müvəkkili vəzifəsində çalışır. Məmmədov Elman Bəhram oğlu Sabunçu rayonu Maştağa qaz istehsalat Birliyində usta vəzifəsində işləyir, ali təhsillidir.

Məmmədov Zaur Bəhram oğlu – natamam ali təhsilli, işləyir. Məmmədov Rəşad Bəhram oğlu – alitəhsilli, Nizami rayon Qaz İstehsalat Birliyində çilingər işləyir.

## MƏSİMOVA XALİDƏ ÜMMƏT QIZI



Məsimova Xalidə Ümmət qızı 1938-ci il sentyabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1946-cı ildə Bakı şəhərindəki 14 nömrəli məktəbə daxil olmuş, 1956-cı ildə həmin məktəbi bitirmişdir. 1961-ci ildə M.F.Axundov adına APİ-yə qəbul olmuş (ingilis dili fakültəsinə), 1966-cı ildə həmin ali məktəbi bitirmişdir. Elə

həmin ildən də Kürdəxanı qəsəbəsindəki H.Ağaverdiyev adına 113 saylı orta məktəbə ingilis dili müəllimi təyin edilmişdir.

1989-cu ildə "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

## ABBASQULU MƏŞHƏDİ HÜSEYNAĞA OĞLU ABBASQULİYEV



Abbasqulu Abbasquliyev Məşhədi Hüseynağa oğlu 1931-ci ildə Bakının Kürdəxanı kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində almışdır. Sonra 1952-ci ildə 26 Bakı komissarı adına Tibilisi məktəbinə daxil olmuş və 1955-ci ildə oranı bitirmişdir. 30 il ordu sıralarında xidmət etmişdir. Hazırda təqaüddədir.

# ƏHMƏDOV HÜSEYN ƏLİƏKBƏR OĞLU



Əhmədov Hüseyn Əliəkbər oğlu 1959-cu il noyabrın 5-də Ukrayna Respublikasının Dnepropetrovsk vilayətinin Krivoy-Roq şəhərində anadan olmuşdur.

1967-ci ildə Vinnetsa şəhərində 12 saylı orta məktəbə daxil olmuşdur. 1975-ci ilə qədər həmin məktəbdə natamam orta təhsil almışdır. Elə həmin il Vinnitsa şəhərində Vinnitsa Politexnik Texnikumuna daxil olmuşdur.

1979-cu ilə qədər həmin texnikumda təhsil almışdır.

1979-cu ildən 1981-ci ilədək sovet ordusunda müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

1981-ci ilədək Vinnetsa Politexnik İnstitutuna daxil olmuş, həmin ildə Vinnetsa şəhərindən ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür.

1985-ci ildən 1992-ci ilədək Sovet Ordusunda xidmət etmişdir.

1992-ci ildən indiyə kimi Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət edir.

Hazırda Müdafiə Nazirliyinin Rabitə və AİS idarəsində

xidmətini davam etdirir. Hərbi rütbəsi polkovnik-leytenantdır, medal və fəxri fərmanlarla təltif olunmuşdur.

1989-cu ildə ailə qurmuşdur. Həyat yoldaşı Əhmədova Nazimə Beydulla qızıdır.

İki övladı var.

## QASIMZADƏ İLHAM NİYAZİ OĞLU



Qasımzadə İlham Niyazi oğlu 1966-cı ildə Bakıda doğulub.

Bakı Dövlət Universiteti və Azərbaycan İqtisad Universitetini bitirib.

1992-ci ildə DİN Daxili Qoşunlarının tərkibində erməni işğalçılarına qarşı vuruşub. Qarabağ müharibəsi veteranıdır, hüquq-mühafizə orqanlarında polkovnik-leytenant rütbəsinə qədər yüksəlib.

Evlidir, iki övladı var.

# QASIMOVA ELMİRA KAMİL QIZI



Elmira Qasımova 1944-cü il avqustun 18-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 132 salı şəhər məktəbində (1951-1961) almış, 1976-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib (1962-1967), filoloq və dil-ədəbiyyat müəllimi ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə müəllim kimi başlayan E.Qasımova onu az sonra – 1968-ci ildən AR MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun mətnşünaslıq şöbəsində davam etdirmişdir.

Ərəb qrafikasını bilməsi E.Qasımovanın qısa bir müddətdə məşhur "Molla Nəsrəddin" jurnalının yaxşı tədqiqatçılarından olmasına imkan vermişdir.

O, mətnşünaslığın nəzəri və təcrübi problemləri ilə məşğul olmuş, ilk dəfə olaraq atribusiya kimi bir sahənin tədqiqinə başlamışdır. "Cəlil Məmmədquluzadənin gizli imzaları" adlı bir əsər 1984-cü ildə namizədlik dissertasiyası kimi müdafiə olunmuş, onun müəllifinə filologiya elmləri namizədi adı vermişdir.

# ZEMFİRA RZAQULU QIZI RZAYEVA



Respublikamızda jurnalistlər arasında Zemfira xanım öz dəsti-xətti, orijinal yaradıcılıq yolu ilə seçilir. Vətəninə, xüsusilə doğma Bakıya məhəbbət, tariximizə, ulu keçmişimizə ehtiram, xeyirxah və yaradıcı insanlara sevgi onun əsas həyat amalıdır.

Azərbaycan Dövlət Universitetində (BDU) oxuduğu illərdə görkəmli ədəbiyyatşünas və dilçi alimlərin – Mir Cəlal, Bəxtiyar Vahabzadə, Abbas Zamanov, Əkbər Ağayev, Muxtar Hüseynzadə, Səlim Cəfərov, Fərhad Zeynalovun mühazirələrini dinləyən gənc tələbədə yaradıcılığa böyük həvəs oyanıb. Universiteti bitirdikdən sonra «Azərbaycan gəncləri» qəzetində fəaliyyətə başlayıb, eyni zamanda Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin «Gənclik» redaksiyasında «Sənin həyatda izin» verilişinin hazırlanmasında fəal iştirak edib. 1984-cü ildən həyatını həmişəlik televiziya ilə bağlayıb. Eyni zamanda mətbuatda – «Azərbaycan gəncləri», «Bakı», «Ədəbiyyat və incəsənət» qəzetlərində, «Qobustan» jurnalında müxtəlif mövzulu məqalələrlə çıxış edib. 1988-

ci ildə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin adının belə çəkilmədiyi bir vaxtda bu böyük insan haqqında 50 dəqiqəlik veriliş hazırlayıb. Hacının qızı Sara xanım icazə vermədiyi üçün Zemfira xanım onu gizli lentə alıb. Azərbaycan xalqı böyük messanatın cəfakeş övladını ilk dəfə bu veriliş vasitəsilə görüb. Veriliş hazır olmasına baxmayaraq, 1 ildən çox davam edən çəkişmə və təzyiqlərdən sonra 1989-cu il oktyabrın 8-də efirə gedib. 1989-cu ilin fevralında görkəmli alim, akademik Ziya Bünyadov haqqında hazırlanan veriliş də ay yarımdan sonra efirə gedib. Rəhbərlik Ziya Bünyadov haqqında hazırlanan verilişin efirə getməsindən nədənsə ehtiyat edib. Çəkiliş zamanı hörmətli akademik etiraf edib: «Son dəfə 1974-cü ildə televiziyaya dəvət olunmuşam. O vaxtdan yada düşməmişəm. 15 ildən sonra siz buna cəsarət etdiniz». 1990-cı il 20 yanvar faciəsilə bağlı Ramiz Fətəliyevin hazırladığı bir saatlıq filmdə Zemfira xanımın da böyük əməyi var. 1991-ci ildə «Ədəbiyyat və incəsənət» qəzetinin redaktoru, hörmətli şairimiz Nəriman Həsənzadə onun 20 yanvar faciəsinə həsr olunmuş «Qızıl qərənfillər» məqaləsini oxuyarkən gözləri yaşarmış, məqalə dərc olunandan sonra böyük maraq doğurmuşdu. Zemfira Rzayevanın hazırladığı «Yurd yaddaşı», sonralar «Zamanın sorağında» verilişi öz aktuallığı, prinsipiallığı ilə həmişə seçilib. Qədim İçərişəhər, kapitalist Bakısı, neft milyonçuları Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Aşurbəyovlar, Hacınskilər, Dadaşovlar haqqında hazırladığı verilişlər ulu keçmişimizi, tariximizi, xeyirxah əməllərilə həyatda iz qoymuş əməlisaleh insanları unutmamağa çağırır. Azərbaycan memarlığının tarixi və

memarla-rımızın fəaliyyəti «Zamanın sorağında» verilişinin əsas mövzu-larındandır. Bakının ilk baş memarı, daşnak tör-töküntülərinin təzyiqinə dözməyib intihar edən Zivər bəy Əhmədbəyov, xalq memarı, keçmiş SSRİ-də ilk və yeganə Sosialist Əməyi Qəhrəmanı, 200-dən çox layihəsi həyata keçən, doğma Bakımızı bəzəyən gözəl arxitekturalı binaların müəllifi akademik Mikayıl Hüseynov, memarlıq doktorları, Qəzənfər Əlizadə, Ənvər Qasımzadə, 70-ci illərdə Bakının baş memarı olmuş Hənifə Ələsgərov haqqında, «Heydər Əliyev və Azərbaycan memarlığı» mövzusunda silsilə verilişlər tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Memarlıq bəşəriyyətin daşda yazılmış tarixidir. Dünyanın 7 möcüzəsinin hamısı bilavasitə memarlıq sənətilə bağlıdır. Bakının memarlıq simasında əmələ gələn xaotiklik, sifarişçi-memar münasibətləri, paytaxtın memarlıq simasının, şəhərsalma normalarının pozulması, memar cavabdehliyi, memar məsuliyyətinə həsr olunan aktual, ciddi elmi-publisistik yanaşma tələb edən proqramlar uğurlu televiziya həlli, professional teletəqdimatı ilə memarların dərin rəğbətini qazanıb.

Azərbaycan Memarlar İttifaqı, Memarlıq və Şəhərsalma Baş İdarəsi istər mətbuat, istərsə də televiziya rəhbərliyinə məktub göndərməklə bu verilişlərə müsbət rəylərini dönə-dönə bildirmişlər.

İslam mövzusu Zemfira xanımın yaradıcılığında əsas yerlərdən birini tutur. Şəhidliyi ilə İslamı xilas edən, «Əgər qiyam etməsəm İslamın fatihəsi oxunmalıdır» deyən İmam Hüseyn, on ikinci imam Mehdi Sahibəzzaman, kamillik və müdriklik mücəssəməsi olan Həzrət Əli, xalqımızın inam

və tnanc yeri olan Mir Möhsün ağa, VII İmam Museyi-Kazımın qızının dəfn olunduğu Bibiheybət məbədgahının tarixi, Azərbaycan Cümhuriyyətinin ilk şeyxülislamı Ağa Əlizadəyə həsr olunmuş verilişlərlə müəllif müqəddəs İslam dininin ümumbəşəri dəyərlərini, əxlaqi keyfiyyətlərini tamaşaçıya çatdırmağa çalışıb.

Stalin dövrünün haqsız qurbanları - yazıçı Seyid Hüseyn, onun həyat yoldaşı Məhəmmədəmin Rəsulzadənin yaxın qohumu, istiqlal şairəsi Ümgülsüm, Yusif Vəzir Çəmənzəminli, Azərbaycan KP MK-nın katibi, Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri, «Azərneft» Birliyinin rəis müavini, 1935-ci ildən Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavini, Kürdəxanı camaatının «narkom Hüseynbala» kimi xatırladığı Hüseynbala Ağaverdiyev haqqında hazırlanan verilişlər bu vətənpərvər insanların şərəfli, çətin ömür-tale yollarını öyrənmək, gələcək nəsillərə çatdırmaq məqsədinə xidmət edir. 2008-ci il fevralın 22-də 180 ili tamam olan; xalqımızı iki yerə parçalayan bədnam Türkmənçay muqaviləsi, Azərbaycan Cümhuriyyətinin Avropa ölkələrinə ali təhsil almağa göndərdiyi 100 nəfər tələbənin faciəli taleyi, Azərbaycan elminin və incəsənətinin inkişafında böyuk xidmətləri olan tarixçi alim Sara Aşurbəyli, məşhur dilçilər Muxtar Hüseynzadə, Abdulla Qarayev, musiqi tariximizin gözəl bilicisi Firudin Şuşalının həyat və fəaliyyəti də onun verilişlərində öz əksini tapıb. Hindistan, Pakistan kimi ekzotik ölkələrdə səfərdə olan Zemfira xanım həmin ölkələrin tarixi, mədəniyyəti, adət-ənənələrinə öz yaradıcı-lığında geniş yer ayırıb. Xüsusilə XVI əsrdə Hindistanda elmin, mədəniyyətin, memarlığın,

təsviri sənətin inkişafında böyük rol oynayan Böyük Moğol dövlətinə həsr olunmuş verilişlər türkçülüyün təbliğinə xidmət edir.

Zemfira Rzayeva 1991-ci ildə «Hacı Zeynalabdin Tağıyev» Xeyriyyə Cəmiyyətinin yaradılmasında fəal iştirak edib. Cəmiyyətin fəxri sədri o zaman hələ sağ olan Hacının qızı Sara xanım idi. Zemfira xanım həmin cəmiyyətin sədr müavinidir. 1982-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Zemfira Rzaqulu qızı Rzayeva hal-hazırda Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin «Ədəbi-dram verilişləri» baş redaksiyasında redaktor vəzifəsində çalışır.

Sənətdən, yaradıcılıqdan söhbət düşəndə Zemfira xanım deyir: «Televiziya mənim həyatımdır. Əgər yenidən dünyaya gəlsəydim, yenə televiziyanı seçərdim».

## ŞAHBAZOV EMİN BƏDƏL OĞLU



1978-ci ildə Bakı şəhərində anadan olub. 1994-cü ildə 178 saylı orta məktəbi bitirib. Həmin ildə Qərb Universitetinin siyasi elmlər fakültəsinə daxil olub və orada təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. 1999-cu ildə «Space» telekanalının müsabiqəsindən uğurla keçərək işə qəbul olunub – aparıcı jurnalist vəzifəsində çalışır.

## ƏZİZOV HÜSEYN EYVAZ OĞLU



1979-cu ildə anadan olub. Birinci Zabrat qəsəbəsindəki 192 saylı orta məktəbi bitirib. 1996-cı ildə Azərbaycan Beynəlxalq Universitetinin hüquqşünaslıq fakültəsini bitirib ANS Yayım Müstəqil Media Şirkətində müxbir, aparıcı və redaktor vəzifələrində çalışıb.

«Poçt qutusu», «Salam» və

«İç xəbər» verlişlərinin aparıcısı olub.

2005-ci ildən İctimai Televiziya və Radio Şirkətində Baş redaktor vəzifəsində çalışır. Həm də «Carçı» informasiya proqramının aparıcısıdır.

## HACI ƏLİKƏRİM NƏZİR OĞLU



Hacı Əlikərim Nəzir oğlu 1929-cu ildə Bakının Kürdəxanı kəndində dünyaya gəlmişdir.

İbtidai təhsilini Kürdəxanı kəndinin 113№-li orta məktəbində almışdır.

1953-cü ildə texnikuma daxil olub, 1957-ci ildə oranı bitirmişdir. 1953-cü ildən Qeo-fizika idarəsində əmək fəaliyyətinə başlamış, 1957-ci ildən həmin idarədə mühəndis vəzifəsində çalışmışdır. Hacı Əlikərim 1970-ci illərdə Kürdəxanı qəsəbə sovetinin sədri ikən kəndin sosial inkişafında xeyli işlər görmüşdür.

1988-ci ildə Geo-fizika idarəsində, baş mühəndis vəzifəsindən təqaüdə çıxmışdır. Hal-hazırda Kürdəxanı kəndinin fəaliyyətdə olan, aşağı məhəllə cümə məscidinin rəisidir.

Hacı Əlikərim çox xeyirxah insandır. Kəndin bütün problemlərində canla-başla yaxından iştirak edir və problemlərin həll olunmasına səy göstərir. Ona görə də kənddə bir ağsaqqal kimi, hamının hörmətini qazanıb.

Ona həyatda cansağlığı arzulayırıq.

## MƏŞHƏDİ SEYFƏDDİN ABİDİN OĞLU



Şərq ölkələrinin özünəməxsus adət-ənənələrindən sayılan, xalq təbabətinin ən qocaman peşələrindən biri olan, əsrlərlə, qərinələrlə yaşı olan mərasim, bu gün də müsəlmanların ən vacib saydığı bir ritual var ki, ona da sünnət deyərlər. Şifahi xalq ədəbiyyatı nümunələri kimi dildən-dilə ötürülən, yaddaşdan-yaddaşa keçən bir tərzdə yazılır bu xalq sənəti. Nə bir xüsusi məktəbi, nə də yazılı qayda-qanunları var bu sənətin. Əsas məsələ odur ki, əlin yüngül olsun, tədbirli, çevik, cəld olasan. Az adam tapılar ki, bütün bu keyfiyyətləri özündə birləşdirsin. Amma Seyfəddin Abidin oğluna nəsib olub.

Məşhədi Seyfəddin Abidin oğlu 1953-cü ildə Kürdəxa-

nıda anadan olub. Çoxuşaqlı ailənin ilk övladı olan Seyfəddin uşaq yaşlarından müxtəlif peşələrə maraq göstərib. Orta məktəbi bitirdikdən sonra zavodda çalışıb. Bununla bərabər kəndin məişətində elə bir iş tapılmazdı ki, Seyfəddin ona baş qoşmasın.

Avtomobil təmirindən tutmuş, ev tikilişinədək olan bütün iş proseslərində olduqca peşəkar, səliqəli, bir sözlə, əsil sənətkar mövqeyi nümayiş etdirir. Bəlkə də bu səbəbdən son 10 ildə öyrəndiyi sünnət eləmək sənəti çoxlarında alınmadığı halda Məşhədi Seyfəddində alındı. Ondan əvvəllər də kənddə bu sənətin mahir biliciləri olmuşdu: mərhum hacı Əlzulla, Ənbiya Xanbaba oğlu. Məşhədi Seyfəddinin ilk müəllimi də elə Ənbiya kişi olmuşdu. Ənbiya Xanbaba oğlu bütün Abşeronda tanınmış sənətkar idi. Məhz onun əlindən su içmiş Məşhədi Seyfəddin həmin ənənənin layiqli davamçısı, sadə, xeyirxah bir adamdır. Onun ən ümdə keyfiyyətlərindən biri də təmənnasız olmağıdır. Gördüyü hər hansı bir işdə öz mənfəətini üstün tutmayan, nəfsi tox, sözü bütöv bir adamdır Məşhədi Seyfəddin. Öz sənəti ilə bacardığı qədər kəndin kasıblarına, imkansız ailələrinə əl tutur. Kəndin məscidinin əsaslı təmirində elektrik naqilləri ilə bağlı bütün işləri, istilik sistemini təmənnasız ehsanat deyib reallaşdıran Məşhədi Seyfəddin bu dünyada öz axirətini qazananlardandır. Bir sözlə, Kürdəxanı qəsəbəsində hansı məhəllədə, hansı qohum-əqrəbada kütləvi yardıma ehtiyac duyulursa, Məşhədi Seyfəddin birincilərdən olur.

Ailəlidir, üç övladı var.

# HACI ŞƏMSİ ABİDİN OĞLU



Ötən əsrin 50-ci illəri Azərbaycan Sovet Sosialist Respublikasında yaşanan həyatın keşməkeşləri, acısı-şirini Kürdəxanıdan da yan ötmürdü. Şəhər mərkəzi ilə o qədər də uzun məsafədə olmayan Kürdəxanı kəndimizin sakinlərinə məxsus bağ sahələri kolxozlara verilir, Abşeronda məşhur olan "qara şanı" üzüm sortu, o cümlədən əncir, heyva, nar, albalı bağları tədricən tərk olub gedirdi. Vaxtilə təsərrüfatı – torpaqla özünə güzəran quran, bağların meyvəsi ilə ailəsini dolandıran zəhmətkeş adamlar məcbur olub zavodlarda, fabriklərdə çalışırdılar ki, evdə kasadlıq olmasın. Belə vaxtda, hətta ikinci cahan müharibəsinin yarası qaysaq bağlayan məqamda dünyaya gəldi Şəmsi. Kürdəxanıda, 1958-ci ildə Abidin kişinin zəhmətkeş ailəsində. Ağlı kəsəndən, ağı-qaradan seçməyə başlayandan əziyyətə qatlaşdı. Düşdüyü mühitin havasına uyğun olaraq Şəmsi də uşaq yaşlarından təsərrüfata bağlandı. Bununla bərabər məktəbdə də oxudu və 1974-cü ildə 113 saylı Kürdəxanı kənd məktəbini bitirdi. 1977-ci ildə hərbi xidmətə çağırılan gəncin təyinatı Moskva ətrafında Kostroma şəhərinə oldu. İki ili keçər-keçməz 1979-cu ildə xidmətdən qayıdan Şəm-

si qarşısına məqsəd qoyur ki, avtomobil elektriki olsun. Nə az, nə çox – düz 18 il bu sahədə çalışıb mütəxəssis olur.

Azərbaycan müstəqillik qazandıqdan sonra qəsəbədə fəaliyyətə başlayan ilk sahibkarlardan biri də Şəmsi olur. Belə ki, 1990-cı ildə mağaza açıb əhaliyə xidmət üçün əlindən gələni eləyir ki, kimsə alış-veriş üçün yol ölçərək kəndlərə, şəhərə üz tutmasın. Bununla bərabər xeyriyyəçi, mesenat olmağa da cəhd edir. Gördüyü ilk işlərdən biri şəhər şosesi kənarında təməli qoyulan ilk yolkənarı quyu olur. Pirşağı-Qızılqum, dənizkənarı bağlar və şəhər istiqamətində hərəkət edən yolçular üçün ehsan olaraq 1996-cı ildən xidmətdə olan bu quyu Abşeronun qızmar yay günlərində insanlar üçün misilsiz su mənbəyinə çevrilmişdir.

2006-cı ildə Allahın izni ilə Həcc ziyarəti Şəmsi Abidin oğluna qismət olur. İslamın sütunu sayılan müqəddəs Məkkə şəhərində Allah elçisi, sonuncu peyğəmbərimiz Həzrət Məhəmmədin (s.v.) və eləcə də övliyalarının məzarını ziyarət edib müsəlman borcunu yerinə yetirən Hacı Şəmsi elinə-obasına qayıtdıqdan sonra xeyirxah əməllərin sayını daha da artırır. XIV əsr islam abidəsi olan Kürdəxanı kənd məscidinin qəza vəziyyətinin aradan qaldırılması üçün təşəbbüs göstərən digər xeyriyyəçi sakinlər kimi Hacı Şəmsi də öz köməyini əsirgəmir. Məscidin əsaslı təmirində maddi yardım göstərənlərdən biri olur.

Hələ Həcc ziyarətindən əvvəl kasıblara, imkansızlara əl tutan, bayramlarda, xüsusilə Ramazan, Qurban bayramlarında ehsan deyib azuqə paylayan, xüms-zəkat verən Hacı Şəmsi kənd camaatının gözündə əməlisaleh adam kimi tanınır.

Ailəlidir, üç övladı var.

# KAMAL MÜSLÜM OĞLU POLADOV



Müslim Bəydəmir oğlu Poladovun kiçik oğlu Kamal Poladov 1950-ci ildə anadan olub. 1968-ci ildə 99№-li orta məktəbi bitirəndən sonra, atasının davamçısı kimi Azərbaycan Neft-Kimya İnstitutunun neft-mədən fakültəsinə daxil olub. «Neft-qaz yataqlarının işlənməsi və istismarı» ixtisasına yiyələnib. Keçmiş «Kirovneft» Neft-Qaz Çıxartma idarəsində fəhlə vəzifəsində işə düzəlib. Fəhləlikdən baş mühəndis vəzifəsinə qədər yüksəlib. Sonra «Azərneft» Birliyində şöbə müdiri, «Şirvanneft» Neft-Qaz Çıxarma idarəsinin rəisi, «Balaxanınneft» Neft-Qaz Çıxarma idarəsində baş mühəndis vəzifəsində işləyib. Hal-hazırda təqaüddədir.



**Hacı Casim Əlisöhbət oğlu Muxtarov**

## KİTAB HAQQINDA SON SÖZ

Bismillahir-rəhmanir-rəhim!

Məni həmişə bir fikir narahat edib. Bu fikir, bu narahatçılıq kəndimin tarixi, bu günü və gələcəyi ilə bağlıdır. Dünyamızın gərgin və mürəkkəb vəziyyətini, insanların bir-birinə qarşı laqeydliyini və inamsızlığını gördükcə düşünürəm ki, görən bizdən sonra gələn nəsil ulu babalarının keçdiyi tarixi yolu, yaratdıqları adət-ənənələri, qoyub getdikləri mənəvi irsi unutmayacaqlar ki?! Və yaxud bu sərvətlərin unudulmaması üçün bizlər nə etmişik və ya nə etməliyik?!

Axı bu kəndin Məşhədi Adilləri, Axund Qasımları olub, torpaqlarımızı qanları, canları bahasına qoruyublar. Kəlbhüseynlər kəndin təəssübünü çəkib, Məşhədi Məzahirlər, Məşhədi Hüseynağalar imanları, kişilikləri ilə kəndin iftixar mənbəyinə çevriliblər. Biz onların ənənələrini yaşatmalı, gələcək nəslə çatdırmalıyıq. Ona görə də Kürdəxanı kəndi haqqında bir ensiklopedik toplunun tərtib olunmasını vacib bildim. Allaha şükür ki, dünya halalzadə insanlardan xali deyil. Bu nəcib insanların mənə kitabın hazırlanmasında xeyir-dua verməsi adi təşəbbüsün reallığa çevrilməsinə səbəb oldu. «Kürdəxanı» ensiklopedik toplusu nəşr olundu. Bu ilk kitab olduğu üçün yəqin ki, lazımi səviyyədə kamil və dolğun ola bilməz. İnşallah, gələcəkdə bu işi davam etdirən, kəndimiz haqqında bilgiləri zənginləşdirən, həqiqi təəssübkeş insanlar tapılacaq. Ümidvaram ki, kənd camaatı əvvəlki ənənəni bərpa edəcək, itirdiklərini geri qaytaracaq, Kürdəxanıda həqiqi imanlı, əqidəli şəxsiyyətlər yetişməkdə davam edəcək. Yəqin ki, mənim arzum və fikirlərimlə razılaşanlar tapılacaq. Məsəl var, deyərlər – Su gələn arxa bir də gələr.

Peyğəmbər buyurub ki, insan dünya işləri gördüyü zaman düşünsün: daima yaşayacaq. İbadətlə məşğul olduğu zaman isə düşünməli: onu dəfn edirlər.

Buradan məlum olur ki, insan nikbin və işgüzar, o cümlədən Allahın bütün imtahanlarına hazır olmalıdır. Həqiqətən də Allah Adildir. İmanımız olsa əgər, O da ədalətini əsirgəməz.

«Kürdəxanı» ensiklopedik toplusunun hazırlanmasında mənə yaxından kömək edən şair Kərbəlayi Ənvər Nəzərliyə, akademik Hacı Vasim Məmmədəliyevə, professor Nisəxanım Ağayevaya, tarix elmləri namizədi İdris Əliyevə, doktor Aydın Əlizadəyə, etnoqraf-alim Təvəkkül Şağaniyə,

şair Hacı Arif Buzovnalıya, Hacı Hafiz Kərbəlayi Nadir oğluna, Məşhədi Qasim Əlisöhbət oğluna və Nazim Nəcəf oğluna dərin təşəkkürümü bildirirəm.

Əziz dostum və qardaşım Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadənin «Kürdəxanı» ensiklopedik toplusunun tərtibində xüsusi xidmətləri var. Bu imanlı şəxs fərq qoymadan Kürdəxanını öz doğma kəndi bilib, toplunun ərsəyə gəlməsinə qəlbən sevinib, qiymətli vaxtını və əməyini əsirgəməyib. Mən ona Allahdan cansağlığı və könül xoşluğu arzulayıram.

Bu işdə mənə kömək göstərən, mənimlə həmfikir olan Kürdəxanı camaatına və kitabın oxucularına minnətdarlığımı bildirirəm. Vəssəlamu-əleykum-vərəhmətullahi-vəbərəkatuh!

***Hacı Casim Əlisöhbət oğlu Muxtarov***

# MÜNDƏRİCAT

BƏSİRƏT ƏHLİ GÖRÜR ....................................................................3
KÜRDƏXANI HƏQİQƏTLƏRİ ........................................................6
BIÇAQÇI YOLU .........................................................................32
İGİDLƏR, QƏHRƏMANLAR MƏSKƏNİ .....................................34
O HAMIMIZIN DOSTU İDİ .........................................................47
"ƏXİ ZAVİYƏSİ"NİN KİTABƏSİ ..............................................57
ƏFŞƏRAN ABİDƏLƏRİ HAQQINDA MATERİALLAR ...............61
KÜRDƏXANI "CÜMƏ MƏSCİDİ"NİN KİTABƏLƏRİ ................64
KÜRDƏXANI KƏNDİNİN MƏSCİDİ ............................................66
ABŞERON DƏYİRMANLARI .......................................................69

**KÜRDƏXANILI MƏŞHƏDİ ADİL VƏ ONUN SİLAHDAŞLARI**

BAKIDA MİLLƏT MÜHARİBƏSİ...............................................76
İBRƏT MƏKTƏBİ .......................................................................79
QÜVVƏT ELMDƏDİR .................................................................83
QAÇAĞIN MİLYONÇU DOSTU ...................................................91
KÜRDƏXANILI MƏŞHƏDİ ADİL ...............................................94
ABBASQULU MƏŞHƏDİ HÜSEYNAĞA OĞLUNUN DEDİKLƏRİ ......97
MÜDAFİƏ ..................................................................................103
KÜRDƏXANILI QAÇAQ ADİL ..................................................107
MƏŞHƏDİ ADİLƏ İTHAFLAR ..................................................125
MƏŞHƏDİ ADİL .......................................................................126
MƏŞHƏDİ XOCABƏY KÜRDƏXANILI .....................................127
MƏŞHƏDİ QURBANQULU MUXTAR OĞLU ...........................128

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİNİN İŞTİRAKÇILARI


YUSİFZADƏ ŞƏRAFƏT SƏTTARBƏY QIZI .......................................... 130
ƏNBİYA XANBABA OĞLU ZÜLFÜQAROV .......................................... 132
ALLAHYAROV AZAN İBAD OĞLU........................................................ 135
MURADOV MƏMMƏDHÜSEYN HACIMURAD OĞLU........................ 137
MUSAYEV HACIBABA MƏLİK OĞLU ................................................. 140
MİRZƏYEV ƏLİƏSGƏR ƏLİMİRZƏ OĞLU ........................................... 141
ƏLİYEV QURBANHÜSEYN MÖVSÜMƏLİ OĞLU .............................. 142
HEYDƏRƏLİ SƏRHƏNG OĞLU ƏLİYEV ............................................. 143
QULİYEV ƏLİQULU MƏMMƏDQULU OĞLU ...................................... 146
AĞƏLİ MƏMMƏDKAZIM OĞLU .......................................................... 148
ƏLİKÖVSƏR ƏLİFƏTTAR OĞLU İMANVERDİYEV............................ 149
ƏLİYEV ƏBDÜL NƏCƏF OĞLU ........................................................... 151


## 1988-1994-cü İLLƏRDƏ QARABAĞ UĞRUNDA DÖYÜŞLƏRDƏ ŞƏHİD OLMUŞ KÜRDƏXANI KƏNDİNİN SAKİNLƏRİ


KÜRDƏXANI ŞƏHİDLƏRİ ....................................................................... 152
BAŞ LEYTENANT İLQAR ƏBDÜLHƏMİD OĞLU QULİYEV ............... 153
PAŞA DƏRDAYIL OĞLU NƏZƏROV ..................................................... 155
FAİZ ƏLİHEYDƏR OĞLU HEYDƏROV ................................................. 156
NATİQ RAYƏT OĞLU BABAYEV ......................................................... 157
FİKRƏT BƏHLUL OĞLU BABAYEV ..................................................... 158
İLQAR AĞA OĞLU ZÜLFÜQAROV ...................................................... 159
MÜBARİZ MÖHÜB OĞLU MƏMMƏDOV ............................................. 160
ŞƏHİD ..................................................................................................... 161

## SEYİDLƏR, RUHANİLƏR, DƏRVİŞLƏR, RÖVZƏXANLAR

MƏŞHƏDİ MİR SADIQ AĞA ....................163
MİR FAZİL AĞA ....................165
AXUND ŞEYX ƏBDÜLHÜSEYN MƏHƏMMƏDRZA OĞLU ....................166
KƏRBƏLAYİ MOLLA BƏŞİR ƏBUSALAM OĞLU ....................167
MƏŞHƏDİ HÜSEYNAĞA ABBASQULU OĞLU ....................168
MƏŞHƏDİ ƏLİAĞA FƏRƏCULLA OĞLU ....................170
MƏŞHƏDİ ÇIRAQƏLİ BALAĞA OĞLU ....................172
DƏRVİŞ MƏŞHƏDİ ÇIRAĞƏLİ ....................177
BƏGİ DADAŞBALA OĞLU ....................179
ƏLİSÖHBƏT İMANVERDİ OĞLU ....................183
DƏRVİŞ ƏLİSÖHBƏTİN XATİRƏ MƏCLİSİ ....................196
İMAN NURU ....................197
DƏRVİŞ ƏLİSÖHBƏT KÜRDƏXANILI ....................200
ALLAHDAN İSTƏSƏM VERƏR ....................201
SÜFRƏNİN XÜMSÜ VERİLİB? ....................202
ƏLİ (ə.) AŞİQİ, HÜSEYN (ə.) ƏZADARI ....................203
ALLAH YOLUNDA SABİTQƏDƏM OLMAQ ....................205
KƏRBƏLAYİ MƏHƏMMƏDVƏLİ HACI MAŞAN OĞLU ....................207
HACI ƏZİZULLA HACIBALA OĞLU ....................210
HÜCCƏTİL İSLAM SEYMUR ƏLİKƏRİM OĞLU ....................211
MOLLA FƏTULLAH MƏHƏMMƏD HƏSƏN OĞLU ....................212
CƏLİLOV CƏLİL HACI İBAD OĞLU ....................214
İSMAİL KƏRBƏLAYİ XANKİŞİ OĞLU ....................215
NƏZƏROV BAYRAMƏLİ TACİR OĞLU ....................216
KƏRBƏLAYİ GÜLFƏT NURU OĞLU ....................217
HÜSEYNƏLİ KƏRBƏLAYİ MƏLİK OĞLU ....................218
QULİYEV İMANQULU MƏMMƏDQULU OĞLU ....................219

## ŞAİRLƏR

KƏRBƏLAYI DADAŞ VASİF ....................................................................222
BABA DAĞI ..........................................................................................................228
BÜTÜN DÖVRLƏRİN ŞAİRİ ..................................................................241
BABA PÜNHANIN ŞEİRLƏRİNDƏN NÜMUNƏLƏR .........................248
KƏRİMOV RAHİB SAHİB OĞLU .........................................................262

## KÜRDƏXANININ XEYRİYYƏÇİLƏRİ

HACI CABBAR ...................................................................................265
HACI ƏBDÜRRƏHİM ABBASQULU OĞLU
VƏ OĞLU QULİYEV HACIBALA HAQQINDA ....................................267
HACI ZEYNAL ...................................................................................269
QASIMOV KƏRBƏLAYİ QASIMƏLİ QASIMƏLİ OĞLU .....................270
KƏRBƏLAYİ ƏMİRASLAN .....................................................................272
USTA SƏTTAR ƏLİ OĞLU .....................................................................275
DƏYİRMANÇI NƏRİMAN ƏLMAN OĞLU ...........................................277
SƏRHƏNG NADİRƏLİ OĞLU ................................................................278
SAFAYIL NOVRUZƏLİ OĞLU ...............................................................279
SARƏNC ƏLİMUXTAR OĞLU ...............................................................280
HÜSEYNOV ƏLİBALA MƏMMƏDRƏHİM OĞLU .................................281
QULİYEV HACI XUDAVERDİ MƏŞHƏDİ ƏJDƏR OĞLU ..................283
HACIBALA KƏRBƏLAYİ ƏLİ HÜSEYN OĞLU ...................................284
KƏRBƏLAYİ AĞARƏHİMİN ÖVLADLARI ..........................................285

## ELM VƏ SƏNƏT ADAMLARI

NƏNƏM HAQQINDA XATİRƏLƏRİM ....287
MƏMMƏDƏLİ İBRAHİM OĞLU MƏMMƏDƏLİYEV ....293
YUSİFZADƏ SƏTTAR BƏY ƏBDÜLƏZİM BƏY OĞLU ....295
BALAĞA MÜƏLLİM ....297
BALƏLİ VƏLİ OĞLU VƏLİYEV ....300
AĞAYEV MƏZAHİR MİRZAĞA OĞLU ....302
AĞAYEV ƏHMƏDAĞA MƏMMƏDAĞA OĞLU ....303
QULİYEV CƏLİL QULU OĞLU ....305
ƏLİYEV İSMAYIL ŞIXƏLİ OĞLU ....311
ƏLİZADƏ ŞADƏR MƏHƏMMƏD OĞLU ....312
ƏMRAH BALA OĞLU ƏMRAHOV ....313
MUXTAROV NƏCƏFALI KƏRBƏLAYİ MUXTAR OĞLU ....314
RƏHİMOV İSMAYIL KƏRBƏLAYİ DADAŞ OĞLU ....315
KÜRDƏXANILILARDAN BİRİ – HƏYAT XƏTTİ ....316
HÜSEYNOV KƏLBHÜSEYN ƏLİHÜSEYN OĞLU ....326
QULİYEV NƏCƏF KƏRBƏLAYİ ƏJDƏR OĞLU ....329
QULİYEV MƏMMƏDAĞA NƏCƏF OĞLU ....330
MƏMMƏDOV MƏMMƏDRZA ƏLİPƏNAH OĞLU ....331
DADAŞOV BALAQULU BƏGİ OĞLU ....334
MƏZAHİR KƏRBƏLAYİ MƏLİK OĞLU ....336
O YENİDƏN DOĞULSAYDI ....337
BİTMƏMİŞ ÖMÜR ....340
ƏLİYEVA ROZA ƏHMƏD QIZI ....343
YUSİFZADƏ QƏZƏNFƏR PAŞABƏY OĞLU ....344
YUSİFZADƏ AYDIN SƏTTAR BƏY OĞLU ....345
ƏHMƏDOV ƏLİƏKBƏR NEMƏT OĞLU ....347

ƏHMƏDOV RAFİQ ƏLİƏKBƏR OĞLU ....................................................348
DƏMİRBƏYOV DƏMİRBƏY İSMAYIL OĞLU ....................................349
RZAYEV HACIQƏDİR GÜLMİRZƏ OĞLU ..........................................351
AĞAVERDİYEV HÜSEYNBALA AĞAVERDİ OĞLU ..........................352
ƏFSANƏVİ «NARKOM HÜSEYNBALA»...........................................353
KÜRDƏXANI NEFTÇİLƏRİ ....................................................................354
XANLAROV XANBALA BALABƏY OĞLU .......................................360
USTA BALAKƏRİM KÜRDƏXANILI ....................................................361
DƏRYAQULU BALAMİRZƏ OĞLU RZAYEV .....................................362
NEFT USTASI BƏXTİYAR MƏMMƏDRƏSUL OĞLU ........................363
ASLAN BƏYDƏMİR OĞLU POLADOV ................................................364
MÜSLÜM BƏYDƏMİR OĞLU POLADOV ............................................365
GÜLDAR MUXTAR OĞLU MUXTAROV .............................................366
MUXTAR MUXTAROV .........................................................................367
BALƏLİ ALLAHVERDİ OĞLU NURİYEV ............................................367
RZAQULU BALAMİRZƏ OĞLU RZAYEV ...........................................368
ELMİMİZİN CÖVHƏRİ, DİNİMİZİN ŞƏRƏFİ .......................................370
ELMİMİZİN SÜTUNLARINDAN BİRİ ...................................................375
VASİM MƏMMƏDƏLİYEVİN TƏRCÜMEYİ-HALINDAN
BƏZİ MƏQAMLAR ...............................................................................377
AĞAYEVA NİSƏXANIM MƏMMƏDAĞA QIZI....................................379
ƏLİZADƏ AYDIN ŞADƏR OĞLU .........................................................384
AYDINDIR ...........................................................................................385
XOŞBƏXT İNSAN, SOYUQQANLI CƏRRAH .......................................386
ZEYNALOVA HƏQİQƏT NAMƏLİ QIZI ..............................................388
RZAYEVA GÜLƏR QƏDİR-AĞA QIZI...................................................389
MİRZƏYEV ATAƏMİ HACI BALAŞ OĞLU...........................................391
ƏLİYEV MİRZƏ BALAYAR OĞLU.......................................................392

VAMİQ MƏMMƏDƏLİ OĞLU MƏMMƏDƏLİYEV...............................393
AXUND MƏŞHƏDİ ÇIRAĞƏLİ BALAĞA OĞLU QULUZADƏ .......398
HACI ƏZİZAĞA ƏLİŞAN OĞLU ...............................................................400
HACI FAİQ İBRAHİM OĞLU .....................................................................401
RAFİQ RZAQULU OĞLU RZAYEV .........................................................402
SOLMAZ NAMƏLİ QIZI MƏMMƏDOVA .........................................404
MƏSİMOVA XALİDƏ ÜMMƏT QIZI ......................................................405
ABBASQULU MƏŞHƏDİ HÜSEYNAĞA OĞLU ABBASQULİYEV ....406
ƏHMƏDOV HÜSEYN ƏLİƏKBƏR OĞLU ..............................................407
QASIMZADƏ İLHAM NİYAZİ OĞLU .....................................................408
QASIMOVA ELMİRA KAMİL QIZI .........................................................409
ZEMFİRA RZAQULU QIZI RZAYEVA ....................................................410
ŞAHBAZOV EMİN BƏDƏL OĞLU ..........................................................415
ƏZİZOV HÜSEYN EYVAZ OĞLU ...........................................................415
HACI ƏLİKƏRİM NƏZİR OĞLU .............................................................416
MƏŞHƏDİ SEYFƏDDİN ABİDİN OĞLU .................................................417
HACI ŞƏMSİ ABİDİN OĞLU ..................................................................419
KAMAL MÜSLÜM OĞLU POLADOV ....................................................421
KİTAB HAQQINDA SON SÖZ ...............................................................422

# «KÜRDƏXANI»

**Bakı – «Qarabağ» – 2008**

**Nəşriyyatın direktoru: Asif Rüstəmli**
**Dizayner: Əlizamin Ələskərov**
**Mətni yığdı: Hacı Sara Zair**
**Cildçi: Sevil İsmayılova**

**Yığılmağa verilib: 08.07.2008**
**Çapa imzalanıb: 19.09.2008**
**Həcmi: 27 ç.v.**
**Tirajı: 500 nüsxə**
**Sifariş № 07**

**Bakı, H.Zərdabi küç.39[a]**